*Vəfa İBRAHİMOVA*

# AZƏRBAYCAN FOLKLORUNUN İNGİLİSDİLLİ QAYNAQLARDA TƏDQİQİ VƏ TƏRCÜMƏ MƏSƏLƏLƏRİ

ŞƏMS

**Bakı - Şəms - 2010**

Az2
2010

**AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur**

**V 44**

**Elmi redaktorlar:** **Kamil Allahyarov**
*Filologiya elmləri doktoru*
**Leyli Əliyeva**
*Filologiya elmləri namizədi*

**Rəyçilər:** **Qəzənfər Paşayev**
*Filologiya elmləri doktoru, professor*
**Şəfiqə Atayeva**
*Filologiya elmləri namizədi*

**İbrahimova V. M. Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda tədqiqi və tərcümə məsələləri.**
**Bakı - Şəms - 2010, 186 səh.**

BBKC 44

*Monoqrafiyada Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı indiyədək görülmüş işlər dəyərləndirilmiş, Azərbaycan folkloruna dair ingilisdilli alimlərin yazdıqları elmi məqalələr və kitablar təhlil edilmiş, Azərbaycan aşıq ədəbiyyatının bir sıra nümunələrinin ingilis dilinə tərcüməsi ilə bağlı məsələlər şərh olunmuşdur.*

V $\frac{51000000256\ (056)}{127 - 2010}$ qrifli nəşr

© Şəms

# GİRİŞ

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra Azərbaycan xalqının milli varlığının daha geniş miqyasda - beynəlxalq səviyyədə öyrənilməsi, xalqımızın bağlı olduğu və yaratdığı elmi, ədəbi, mədəni dəyərlərin araşdırılması və tanıdılması zəruri bir məsələyə çevrilmişdir.

Bilindiyi kimi, bir xalqın milli kimliyi özünü daha çox şifahi xalq ədəbiyyatında qoruyub saxlayır və təqdim edir. Folklor nümunələri xalqın yaratdığı dəyərlərdir və xalqın dünyagörüşünü, həyat ölçülərini, duyğu və düşüncələrini ən gözəl bir biçimdə təqdim edir. Ona görə də, folkloru öyrənmək, araşdırmaq, bir xalqı olduğu kimi tanımaq deməkdir. Ayrı-ayrı xalqların öz aralarında siyasi, iqtisadi, elmi-mədəni və ədəbi əlaqələr qurması da onların bir-birini tanımasına yardım edir.

Bədii əsərlərin bir dildən digər xalqların dilinə tərcüməsi məsələsinə sırf praqmatik baxımdan yanaşdıqda bu, ilk növbədə, əməli bir məsələ kimi görünə bilər, yəni tərcümə ona görə lazımdır ki, hər hansı bir əcnəbi dili bilməyən oxucu həmin dildə yazılmış və onun ana dilinə tərcümə edilmiş əsəri oxuya bilsin. Düzdür, bu zaman tərcümə əsərini mütaliə edən oxucunun əsər barədə təsəvvürü heç də orijinala adekvat olmayacaq, çünki tərcümədə istər-istəməz müəllif fikri (xüsusilə də poetik tərcümədə) bu və ya digər dərəcədə müəyyən dəyişikliyə, təhrif və itkilərə məruz qalacaq. Ancaq son nəticədə, bütün bunlarla barışmaq, tərcümə işini faydalı hesab etmək lazım gəlir.

Digər tərəfdən, xarici dilləri bilən oxucular həmin dillərdə yazılmış əsərləri orijinalda da oxuya bilərlər və belə hal, sözsüz ki, daha yüksək qiymətləndirilə bilər.

Tərcümənin ən dəyərli cəhətlərindən biri də budur ki, o, dillər arasında əlaqələr, müqayisə formaları yaradaraq, həm müvafiq dilləri, həm də bu dillərdə yaranan ədəbi fikir və ideyaları, ədəbiyyatlardakı obrazlar sistemini, bədii ifadə və təsvir vasitə-

lərini qarşılıqlı surətdə zənginləşdirir. Belə zənginləşməni hər iki tərəf öz üzərində çox aydın şəkildə hiss edir. Bu məsələlər haqqında verilən məlumatlar nəinki elmi informasiya, həmçinin tarixi-mədəni və filoloji cəhətlərdən də olduqca əhəmiyyətlidir.

Məlumdur ki, bədii tərcümə bu ifadənin xüsusi mənasında dəqiqlik tələb edir. Ancaq bu prinsipə həddindən artıq aludə olanları tez-tez hərfi tərcüməçilikdə günahlandırırlar. Hərfi tərcümə isə çox vaxt orijinalın dilinin tərcümə edilən dildə "qəribə səslənməsi", mənasının təhrif olunması ilə nəticələnir. Yaxşı olar ki, orijinalın mətni və mənası tərcümə edilən dildə də təbii şəkildə səslənsin və onun tərcümə olması dil baxımından hiss edilməsin.

Bildiyimiz kimi, bədii təsvir vasitələri və obrazlar sisteminin zənginliyi baxımından Qərb şairləri həmişə Ömər Xəyyam, Hafiz Şirazi, Nizami Gəncəvi, Məhəmməd Füzuli kimi Şərq şairlərinə qibtə etmişlər. Bu, oxucu zövqünün formalaşmasında da özünü çox bariz şəkildə göstərən bir amildir. Əgər Qərb oxucusunun zövqünü oxşamaq üçün şeirin hər bəndində adi bir bənzətmənin işlədilməsi kifayət edirsə, Şərq oxucusunun bədii tələbatını ödəmək üçün istər yazılı, istərsə də folklor şeirlərinin hər bir misrasında bir və ya daha çox bədii ifadə və təsvir vasitəsi olmalıdır.

Bütün bu qəbildən olan məsələlərin tərcümə prosesində düzgün həlli isə tərcüməçidən yüksək sənətkarlıq tələb edir. Tərcümənin keyfiyyətinin hansı səviyyədə yerinə yetirilməsini müəyyənləşdirmək, ona qiymət vermək vəzifəsi isə tədqiqatçıların üzərinə düşür. Bu baxımdan da monoqrafiyada irəli sürülən mövzunu aktual və qanunauyğun hesab etmək olar.

Deməliyik ki, bütövlükdə Azərbaycan ədəbiyyatının, o sıradan Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı bir sıra ciddi işlər görülmüşdür. Azərbaycan ədəbiyyatının və folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı İ. Rəhimov, Ə. Rzayev, L.Əliyeva, Ş.Xəlilli, N. Axundov,

İ. Həsənli, Z. Ağayev, A. Həsənova, Ş. Atayeva, M. Məmmədova, Y. Mürşüdov, Ş. Nağıyeva, Ş. Balakişiyev, T. Abbasquliyev, S. Məmmədova, R. Qayıbovanın xidmətlərini ayrıca qeyd etmək istəyirik.

Qeyd etməliyik ki, Azərbaycanın xarici ölkələrlə əlaqələri gücləndikcə Azərbaycan ədəbiyyatının xaricdə öyrənilməsi və tanıdılması ilə bağlı yazılan elmi əsərlərin və tərcümələrin də sayı artır.

Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı bir sıra işlər görülsə də, bu mövzu indiyədək ayrıca bir tədqiqat obyekti olmamışdır. Sözü gedən problem ilk dəfədir ki, bu monoqrafiya işində sistemli şəkildə tədqiq edilir.

Monoqrafiya işində qarşıya qoyulmuş əsas məqsəd Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı məsələləri araşdırmaq, Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda tədqiqi sahəsində görülmüş işlərin elmi səviyyəsini müəyyən etmək, mövcud problemləri göstərmək, Azərbaycan folklor nümunələrinin ingilisdilli qaynaqlarda öyrənilməsi zamanı istifadə edilmiş üsul və metodları aydınlaşdırmaq, yeni qaynaqları üzə çıxarmaqdır.

# I FƏSİL
# AZƏRBAYCAN FOLKLORUNUN İNGİLİSDİLLİ QAYNAQLARDA TƏDQİQ TARİXİ

## *1.1. Azərbaycan ədəbiyyatının xaricdə öyrənilməsi ilə bağlı ümumi icmal*

Azərbaycan şifahi xalq ədəbiyyatının xaricdə, o sıradan ingilisdilli qaynaqlarda öyrənilməsi, Azərbaycan folklorunun xarici dillərə tərcüməsi önəmli bir məsələdir. Ona görə ki, folklor mənsub olduğu xalqın duyğu və düşüncələrini, adət-ənənələrini, tarixini, dünyagörüşünü, bir sözlə - milli kimliyini özündə qoruyub saxlayan, xalqın mənəvi güc qaynağı olan əvəzedilməz bir sərvətdir. Bu gün qloballaşan dünyada biz Azərbaycanın milli kimliyini olduğu kimi dünyaya çatdırmaq istəyiriksə, ilk sırada folklorumuzun dəqiq, qüsursuz tərcüməsindən başlamalıyıq. Ona görə ki, folklorun doğru tərcüməsi Azərbaycanın doğru tanınmasına, doğru başa düşülməsinə, ölkələr və millətlərarası mədəni əlaqələrin qurulmasına yol açır, bu yolla Azərbaycan folklorunun ortaya qoyduğu dəyərlər dünya mədəniyyətini zənginləşdirir.

Folklor mənsub olduğu xalqı tanıma və tanıtma yoludur. Biz bu mədəni körpünü sağlam təməllər üzərində tikməliyik. Qeyd etmək lazımdır ki, indiyədək bütövlükdə Azərbaycan ədəbiyyatı, o sıradan Azərbaycan folklorunun Avropada, ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı bir sıra işlər görülmüş, dəyərli araşdırmalar yazılmış, tərcümələr edilmişdir. Biz öncə bütövlükdə Azərbaycan ədəbiyyatının Avropada, ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı icmal xarakterli bir ümumiləşdirmə aparmaq istəyirik.

Azərbaycanla Avropanın elmi-mədəni əlaqələrinin tarixi qədim olsa da, Azərbaycan ədəbiyyatının Avropada, ingilisdilli qay-

naqlarda öyrənilməsinin tarixi nisbətən sonrakı dövrlərdə başlanılmışdır. Azərbaycan ədəbiyyatının xaricdə öyrənilməsi ilə bağlı yazılmış araşdırmalar sırasında R. Qayıbovanın "Azərbaycan ədəbiyyatı ingilis alimlərinin əsərlərində" tədqiqatını qeyd edə bilərik (53). Alim bu araşdırmasında orta yüzilliklər Azərbaycan ədəbiyyatının ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı araşdırma aparmış, qədim və orta yüzilliklər Azərbaycan ədəbiyyatının mövzusu, ideyası, əsas nümayəndələri və onların bədii irsi ilə bağlı ingilisdilli alimlərin yazdıqlarını dəyərləndirmişdir.

Ə.Ağayev "Nizami və dünya ədəbiyyatı" adlı tədqiqatında böyük Azərbaycan şairi Nizami Gəncəvinin bütövlükdə dünya və Avropa ədəbiyyatına təsiri məsələsinə toxunmuş, eləcə də bir sıra dünya alimlərinin Nizami Gəncəvi ilə bağlı fikirlərinə də yer vermişdir (3).

Azərbaycan ədəbiyyatının Avropada, ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı tədqiqatlar sırasında İ.Rəhimovun "C.Q.Bayronun "Şərq poemaları"nda şərq sözləri" tədqiqatında daha çox dilçiliklə bağlı məsələlərə yer verilsə də, bir sıra ingilis alimlərinin Azərbaycan ədəbiyyatı ilə bağlı fikirləri, araşdırmaları da tədqiq edilmişdir (72).

Bu tipli araşdırmalardan birini də Ə.Rzayev yazmışdır. Onun "İngilis poeziyasının Azərbaycan dilinə tərcümə məsələləri (Bayronun "Şərq poemaları"nın materialları əsasında)" adlı tədqiqatında ingilis şeirinin Azərbaycan dilinə tərcüməsi ilə bağlı problemlər araşdırılmış, ikitərəfli əlaqələrlə bağlı məsələlərə toxunulmuşdur (73). Alim bu elmi əsərində bütövlükdə tərcümə məsələləri ilə bağlı öz görüşlərini açıqlamış, konkret misallarla fikrini əsaslandırmış, bir sıra ingilis alimlərinin bu məsələlərə dair düşüncələrinə də yer ayırmışdır.

S. Məmmədovanın "Qərbi Avropa şərqşünaslığında XIV-XV əsr Azərbaycan poeziyasının öyrənilməsi tarixindən" adlı tədqiqatında orta əsr Azərbaycan şeirinin Qərbi Avropada öyrənilməsinin aktual problemlərinə toxunulmuşdur (58).

20-ci yüzilliyin 80-ci illərindən başlayaraq Azərbaycan ədəbiyyatının Avropada, ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı görülən işlərin sayı artmışdır. Məsələn, f.e.d. R. İsmayılovun "Dostluq telləri" adlı araşdırması Azərbaycan-Fransa ədəbi əlaqələrinin öyrənilməsinə həsr olunmuşdur (50). Müəllif "Asiya" jurnalında, "Metadük Larüs" ensiklopediyasında, "Müsəlman aləmi" jurnalında çap olunmuş məqalələri, bir sıra fransız alimlərinin yazdığı əsərləri tədqiq etmişdir. O, bu alimlərdən Ksavye de Planolun, A.Brelyenin, L.Melikof-Sayyarın, A.Russonun, İ.L.Klerambolun, E.Bloşenin, F.Şarmuanın, X.D.Frenin, B.Dorinin, Erdmanın, K.İtzenin, L.Şpisnaqelin, Anri Massenin, Barbiye de Meynarın, A.Silyerin, Lüsen Buanın, L.Bazenin, A.Dümanın və bir sıra başqa fransız alim və tərcüməçilərinin yazdığı məqalələri, əsərləri, tərcümələri diqqətlə araşdırmış, bu elmi işlərin uğurlu cəhətlərini göstərməklə yanaşı, qüsurlu yönlərini də tənqid etmişdir. Bu tədqiqatda Azərbaycan folklorunun "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi dastanlarının, Nizami Gəncəvi, Əbülula Gəncəvi, Xəqani Şirvani, Fələki Şirvani, Mücirəddin Beyləqani, Ş.İ.Xətai, Füzuli, Bahar Şirvani, X.Natəvan, M.F.Axundzadə, Y.Çəmənzəminli, N.Vəzirov, A.Səhhət, A.Şaiq, M.Ş.Vazeh, İ.Qutqaşınlı, H.Cavid, C.Cabbarlı, M.Ə.Sabir və başqa Azərbaycan ədəbiyyatı nümayəndələrinin yaradıcılığının fransız alimlərinin tədqiqatında öyrənilməsi ilə bağlı məsələlərə geniş yer vermişdir.

Sonrakı dövrlərdə bu tipli araşdırmaların sayı artmışdır. Nəticədə N.Axundovun "Azərbaycan sovet ədəbiyyatı xaricdə" (5), İ.Arzumanlının "Nizami yaradıcılığı ingilisdilli ədəbiyyatşünaslıqda" (11), "Mürafiə vəkilləri ingilis dilində" (10), Z.Ağayevin "Azərbaycan mövzusu və ədəbiyyatı Amerika Birləşmiş Ştatlarında" (4), M.İsmayılovun "N.Gəncəvinin "Yeddi gözəl" poeması ingilis dilində (şərhlər, tərcümələr, səsləşmələr)" (49), Ş.Atayevanın "M.F.Axundzadə ingilisdilli ədəbiyyatşünaslıqda" (19), M.Məmmədovanın "Şah İsmayıl Xətai ingilisdilli qaynaqlarda"

(57), S.Mustafanın "İngilisdilli xalqların folklorundan nümunələr" (60), O.Həsənovun "Şekspir yaradıcılığının tarixi-bədii özünəməxsusluğunun azərbaycan dilində canlandırılması problemləri" (95), F. Quliyevin "Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması ingilis qavramında" (99), S.Tağızadənin "Rus və avropa nəşri M.F.Axundov haqqında" (114), "M.F.Axundov və Avropa" (115), B. Qurbanovun "Azərbaycan incəsənəti xaricdə" (110), A.Həsənovanın "Kitabi-Dədə Qorqud" ingilisdilli qaynaqlarda" (96), Y.Mürşüdovun "Alman dilində atalar sözləri və məsəllər və onların ingilis, azərbaycan və rus dillərində qarşılıqları" (61), Ş.Nağıyevanın "Müasir Azərbaycan poeziyasının ingilis dilinə tərcüməsində milli koloritin saxlanılması" (63), Ş.Balakişiyevin "Koroğlu" dastanı Avropada" (27), T.Abbasquliyevin "İngilis atalar sözləri və məsəlləri və onların azərbaycanca, rusca qarşılıqları" (1), S.Məmmədovanın "Qərbi Avropa şərqşünasları Füzuli haqqında" (59), X.Əhmədovanın və İ.Rəhimovun "Azərbaycanca-ingiliscə, ingiliscə-azərbaycanca müxtəsər frazeoloji lüğət" (25) kimi kitabları və s. dəyərli araşdırmalar ortaya çıxmışdır.

Biz Azərbaycan ədəbiyyatının ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı ardıcıl iş görən və bir sıra sanballı elmi əsərlər yazan iki alimin adını ayrıca qeyd etmək istəyirik. Leyli Əliyeva və Şahin Xəlillinin elmi əsərləri Azərbaycan ədəbiyyatının ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı yazılmış ciddi əsərlər sırasında önəmli yer tutur. Bu baxımdan Leyli Əliyevanın "Füzuli və ingilis şərqşünaslığı" kitabını (33), eləcə də alimin "Kitabi-Dədə Qorqud" dastanı və bir sıra orta yüzilliklər Azərbaycan şairlərinin ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı yazdığı məqalələri ayrıca qeyd etmək istəyirik (34).

Ş.Xəlilli isə bu sahədə "Azərbaycan ingilis ədəbi əlaqələri" (43) və "Klassik poeziya və ədəbi əlaqələr" (44) adlı iki sanballı kitab, Azərbaycan folklorunun və ədəbiyyatının ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı onlarla məqalələr çap etdirmişdir.

### *1.2. Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsinin tarixi*

Bütövlükdə Azərbaycan ədəbiyyatının Avropada, ingilisdilli qaynaqlarda öyrənilməsi və tərcüməsi ilə bağlı bir sıra işlər görülsə də, eyni sözü Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı demək çətindir. Doğrudur, Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsinə dair də bir sıra araşdırmalar yazılmışdır və biz bu elmi işləri yeri gəldikcə təhlil edəcəyik. Ancaq Azərbaycan folklorunun ingilis dilinə tərcümə məsələləri və onun ingilisdilli qaynaqlarda öyrənilməsi yetərincə tədqiq edilməmişdir. Bunun da, bizə görə, bir neçə səbəbi var. Hər şeydən öncə onu deməliyik ki, Azərbaycan uzun illər ərzində müstəqil dövlət olmadığına görə, Azərbaycan folklorunu da müstəqil ədəbi fakt kimi ingilisdilli oxucuya çatdırmaq mümkün olmamışdır. İndiyədək Azərbaycan folkloru ingilis dilinə sistemli şəkildə tərcümə edilməmişdir. Təbiidir ki, ingilisdilli araşdırıcılar Azərbaycan folklorunu az tanımış və az tədqiq etmişdir. İngilisdilli elmi qaynaqlarda Azərbaycan folkloru daha çox ümumtürk folklorunun tərkib hissəsi kimi öyrənilmişdir. İngilis alimləri bütövlükdə türk folklorundan danışarkən, yeri gəldikcə Azərbaycan folkloruna da toxunmuşlar. Azərbaycan folklorunun ingilis dilinə tərcüməsi ilə bağlı da eyni sözləri söyləmək olar.

Bir məsələni də qeyd edək ki, indiyədək Azərbaycan folklor nümunələrinin ingilis dilinə orijinaldan tərcümə olunmuş nümunələrinin sayı olduqca azdır. Tərcümə olunmuş nümunələr öncə rus dilinə çevrilmiş, daha sonra isə ingilis dilinə tərcümə edilmişdir. Bizcə, təkcə bu fakt Azərbaycan folklor nümunələrinin ingilis dilinə tərcüməsinin hansı səviyyədə olmasını aydın göstərir. Bu problemlə bağlı monoqrafiyanın üçüncü fəslində geniş məlumat verilir.

Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı yuxarıda adlarını çəkdiyimiz tədqiqatlarda epizodik şə-

kildə danışılmışdır. Ancaq bu məsələ ilə bağlı bir sıra elmi araşdırmalar da yazılmışdır. Biz bu araşdırmalar sırasında Aidə Həsənovanın "Kitabi-Dədə Qorqud" ingilisdilli mənbələrdə" adlı namizədlik dissertasiyasını ayrıca qeyd etmək istəyirik (97). Müəllif bu əsərdə "Kitabi-Dədə Qorqud"un tapılması, öyrənilməsinin tarixi, nüsxələri, Azərbaycanda və ingilisdilli qaynaqlarda "Kitabi-Dədə Qorqud"un araşdırılması ilə bağlı yazılmış elmi əsərləri sistemləşdirmiş və təhlil etmişdir. Alimin girişdən, iki fəsildən və nəticədən ibarət olan dissertasiyasında "Kitabi-Dədə Qorqud" dastanının ingilisdilli qaynaqlarda öyrənilməsinin tarixinə, dastanın mətninin ingilis dilinə tərcüməsi ilə bağlı məsələlərə geniş yer verilmişdir. Tədqiqatçı ingilis alimlərindən K.S.Mandinin "Polifemus və Təpəgöz" (C.S.Mundy "Polyphemus and Tepegöz"), Lyuis Ceofreyin "Dədə Qorqud Kitabı" (Lewis Geoffrey "The Book of Dede Korkut"), Hikman Uvilyamın "Basat və Təpəgöz" (Hickman William "Basat and Tepegöz"), Lyuis Zelikofun "Dədəm Qorqudun Kitabı" (Louis Zellikoff "The Book of My Grandfather Korkut") və başqa bir sıra elmi əsərləri təhlil etmiş, bu araşdırmalarda irəli sürülən fikirlərə münasibət bildirilmişdir. O, dissertasiyasında "Kitabi-Dədə Qorqud" dastanının ingilis dilinə tərcüməsi ilə bağlı problemlərə xüsusi yer ayırmış, dastanın orijinalı ilə ingilis dilinə tərcüməsini müqayisə etmiş, çoxsaylı nümunələr vermiş, tərcümənin uğurlu cəhətləri ilə yanaşı, qüsurlarını da göstərmişdir.

Bizcə, A.Həsənovanın "Kitabi-Dədə Qorqud" ingilisdilli qaynaqlarda” adlı dissertasiyası Azərbaycan folklorunun ingilis alimləri tərəfindən öyrənilməsi ilə bağlı məsələlərin araşdırılması yönündə uğurlu bir addımdır. Ancaq bu dissertasiya "Kitabi-Dədə Qorqud"un ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı bütün məsələləri əhatə etmir. Çünki ingilisdilli qaynaqlarda ən çox öyrənilmiş folklor nümunəsi "Kitabi-Dədə Qorqud"dur. Biz monoqrafiyanın ikinci fəslində "Kitabi-Dədə Qorqud"un ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı bir sıra məsələlərə toxunmuşuq.

"Kitabi-Dədə Qorqud"un ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı məsələlərin araşdırılması yönündə Şahin Xəlillinin "Azərbaycan-ingilis ədəbi əlaqələri" adlı kitabının ikinci fəslində olan "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları ingilis şərqşünaslığında" adlı tədqiqatını ayrıca qeyd etmək istəyirik (43). Alim, bu araşdırmasında "Kitabi-Dədə Qorqud"un alman, ingilis, fars, ispan, fransız və başqa dillərə tərcüməsi ilə bağlı məlumat vermişdir. O, araşdırmasına F.Robertin "Dədəm Qorqudun Kitabı"nda elementlər" (F.Robert "Epic Elements in Dedem Korkudun Kitabi"), C.Lyuisin "Dədə Qorqud Kitabı" (G.Lewis "The Book of Dede Korkut"), F.Sümərin "Dədə Qorqud Kitabı" (F. Sumer "The Book of Dede Korkut"), P.Mirablın "Dədə Qorqud tərəfindən söylənmiş və oxunmuş Oğuz insanlarının kitabı və ya əfsanələri" (P.Mirabile "The Book of the Oghuz peoples or legends told and sung by Dede Korkut") adlı tədqiqatları və bir sıra əsərləri daxil edərək "Kitabi-Dədə Qorqud"un ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı görülən işləri dəyərləndirmişdir. Alim bu araşdırmasında iki əsas istiqamət üzrə "Dədə Qorqud"un ingilisdilli qaynaqlarda öyrənilməsini tədqiq etmişdir. Birincisi, o, "Kitabi-Dədə Qorqud"un ingilis dilinə tərcüməsi ilə bağlı məsələləri təhlil etmiş, bu tərcümənin uğurlu olduğu qənaətini irəli sürmüşdür. Bu zaman alim həm C.Lyuisin, həm də F.Sümər, A.E.Uysal və U.S.Uolkerin tərcümələrini müqayisə etmiş, bu müqayisələri dastanın orijinalı ilə tutuşdurmuş və belə bir qənaətə gəlmişdir: "Fikrimizcə, ingilis C.Lyuisin poetik tərcüməsi bu baxımdan F.Sümər, A.E.Uysal, U.S.Uolkerin tərcüməsi ilə müqayisədə həm fikir, ideya, həm də orijinal mətnə yaxınlıq baxımından, eləcə də daha gözəl poetik duyumu və poetik deyimi ilə çox-çox dəyərlidir" (43,135).

Bununla birgə, tədqiqatçı C.Lyuisin tərcüməsinin poetik olduğunu önə çəkmiş, yeri gəldikcə "Kitabi-Dədə Qorqud" dastanını "İlliada", "Odisseya" kimi eposlarla müqayisə etmişdir. Ona

görə, "Kitabi-Dədə Qorqud" dastanı mükəmməl bir folklor nümunəsi olduğu üçün, dastanın hər sətrində, hər sözündə ilk baxışda görünməyən gizli mənalar var. Ona görə də, "Kitabi-Dədə Qorqud" dastanı ingilis şərqşünaslığında bu məsələ ilə bağlı olan tərcümə və tədqiqatlarla müqayisə edilməlidir.

Bu araşdırmadakı ikinci istiqamət isə "Kitabi-Dədə Qorqud" dastanının "Beəvulf" dastanı ilə müqayisəsidir. Ş.Xəlillinin fikrincə, bu iki dastan arasında oxşar motivlərin müəyyənləşdirilməsi, onların elmi şərhinin verilməsi önəmli bir məsələdir. Alim, bu iki dastan arasında olan münasibətlərə toxunaraq göstərir ki, "Beəvulf" dastanında bütpərəst və xristian motivləri əks olunmuşdur. "Kitabi-Dədə Qorqud" dastanı isə İslam dinindən öncə yaranmış, İslamın oğuzlar arasında yayılmasından sonra yazıya köçürülmüşdür. Bu dastanda şamanizm ilə İslam ünsürləri sıx əlaqədədir. O, bu fikrini əsaslandırmaq üçün C.Lyuisin aşağıdakı fikrini misal gətirmişdir. İngilis alimi C.Lyuis yazır: "Hekayələrə İslam boyaları vurulmasına baxmayaraq, onlar keçmişin ən qədim təcrübələri ilə doludur, bu hekayələrin bəziləri türklərin dinini şamanizm olduğu bir vaxta aparıb çıxarır. Qəhrəmanın ölümü münasibəti ilə qohumları onun atlarını kəsirlər və dəfn mərasimində ehsan verirlər (4 və 10-cu boylar). Beyrək ölümqabağı (12-ci boy) atının quyruğunun kəsilməsini istəyir. Oğlan uşağı döyüşdə şan-şöhrət qazanıb məşhurlaşmayınca ona ad verilmir. Qeyd etdiyimiz bu adqoyma mərasiminin qədimliliyi, köhnə kitabların yazılarından gələn bu kimi - "mənim kişilik adım Yaruk Tegindir" və "mənim balaca qardaşımın kişilik adı Kül Tegin oldu" təsdiqlərində görünür. Obrazlar, qəhrəmanlar cəfa, möhnət oduna yananda qanlı göz yaşları tökürlər; bu bütövlükdə metaforik, məcazi deyildir, qədim dövrlərdə Türklərin dəfn mərasimlərində ağıçılar (ağı deyənlər) üzlərini cırar və qan onların göz yaşları ilə qarışıb axardı" (43,139).

Daha sonra tədqiqatçı dastanın İslamdan öncəki türk düşüncəsi ilə sıx bağlılığını göstərmək üçün çoxsaylı faktlar vermiş-

dir. O, ingilis alimi R. Mirabilin belə fikrini doğru saymışdır ki, "Kitabi-Dədə Qorqud" "…formaca İslam, qəlbən şamançı olan bir dastandır" (43,140).

Bu tədqiqatdan aydın olur ki, ingilis alimləri "Kitabi-Dədə Qorqud" dastanında bütpərəstliklə bağlı detalların olduğunu bildirmiş, bu dastanla "Beəvulf" dastanı arasındakı oxşar süjetləri araşdırmışlar. Hər iki dastanda qəhrəmanlar ilahi gücü ilə seçilir, qəhrəmanlıq başlıca keyfiyyət kimi göstərilir. Hər iki dastanda qəhrəmanların heyvanlara münasibətində oxşarlıqlar vardır. Hər iki dastanda insanların dünyagörüşləri arasında oxşarlıqlar özünü göstərir. Məsələn, hər iki dastanda müəyyən hadisələrlə bağlı bu hadisələrin xarakterinə uyğun şənlik və ya yas mərasimləri qurulur. Hər iki dastanın poetikası arasında da oxşarlıqlar vardır. Məsələn, bu dastanlarda alliterasiyalı misralardan, oxşar simvollardan, bədii ifadə vasitələrindən, səs bənzərliklərindən istifadə olunmuşdur. Hər iki dastanda qəhrəmanların təqdimində ona mənsub olan əşyalar xüsusi yer tutur. Alim qəhrəmanların və onların igidliyini göstərən motivlərin hər iki dastandakı yerini müqayisə edərək yazır: "Kitabi-Dədə Qorqud"da döyüşlərdə nağara, altun, tunc şeypurların çalındığı, kos vurulduğu, təbillərin döyüldüyü bu döyüşlərin daha çox hərbi musiqi ilə müşayiət edildiyi Azərbaycanda hərb sənətinin böyük inkişaf yolu keçdiyinin olduğunu deməyə əsas verir. Lakin P.Mirabil qılıncın Azərbaycanda, eləcə də İngiltərədə insanların həyatında, mübarizəsində oynadığı rolun təfərrüatına vararaq, həm "Kitabi-Dədə Qorqud", həm də "Beəvulf" dastanlarında qılıncın sehirli-dini mənasını açıqlayaraq, diqqəti çəkən fikir söyləmişdir: "Hətta qılınclara adlar qoyulmuşdur, məsələn, Məhəmmədin qılıncı "Zülfiqar" adlandırılmışdır, bu qılınc Əliyə hədiyyə kimi verilmişdir".

"Kitabi-Dədə Qorqud"un ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı yazılmış ciddi məqalələrdən birini də Leyli Əliyeva yazmışdır. Onun "Kitabi-Dədə Qorqud" Amerika aliminin təd-

qiqatında" (34) adlı məqaləsində Amerika alimi və diplomatı Finn Robertin "Dədəm Qorqudun Kitabında epik elementlər" (Finn Robert "Epic elements in Dedem Korkudun Kitabı") (144) məqaləsi təhlil olunmuşdur. Amerika alimi öncə dünya xalqlarının qəhrəmanlıq dastanlarını təhlil etmiş və onlar arasındakı oxşarlıq və fərqləri göstərmişdir. O, bu tipli epik əsərlərin iki əsas tipinin olduğunu bildirmişdir. Bunlardan birincisi, adət-ənənə əsasında, ikincisi isə mədəniyyətə təsir edən hadisələr əsasında yaranır. Alimin fikrincə, "Kitabi-Dədə Qorqud" qədim Anqlo-Sakson eposu olan "Beəvulf" kimi birinci qrupa daxildir. Alim daha sonra "Kitabi-Dədə Qorqud" boylarını Kenterber hekayələri ilə müqayisə etmişdir. Amerika aliminin fikrinə görə, dastandakı İslam dini ilə bağlı ünsürlər əlavə təsir bağışlayır və dastandakı qəhrəmanlar İslam qaydalarına tam tabe olmurlar. Leyli Əliyeva Amerika aliminin məqaləsini ciddi təhlil etmiş, alimin irəli sürdüyü bir sıra yanlış müddəalara da münasibət bildirmişdir.

Son dövrlərdə "Kitabi-Dədə Qorqud"un ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı bir sıra yeni məqalələr də yazılmışdır. Bu məqalələrə misal olaraq Ş.Xəlillinin "Kitabi-Dədə Qorqud" dastanında şamançılıq (Azərbaycan, türk və ingilis mənbələri əsasında) (45), S.Əliyevin "Dədə Qorqud Kitabı"nın ingilis dilinə P.Mirabl tərcüməsinin linqvistik poetik özəllikləri" (32) adlı məqalələrini göstərə bilərik. Bu adı çəkilən ikinci məqalədə alim "Kitabi-Dədə Qorqud" dastanının ingilis dilinə tərcüməsi ilə bağlı məsələləri təhlil etmişdir. O, həm "Kitabi-Dədə Qorqud"un 1970-ci ildə F.Sümər, A.Uysal, V.Uolker tərəfindən edilmiş ilk tərcüməsinə (143), C.Lyuisin etdiyi ikinci tərcüməyə (158), həm də R. Mirablın etdiyi üçüncü tərcüməyə (160) diqqət yetirmiş, ancaq sonuncu tərcümənin üzərində ayrıca dayanmışdır. Müəllif R.Mirablın tərcüməyə yazdığı ön sözdə dastanla bağlı dediyi fikirlərə də münasibət bildirmişdir. Məsələn, R.Mirabl yazır: "Aydındır ki, o, yeganə müəllif deyil. Çox gü-

man ki, bizim dastanların yazılı forması Dədənin səsidir. Lakin bu səs Monqolustandakı Altay dağlarında və Anadolu vadilərində dolaşan şairlərin, nağıl danışanların, məzhəkəçilərin, aşıqların və başqalarının səsinin bir halqasıdır və həm də sonuncu halqasıdır. Ola bilsin ki, Dədə bu aşıqların nə ən məşhuru, nə də ən istedadlısıdır, lakin onun adı dastanların hifz etdiyi yeganə addır" (32, 338).

İngilis tərcüməçisi və alimi "Dədə Qorqud"un cəmiyyətdəki rolunu da yüksək qiymətləndirir. Ona görə, XVI yüzillikdə Oğuzlar maddi və mənəvi baxımdan tamamilə formalaşmış, Oğuz ədəbiyyatı öz çiçəklənmə dövrünü yaşamışdır. Müəllifə görə, "Kitabi-Dədə Qorqud" bir tarixi əsər deyil. Alim "Kitabi-Dədə Qorqud"u "Roland haqqında nəğmələr" (XI əsr frank eposu), "Nibelunq haqqında nəğmələr" (XIII əsr alman eposu), "Beəvulf" (VII-VIII əsrlər ingilis eposu) və "Sid" (XII əsr ispan eposu) kimi Avropa qəhrəmanlıq dastanları ilə müqayisə etmişdir. Alim bu dastanlar arasında üslub baxımından da oxşarlıq olduğunu irəli sürmüş və bunun dastanların bədii təsvir və ifadə vasitələri sistemində də özünü göstərdiyini yazmışdır: "Reallığı dəyişməklə sonsuz olaraq bir əşyadan başqasına keçmə", ardıcıl şəkildə əşyadan sözə və ya sözdən əşyaya keçmə Avropa-türk ağız ədəbiyyatını yaradan əsas keyfiyyətlərdir. Hiperbola, metafora, bənzətmə, metonomiya, təşxis qəhrəmanlıq dünyasını təsvir etmək üçün aşıqların istifadə etdikləri texniki vasitələrdir; bunlar qəhrəmanlıq səhnələrini çəkmək üçün aşıqların işlətdikləri rənglərdir" (32, 339).

Seyran Əliyev bu məqaləsində dastanın ingilis dilinə çevrilməsi zamanı onun poetik xüsusiyyətlərinin ingilis dilinə tərcümə edilməsi ilə bağlı məsələlərə ayrıca diqqət yetirmişdir. Onun fikrinə görə, R.Mirablın tərcüməsi orijinalın bədii poetik strukturuna daha yaxındır. Tərcüməçi eposun bədii ovqatını, poetik vüsətini saxlamaq üçün oğuz türkcəsinin, konkret olaraq Azərbaycan dilinin özəlliklərini, xüsusilə onun fonetik, leksik,

qrammatik özəlliklərini qoruyub saxlamağa çalışmışdır (32, 341). Alimə görə, R.Mirabl türkcəni, türk dastan dilinin mahiyyətini, fəlsəfəsini, forma və ifadə quruluşunu dərindən bilir.

Alimin müşahidəsinə görə, tərcüməçi "Kitabi-Dədə Qorqud"u ingilis dilinə tərcümə edərkən dastanda istifadə olunmuş bütün vasitələri qoruyub saxlamağa çalışmışdır.

Bəllidir ki, dastanda alliterasiya, assonans, nəzm və nəsrin bir-birini əvəzləməsi xüsusi yer tutur. Alim tədqiqatında R.Mirablın tərcüməsi ilə dastanın orijinalından seçdiyi bədii təsvir və ifadə vasitələrinə aid konkret misallar verərək tərcümənin uğurlu olduğu fikrini irəli sürmüşdür. Onun təqdim etdiyi nümunələrdən bir neçəsinə baxaq: "Başum baxtı, evüm taxtı; Qovunum, verəgim, döləgüm; Acı söz), bədii təyinlər (Qara otaq; Qızıl otaq; Qaba dağ; Sarı yılan), müqayisələr (Ağzım içi buz kibi; Sünüklərim duz kibi oldı; Çünki mənim əlümdən gögərçin kibi quş oldu uçdu), hiperbolalar (Bin yerdə ipək xalçası döşənmişdi; Yüz bin ər gördümsə, yüzüm dönmədim)" (32, 343).

Azərbaycan xalqının qəhrəmanlıq dastanı olan "Koroğlu"nun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı da bir sıra əsərlər yazılmışdır. Bu məsələ ilə bağlı Şahbaz Balakişiyev "Koroğlu" dastanı Avropada" adlı namizədlik dissertasiyası yazmışdır (27). Doğrudur, bu dissertasiyada "Koroğlu" dastanının ingilisdilli qaynaqlarda öyrənilməsi məsələsi deyil, daha çox İ.Şopen, A.Xodzko, J.Sand, A.Haksthazenin yazdığı məqalələr, eləcə də 1856-cı ildə S. S. Penn tərəfindən rus dilində çap olunmuş "Koroğlu" dastanının tərcüməsi ilə bağlı məsələlər araşdırılmışdır. Ancaq buna baxmayaraq bu elmi əsər Azərbaycan folklorunun Avropada öyrənilməsi ilə bağlı yazılmış ciddi əsərlərdən biridir.

"Koroğlu" dastanının birbaşa ingilis dilinə tərcüməsi və ingilisdilli alimlər tərəfindən öyrənilməsi ilə bağlı f.e.d. Şahin Xəlillinin yazdığı "Koroğlu" dastanının ingilis dilinə tərcüməsi və bir iqtibas haqqında" adlı araşdırması da diqqətəlayiqdir (43). Alim bu araşdırmasında göstərir ki, əslən polyak olan, ancaq in-

gilis dilinin və Azərbaycan folklorunun incəliklərini dərindən bilən tərcüməçi, tədqiqatçı A.Xodzkonun (1804-1891) Azərbaycan-ingilis ədəbi əlaqələrinin tarixində xüsusi yeri var. A.Xodzko 1842-ci ildə Londonda "Specimens of the Popular Poetry of Persia, and the Songs of the People Inhabiting the Shores of the Caspian Sea" ("İranın məşhur poeziya nümunələri və Xəzər dənizi sahillərində məskunlaşan xalqın nəğmələri") adlı folklor antologiyası çap etdirmişdir (43, 170). O, Azərbaycan şifahi xalq ədəbiyyatının nümunələrini toplayaraq ingilis dilinə tərcümə etmişdir. A. Xodzko "Koroğlu" dastanının ingilis dilinə tərcüməsi ilə bağlı ciddi işlər görmüşdür. Onun ingilis dilinə tərcümə etdiyi "Koroğlu" dastanı 1842-ci ildə nəşr edilmişdir.

Şahin Xəlillinin fikrincə, A.Xodzkonun "Koroğlu" dastanının 1842-ci il London nəşrindən sonra Qərbi Avropada bir sıra tərcümələr meydana çıxmış, onun tərcüməsi başqa tərcümələr üçün mənbəyə çevrilmiş, "Koroğlu"nun ingilis tərcüməsi əsasında S.Pennin rus, Ad.Brelyenin fransız, O.Vulfun alman tərcümələri ortaya çıxmışdır (43, 173).

Tədqiqatçı A.Xodzkonun "Koroğlu" dastanında mifoloji ünsürlərin olması ilə bağlı dediklərini, Koroğlu obrazını ayrı-ayrı xalqların dastan qəhrəmanları ilə müqayisə etməsini, Koroğlunu Azərbaycanla bağlamasını yüksək qiymətləndirmişdir.

Alim yeri gəldikcə tərcümə ilə bağlı məsələlərə də toxunmuşdur. O, A.Xodzkonun tərcüməsi ilə bağlı yazır: "Bu tərcümədə orijinalın vəzni, ritmi, ahəngi H.V.Lonqfellonun hadisə və təfərrüatlarının ifadə vasitəsi və priyomlarının saxlanılması heç də onun - yəni tərcümənin bədii keyfiyyətinin artırılması demək deyildir. Sadəcə olaraq mütərcim orijinal deyimin poetik çalarını qorumağa səy göstərmiş, orijinal ahəngin, üslubun qorunub saxlanılmasını əsas məqsədinə çevirmişdir. Əslində, H.V.Lonqfello özü müqayisə etdiyimiz bəndləri azəri türkcəsindən ingilis dilinə edilmiş tərcümədən iqtibas etdiyindən, təbii ki, özü nə

qədər sərbəst olsa da, bu beytləri Azərbaycan dilindəki poetik deyim formasında və məzmununda vermişdir" (43, 191).

Bizcə, Azərbaycan xalqının qəhrəmanlıq dastanı olan "Koroğlu"nun A.Xodzko tərəfindən ingilis dilinə tərcüməsi ilə bağlı ortaya çıxan məsələlər ayrıca araşdırılmalı, tərcümənin dili, üslubu orijinalla müqayisəli şəkildə tədqiq edilməlidir.

"Koroğlu" dastanının Avropada öyrənilməsi ilə bağlı yazılan məqalələr sırasında Aşqabad Universitetinin akademiki, professor Muratgeldi Söyegoyun "Koroğlu" dastanlarından bəzi şeirlərin XIX yüzillikdə Birləşmiş Krallıqda və ABŞ-da araşdırılması (müəlliflər, əsərləri və tərcümələri haqqında qısa qeydlər) ("The study of the some poems from the epic "Koroglu" in United Kingdom and USA. in 19th century (short notes about authors, their writings and translations)" məqaləsi də var (86, 14).

Bu məqalədə göstərilir ki, 1834-cü ildə Londonda ingilis səyyah və tədqiqatçısı A.Burnes (1805-1841) üç cilddən ibarət olan "Buxara səyahəti" adlı əsər çap etdirmişdir. Bu əsərdə "Koroğlu" dastanı ilə bağlı da məlumat verilmişdir. İngilis tədqiqatçısı "Koroğlu" dastanında hansı şeirlərin mahnı kimi oxunduğunu göstərmişdir.

Türkmən alimi ingilis tədqiqatçısının çap etdirdiyi bu kitabın 84-85-ci səhifələrində olan və mahnı kimi oxunan şeirlərin ingilis dilindən rus dilinə çevrilmiş variantı ilə yanaşı, türkmən dilində olan orijinalını da araşdırmasına əlavə etmişdir (86, 16).

Alim bu məqaləsində XIX yüzillikdə yaşamış məşhur Amerika şairi H. V. Lonqfellonun (1807-1882) "Koroğlunun Qıratı ilə bağlı" yazdığı şeir və bu şeirin tərcüməsi haqqında məlumat vermişdir. O yazır: "Aşqabad Millətlərarası Türkmən türk Universitetinin "Bulaq" jurnalının 2002-ci il qış sayında bu sətirlərin müəllifinin XIX yüzillikdə yaşamış məşhur Amerika şairi H.V. Lonqfellonun (1807-1882) Koroğlunun Qıratı haqqındakı şeirinin tərcümələri ilə bağlı qısa bir məlumatı və eyni şeirin ilk dəfə 1928-ci ildə Oktyabr ayında "Türkmən Mədəniyyəti"nin

səhifələrində "Cədid" adı ilə nəşr olunan, 24 beytdən ibarət türkməncə tərcüməsi, latın əlifbasına çevrilərək "Qıratın Bökçəyi" adı ilə çap olunmuşdur. Şeir Azərbaycan əsilli türkmən yazıçısı Yaqub Nəsirli (1899-1958) tərəfindən 1920-ci ildə Azərbaycan türkcəsindən türkməncəyə çevrilmişdir. Məşhur Azərbaycan yazıçısı Cəfər Cabbarlı (1899-1934) tərəfindən ingiliscədən Azərbaycan türkcəsinə edilmiş sərbəst tərcüməsi isə Bakıda çap olunan "İnqilab və Mədəniyyət" jurnalının 1928-ci ilin oktyabr ayından öncəki saylarının birində çap edilmişdir" (86, 17).

Bununla birgə alim H.V.Lonqfellonun şeirinin Azərbaycan dilinə tərcüməsi zamanı bir sıra yanlışlıqlara yol verildiyini də bildirmişdir. Alim yazır: "Şeirin Azərbaycan türkcəsinə tərcüməsi ilə bağlı onu deməliyik ki, ilk sırada C.Cabbarlının 1979-cu ildə Bakıda "Ey dan ulduzu" adı ilə nəşr edilmiş, şeir, hekayə və dramlar kitabında H.V.Lonqfello bir ingilis şairi olaraq yanlış tanıdılmışdır (87, 17).

Tərcüməçi mətnə sərbəst yanaşaraq, bu şeiri Azərbaycan dilinə çevirərkən şeirin əsl nüsxəsində olmayan "Koroğlu", "Qırat", "Ərəb Reyhan" kimi adları mətnə daxil etmiş, "Qarajal", "Qaraday", "Çingiz xan" kimi adlar isə mətndən çıxarılmışdır. Şeirin adı dəyişdirilmiş, bəndlərin sayı 22-dən 27-ə çatdırılmışdır. Bildiyimiz kimi, şeirin türkmən dilinə tərcümə olunmuş variantında bəndlərin sayı 26-dır. Bilinməyən səbəblərə görə, Azərbaycan türkcəsində olan mətnin 17-ci bəndi türkməncəyə çevrilməmişdir (86,17).

Alim, bu Amerika tədqiqatçısının nəşr etdiyi şeirin orijinalını, Azərbaycan və türkmən dillərinə çevrilmiş variantlarını çap etdirmiş və bu şeiri Türkiyə türkcəsinə tərcümə etmişdir.

Azərbaycan folklorunun "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi dastanları Avropada və ingilisdilli qaynaqlarda nisbətən geniş öyrənilsə də, şifahi xalq ədəbiyyatının başqa nümunələri və janrları ilə bağlı bu sözü demək çətindir. Təbiidir ki, Azər-

baycan folklorunun başqa nümunələri və janrları ingilisdilli qaynaqlarda az öyrənildiyindən Azərbaycan alimləri də bu məsələni az araşdırmışlar. Bu hər şeydən öncə onunla bağlıdır ki, uzun illər boyu Azərbaycan və Azərbaycan mədəniyyəti, bu mədəniyyətin bütün sahələri dünya mədəniyyətinin tərkib hissələrindən biri kimi dünya xalqlarına tanıdılmadığından, bu xalqların dillərinə tərcümə edilmədiyindən, bütövlükdə Azərbaycan mədəniyyəti, o sıradan da Azərbaycan folkloru xarici mənbələrdə, o cümlədən də ingilisdilli qaynaqlarda az öyrənilmişdir.

Bizim mövzumuz konkret olaraq Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı olduğundan deyə bilərik ki, bu sahədə də Azərbaycan alimləri hələ XX əsrin 50-60-cı illərində müəyyən işlər görmüşlər. Doğrudur, Azərbaycan alimlərinin bu məsələ ilə bağlı yazdıqları həmin yazıları birbaşa Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı deyil. Sadəcə, Azərbaycan folklorunun bir sıra nümunələri və janrları tədqiq edilərkən alimlər konkret nümunəni və janrı bir sıra Avropa və ingilis folklor nümunələri ilə müqayisə etmişlər. Bu dediyimiz cəhət Azərbaycan alimlərindən H.Araslı, M.Təhmasib, M.İbrahimov, M.Cəfərov, M.Seyidov, V.Vəliyev, P.Əfəndiyev, A.Nəbiyev, İ.Abbaslı, Q.Namazov, B.Abdulla, H.İsmayılov və bir sıra başqa alimlərin tədqiqatında özünü göstərir. Bu tədqiqatlarda Azərbaycan folkloru ilə bağlı bir sıra məsələlər Avropa, rus, şərq, o sıradan ingilis folklor nümunələri ilə müqayisə edilmişdir. Ancaq bizcə, bu tədqiqatların ən önəmli xüsusiyyəti odur ki, bu araşdırmalarda Azərbaycan folklorunun başqa xalqların folkloru ilə müqayisəli şəkildə öyrənilməsinin zəruriliyi göstərilmişdir.

Azərbaycan folklorunun ingilis folkloru ilə müqayisəli şəkildə öyrənilməsi ilə bağlı yazılmış tədqiqatların sayı artır və bu sahədəki ciddi əsərlərdən biri f.e.d. Şahin Xəlilliyə məxsusdur. Alimin "Azərbaycan və ingilis folklorunda paralellər" adlı araşdırmasında bir sıra Azərbaycan folklor nümunələri əvvəlki təd-

qiqatlarla müqayisədə daha sistemli şəkildə ingilis folkloru ilə müqayisə edilmişdir (44). Ona görə, ayrı-ayrı şifahi xalq ədəbiyyatı nümunələrində - dastan və balladalarda, atalar sözü və məsəllərdə, nağıl və əfsanələrdə, laylalarda, beşik nəğmələrində mövzu və sujet oxşarlığını hər şeydən öncə Qərb və Şərq xalqlarının hamısı üçün tarixən oxşar və ya eyni olan məişət reallıqlarında axtarmaq heç də təsadüfi deyil (43, 38).

Alim bu fikrini əsaslandırmaq üçün Azərbaycan folklorunun ən gözəl nümunələrindən olan laylaları Britaniyada klassik ana laylası kimi dəyərləndirilən laylalarla müqayisə etmişdir. Müqayisə üçün biz laylalardan nümunələri təqdim edirik:

**Layla dedim ucadan,**
**Ünüm çıxdı bacadan,**
**Səni Tanrı saxlasın,**
**Çiçəkdən, qızılcadan,**
**Balam laylay, a laylay,**
**Gülüm laylay, a laylay.**

**Layla dedim yatasan,**
**Qızıl gülə batasan.**
**Gızılgül bağın olsun,**
**Kölgəsində yatasan.**
**Balam laylay, a laylay,**
**Gülüm laylay, a laylay (43, 41).**

**Tora, lora, lora,**
**Tora, lora, lay,**
**Tora, lora, lora**
**Ağız büzüb ağlama.**

**Tora, lora, lora,**
**Tora, lora, lay,**

**Tora, lora, lora.**
**Yatdı balam laylama,**
**Mənim irland laylama. (43, 41)**

Göründüyü kimi, hər iki laylada ana sevgisi, övlad məhəbbəti yığcam bir şəkildə gözəl ifadə edilmişdir. Burada bir xalqın laylasının başqa bir xalqın laylasına təsirindən danışmaq doğru deyil. Bu laylaları söyləyən anadır, mövzu isə övlad məhəbbətidir. Laylanı söyləyənin azərbaycanlı, ingilis, ya da başqa bir millətin nümayəndəsi olması önəmli deyil. Sevginin, duyğunun, mövzunun oxşarlığı sözün oxşarlığına, janr oxşarlığına gətirib çıxarır.

Ş.Xəlillinin araşdırmasına görə, klassik ingilis laylalarında misralar qoşa qafiyələnir, bu laylalarda ritmik bir üslub var. Fikir yığcam ifadə olunur, bu fikri həzin bir musiqi müşahidə edir. Poetik quruluşunda müəyyən fərqlər olsa da, eyni fikirləri Azərbaycan laylaları haqqında da demək olar. Bir Azərbaycan laylasına baxaq:

**Oxşasın dilim səni,**
**Böyütsün elim səni.**
**Meydanda at oynadan**
**Bir igid bilim səni. (41, 26)**

Bir ingilis laylasına diqqət yetirək:

**Günüm bitdi,**
**Günəş batdı.**
**Təpələrdə,**
**Göldə, göydə**
**Nə vardısa,**
**Yuxuladı.**
**Pənahımız**
**Allahadı. (43, 42)**

Belə nümunələrin sayını istənilən qədər artırmaq olar. Bu oxşarlıqların səbəbini araşdıran alim yazır: "Fikrimizcə, Azərbaycan və ingilis xalqlarının şifahi ədəbiyyatları arasındakı ox-

şarlığı bu xalqların tarixin müxtəlif inkişaf mərhələlərində biri-biri ilə çox yaxın mənəvi aləmi, dünyagörüşü və həyata baxışlarının ümumiliyində axtarmaq lazımdır. Xalq ədəbiyyatının layla, atalar sözləri, nağıl, əfsanə və rəvayətləri məkan və zamana sığışmayan ədəbi nümunələr kimi oxşar mövzu və süjetləri ilə tarixən uzun və maraqlı bir yol keçmişdir" (43, 45).

Alim, bu cür paralellərin Azərbaycan və ingilis nağılları arasında olduğunu da göstərmişdir.

Təbiidir ki, bu cür paralellər folklorun demək olar ki, bütün janrlarında var. Burada həyat hadisələrinə münasibətin, bütövlükdə dünya görüşünün yaxınlığından söhbət gedir. Məsələn, Azərbaycan atalar sözü ilə ingilis atalar sözləri arasındakı oxşarlıq da bunu sübut edir:

**As you sow, you shall mow.**
**Nə əkərsən, onu da biçərsən.**
**Fish begins to stink at the head.**
**Balıq başdan iylənər.**
**Silence gives consent.**
**Susmaq razılıq əlamətidir.**
**Speech is silver, but silence is gold.**
**Danışmaq gümüşdürsə, danışmamaq qızıldır.**
**He knows most who speaks least.**
**Çox bilən az danışar. (43, 51-53)**

Araşdırmanın maraqlı cəhətlərindən biri də odur ki, alim Azərbaycan folkloru ilə ingilis folkloru arasındakı paralelləri hansı sahədə axtarmağın istiqamətləri ilə bağlı da fikirlərini açıqlamışdır. Bu istiqamətləri belə ümumiləşdirmək olar:

Hər şeydən öncə, folklor nümunələri arasındakı oxşarlıq insanların milliyətindən asılı olmayan yaradılış xüsusiyyətləri ilə bağlıdır. Yəni türkü, ingilisi, fransızı, ərəbi və başqalarını birləşdirən ən önəmli cəhət onların insan olmalarıdır. Deməli, insan-

la bağlı yaradılış özəllikləri, duyğu və düşüncələr milliyətindən asılı olmayaraq, bütün insanlarda oxşardır. Sadəcə, insanların milli adət-ənənələri, dili, mədəniyyəti, aldığı tərbiyə, yaşadığı məkan fərqli olduğuna görə, eyni duyğu və düşüncələrin müxtəlif poetik biçimləri ortaya çıxır.

Bundan başqa, bütün bəşəriyyət, bütün xalqlar bir-birinə bənzər inkişaf yolu keçmişlər. Onlar arasındakı əlaqələr bir-birinə təsir etmişdir. İnsanlar hər zaman həqiqət axtarmışlar, güclü olmaq istəmişlər, bu həqiqət axtarışı isə xalqları oxşar nəticələrə gətirib çıxarmışdır. Xalqların özəllikləri folklorda daha yaxşı ifadə edildiyinə görə bunlar folklor nümunələri arasında olan oxşarlıqlarda da özünü  aydın göstərir.

Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsinin tarixi ilə bağlı iki istiqamət özünü göstərir. Bu istiqamətlərdən biri Azərbaycan folklor nümunələrinin ingilisdilli qaynaqlarda tədqiq edilməsi və Azərbaycan alimlərinin bu tədqiqatlarla bağlı elmi araşdırmalar yazmasıdır. Biz yuxarıda bu məsələ ilə bağlı indiyədək görülmüş işləri sadaladıq, ümumiləşdirdik, təhlil etdik və yazılmış əsərlərin uğurlu və uğursuz cəhətlərini göstərdik. Ancaq Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı bir sıra ciddi məsələlər də var ki, bu məsələlər indiyədək öyrənilməmişdir. Monoqrafiyanın ikinci fəsli bütövlükdə bu məsələyə həsr olunmuşdur.

Azərbaycan folklorunun xarici tədqiqatçılar tərəfindən ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı ikinci istiqamət isə Azərbaycan folklor nümunələrinin ingilis dilinə tərcüməsi ilə bağlıdır. Biz Azərbaycan folklorunun ingilis dilinə tərcümə olunmuş nümunələri ilə bağlı görülmüş işləri də ümumiləşdirmək, təhlil etmək və bir sıra nəticələr çıxarmağı doğru sayırıq. Ona görə də, yeri gəldikcə Azərbaycan folklor nümunələrinin ingilis dilinə tərcümə olunmuş nümunələrinin təhlilinə də yer ayıracağıq.

Azərbaycan folklorunun ingilis dilinə tərcümə olunmuş nümunələri sırasında alqış və qarğışlar ayrıca yer tutur. Ə. Hacıye-

va və A. Hacıyevanın çap etdirdikləri "İngilis-Azərbaycan dillərində alqış və qarğışların müxtəsər lüğəti" adlı kitab bu baxımdan diqqətəlayiqdir (36). Müəlliflər öncə alqış və qarğışın şifahi xalq ədəbiyyatında tutduğu yerlə bağlı açıqlama vermiş, Azərbaycan alqış və qarğışları ilə ingilis alqış və qarğışlarının oxşar və fərqli cəhətlərinə toxunmuşlar.

Bilindiyi kimi, bu folklor nümunələrinin hər iki dildə bir sıra oxşar cəhətləri var. İstər Azərbaycan, istərsə də, ingilis alqış və qarğışları xalq arasında geniş yayılmışdır. İnsanlar şifahi danışıqda alqış və qarğışlardan çox istifadə edirlər. Yazılı ədəbiyyatda isə alqış və qarğışlardan bədii ədəbiyyatda istifadə olunur. Həm ingilis, həm də Azərbaycan alqış və qarğışları bütöv cümlə şəklində olur və bitmiş fikri ifadə edir. Bəzən alqış və qarğışlar bir sözlə də ifadə oluna bilir. Həm Azərbaycan, həm də ingilis alqış və qarğışları poetik quruluşuna görə də bir-birinə bənzəyir: "Alqışlarda subyektin xeyirxah, əməlisaleh və ədalətli obyektə müsbət münasibəti, məhəbbət və minnətdarlığı bildirilir və alqışlanan şəxs ilahi, sehirli qüvvələrə tapşırılır. Alqış edən ilahi qüvvəyə yalvararaq ondan əməl sahibinə edilən alqışın və arzuların çin olmasını istəyir. Yalvaran, diləyən şəxsin obyekti konkret olur, alqış edilən şəxs və əməl sahibləri bəlli olur" (36, 4).

Azərbaycan və ingilis alqış və qarğışlarında söz və ifadələrin, cümlələrin xəbəri felin əmr və arzu şəklində olur. Belə cümlələrdə zaman anlayışı bildirən morfoloji əlamət işlənmir, ancaq məna baxımından gələcək zaman anlayışı ifadə olunur. Alqış və qarğışlarda emosionallıq güclü olur. Edilən alqış, ya da qarğış yığcam şəkildə, az sözlə ifadə edilir. Hər sözün konkret məna yükü olur, artıq söz və ifadələrə yol verilmir. Cümlənin xəbəri təsirsiz fellərlə ifadə olunur.

İstər Azərbaycan, istərsə də ingilis alqış və qarğışları mənsub olduğu xalqın duyğu və düşüncələri ilə sıx bağlıdır.

Biz bu kitabı son dərəcə faydalı hesab edirik. Doğrudur, kitabda verilən bir sıra söz və ifadələr, əslində, alqış və qarğış de-

yil. Məsələn: "İlahi!", "Pərvərdigar!", "Təəssüf!" ("Alas!"), "Boş şeydir!" ("All my eyes!"), "İnan mənə!" ("Believe me!"), "Zirək ol!" ("Be quick!"), "Arxayın ol!" ("Be sure!, Be calm"), "Nə danışırsan?" ("Come, come!"), "Sakit olun!" ("Compare yourself!") və s. bu kimi çoxsaylı sözlər, ifadələr, frazeoloji birləşmələr var ki, onları alqış və qarğış hesab etmək olmaz.

Doğrudur, frazeoloji birləşmələrin alqış və qarğışların poetikasında, üslubunda ayrıca yeri var. Ancaq bunları kitabda başqa bir bölmədə vermək daha doğru olardı.

Bundan başqa, kitabla bağlı iradlarımızın biri də odur ki, bu kitabda andlar, hədələr, yalvarışlar, tövsiyələr, müraciət etiketləri də alqış və qarğışlarla qarışıq şəkildə verilmişdir. Bizcə, bunları sistemli şəkildə, ayrı-ayrı bölmələrdə vermək daha doğru olardı.

Deyilənlərlə birlikdə, bu dəyərli kitabda Azərbaycan alqış və qarğışları ilə bağlı çoxlu gözəl nümunələr var və bir dildə verilən alqış və qarğışın qarşı dildəki variantı çox dəqiq tapılmış, ya da tərcümə olunmuşdur. Fikrimizi dəqiqləşdirmək üçün kitabdan götürdüyümüz bir sıra alqış və qarğış nümunəsini misal olaraq veririk:

"A happy journey!" ("Səfərin uğurlu olsun!"), "Be happy!" ("Xoşbəxt ol!"), "God bless your soul!" ("Allah köməyin olsun!"), "God forbid from the evil eye!" ("Allah bədnəzərdən saxlasın!"), "Let it be your last grief!" ("Axır qəmin olsun!"), "Let the nature takes your grief!" ("Ahın dağlara!"), "Be covered with your own blood!" ("Qanına boyanasan!"), "Be it curst!" ("Zəhrimara qalsın!"), "Curse upon you!" ("Kül başına!"), "Die the dog's death!" ("İt kimi gəbərəsən!"), "Fail in your desire!" ("Arzun ürəyində qalsın!") və s. (36).

Azərbaycan alimləri milli folklorun ən dəyərli nümunələrindən olan atalar sözlərinin ingilis dilinə tərcüməsi, onların bu dildə qarşılığının müəyyən edilməsi sahəsində də müəyyən işlər görmüşlər. "Azərbaycanca-ingiliscə, ingiliscə-azərbaycanca müxtəsər frazeoloji lüğət" adlı kitab bu yöndə görülmüş işlər-

dən biridir (25). Bu kitabda frazeoloji birləşmələrlə birgə, dörd yüzə yaxın atalar sözü də verilmişdir.

Kitabın tərtibçiləri İ.Rəhimov və X.Əhmədova öncə Azərbaycan və ingilis xalqlarının folklorunda atalar sözünün tutduğu yerlə bağlı məlumat vermişlər. Bilindiyi kimi, atalar sözləri bütün xalqların, o sıradan Azərbaycan və ingilis xalqlarının folklorunun ayrılmaz tərkib hissəsidir. Kitabın tərtibçilərinə görə, ingilis atalar sözləri iki yolla yaranmışdır. Birincisi, xalq atalar sözləri yaratmış, onu qorumuş, nəsildən-nəslə ötürmüşdür. İkincisi isə, bir sıra görkəmli söz adamları elə gözəl mənalı fikirlər söyləmişlər ki, sonradan onların dedikləri atalar sözü kimi işlənməyə başlanmışdır. Məsələn, ingilislər arasında "Şekspirin atalar sözləri" deyimi geniş yayılmışdır.

Həm Azərbaycan, həm də ingilis dilində bir mənanı, bir fikri, bir ideyanı bəzən bir neçə atalar sözü ifadə edir. Bu kitabın maraqlı cəhətlərindən biri də odur ki, eyni fikirlə bağlı müxtəlif atalar sözlərinin hamısı verilmişdir.

Tərtibçilərin fikrinə görə, ingilis folklorunda şərq dillərindən keçmiş atalar sözləri də var. Belə atalar sözləri XIX yüzilliyin əvvəllərindən başlayaraq ingilis folkloruna daxil olmuşdur.

Azərbaycan atalar sözlərində olduğu kimi, ingilis atalar sözlərində də variantlıq var. İngilis atalar sözləri də yığcamdır, ideya az sözlə və dəqiq ifadə edilir. İngilis atalar sözlərində də Azərbaycan atalar sözləri kimi başlıca ideyanı yadda saxlamaq üçün qafiyə sözlərdən istifadə olunur. İngilis atalar sözlərinin məzmunu da Azərbaycan atalar sözləri kimi müxtəlifdir. Bu atalar sözləri arasında insanın dünya görüşü, həyata, yaradılışa baxışı, sevgisi əsas yer tutur.

Hər iki xalqın atalar sözlərinin müqayisəsi onu göstərir ki, onlar arasında istər məzmun, istərsə də poetik quruluş baxımından çox ciddi yaxınlıqlar var.

Biz bu yaxınlığı konkret nümunələr əsasında aydın görə bilərik:

"Ağacı içindən qurd yeyər" - "The worm of the tree would be from within" (25, 8).

"Ağıllı düşmən nadan dostdan yaxşıdır" - "It's better to have a witty enemy than a witless friend" (25, 10).

"Dost dosta tən gərək, tən olmasa gen gərək" - "Friendship cannot stand always on one side" (25, 28).

"Hər şeyin təzəsi, dostun köhnəsi" - "Old friends and old wine are best" (25, 28).

Bizcə, bu kitab Azərbaycan atalar sözlərinin ingilis dilinə tərcüməsi ilə bağlı nəşr olunmuş uğurlu işlərdən biridir.

Azərbaycan folklorunun ingilis dilinə tərcüməsi ilə bağlı görülmüş işlərin sırasında həm folklor materialları, həm klassik Azərbaycan ədəbiyyatı, həm də müasir Azərbaycan ədəbiyyatı nümunələrinin ingilis dilinə tərcüməsini əhatə edən və 1969-cu ildə Moskvada çap olunmuş "Azerbaijanian Poetry" ("Azərbaycan poeziya antologiyası") kitabı ayrıca yer tutur. Kitabda klassik Azərbaycan ədəbiyyatının Q.Təbrizi, M.Gəncəvi, X.Şirvani, N.Gəncəvi, İ.Həsənoğlu, İ.Nəsimi, Ş.İ.Xətai, M.Füzuli, Q.Təbrizi, S.Təbrizi, M.P.Vaqif, M.V.Vidadi, Q.Zakir, Heyran xanım, M.Ş.Vazeh, M.F.Axundov, X.Natəvan, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, M.Ə.Möcüz, H.K.Sanılı, H.Cavid, A.Şaiq, Ə.Vahid, M.Müşfiq, S.Vurğun, O.Sarıvəlli, S.Rüstəm, M.Rahim, R.Rza və bir sıra başqa müasir Azərbaycan şairlərinin ingilis dilinə tərcümə olunmuş şeirləri toplanmışdır (127).

Bu kitabda Azərbaycan folkloruna da ayrıca yer verilmişdir. "Kitabi-Dədə Qorqud", "Əsli və Kərəm", "Koroğlu", "Qaçaq Nəbi" dastanlarından müəyyən hissələr ingilis dilinə tərcümə edilmişdir. Kitabda Azərbaycan aşıqlarından Aşıq Qurbaninin, Aşıq Abbas Tufarqanlının, Xəstə Qasımın, Aşıq Ələsgərin, Aşıq Hüseyn Bozalqanlının, Aşıq Şəmşirin, Aşıq Hüseyn Cavanın ingilis dilinə çevrilmiş şeirləri çap olunmuşdur (127, 535-661). Monoqrafiyanın üçüncü fəslində adları çəkilən aşıqların ingilis dilinə tərcümə olunmuş şeirləri təhlil edilmişdir.

Bu kitabda Azərbaycan bayatılarına, laylalarına da yer ayrılmışdır. Kitabda verilmiş bayatı və laylaları ingilis dilinə Qladius Evans tərcümə etmişdir. Tərcüməçi öncə bayatı haqqında qısa məlumat vermiş, bayatının Azərbaycan folklorundakı yerini və bu folklor nümunəsinin poetik quruluşunu qısaca şərh etmişdir. Kitabda 76 Azərbaycan bayatı və laylası ingilis dilinə tərcümə olunmuşdur. Bu bayatı və laylaların mövzusu da müxtəlifdir:

**Laylası dərin bala,**
**Yuxusu şirin bala.**
**Tanrıdan əhdim budur,**
**Toyunu görüm bala. (41, 26)**

**My lullaby is sweet as sweet,**
**My baby's sleep is light and fleet**
**One thing alone I ask of God:**
**One day your wedding guests to meet. (127, 651)**

**Laylay əməyim bala,**
**Duzum, çörəyim bala.**
**Gözlərəm böyüyəsən,**
**Görüm köməyin bala. (41, 26)**

**Bye-lo, bye-lo, my little one,**
**You're my bread and salt alone.**
**I wait to see what help you'll be**
**To mother, when you're grown. (127, 651)**

İngilis dilinə tərcümə olunmuş laylaların tərcüməsi ilə bağlı məsələləri aydın təsəvvür etmək və tərcümənin səviyyəsini müəyyən etmək məqsədi ilə bəzi nümunələrə baxaq. Məsələn, bir Azərbaycan laylasında belə deyilir:

**Balam gəlir yatmağa,**
**Böyüyüb boy atmağa.**
**Yuxusu şirin olur,**
**Qıymıram oyatmağa. (41, 26)**

Tərcüməçi bu bayatını ingilis dilinə belə çevirmişdir:

**My baby's gone to bye-lo,**
**So that he may grow.**
**I won't let them wake him up.**
**Sweet is morning sleep, you know. (127, 650)**

Tərcüməçi bu laylanın qafiyə sistemini qoruyub saxlamışdır. Laylanın məzmunu isə ümumi şəkildə ingilis dilinə tərcümə olunmuşdur. Sadəcə, laylanın Azərbaycan variantında ana öz körpəsini yuxudan oyatmağa qıymadığını söyləyir, tərcümədə isə ana başqalarının onun körpəsini oyatmasına imkan verməyəcəyini bildirir.

"Azerbaijanian Poetry" kitabında laylalarla yanaşı bayatılar da verilmişdir. Bu bayatıların məzmunu müxtəlifdir. Laylalar kimi, bayatıları da Qladius Evans tərcümə etmişdir. İngilis dilinə tərcümə olunmuş bayatılardan bir-iki nümunəyə baxaq:

**Əzizinəm Qarabağ,**
**Şəki, Şirvan, Qarabağ.**
**Tehran cənnətə dönsə,**
**Yaddan çıxmaz Qarabağ.**

**As minstrel, I love my Garabakh,**
**My own Sheki, Shirvan and Garabakh…**
**If Tehran turned into heaven,**
**I'd never forget dear Garabakh. (127, 654)**

**Yol gedir Ordubada,**
**Səlmasdan Ordubada.**
**Sərkərdə müdrik olsa,**
**Verməz ordunu bada.**

**This road takes you to Ordubad,**
**From Salmas through to Ordubad.**
**Our troops will meet no ambush if**
**Our chief with wisdom's ironclad. (127, 657)**

"Azerbaijanian Poetry" kitabına ingilis dilinə tərcümə olunmuş bir sıra Azərbaycan dastanları da daxil edilmişdir. "Kitabi-Dədə Qorqud" dastanının müqəddiməsini, "Qanlı Qoca oğlu Qanturalı boyu"nu ingilis dilinə Lyus Zelikov tərcümə etmişdir (127, 534-557).

Bu kitabda "Əsli və Kərəm" dastanından ingilis dilinə çevrilmiş bəzi hissələr də var (127, 558-579). "Əsli və Kərəm" dastanının ingilis dilinə tərcümə olunmuş hissələrinin müəllifi Olqa Moyisenkodur. O, dastanın ustadnamə hissəsini tərcümə etmiş, sonra ixtisarla dastanın ümumi məzmununu ingilisdilli oxucuya çatdırmışdır.

Kitaba daxil olan dastanlardan biri də "Koroğlu"dur (127, 580-603). Tərcüməçi Dorian Rottenberq "Koroğlu" dastanı haqqında qısa məlumat vermiş, daha sonra "Durna teli" boyunu ingilis dilinə tərcümə etmişdir.

Kitaba daxil edilmiş dastanlardan biri də "Qaçaq Nəbi"dir (127, 605-613). Tərcüməçi Artur Şkarovski "Qaçaq Nəbi" dastanından müəyyən fraqmentləri ingilis dilinə tərcümə etmişdir.

Azərbaycan folklorunun ingilis dilinə tərcümə olunmuş nümunələri sırasında Molla Nəsrəddin lətifələri də yer tutur. Bəylər Hacıyev Molla Nəsrəddin lətifələrinin bir hissəsini ingilis dilinə çevirərək "101 jokes of Mullah Nasreddin" adı ilə çap etdirmişdir (151). Müəllif tərcümə zamanı müxtəlif məzmunluləti-

fələr seçmiş, bu lətifələri ingilis dilinə tərcümə edərkən zəruri olan açıqlamalar vermişdir. Onun tərcümələri lətifələrin orijinalına uyğundur. Bəylər Hacıyev tərcümə zamanı lətifələrdə olan "molla" - ("mullah"), "manat" - ("manat"), "plov" - ("pilaf"), "bazar" - ("bazaar"), "xurcun" - ("khourjoun"), "palaz" - ("palaz"), "arşın" - ("arshin"), "put" - ("pood") "Allah" - ("Allah", "God") kimi sözləri olduğu kimi saxlamışdır. Bu da tərcümə prinsipinə uyğundur.

Molla Nəsrəddin lətifələrinin ingilis dilinə tərcüməsi ilə bağlı aydın təsəvvür yaratmaq üçün bu lətifələrdən birinin orijinalını və müəllifin tərcüməsini təqdim edirik:

"Bir gün Mollanın dostlarından bir ondan soruşdu:

"Molla, sənin neçə yaşın var?"

"Qırx", - Molla cavab verdi.

"On il bundan əvvəl də sən mənə demişdin ki, yaşın qırxdır", - Mollanın dostu dedi.

"Sən haqlısan, dostum. Kişinin sözü bir olar",- deyə Molla cavab verdi" (149, 20).

Once one of Mullah's friends asked him, "Mullah, how are old you?"

"Forty", Mullah answered.

"But you told me you were forty ten years ago", Mullah's friend said.

"You are right, my friend", Mullah replied. "A man should always stand by his word" (151, 75).

Molla Nəsrəddin lətifələri ilə bağlı ingilis dilində nəşr olunan "Azerbaijan İnternational" jurnalında da məlumat verilmişdir (149). Bu məlumatda Molla Nəsrəddin şəxsiyyətinin və onun lətifələrinin türklər arasında, eləcə də bir sıra dünya xalqları arasında çox tanındığı bildirilir. Məsələn, Azərbaycan türkləri və iranlılar ona "Molla Nəsrəddin", Anadolu türkləri və yunanlar "Hoca Nasreddin", qazax türkləri "Qoca Nəsrəddin", ərəblər "Cuha", taciklər "Müşfiqi" deyirlər. Bir sıra hallarda

Molla Nəsrəddin sadəcə "Nəsrəddin", "Molla", "Hoca" deyə adlandırılır. Bu jurnalda 1906-cı ildə Bakıda çap olunmuş "Molla Nəsrəddin" jurnalından götürülmüş bir sıra lətifələr də ingilis dilinə tərcümə edilərək, oxuculara təqdim olunmuşdur (149, 20-21).

"Azerbaijan İnternational" jurnalının Azərbaycan folklorunun ingilisdilli oxuculara çatdırılması ilə bağlı gördüyü işlər təqdirəlayiqdir. Biz bu görülən işləri iki yerə ayıra bilərik. Birincisi, jurnal bir sıra Azərbaycan folklor nümunələrini ingilis dilinə tərcümə edir. Bu tərcümələrə misal olaraq Molla Nəsrəddin lətifələrini, atalar sözlərini, nağılları, bayatıları, tapmacaları, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanlarından müəyyən hissələri göstərə bilərik.

İkinci istiqamət isə Azərbaycan folkloru ilə bağlı bir sıra araşdırmaların yazılmasıdır. Həm Azərbaycan alimlərinin, həm də ingilis alimlərinin yazdıqları bu məqalələr Azərbaycan folklorunun öyrənilməsi ilə bağlı bir qaynaqdır. Doğrudur, bu məqalələr həcmcə o qədər də böyük deyil, ancaq Azərbaycan folkloru ilə bağlı ən önəmli məlumatları təhlil etmək baxımından dəyərlidir.

Biz Azərbaycan folkloru ilə bağlı yazılmış və bu jurnalda çap olunmuş məqalələri bir neçə hissəyə ayıra bilərik.

Jurnalda çap olunmuş məqalələrin bir qismi Azərbaycan aşıq ədəbiyyatı ilə bağlıdır. Bu məqalələr sırasında biz Amerika Birləşmiş Ştatlarının Viskonsin Universitetinin elmi əməkdaşı Anna Oldfild Senarslanın yazdığı məqalələri ayrıca qeyd etmək istəyirik. Onun Azərbaycan aşıq ədəbiyyatı ilə bağlı yazdığı məqalələr aşağıdakılardır: "Aşıqların musiqisi" ("Music of Bards") (173), "Azərbaycanın aşıq şairləri" ("The poet minstrels of Azerbaijan") (174), "Aşıq Pəri Məclisi: Əfsanə və xalq poeziyasının qadın ifaçıları" ("Ashug Pari Majlisi: Women performers of legend and folk poetry") (175).

Tədqiqatçı bu məqalələrdə Azərbaycan aşıq ədəbiyyatının qaynağı və tipologiyası ilə bağlı bilgi vermişdir. O, Azərbaycan

və Türkiyə alimlərinin aşıq ədəbiyyatı, musiqisi ilə bağlı yazdığı elmi əsərləri diqqətlə oxumuş, bir sıra nəticələr ortaya çıxarmışdır. Məsələn, ona görə, Azərbaycan aşıq ədəbiyyatı və musiqisi türk xalqlarının mifoloji, milli, dini dünyagörüşü, inancı ilə sıx bağlıdır. Azərbaycan aşıq musiqisi zəngin bir musiqidir. Azərbaycan aşıq ədəbiyyatı və musiqisi uzun əsrlər boyu xalqı maarifləndirmək, ona həyat və yaradılışla bağlı bilgi vermək, xalqı doğru olanlara inandırmaq, xalqa yol göstərmək, insanları milli ruhda tərbiyə etmək, milli mədəniyyəti qorumaq, zənginləşdirmək və nəsildən-nəslə ötürmək vəzifəsini yerinə yetirmişdir. Azərbaycan aşıq musiqisi və ədəbiyyatı ümumtürk mədəniyyətinin ayrılmaz tərkib hissəsidir.

Alimə görə, Azərbaycan aşıq musiqisi və ədəbiyyatı bir neçə mərhələdən keçmişdir. Qaynaq baxımından qədim türk şaman düşüncəsinə bağlı olan aşıq musiqisi və ədəbiyyatı ilk mərhələdə ozanlar tərəfindən ifa edilmişdir; ozan qopuz çalaraq xalqın milli-mədəni dəyərlərini təbliğ etmişdir.

XIV-XV yüzilliklərdə Azərbaycan aşığı İslam dini ilə, ayrıca olaraq bu dinin içində özəl yeri olan təsəvvüf düşüncəsi ilə sıx bağlı olmuşdur. XIX əsrdə Azərbaycan aşıq ədəbiyyatı sosial ədalətsizliyə və zülmə qarşı mübarizə aparmışdır. Sovet dövründə isə Azərbaycan aşıq musiqisi və ədəbiyyatı daha çox ideoloji səciyyə daşımışdır.

Aşıq musiqisinin və ədəbiyyatının öz tarixi, öz ənənələri, öz fəlsəfəsi və öz klassik dəyərləri var. Aşıq ədəbiyyatı ilə musiqisi bütöv bir sistemdir. Bu sistemə  aşıq musiqisi və ədəbiyyatının genezisi, tarixi, dəyərləri, şagird yetişdirmə məktəbi, şeir, dastan, saz, ifaçılıq sənəti, geyim, yazılı ədəbiyyatla əlaqə və bir sıra başqa anlayışlar daxildir.

Bu sistemin içərisində saz ayrıca yer tutur. Alim sazla bağlı qənaətini belə ümumiləşdirir: "Saz çalmaq üçün uşaqlıqdan ustad yanına getməlisən. Saz öncə qopuz adı ilə ortaya çıxıb. "Kitabi-Dədə Qorqud" dastanında onun izi aydın görünür. Azərbay-

can türkləri saza müqəddəs bir varlıq kimi baxmışlar, onu sevmişlər. Saz onların mədəniyyətinin ayrılmaz bir hissəsidir. Saz xüsusi ağacdan hazırlanır, 8-9 simi olur. Azərbaycan aşıqlarının dediyinə görə, 100-dən çox aşıq havası var" (173, 22). Alim, bu aşıq havaları içərisində "Yanıq Kərəm"i, "Ruhani"ni, "Göyçə Qaragözü", "Misri"ni xüsusi qeyd etmişdir.

Alimin Azərbaycan aşıq musiqisi ilə bağlı yazdığı məqalələrdə bir cəhət də diqqəti cəlb edir. O, bu məqalələrdə Azərbaycan aşıq musiqisini muğamla müqayisə etmişdir. Müəllif göstərir ki, muğam da Azərbaycan türklərinin milli mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Ancaq bunlar arasında fərqlər də var. Aşıq musiqisinin kökü folklora bağlıdır, muğam isə yazılı ənənələrə söykənir. Muğam daha çox şəhər mədəniyyətinin faktıdır. Aşıq musiqisi isə daha çox kənd mədəniyyətinin göstəricisidir. Azərbaycan muğam musiqisinin ayrı-ayrı məktəbləri olduğu kimi, Azərbaycan aşıq musiqisinin də fərqli məktəbləri var. Muğam daha çox klassik ədəbiyyatın əruz vəznində yazılmış qəzəl janrı ilə ifa olunur. Aşıq musiqisi isə milli heca vəznində yazılmış şeirlərlə ifa edilir.

Aşıqların repertuarında dastanlar ayrıca yer tutur. Bu gün Azərbaycan aşıqlarının repertuarında "Kitabi-Dədə Qorqud" dastanı olmasa da, "Koroğlu" dastanının ayrıca yeri var. Orta əsrlərdə Azərbaycan ozan musiqisini, Azərbaycan ozanlarının yaratdığı dəyərləri "Allahla söhbət" kimi dəyərləndirmişlər. Bu isə daha çox ozan və aşığın Azərbaycan xalqının düşüncəsindəki yeri və rolu ilə bağlıdır.

Alim məqaləsində bir sıra Azərbaycan aşıqları ilə bağlı məlumat da vermişdir. Onun Azərbaycanın qadın aşıqları ilə bağlı yazdıqları da maraqlıdır. Müəllif məqalədə "Aşıq Pəri Məclisi" haqqında məlumat vermişdir. Onun fikrincə, bu məclis Azərbaycan aşıq mədəniyyətinin, musiqisinin qorunmasında, təbliğində, yeni istedadlı aşıqların və aşıq şairlərin ortaya çıxmasında önəmli rol oynayır (175, 38).

"Azerbaijan İnternational" jurnalının Azərbaycan folklorunun ingilisdilli oxuculara çatdırılması ilə bağlı gördüyü işlərdən biri də "Novruz" bayramı haqqında yazılmış məqalə və verilmiş məlumatlardır. Jurnalda Novruz bayramı ilə bağlı çap edilmiş məqalədə bayramın tarixi haqqında qısa məlumat verilmişdir (165, 39). Bu məlumatda Novruz sözünün mənası açıqlanmış, keçirildiyi vaxt göstərilmişdir. Məqalədə deyilir ki, Novruz bayramı yazın gəlməsi ilə bağlı olaraq keçirilir. Novruz bayramı təkcə Azərbaycanda deyil, İranda, Əfqanıstanda, Orta Asiya respublikalarında, Türkiyədə də qeyd edilir. Bu bayramın, əslində, İslam dini ilə bağlılığı yoxdur. Novruz təbiətin bayramıdır. Ancaq sonrakı mərhələlərdə dinin də bu bayrama təsiri olmuşdur. Jurnalda çap olunmuş məqalədə daha sonra Novruz bayramının simvolları və adət-ənənələri haqqında məlumat verilmişdir. Təbiidir ki, Novruz bayramının ən gözəl simvolu səmənidir. Səməni yeni həyatın, ümidin, arzuların, dirçəlişin, yaşamaq sevgisinin simvoludur. Novruz bayramında azərbaycanlılar süfrələrinə müxtəlif yeməklər qoyurlar, adamlar yeni paltarlar geyinirlər, evlər təmizlənir, ağaclar əhənglənir, qohumlar bir-birilərinə qonaq gedirlər. Kasıb, yoxsul insanlar sevindirilir. Ölmüş insanların qəbri ziyarət olunur. Uşaqlar Novruzu çox sevirlər.

Bu məqalədə diqqəti çəkən cəhətlərdən biri də odur ki, istər Cənubi Azərbaycanda, istərsə də Güney Azərbaycanda Novruz adətlərinin oxşar olduğu bildirilir. Novruz bayramının Azərbaycan türklərinin dünyagörüşü ilə, tarixi, adət-ənənələri ilə sıx bağlı olduğu göstərilir.

"Azerbaijan İnternational" jurnalında Azərbaycan folklorunun geniş yayılmış nümunələrindən olan atalar sözlərinin ingilis dilinə tərcüməsinə də yer ayrılmışdır (148, 12). Toplanmış atalar sözləri ilə bağlı qısa məlumat verilmiş, atalar sözlərinin Azərbaycan xalqının milli mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğu göstərilmiş, atalar sözlərində xalqın ifadə etdiyi hikmətli mənalar, həyat hadisələrinə fəlsəfi münasibət açıqlanmış, atalar

sözlərində öz əksini tapmış həyat ölçüləri göstərilmişdir. Jurnalda Azərbaycan atalar sözləri ingilis dilinə tərcümə edildikdən sonra qruplaşdırılmış, "gözəllik", "iş", "uşaq", "əməkdaşlıq", "cəsarət","tənqid", "ailə", "dostluq", "səxavət", "hörmət", "yaxşılıq", "xoş xəbər", "xəsislik", "sağlamlıq", "kömək", "ümid", "qonaqpərvərlik", "təşəbbüs", "elm", "təvazökarlıq", "pul", "fəxr", "problemlər", "özünəinam", "cəmiyyət", "ənənə", "deyilən söz" və s. başlıqlarla təqdim olunmuşdur.

Atalar sözlərinin ingilis dilinə tərcüməsi ilə yanaşı, məqalədə maraqlı cəhətlərdən biri də odur ki, bu atalar sözlərinin mənası, ideyası ilə bağlı da qısaca açıqlama da verilmişdir.

Jurnalda çap olunmuş Azərbaycan atalar sözlərindən bəzilərini tərcüməsi ilə birlikdə təqdim edirik:

*"Gözəllik ondur, doqquzu dondur" - "Beauty is ten, nine of which is knowing how to dress"*

*"Yüz ölç, bir biç" - "Take 100 measurements before you make one cut"*

*"Bala baldan şirindir" - "The child is sweeter than honey"*

*"Əl əli yuyar, əl də üzü" - "One hand washes the other hand, which in turn washes the face"*

*"Meşə çaqqalsız olmaz" - "The forest can't be without its jackals"*

*"Vəfalı dost yad olmaz, görməsə yüz il səni" - "A faithful friend never becomes a stranger, never mind if he hasn't seen you for hundred years"*

*"Yaxşılığı elə, at dəryaya, balıq bilməsə də, xalıq bilər" - "Do a good deed, and throw it into the sea. If the fish don't appreciate it, the Creator will"*

*"Yaxşı at özünə qamçı vurdurmaz" - "A good horse never needs a whip"*

*"Ucuz ətin şorbası olmaz" - "Cheap meat never makes a good soup"*

*"Saç ürəkdən su içər" - "Hair drinks (water) from the heart" (148, 12-13, 62-63).*

Jurnalın başqa bir sayında da atalar sözlərinə ayrıca yer verilmişdir (145). Bu sayda verilən atalar sözləri yeməklə bağlıdır. Müəlliflər Jalə Qəribova və Beti Bleyr yeməklərlə bağlı atalar sözlərini ayrı-ayrı qruplara bölərək, 48 atalar sözü vermişlər. Öncə atalar sözləri ingiliscə verilmiş, daha sonra isə onların Azərbaycan türkcəsində qarşılığı yazılmışdır. Maraqlı cəhətlərdən biri də odur ki, müəlliflər atalar sözlərində işlənən milli sözlərin izahını da mətnə əlavə etmişlər. Məsələn, "plov", "halva", "umac", "əriştə", "molla", "doşab", "ayran", "zəfəran", "küftə", "südlü aş" və s. kimi sırf Azərbaycan sözləri ilə bağlı zəruri açıqlamalar da verilmişdir. Bu da göstərilən sözlərin işləndiyi Azərbaycan atalar sözlərinin daha dərindən başa düşülməsinə kömək etmişdir. Məsələn:

"Özünə umac ova bilmir, başqasına əriştə kəsir" - "He can't crumble dumplings for himself, yet he cuts noodles for others"

"Refers to people who can't do the simplest things for themselves but who insist on advising others about complex matters" ("Bu misal o şəxslərə aid edilir ki, özü sadə bir işi bacara bilmir, başqalarına daha çətin işlərdə məsləhət verir") (145, 36).

"Doşab aldım, bal çıxdı" - "I bought doshab, it turned out to be honey".

"Doshab is a thick syrup made from boiling grape juice. This expression means something turned out better than expected. For example, a mother-in-law might say this about her daughter-in-law of whom she is very pleased" ("Doşab qaynadılmış üzüm şirəsindən hazırlanan qatı şirədir. Bu ifadə gözlənildiyindən daha yaxşı nəticə alındıqda işlədilir. Məsələn, qayınana bu məsəli razı qaldığı gəlini haqqında deyə bilər") (145, 36).

"Halva-halva deməklə ağız şirin olmaz" - "Your mouth won't get sweet just by saying halva-halva"

"Halva is a traditional sweet but you have to work to create it. There is no magic" ("Halva ənənəvi şirniyyatdır, ancaq onu hazırlamaq üçün işləmək lazımdır. Burda heç bir möcüzə yoxdur") (145, 37).

"Azerbaijan İnternational" jurnalında Azərbaycan folklor nümunələrindən biri olan meyxana haqqında da məlumat verilmişdir (159, 74). Burada göstərilir ki, meyxananın kökü qədimdir və ola bilsin ki, meyxana sufi ənənələri ilə bağlıdır. Azərbaycanda meyxana daha çox Abşeron yarımadasında yayılmışdır. Meyxananın da başqa folklor nümunələri kimi bir sıra özəllikləri var. Meyxanada əsas prinsiplərdən biri gözlənilməzlikdir. Meyxana söyləyən şəxs əvvəlcədən, heç bir hazırlıq görmədən, bədahətən deyilmiş qafiyəyə uyğun şeir söyləyir. Meyxanada ən azı iki nəfər iştirak edir. Onlardan biri dörd və ya beş misralıq bir bənd söyləyir, o biri meyxanaçı da bu bəndin qafiyəsinə uyğun şeir söyləməlidir.

Meyxananın mövzusu da müxtəlifdir. Burada mövzular pulla, qadınla, maşınla, işlə, məişət məsələri ilə, siyasi işlərlə, eləcə də müasir məsələlər ilə bağlı ola bilər. Meyxanada əsas məsələlərdən biri qafiyə və ritmdir. Meyxananın dili danışıq dilidir. Bəzən başqa bir xarici dildə olan sözlər də meyxanada işlədilə bilər. Meyxana oxunuşu bəzən bir neçə saat davam edə bilər. Bir sıra ustadların fikrinə görə, meyxana Allahın verdiyi bir nemətdir.

Bilindiyi kimi, sovet dövründə meyxana qadağan edilmişdi. Ancaq bir sıra şəxslər xüsusi evlərdə meyxana söyləyə bilirdilər. Sovet dövründə meyxananın qadağan edilməsinin də bir neçə səbəbi var idi. Bu rejimin ideologiyasına görə, meyxana qərb şeirlərini xatırladır, meyxananın ərəb qrafikası və İslam dini ilə bağlılığı var. Bu dövrdə meyxananın qadağan olunmasının başqa bir səbəbi də meyxanada söylənilən şeirlərin satirik məzmunlu olmasıdır. Nəhayət, meyxana insanları bir araya topladığına görə, Sovet rejimi onu qəbul etmirdi. Jurnalda meyxananın inkişafının üç mərhələsi göstərilmişdir:

Birinci mərhələ qədim dövrdən başlayaraq 1920-ci ilədək davam edən dövrdür. İkinci mərhələ Sovet dövrünü əhatə edir. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yazılmış meyxanalar isə üçüncü dövrə aid edilir.

Birinci mərhələdə Azərbaycanda meyxana bir folklor janrı kimi sərbəst olub. Sovet dövründə qadağan olması səbəbilə meyxanaya xüsusi bir maraq göstərilib. Bu gün isə meyxana söyləyənlərin sayı həddən artıq çoxdur. Müəlliflər meyxana ilə rep arasında bir uyğunluq da görürlər.

Jurnalda meyxana ilə bağlı verilmiş məqalənin sonunda Azərbaycanın məşhur meyxana ustalarından Ağasəlim Səlimovun "Pul" adlı meyxanasının Azərbaycan dilində mətni və ingilis dilinə tərcüməsi verilmişdir. Aşağıda bu meyxanadan bir bəndin Azərbaycan dilinə mətni və ingilis dilində tərcüməsi təqdim edilir:

**Kasıb gecə puldan ötrü yatmayır,**
**Arzuları çoxdur, ona çatmayır,**
**Çox axtarır, kasıb pulu tapmayır.**
**Ona düşməndi köpək oğlunun pulu!**

**A poor man doesn't sleep at night because he needs money.**
**He has so many wishes, but they don't come true.**
**He looks for money so long but can't find it,**
**Money, son of a bitch, is the enemy of the poor! (159, 74)**

Jurnalda Azərbaycan folklorunun ən dəyərli nümunələrindən biri olan yanıltmaclar (tongue twisters) haqqında da qısa məlumat və nümunələr verilmişdir. Bu qısa məlumatda göstərilir ki, yanıltmaclar uşaqların nitq mədəniyyətinin inkişafında önəmli yer tutur. Yanıltmacların yumorlu məzmunu olur. Yanıltmac söyləyərkən uşaq sürətlə, dayanmadan, yanılmadan mətni söyləməlidir.

Jurnalda iki Azərbaycan yanıltmacı da ingilis dilinə tərcümə edilmişdir (179, 79). Təbii ki, yanıltmacı ingilis dilinə tərcümə etmək çox çətindir. Ancaq bu yanıltmacların məzmunu ingilis dilində oxucuya çatdırılmış, bir sıra hallarda isə yanıltmacın tər-

cümə prinsiplərinə əməl edilməmişdir. Biz bir yanıltmacı və onun ingilis dilinə tərcüməsinin mətnini təqdim edirik:

**Ay axsaq aşpaz Abbas,**
**Aşpazlar axşama aş bişirir,**
**Sən də get aş bişir,**
**Ay axsaq aşpaz Abbas.**

**Hey, limping cook Abbas,**
**The cooks are making pilaf for supper,**
**You go and make pilaf, too,**
**Hey, limping cook Abbas. (179, 79)**

Jurnalda Azərbaycan əfsanələri ilə bağlı məlumat da verilmişdir (134, 11). B.Bleyr Azərbaycan əfsanələrinin xarakteri, mövzusu, ideyası, başlıca obrazları haqqında qısa məlumat təqdim etmişdir. O, Azərbaycan əfsanələrini bir milli dəyər kimi qiymətləndirmişdir. Müəllif məqaləsində nağıl və dastan qəhrəmanlarına, div, quş, uçan xalça obrazlarına ayrıca yer ayırmışdır. Azərbaycan dastanlarındakı əfsanəvi motivləri, qəhrəmanları qısa təhlil etmişdir.

"Sumqayıt" və "Ceyranbatan"la bağlı əfsanələrin mətni F.Axundov tərəfindən ingilis dilinə çevirilmişdir (121, 51).

Jurnalda Azərbaycan türklərinin inancları ilə bağlı verilən məlumatlarda göstərilir ki, azərbaycanlılar qədim dövrdən başlayaraq bu günədək bir sıra inanclarını qoruyub saxlayırlar. Məsələn, inanclarla bağlı məqalə yazan Cin Peterson və Arzu Ağayeva göstərirlər ki, azərbaycanlılar bəd nəzərə inanırlar və ondan qorunmaq üçün bir sıra vasitələrdən istifadə edirlər. Bu vasitələr sırasında göz müncuğu, üzərlik, dəvə tükü, göy muncuq, dağdağan ağacı xüsusi yer tutur. Məqalədə bunların hər biri ilə bağlı qısa məlumat verilmişdir (170, 55-56).

Jurnalda Azərbaycan uşaq nağılları ilə bağlı qısa məlumat verilmiş, bir sıra uşaq nağılları nümunələri ("Cırtdan", "Göyərçin necə sülh quşu oldu?" və Abdulla Şaiqin yazdığı "Hiyləgər tülkü" və "Tülkü həccə gedir" adlı nağıllar) ingilis dilinə tərcümə edilmişdir (139, 76).

Azərbaycan uşaq nağılları ilə bağlı verilən məlumatda bildirilir ki, bu nağıllar uşaqların duyğu və düşüncələrini inkişaf etdirir, xeyirlə şər arasında gedən mübarizədə xeyirin qalib gəlməsi uşaqlarda ədalət duyğusu yaradır. Azərbaycan uşaq nağıllarını mövzu və ideyasına görə bir sıra Avropa uşaq nağılları ilə müqayisə edilir.

Son zamanlar Azərbaycan ədəbiyyatı, mifologiyası və folkloru ilə bağlı ingilis dilində yazılan məqalələrin sayı xeyli artmışdır. Azərbaycan alimləri milli ədəbiyyatın, folklorun və mifologiyanın ayrı-ayrı problemləri ilə bağlı ingilis dilində bir sıra məqalələr çap etdirmişdir. Bu məqalələr arasında aşağıda adları göstərilənlər ayrıca yer tutur:

T.Hacıyev "Myth, allegory and history in written belles-letters", F.Qasımzadə "About myths matter", A.Nəbiyev "About the sources of Azerbaijanian mythology", K.Allahyarov "Mythological geographical sources about Zoroaster’s native land", M.Qasımlı "Mythological and historical status of "Gorgud's" image on Turkish epic thought", C.Nağıyev "One mythical Korean hero and Korean-Azerbaijanian myth-folklore relations", Q.Namazov "Cosmogonic myth", P.Xəlilov "Myth, nation, fiction", Ə.Ramiz "Turkic mythology and new world order", E.Əzizov "The ancient Turkic legend and Azerbaijan folklore", M.Fərəcova "Myth and legends in the rock pictures of Azerbaijan", Z.Həsənov "Historical and mythological parallels between the legend of Herodotus about Cimmerians and "sons of blind slaves" and epos "Koroglu", İ.Nəcəfova "Attention to the Moon in ancient Azerbaijan and Korea" və s.

T.Hacıyevin göstərilən məqaləsində folklor, mif, alleqoriya və yazılı macəra arasındakı əlaqə problemi şərh edilmişdir. Alim, bu məqalədə ayrı-ayrı xalqların mifologiyasında olan oxşarlıqlara yer vermiş və IX əsrdə yazılmış "Şan Qızı Dastanı"na xüsusi yer ayırmışdır (152, 91-93).

M. Qasımlının "Türk epik düşüncəsində "Qorqud"un mifoloji və tarixi statusu" adlı məqaləsində göstərilir ki, Dədə Qorqud türk etnik-mədəni sisteminin qoruyucusudur. Dədə Qorqud Allahın göndərdiyi bir elçidir. Alimə görə, "Dədə Qorqud" adı üç mərhələdən keçmişdir: mifoloji mərhələ, epik mərhələ, dəyişmə (deformativ) mərhələsi. Alim hər üç mərhələnin xüsusiyyətlərini açıqlamışdır (146, 88-91).

K.Allahyarov göstərilən məqaləsində Zərdüştün doğma vətəninin mifoloji və coğrafi qaynaqlarını şərh etmişdir (124, 100-103).

F.Qasımzadənin "Mif məsələləri" və P.Xəlilovun "Mif, millət və macəra" adlı məqalələrində, ümumiyyətlə, mifologiya ilə bağlı məsələlər, mifologiya ilə folklor arasındakı əlaqələr qısaca şərh edilmişdir (147, 85-87; 156, 103-104).

A.Nəbiyevin "Azərbaycan mifologiyasının qaynaqları haqqında" adlı məqaləsində Azərbaycan mifologiyasının mərhələləri şərh olunmuş, Azərbaycan mifoloji düşüncəsinin türk, eləcə də bir sıra dünya xalqlarının mifologiyası ilə əlaqələri tezis şəklində şərh edilmişdir (163, 118-120).

C.Nağıyev "Bir Koreya mifik qəhrəmanı və Koreya-Azərbaycan mif-folklor əlaqələri" adlı məqaləsində Koreya xalqı arasında yayılmış olan şamançılıq ənənələri ilə Azərbaycan mifologiyasındakı şamançılıq düşüncəsi arasında olan əlaqələr göstərilmişdir (164, 120-122).

Q.Namazov isə "Kosmoqonik miflər" adlı məqaləsində bu tipli miflərin mahiyyəti, strukturu və yazılı ədəbiyyatdakı izləri ilə bağlı məlumat vermişdir (166, 122-124).

E.Əzizovun "Qədim türk əfsanəsi və Azərbaycan folkloru" məqaləsində ayrı-ayrı xalqların, o sıradan türklərin əfsanə və

mifologiyasında olan "qurd ana" obrazı təhlil edilmişdir. Bu məqalədə göstərilir ki, qurd türk mifologiyasında uğur və gücün simvoludur. Müəllif türk folklorunda, Göytürk əfsanələrində, "Kitabi-Dədə Qorqud", "Əsli-Kərəm", "Koroğlu" dastanlarında qurd obrazının funksiyalarını göstərmişdir (129, 71-73).

R.Əsgərin "Türk mifologiyası və yeni dünya nizamı" adlı məqaləsində qədim türklərin düşüncəsinin əsas prinsipləri açıqlanmışdır. Bu məqalədə göstərilir ki, qədim türklər Allahın onlara ayrıca bir missiya verdiyinə inanırdılar. Onların düşüncəsinə görə, türk dünya nizamının qurucusu, qoruyucusu və idarəedicisi idi (126, 69-71).

M.Fərəcova "Azərbaycanın daş salnamələrində əfsanələr və miflər" adlı məqaləsində daha çox Qobustan qayalarında olan şəkillərlə onların əfsanəvi və mifoloji qaynaqları arasında olan əlaqələri şərh etmişdir (142, 80-85).

Z.Həsənovun "Koroğlu eposu ilə Heredotun Simmeriyanlar və "Kor qulun oğulları" əfsanəsi arasında tarixi və mifoloji paralellər" adlı məqaləsində "Koroğlu" dastanı ilə qədim yunan əfsanələri arasında olan bir sıra oxşarlıqlar göstərilmişdir (153, 93-97).

İ.Nəcəfovanın "Qədim Azərbaycan və Koreyada Aya münasibət" adlı məqaləsində bildirilir ki, hər bir xalqın əfsanələrində, mifologiyasında və folklorunda Aya xüsusi bir münasibət var. Müəllifin şərhinə görə, Azərbaycan və Koreya xalqlarının Aya olan münasibətlərində bir sıra oxşarlıqların olması onu göstərir ki, bu iki xalqın dünyagörüşü arasında yaxınlıq var (167, 97-99).

Bu deyilənlərdən aydın olur ki, Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi, folklor nümunələrinin ingilis dilinə tərcüməsi ilə bağlı bir sıra elmi işlər görülmüşdür. Son illərdə isə bu yöndə yazılmış elmi məqalələrin sayı artır. Ancaq bütövlükdə görülən işlər qənaətbəxş deyil. Biz Azərbaycan folklorunun sistemli şəkildə araşdırılması və ingilis dilinə tərcü-

məsi ilə bağlı bir neçə istiqamətdə əsaslı işlər görməliyik. İlk sırada ingilis alimlərinin Azərbaycan folkloru ilə bağlı yazdığı ciddi məqalələr Azərbaycan türkcəsinə tərcümə olunmalıdır.

Azərbaycan folklor nümunələrini ingilis dilinə mükəmməl şəkildə tərcümə edə biləcək, hər iki dili yaxşı bilən mütəxəssis tərcüməçilər hazırlanmalıdır. Milli folklorla bağlı Azərbaycan alimlərinin yazdıqları bir sıra ciddi elmi əsərlər də ingilis dilinə tərcümə edilməlidir. Bundan başqa, Avropanın, ingilisdilli ölkələrin folklor mərkəzləri ilə əlaqələr yaradılmalı, birgə elmi konfranslar keçirilməli, mütəxəssis mübadiləsi olmalıdır. Yalnız bu yolla Azərbaycan folklorunu dünya mədəniyyətinin çox önəmli bir hissəsi kimi təqdim etmək mümkündür.

# II FƏSİL
# İNGİLİSDİLLİ FOLKLORŞÜNASLIQDA AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATININ ARAŞDIRILMASI

## *2.1. Novruz və "Süd dişi" mərasimlərinin Avropa şərqşünaslığında tədqiqinə dair*

İngilisdilli qaynaqlarda Azərbaycan folkloru ilə bağlı öyrənilən məsələlərdən biri də Novruz bayramıdır. Doğrudur, bu bayramla bağlı ingilisdilli qaynaqlarda elə də çox mənbə yoxdur. Novruzla bağlı olan məqalələr, əsasən, İran alimləri tərəfindən yazılmışdır. Bu məqalələrdən biri Əli Şəriətiyə məxsusdur (176).

Biz Əli Şəriətinin Novruz bayramı ilə bağlı yazdığı məqaləsini təhlil etmədən öncə onu deməliyik ki, bu məqalə ciddi bir araşdırma sayıla bilməz. Məqalə daha çox publisistik üslubda yazılmışdır. Doğrudur, müəllif yeri gəldikcə tarixi faktlardan da istifadə etmişdir. O, bu məqalədə qədim adət-ənənələrin, xalqların varlığının qorunmasında onların rolunu göstərmişdir.

Novruz bayramı hər il eyni vaxtda təkrar olunur. Ancaq bu təkrar olunma bizi bezdirmir. Çünki xalqların, təbiətin, cəmiyyətin, tarixin təkrara ehtiyacı var. Bu təkrar nəticəsində xalq sanki yenidən canlanır, özünə qayıdır, öz dəyərlərini yenidən öyrənir və yaşamaq, inkişaf etmək üçün güc qazanır.

Novruz bayramı təntənə ilə keçirildiyi üçün demək olar ki, cəmiyyətin bütün təbəqələri bu mərasimdə iştirak edir və hər kəs özündə bir yeniləşmə duyur.

Novruz bayramının önəminin biri də odur ki, bu bayramda keçmişi, zəruri olanı xatırlatma gücü var. İnsanlar onlar üçün önəmli olan dəyərləri hər il yenidən xatırlayırlar və bu dəyərləri yaşatmağa çalışırlar, onlara ehtiyaclarını hiss edirlər.

Müəllifə görə, Novruz istirahət və əyləncə bayramı deyil. Novruz əcdadlarla əlaqə qurmaq, onlardan güc almaq bayramıdır.

Əli Şəriəti Novruz bayramının tarixi ilə bağlı da qısa bilgi vermişdir. Ona görə, bu bayramın yaşını müəyyən etmək çətindir. Novruz təbiətin bayramıdır. O, İslamdan qabaq da, sonra da - hər zaman keçirilmişdir. Ürəyində bu bayrama böyük sevgi olduğundan xalq ayrı-ayrı dövrlərdəki qadağalara, zülmə, qanlı qırğınlara baxmayaraq, hər zaman Novruz bayramını şəraitə uyğun olaraq gizli və açıq şəkildə qeyd etmişdir.

Əli Şəriəti Novruzun tarixi ilə bağlı iki fakta xüsusi diqqət yetirmişdir. Ona görə, İslam xəlifələrindən hz. Əlinin taxta çıxması da Novruz gününə təsadüf etmişdir. Müsəlmanların Şiə məzhəbi bu faktdan yararlanaraq, Novruzu daha da təntənəli keçirmişdir. Yəni İslam dini bu bayramı qadağan etməmişdir.

Novruzla bağlı başqa bir fakt da odur ki, Səfəvi şahları bu bayramı təntənəli şəkildə qeyd etmişlər.

Daha sonra Əli Şəriəti Novruzla bağlı olan adətlərə də toxunmuşdur. Allah təbiətin bu mərhələsini elə yaratmışdır ki, Novruz bayramında gecə ilə gündüz bərabərləşmiş, insanların xoşlamadığı qış sona çatmış, yeni, günəşli, barlı-bərəkətli bir mərhələ başlamışdır. Bu mərhələdə təbiət canlanır, ağaclar çiçək açır, insanlar əkməyə, becərməyə başlayır, insanların qəlbində sevgi duyğuları oyanır və hər şey yeniləşir. İnsanlar qurmaq, yaratmaq, işləmək istəyirlər. Onlar təbiətin oyanmasından güc alırlar. Elə bil ki, hər şey cavanlaşır. Beləliklə, insanlar təbiətin bu yeni mərhələsini qeyd etmək, yadda saxlamaq, onu nəsildən-nəslə ötürmək istəyirlər.

Əli Şəriətiyə görə, bir cəmiyyət, bir millət yaşamaq, diri qalmaq, əbədi olmaq istəyirsə, öz adət-ənənələrinə sadiq olmalıdır. Öz adət-ənənələrindən uzaqlaşan millətlər tarix səhnəsindən silinirlər. Ancaq bizim Novruz bayramımız var və biz bu bayramı dərindən öyrənsək, onu bütün varlığımızla qeyd etsək, onu ürəkdən sevsək, bu bayram bizi əbədi olaraq qoruyacaq və yaşadacaq.

Əli Şəriətinin "Novruz" adlı məqaləsindən çıxan nəticənin biri də budur ki, bu bayram yalnız folklorla bağlı mərasim deyil,

onun siyasi, sosial, etnoqrafik və mədəni dəyərləri də vardır. Bu bayram milli düşüncənin tərkib hissəsidir, o, insanları birləşdirir, onlar arasında milli birlik yaradır. Novruz bayramı sevgi, paylaşma, yardımlaşma, tarixdən, adət-ənənədən güc alma bayramıdır.

İngilisdilli qaynaqlarda Azərbaycan folklorunu təhlil edərkən onu ilk sırada ayrı-ayrı türk xalqlarının şifahi ədəbiyyatı ilə, eləcə də dünya xalqlarının folklor nümunələri ilə müqayisə etməyə çalışmışlar. Belə maraqlı araşdırmalardan biri "süd dişi" folkloru ilə bağlıdır. Bu barədə yazılmış məqalənin müəllifi İnqvar Svanberqdir. Məqalə "Türk və qohum xalqlar arasında diş folkloru" ("The Folklore of Teeth Among Turkic and Adjacent Peoples") adlanır (178). Bu məqalədə müəllif uşaq həyatının ilk addımının çox önəmli olduğunu bildirir. Dünyanın ayrı-ayrı xalqlarında uşağın ilk addımı müxtəlif törənlərlə qeyd olunur. Məsələn, Bosniya müsəlmanlarında yerimək istəyən uşaq ilk addımını anasının bişirdiyi piroqa doğru atır, sonra bu piroq yeyilir. Qazaxlarda isə ilk addımını atmağa çalışan uşağın ayaqları atın yalının tükü ilə bağlanılır, sonra iti yeriyən bir adam bu bağı kəsir. Bolqar türkləri beşikdə olan uşağın arxasına kiçik budaq bağlayırlır. Onların arzusu budur ki, uşaq bacarıqlı olsun.

Ayrı-ayrı xalqlar arasında uşağın ilk dişi, ya da süd dişi ilə bağlı inanclar da var. Bu inanclara görə (tibb elmi də bunu sübut edir) körpənin süd dişinin formalaşması ana bətnində 4-6 aylıq olarkən başlayır. Uşaq doğulandan sonra 6-30 ay ərzində süd dişi çıxır. Ancaq bir sıra uşaqlar süd dişi ilə doğulurlar.

Alim süd dişi ilə bağlı inancların Avropada ruslar, ingilislər, almanlar, hollandlar, isveçlər, ispanlar, yunanlar, fransızlar, albanlar, Şərqdə isə türk xalqları və bir sıra başqa xalqlar arasında yayıldığını göstərir. Bu dillərdə "süd dişi" müəyyən qədər fərqli sözlərlə ifadə edilsə də, əslində, hamısını eyni məna birləşdirir. Məsələn, Anadolu türkləri ilk dişə "süt dişi", Əfqanıstan özbəkləri "süt tişi", Sinkianqdan olan qazaxlar "süt tişi", ta-

tarlar "söt teşe", qaqauzlar "süt dişi", qaraqalpaklar "süt tisi", Azərbaycan türkləri "süd dişi", qırğızlar "süt tişi", xakaslar "süt tisi", çüvaşlar "set şale" deyirlər. Bundan başqa, Anadolu türkləri "süd dişi" əvəzinə "kuzu dişi", Çaxar monqolları "xoryan şüd", qazaxlar "uvuz tis", Fərqanə özbəkləri isə "ana tişi" və "kiçkinalik tişi" (ana dişi, ya da uşaqlıq dişi), "kuyuklik tişi" deyirlər (178, 113).

Türkmənlər süd dişinə "çaqalik dişleri", tuvinlər "dijeer dişter", Şərqi Sibirin Abakan ərazisində yaşayan qazaxlar "imcek tişi", Altay tatarları "amcek balaniq tiji" deyirlər (178, 114).

Dünyanın bir sıra xalqlarında təkcə süd dişinin çıxmasını deyil, onun düşməsini də mərasimlə qeyd edirlər. Bu mərasim də ümumi xarakter daşıyır. Bir sıra xalqlar süd dişi düşəndə onu oda, başqaları dama, bir başqaları dənizə atır. Bir sıra xalqlar isə düşmüş süd dişini yandırırlar. Başqa xalqlar diş düşərkən fərqli heyvanlardan yardım istəyirlər. Bu istəyin məzmunu odur ki, heyvan düşmüş dişi götürsün, onun yerinə daha sağlam diş versin.

İnqvar Svanberq məqaləsində dünyanın ayrı-ayrı ölkələrində süd dişi ilə bağlı tədqiqat yazmış alimlərin və onların məqalələrinin adlarını çəkir. Biz bu araşdırmaların önəmini nəzərə alaraq onların bir qisminin adını qeyd etməyi lazım bilirik:

J.G.Frazer, 1932: The Golden Bough I: The Magic Art. London, pp. 50-53; J.Tanner, 1968: "The teeth in folklore." Western Folklore, 27, pp. 97-105; L.Kanner, 1927: "Folklore of the Teeth XII. The Fate of the Cast Deciduos Teeth" The Dental Cosmos. A Monthly Record of Dental Sciences, 69, № 3, pp. 293-297; B.H.Granger,1961: "Of the Teeth", Journal of American Folklore, 74, pp. 47-56; J.de Vries, 1930: "Le premier de la dent" Revue Anthropologique, 40, pp. 82-89; H.Ploss, 1912: Das Kind in Brauch und Sitte der Völker, Bd. 2. Leipzig, pp. 52-63; H.Boers-Daugaard, 1954: Folketro om taender, tandmidler og tandebehandling hos almuen i Danmark. Kobenhavn; H.E.Hauge, 1961: "Traditioner kring tandfallningen", Arv, 16.

pp. 144-154; I.Svanberg & J.Panayo: "Tradiciones en torno al desprendimiento del diente de leche en Latinoamerica"; M.Casanova, 1975: "La dent au folklore romand vue a travers le glossaire de la suisse romande", Folklore Suisse, 65, pp. 53-60.

Tədqiqatçının müşahidələrinə görə, Balkanların şimalında və Anadoluda süd dişi evin damına atılır və quşa, daha çox isə qarğaya müraciət olunur. Bu variant Bolqarıstanda da yayılmışdır. Onlar bu deyilən qaydanı yerinə yetirdikdən sonra qarğaya belə müraciət edirlər:

**"Al karka, çürük dişi,**
**Ver bana yeni dişi" (178, 119)**

Bu müraciətin başqa bir forması belədir:

**"Al benim çürük dişimi,**
**Ver bana inci dişimi,**
**Ak bit, pak bit,**
**Koyun dişi kibi sık bit" (178, 119)**

Antaliyada isə belə bir formadan istifadə edirlər:

**"Al mənim çürük dişimi,**
**Ver mənə inci dişimi" (178, 119)**

Bir sıra hallarda müraciətdə "çürük diş" ifadəsi "dəmir diş"lə əvəz olunur:

**"Al bu çürük dişi,**
**Ver mənə dəmir dişi"**
**"Al çürük diş,**
**Ver dəmir diş"**
**"Al qarğa bu dişi,**
**Ver mənə dəmir dişi" (178, 120)**

Çanaqqalada bir qədər fərqli müraciət forması var:

**"Al karğa bu kömür dişi,**
**Getir bana demir dişi" (178, 120)**

Bu müraciət forması Bolqar türklərində də var:

**"Al benim kömür dişimi,**
**Ver benim demir dişimi" (178, 120)**

Adətən dişi dama atanda qarğa çağrılır:

**"Karqa, al bu dişi,**
**Yenisini getir"**
**"Karqa, bu dişi al,**
**Yenisini, sağlamını getir"**
**"Karqa, karqa, götür bu dişi,**
**Getir yerinə yenisini" (178, 120)**

Bu müraciət forması bolqar türklərində də var:

**"Karqa, al bu çürük dişimi,**
**Ver bana gümüş dişimi" (178, 120)**

Yunan türkləri də bu formadan istifadə edirlər:

**"Karqa, eski dişi al,**
**Yenisini getir bana" (178, 120)**

Anadoluda yaşayan qaraçılar arasında da buna oxşar müraciət formaları var:

**"Al karqa bu dişi,**
**Ver bana pirinc dişi" (178, 121)**

Bir sıra hallarda isə qarğa başqa quşla əvəz olunur:

**"Leylinin dişi dönür olsun,**
**Benim dişim demir olsun" (178, 121)**

Krım tatarları isə belə müraciət formasından istifadə edirlər:

**"Ey kuş, sana dişi veriyorum,**
**Bana yeni bir diş getir" (178, 121)**

Nadir hallarda şeytana da müraciət olunur:

**"Şeytan, al bu dişi,**
**Ver bana altun dişi" (178, 121)**

Türkiyənin bir sıra bölgələrində belə formadan istifadə olunur:

**"Yerine çıxacaq diş**
**Düzgün çıxsın deye attım dişimi çatıya" (178, 121)**
**Aftar türkmənləri isə belə müraciət edirlər:**

**"Kuzu dişinden ak bit,**
**Köpək dişinden pek bit" (178, 121)**

Mərkəzi Asiya xalqları arasında süd dişinin siçan yuvasına qoyulması adəti geniş yayılmışdır. Bu adət Anadolu türkləri arasında da var. Alim bununla bağlı Ankara və Samsunda yaşayan türklərdən topladığı iki nümunəni təqdim edir:

**"Farenin dişi benim olsun,**
**Benimki farenin olsun"**
**"Ey fare, sana əski bir diş veriyorum,**
**Bana yenisini getir" (178, 129)**

Alimin araşdırmasına görə, Mərkəzi Avropada yaşayan Qaraim türkləri və onlarla qonşuluqda yaşayan xalqlar süd dişini siçana verərək, ona belə müraciət edirlər:

**"Siçan, siçan, bu ağ dişi götür,**
**Mənə dəmir diş ver" (178, 130)**

Finlandiyada yaşayan tatarlar süd dişini sobanın arxasına atırlar. Fin tatarlarının arasında belə bir adət də var: onlar süd dişini bir bağlamada saxlayırlar və uşaq böyüyəndə ona göstərib, uşaqlığını xatırladırlar. Bolqarıstanda yaşayan qaqauzlar isə süd dişini atarkən qarğaya müraciət edirlər:

**"Karqa, karqa, na sana kemik diş,**
**Ver bana demir diş" (178, 131)**

Fərqanə özbəkləri süd dişini dama ataraq belə deyirlər:

**"Əskisini al,**
**Yenisini getir" (178, 131)**

Alim araşdırmasında Azərbaycan türklərinin süd dişi ilə bağlı deyimlərinə də yer ayırıb. Onun bildirdiyinə görə, bu adət Təbrizdə Azərbaycan türkləri arasında geniş yayılıb. Təbriz türkləri süd dişini dama atırlar və qarğaya müraciət edirlər:

**"Qarğa, mənə diş yetir,**
**Ağzında yemiş yetir" (178, 131)**

Bu adət Mərkəzi Asiya türkləri arasında da geniş yayılıb. Qazaxların bir qrupu süd dişini südə qoyurlar və itə verirlər. Onlar

itə belə müraciət edirlər: "Mənim pis dişimi sən al, mənə yaxşı diş ver". Qazaxların başqa bir qrupu isə süd dişini yaxınlıqda olan deşiyə qoyurlar və belə deyirlər: "Rəhman və rəhim olan Allahın adı ilə! Balamın bütün arzularını yerinə yetir, Allah!". Başqa qazaxlar isə süd dişini otun, ya da parçanın içinə qoyub, çadırda (yurdda) saxlayırlar. Digərləri isə süd dişini basdırırlar. Uyğur türkləri süd dişini göbək bağı (cift) ilə birgə saxlayırlar (178, 133).

Alimin düşüncəsinə görə, zaman keçdikcə və ya köç nəticəsində süd dişi ilə bağlı bir sıra adətlər dəyişir.

Uşağın birinci dişinin çıxması ilə bağlı mərasim keçirilməsi adəti türklər arasında geniş yayılıb. Adətən qonşular uşağa şirniyyat alırlar, uşağın anası isə xüsusi şirniyyat hazırlayır, bu şirniyyat "diş buğdası", ya da "irmik halvası" adlanır. Bu şirniyyat qənddən, yarmadan və kişmişdən hazırlanır. Çox zaman bu mərasim "diş buğdası" adlanır. Adətə görə, uşağın dişinin çıxdığını birinci görən şəxs "diş anası", ya da "diş atası" adlandırılır. Uşağın ilk dişini görən adam ona hədiyyə verməlidir. Sonra qonşuluqdakı qadın mərasimə dəvət olunur, ana ilə birlikdə çörək bişirilir və çörəyin bir hissəsinin içərisinə xırda pul qoyulur. Onlar düşünürlər ki, kim bu xırda pulu tapsa, uğur qazanacaq. Sonra bir daraq, bir cüt qayçı və bir qələm məcməyiyə qoyulur. Uşağa təklif olunur ki, bunlardan birini götürsün. Əgər uşaq qayçını götürərsə, deməli, o dərzi olacaq.

Birinci dişlə bağlı keçirilən mərasimlər başqa türk xalqları arasında da yayılmışdır. Məsələn, qazaxlar, uyğurlar uşağın birinci dişi çıxanda halva bişirirlər. Sonra uşaq qoyuna mindirilir və qoyun otlayanda belə deyirlər: "Qoyunun dişi kimi güclü olsun" (178, 136).

İnqvar Svanberqin "Türk və qohum xalqlar arasında diş folkloru" ("The Folklore of Teeth Among Turkic and Adjacent Peoples") məqaləsinin təhlili bir sıra nəticələr çıxarmağa əsas verir. Öncə onu deməliyik ki, alim bu məqaləni çoxsaylı qaynaq-

lar və bilgilər əsasında yazmışdır. O, demək olar ki, əksər xalqların folklorunda olan süd dişi ilə bağlı adətləri tədqiqata daxil etmişdir. Bu araşdırmadan aydın olur ki, süd dişi folkloru dünyanın əksər xalqlarında var. Süd dişi ilə bağlı inanclar, onunla bağlı keçirilən mərasimlər, müraciət formaları arasında ümumi cəhətlər çoxdur. Qədim insanlar süd dişinin çıxmasını uşağın həyatında önəmli bir mərhələ sayır, onun artıq böyüdüyünün göstəricisi hesab edirdilər. Süd dişi folklorunda diqqəti çəkən məsələlərdən biri də odur ki, insanlar süd dişinin düşməsi və ya dişin çıxması ilə bağlı keçirilən mərasimlərdə uşağın gələcəyinə dair arzularını da ifadə edirlər. Biz ayrı-ayrı xalqların folklorunda olan bu məsələ ilə bağlı ortaq cəhətləri belə ümumiləşdirə bilərik:

- demək olar ki, bütün xalqlarda süd dişinin, ilk dişin çıxması ilə bağlı folklor var;
- bütün xalqlar süd dişini gizləməyə çalışırlar, onun bir kimsənin əlinə keçməsini istəmirlər və bu iş fərqli yollarla həyata keçirilir. Kimisi dişi dama atır, kimisi oda, suya atır, bir başqası siçan deşiyində gizləyir və s. Görünür, bu ənənənin də bir hikməti var. Bizcə, bu adət uşağın sağlam və təhlükəsiz böyüməsini təmin etmək məqsədi güdür;
- süd dişinin düşməsi və yeni dişin çıxması ilə bağlı demək olar ki, bütün xalqlar mərasim keçirirlər;
- bütün xalqlarda uşağın süd dişi düşərkən ritmik formada ayrı-ayrı varlıqlara müraciət olunur (siçana, quşa, heyvana, günəşə, suya və s.);
- süd dişi folkloru türk xalqları arasında daha geniş yayılmışdır.

Bizcə, süd dişi folklorunun başlıca ideyası odur ki, insanlar övlad sahibi olmaq istəyir, bu övladın sağlam olmasını, yaşamasını, bir peşə qazanmasını arzu edirlər. Uşaq həyatının ən çətin mərhələsi süd dişinin düşməsi, ilk dişin çıxması dövrüdür. Uşağın süd dişi düşdüsə, yeni diş çıxdısa, deməli, əsas çətinliklər arxada qaldı, uşaq yaşayacaq və bu yolla da nəsil davam edəcək, ata-ananın arzusu gerçəkləşəcək.

### 2.2. "Kitabi-Dədə-Qorqud" və "Koroğlu" eposları haqqında Qərb şərqşünaslarının tədqiqatı

İngilisdilli qaynaqlarda ən çox araşdırılan, öyrənilən dastan "Kitabi-Dədə Qorqud"dur. Bilindiyi kimi, "Kitabi-Dədə Qorqud" dastanı ingilis dilinə bir neçə dəfə tərcümə olunmuş (143; 158; 160) və bu mövzu ilə bağlı çoxsaylı məqalələr yazılmışdır. "Kitabi-Dədə Qorqud"un ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı ayrıca dissertasiya yazıldığına görə (96), biz bu məsələ barəsində geniş araşdırmaya ehtiyac duymuruq. Ancaq bu mövzu çox önəmli və geniş olduğuna görə ingilisdilli qaynaqlardan topladığımız materiallar əsasında bir sıra önəmli saydığımız məsələlərə toxunmaq istəyirik. Bu məsələlərdən biri ingilisdilli qaynaqlarda "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanlarının türk mifik düşüncəsi ilə bağlılığının öyrənilməsinə aiddir.

Türk alimi professor Ahmed Edib Uysal "Dastanlarımızdan Dədə Qorqud hekayələri ilə "Koroğlu"da fövqəltəbii ünsürlər" adlı məqalə yazıb, bu məqaləni ingilis və türk dillərində "Erdem" jurnalında çap etdirmişdir (120).

Məqalədə diqqəti çəkən bir neçə məsələ var. Hər şeydən öncə alim "Kitabi-Dədə Qorqud" dastanı ilə "Koroğlu" dastanını müqayisə etmiş və bu dastanlarda qədim türk düşüncəsi ilə, eləcə də dünya xalqlarının dastanlarında olan mifoloji düşüncə sistemləri ilə bağlılıqların olduğunu göstərmişdir.

Müəllif türk dastanları ilə bağlı ümumi bilgi verdikdən sonra əsasən "Kitabi-Dədə Qorqud" dastanı üzərində ayrıca dayanmış, bir qədər də "Koroğlu" dastanına toxunmuşdur.

Alim bu iki dastanda fövqəltəbii ünsürlər məsələsini dərindən araşdırmasa da, bir sıra önəmli məsələlərə toxunmuşdur. Alimin fikrincə, "Kitabi-Dədə Qorqud"da fövqəltəbii hadisələrin ayrıca yeri var və bu qeyri-adi hadisələr xüsusi məqamlarda ortaya çıxır. Məsələn, dastanda Cəbrail, Şeytan, Nuh, İbrahim peyğəmbər, Nəmrud, Musa, Cənnət, Cəhənnəm kimi anlayışla-

rın təqdimində dini-mifoloji hadisələr özünü göstərir. Dastanın "Dirsə Xan oğlu Buğac Xan" boyunda Dirsə Xanın övlad istəyi ilə bağlı verilən məlumatların təsvirində fövqəltəbii amillərin də yeri var. Burada at üstündə Xızırın gəlməsi, Buğacın yarasına üç dəfə əl çəkilməsi, ana südü ilə dağ çiçəyinin Buğacı ölümdən xilas edəcəyini söyləməsi fövqəltəbii hadisələrlə bağlıdır. Qədim türklərin düşüncəsinə görə, Xızır İslam övliyalarının ən sevilənidir. O, xeyirxah və sevilən insanlar ehtiyac hiss edəndə onların yanına gəlir və onları xilas edir. Bizə görə, bu, qədim türklərin xeyirxahlıq, ədalət, mərhəmət, şəfqət insana sevgi ilə bağlı anlayışlarından irəli gəlir. Buğac haqsız yerə atasına düşmən kimi göstərilmişdir, ədalətsiz olaraq oxla vurulmuşdu və o ölüm ayağında idi. Dastan ədalət, sevgi, mərhəmət anlayışları üzərində qurulduğuna görə, insanları doğruluğun, haqqın qalib gələcəyinə inandırmaq məqsədi ilə Buğacın ölməsi arzu olunmur. Buğac mütləq yaşamalı və bu yolla da haqqın, ədalətin qalib gəlməsi ortaya çıxmalıdır. Buna görə də ilahi hökm özünü göstərir, Xızır yaralı Buğacın yanına gəlir və onu xilas edir. Dastanın bu hissəsindəki qeyri-adi hadisə qədim türklərin Tanrı inancı ilə də sıx bağlıdır. Bu inanca görə, Tanrı sevdiyi qəhrəmanları darda qoymaz, onları çətinlikdən qurtarar. Yaralı Buğaca Xızırın yardımı dastana ilahi bir güc verir. Dastan onu dinləyənlərə güclü təsir edir, onların düşüncəsində ədalətə, doğruluğa, yaxşılığa inam hissi yaradır.

Məsələn, dastanda Buğac yaralanandan sonra anası onun yanına gəlir və belə deyir:

**"Qara qıyma gözlərin uyxu almış, açğıl, axı!...**
**Ol ikicə sünücigin uzun olmış, yığışdır, axı!...**
**Tanrı verən tatlu canın, seyranda imiş, endi dəxi.**
**Üz-gözində canın varsa, oğul, ver xəbər mana!**
**Qara başım qurban olsun, oğul, sana!" (51, 42-43).**

Yeri gəlmişkən, bu hissə ingilis dilinə də çox emosional şəkildə tərcümə edilmişdir:

**"Your slit black eyes now taken by sleep - let them open.**
**Your strong healthy bones have been broken,**
**Your soul all but flown from your frame.**
**If your body retains any life, let me know.**
**Let my poor luckless head be a sacrifice to you…" (120, 37)**

Alimin fikrinə görə, bu şeir parçalarında ifadə olunan düşüncə qədim türklərin inancı ilə bağlıdır. Belə ki, türklər insan ölərkən onun ruhunun bədəndən çıxdığına və bədənin bir daşa çevrilməsinə inanırdılar.

Dastanda fövqəltəbii hadisələrin özünü göstərdiyi boylardan biri də "Salur Qazanın evinin yağmalandığı" boydur. Bu boyda ağac, su, qurd kultları ilə bağlı ifadə edilən fikirlərdə qədim türk insanının inanclarının izləri var. Məsələn, dastanda Qazan Xan su ilə belə danışır:

**"Çağlayaraq qayalardan çıxan su!**
**Ağac gəmiləri atıb-tutan su!**
**Həsən ilə Hüseynin həsrəti su!**
**Bağ ilə bostanın zinəti su!**
**Ayişə ilə Fatimənin baxışı su!**
**Şahanə atların içdiyi su!**
**Qızıl dəvələrin gəlib keçdiyi su!**
**Çevrəsində ağ qoyunların yatdığı su!**
**Yurdumdan bir xəbər bilirsənsə, de mənə!" (51, 255)**

Alimin fikrinə görə, Qazan Xanın suya müraciətində qədim türklərin şamançılıqla bağlı düşüncələrinin izləri açıq-aydın özünü göstərir. Belə ki, qədim türklər suyu müqəddəs sayırdılar, onu insan həyatının ayrılmaz bir parçası hesab edirdilər. Elə buna görə də, türk folklorunda su ilə bağlı çoxsaylı anlayışlar, mifik görüşlər, inanclar, atalar sözləri, deyimlər var. Məsələn, türklər suya and içir, yuxuda su görməyi aydınlıq sayırdı. "Dərdi suya danışarlar", "Su insanın bədənini və ruhunu təmizləyər"

və s. kimi inanclar və bunlarla bağlı folklor materialları son dərəcə çoxdur.

"Kitabi-Dədə Qorqud" dastanında fövqəltəbii hadisələrdən biri də yuxu ilə bağlıdır. Dastanda yuxu xəbərləşmə vasitəsidir, bir növ Tanrı ilə Oğuz igidləri arasında əlaqədir, ünsiyyətdir. Oğuz igidlərinin düşüncəsinə görə, uca Allah onları çox sevir və elə buna görə də, bir sıra xəbərləri yuxuda onlara çatdırır. Məsələn, dastanda Oğuz hökmdarı Bayandır Xan vəziri Qazılıq Qocanı qurtarmaq üçün başda Yeynək olmaqla ən güclü Oğuz igidlərini düşmən üzərinə göndərir. Yeynək düşmənin üzərinə getməmişdən bir gecə əvvəl yuxu görür və yuxusunu Oğuz igidlərinə danışır. Bu yuxuda irəlidə olacaq şeylər ona xəbər verilir:

"Bəylər, dərdli başım-gözüm yatmışkən yuxu gördü. Ala gözümü açanda dünyanı gördüm. Ağ-boz atlar çapdıran alpanları gördüm. Ağ işıqlı igidləri yanıma saldım. Ağ saqqallı Dədə Qorquddan öyüd aldım. Qarşıdakı uca dağları aşdım. İrəlidə uzanan Qara dənizi gördüm. Gəmi düzəltdim, köynəyimi çıxarıb, yelkən qurdum. Qabaqdakı dənizi üzüb keçdim. O tərəfdəki uca dağın bir yanında alnı-başı balqara bənzəyən bir kişi gördüm. Qalxıb yerimdən durdum. Qarğı dilli iti süngümü qapıb, o kişiyə sarı getdim. Qarşıdan o kişiyə sancmaq istədiyim zaman gözucu ona baxdım; tanıdım, Əmən imiş. Dönüb o kişiyə salam verdim. "Oğuz ellərində kimlərdənsən?",-dedim. Göz qapaqlarını qaldırıb, üzümə baxdı. "Oğul, Yeynək, haraya gedirsən?",-dedi. Mən dedim: "Düzmürd qalasına gedirəm. Atam orada dustaq imiş". Burada dayım mənə soyladı:

**Yetdiyim yerə yel yetməzdi.**
**Yeddi dəstə igidlərim**
**Yeni Bayırın qurduna bənzəyirdi.**
**Yeddi kişlə qurulurdu mənim yayım!**
**Qayın budağından yonuldu oxum,**
**Lələkli, qızılı möhürlü oxum!**
**Yel əsdi, yağış yağdı, tufan qopdu,**

**Yeddi dəfə getdimsə də, qalanı ala bilməyib geri döndüm. Məndən igid ola bilməzsən, Yeynəyim, dön!,-dedi" (52, 301).**

Bütövlükdə "Kitabi-Dədə Qoqud" dastanında yuxu və yuxugörmə motivləri geniş yer tutur. Oğuz igidləri çox yatır. Dastanın bir çox yerlərində bəzi Oğuz igidlərinin yeddi gün yatdığı deyilir. Oğuzlar yuxuya "kiçik ölüm" deyirlər.

Dastanın üçüncü boyunda Bamsı Beyrək, on birinci boyunda Salur Qazan yuxuda olarkən əsir götürülür, Seyrək önəmli bir anda yatır, ancaq atı onu oyandırır və o, düşmənə əsir düşməkdən qurtulur. Dastanda bildirilir ki, Oğuz bəylərinin başına gələn bəlaların çoxu onların çox yatması ilə bağlıdır. Salur Qazan evinin düşmənlər tərəfindən yağmalandığını yuxuda görür.

"Kitabi-Dədə Qorqud"da olan fövqəltəbii hadisələrdən biri də Dəli Domrul ilə Əzrayıl arasında olan münasibətlərdə özünü göstərir. Təpəgözlə Basatın münasibətlərini təsvir edən boyda da qədim türk düşüncəsinin izləri var.

Professor Ahmed Edip Uysal məqaləsində "Koroğlu" dastanında olan fövqəltəbii ünsürlərə də qısaca toxunmuşdur. Bilindiyi kimi, bu gün "Kitabi-Dədə Qorqud" dastanları aşıq məclislərində oxunmur, saz və sözlə söylənilmir. Ancaq "Koroğlu" dastanı bu gündə yaşayan bir xalq dastanıdır. Bu mənada "Koroğlu" dastanı "Kitabi-Dədə Qorqud" boylarından fərqlənir.

Alimin dəyərləndirməsinə görə, "Koroğlu" türk xalqının qəhrəmanlıq anlayışının ifadəsidir. Türk qəhrəmanlıq anlayışı isə güc, cəsarət, xeyirsevərlik, nəzakət, alicənablıq və şərəfdir. O, Koroğlunun başqa qəhrəmanlardan seçilən xüsusiyyətlərinə işarə edərək yazır: "Onu başqa qəhrəmanlardan ayıran bir özəllik də saz çalması və bir xalq aşığı olmasıdır. O, həm dostları, həm də düşmənləri ilə olan münasibətlərində tez-tez saz çalır və şeir söyləyir" (120, 43).

Koroğlunun atı da başqa atlardan fərqlənir. Bu at dəryadan çıxmış bir atın törəməsidir. O, sahibinin dilini başa düşür, onunla danışır, baş verəcək təhlükəni xəbər verir. Qırat quş kimi uça

bilir, o ölümsüzdür. Onun sahibi Koroğlu da ölümsüzdür. Koroğlu Xızırın verdiyi dirilik suyunu içmişdir. Bu su ona güc, iradə, yenilməzlik vermişdir. O, bu sudan içərkən suyun bir hissəsini də Qıratın üzərinə tökmüşdü. Əslində, bütün bunlar qeyri-adi hadisələrdir və qədim türklərin mifoloji görüşləri ilə sıx bağlıdır.

Alimin araşdırmalarına görə, Koroğlu bir övliyadır: "Ölməzlik suyu olan abi-həyatı içmiş Qıratın hələ də Koroğlunun yanında - Qırxlar Məclisində olduğu inancı Türkiyədə geniş yayılmışdır. Bolunun Koroğlu Ərənlər kəndində Koroğlunun məzarı var. Bolu xalqı arasında Koroğlunun bir övliya olduğu inancı çox geniş yayılmışdır…" (120, 44).

İngilisdilli qaynaqlarda "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı öyrənilən məsələlərdən biri də bu dastanın poetikası ilə bağlıdır. Türk folkloru, o sıradan "Kitabi-Dədə Qorqud"la bağlı ciddi araşdırmalar yazmış professor İlhan Başgöz bir məqaləsində "Kitabi-Dədə Qorqud" dastanında olan bədii təsvir və ifadə vasitələrini araşdırmış, ayrıca olaraq epitetləri tədqiq etmişdir (131).

Onun görüşünə görə, "Kitabi-Dədə Qorqud" dastanındakı epitetlər burada təsvir olunan insan xarakterlərini təqdim etmək üçün istifadə olunmuşdur. O, bu epitetləri iki yerə bölmüşdür. Birinci qrupa daxil olan epitetlər sadə və mürəkkəb epitetlərdir. Bu epitetlər sifətlərdən, ya da isimlərdən, eləcə də sifət və isimin birləşməsindən yaranır. Məsələn, Qara Günə, Dəli Domrul, Şir Şəmsəddin, At ağuzlu Aruz, Qaracuk Dağının Qurdu Bayandır Xan kimi birləşmələr bu qəbildəndir.

İkinci tip epitetlər isə geniş yayılmış, formula çevrilmiş epitetlərdir. Bu epitetlər fərdlərin xarakterini müəyyən edir, adətən bir neçə sifət birləşməsindən ibarət olur. Bu epitetlər bir sıra hallarda birinci növ epitetlərlə bağlı olaraq işlənə bilir.

Alim bu məsələ ilə bağlı yazır: "Dastanda Oğuz cəngavərləri, kişi və qadınların hamısının epiteti var. Dastandakı yetmiş bir xarakterdən yalnız ikisi epitetsiz verilmişdir" (131, 26).

Dastanda epik və fərdi xarakterin epitetləri bu yollarla düzəlir:

- Rəng (Alim məqaləsində rənglə bağlı epitetlərin dastanda hansı qəhrəmana aid olduğunu da bir-bir göstərmişdir);

- İnsan atributları;
- Mifik atributlar;
- Fiziki atributlar;
- Heyvan adları;
- Qohumluq;
- Yaş;
- Tayfa adı;
- Sahibkarlıq və var-dövlət;
- Sosial təbəqə;
- Peşə;
- Nüfuz və hörmət;
- Paltar və geyimlər;
- Adət;
- Dini kimlik;
- Qəhrəmanlıq;
- Doğum yeri.

Alim "Kitabi-Dədə Qorqud"dakı epitetlərlə bağlı bu təsnifatı verməklə birgə, epitetlərin aid olduğu şəxsləri də göstərmişdir. O, dastanda şəxsləri və cəmiyyəti təqdim edərkən epitetlərin rolunu ayrıca vurğulamışdır.

Bilindiyi kimi, dastanda Oğuz federasiyası ayrı-ayrı tayfalardan təşkil olunmuşdur. Bu cəmiyyətdə ciddi qaydalar var və oğuzların təşkilatlanması yüksək səviyyədədir. Dastanda epitetlər Oğuzları bir cəmiyyət olaraq, Oğuz igidlərini bir fərd olaraq hərtərəfli təqdim edir. Hər Oğuz igidi sahib olduğu imkanlara görə epitet qazanır. Buna görə də, Oğuzların dünyagörüşü, qəhrəmanlıq anlayışı, hər bir Oğuz igidinin imkanları ilə epitetlər arasında qırılmaz bağlılıq var. Məsələn, dastanda Bamsı Beyrəyi təqdim etmək üçün müxtəlif epitetlərdən istifadə olunmuş-

dur. Onun igidliyini göstərmək üçün ona "boz atlı" deyilmiş, onun Bay Börənin oğlu olduğu önə çəkilmiş və bu qayda ilə ona aid keyfiyyətlər epitetlərə çevrilərək, qəhrəmanın mükəmməl obrazını yaratmışdır. "Qanlı Oğuzun sevimlisi", "yeddi qızın ümidi", "ala (rəngbərəng) toy çadırının yanına gələn", "Qazan bəyin yınağı (vəziri)" və bu tipli başqa epitetlər Bamsı Beyrəyin şəxsiyyətini göz önündə canlandırır. Bu prinsip, yəni hər bir Oğuz igidini ona məxsus olan epitetlə təqdim etmək yolu bütün dastan boyu özünü göstərir.

Alim məqalədə dastandakı epitetlərin türk onomostikası ilə bağlılığına da toxunmuşdur. "Kitabi-Dədə Qorqud" dastanında epitetlərin yeri və rolu ilə bağlı yazılmış bu məqalədən ortaya çıxan başlıca nəticələr bunlardır:

Bu epitetlər zəngin Oğuz dünyagörüşü ilə, idarəçilik sistemi ilə sıx bağlıdır. Dastanda epitetlər bir sıra mənbələrdən götürülür. Bu mənbələr sırasında qədim dövrlərdə insanların düşüncəsində olan Tanrının xarakteristikası, ruhlar, peyğəmbərlər, liderlər, əfsanəvi qəhrəmanlar ayrıca yer tutur. Epitetlərin təkrar olunması qəhrəmanları təqdim edir, dastanı dinləyənlərə həzz verir, insanlar arasında həmrəylik yaradır. Məsələyə ideoloji baxımdan yanaşdıqda isə deyə bilərik ki, qəhrəmanlıqla bağlı seçilmiş epitetlər Oğuz cəmiyyətinin üzvü olan insanların qəhrəmanlıq anlayışını göstərir. Bu birliyi, milli varlığı qorumağın yeganə yolu da qəhrəmanlıqdır. Dastanda Oğuz ellərini idarə edən aristokratların həyat anlayışı, insani münasibətləri, ailə quruluşu və dəyərləri ideallaşdırılır. Bu hədəfə çatmaqda isə epitetlər xüsusi rol oynayır.

## *2.3. Azərbaycan atalar sözləri və tapmacaları ingilisdilli qaynaqlarda*

İngilisdilli qaynaqlarda Azərbaycan folkloru ilə bağlı öyrənilən məsələlərdən biri də Azərbaycan atalar sözləridir. Amerikanın İndiana Universitetinin professoru, görkəmli alim, türk folklorunun Amerikada tanıdılması ilə bağlı çoxsaylı elmi işlərin müəllifi İlhan Başgöz 1984-cü ildə Cənubi Azərbaycan ziyalılarından olan Əli Əsgər Müctəhidinin "Əmsal və hekəm dər ləhceye-məhəlliye-Azərbaycan" ("Azərbaycan yerli dialektlərində atalar sözləri və hikmətlər") kitabını "Azərbaycan atalar sözləri" ("Azerbaijanian proverbs") adı ilə çap etdirmişdir (161). Bu dəyərli əsərin redaktoru Həsən Cavadi və professor İlhan Başgöz kitaba ön söz yazmışlar.

Əli Əsgər Müctəhidi 1905-ci ildə Təbrizdə varlı ziyalı ailəsində doğulmuşdur. O, gənc yaşlarından Azərbaycan ədəbiyyatına, ayrıca olaraq folkloruna böyük maraq göstərmiş, onları öyrənmiş, bir sıra folklor materialı toplamışdır. Onun topladığı Azərbaycan atalar sözləri ilk dəfə 1955-ci ildə Təbrizdə çap edilmişdir. O, Cənubi Azərbaycanın bölgələrini qarış-qarış gəzmiş, folklor materiallarını toplamış və sistemləşdirmişdir. Əli Əsgər Müctəhidi türk, fars, ingilis, fransız, ərəb dillərini bildiyinə görə, topladığı Azərbaycan atalar sözlərinin bu dillərdəki mümkün qarşılığını da vermişdir.

Kitaba ön söz yazan professor İlhan Başgöz Azərbaycan atalar sözlərinin toplanmasını bir milli iş kimi dəyərləndirmiş, atalar sözlərini Güney Azərbaycanda yaşayan türklərin öz milli varlıqlarını qorumaq, təsdiq etmək vasitəsi kimi dəyərləndirmişdir. Professor İlhan Başgöz milli irsə münasibətdə yaşadıqları rejimin yaratdığı şərait baxımından Şimali Azərbaycanla Cənubi Azərbaycan arasında fərqlərin olduğunu bildirmişdir. O, Şimali Azərbaycanda 1926-cı ildən başlayaraq Azərbaycan ata sözlərinin nəşri ilə bağlı görülmüş işləri xatırlatmışdır. Alim bu

işlər sırasında Hənəfi Zeynallının 1926-cı ildə Bakıda çap olunmuş "Azərbaycan ata sözləri", Həmid Araslının 1938-ci ildə Bakıda çap etdirdiyi "Atalar sözü", Əbülqasım Hüseynzadənin 1956-cı ildə Bakıda çap etdirdiyi "Atalar sözü", 1956-cı ildə Bakıda rus dilində nəşr olunmuş "Azərbaycan atalar sözləri və deyimləri" və Əhliman Axundovun 1968-ci ildə Bakıda çap etdirdiyi "Azərbaycan folkloru antologiyası" kitablarının adını çəkmişdir.

Alim bununla yanaşı iyirminci yüzillikdə Azərbaycanın güneyində folklor materiallarının toplanması və nəşri ilə bağlı görülmüş işləri də qeyd etmişdir. Onun fikrinə görə, gözəl ziyalı Əli Əsgər Müctəhidinin kitabı Cənubi Azərbaycanda türk atalar sözlərinin toplanması sahəsində görülmüş ən ciddi işlərdən biridir.

Amerikanın İndiana Universitetinin çap etdirdiyi "Azərbaycan atalar sözləri" ("Azerbaijanian Proverbs") kitabında üç mindən çox atalar sözü və hikmətli deyimlər var. Kitaba Təbriz Universitetinin professoru Məhəmməd Əli Daneşvər izah xarakterli ön söz yazmışdır. Professor Məhəmməd Əli Daneşvərə görə, atalar sözləri və hikmətli deyimlər hər bir mədəniyyətin gücünü göstərən qiymətli xəzinədir. Atalar sözü və hikmətli deyimlər məxsus olduğu xalqın duyğu və düşüncələrini, arzu və istəklərini, dünyagörüşlərini, istedad və qabiliyyətlərini, əxlaq ölçülərini göstərir. Atalar sözlərini öyrənmək onun aid olduğu xalqı tanımaq deməkdir.

Bundan başqa, Əli Əsgər Müctəhidi tərəfindən kitabın xarakterini, özəlliklərini, tərtib prinsiplərini açıqlayan giriş sözü verilmişdir. O, giriş sözündə göstərmişdir ki, bu atalar sözləri indi də Cənubi Azərbaycanda insanlar arasında yaşayır. Onları toplamaq, sistemləşdirmək çox önəmli bir məsələdir. O, atalar sözlərini toplayarkən bu nümunələri söyləyicinin dediyi kimi qələmə almışdır.

Əli Əsgər Müctəhidi kitabı aşağıdakı prinsiplər əsasında tərtib etmişdir:

O, atalar sözlərinin dil və üslubuna toxunmamış, kitabın sonunda əlifba sırası ilə çətin sözlərin lüğətini vermişdir. Lüğətdə Azərbaycan türkcəsində bir söz verilmiş, sonra bu sözün farsca tərcüməsi, daha sonra isə verilmiş sözün başqa bir sinonimi göstərilmişdir.

Azərbaycan türkcəsində verilmiş atalar sözlərinin qarşısında farsca, bir sıra hallarda ərəbcə, bəzən ingiliscə və fransızca qarşılıqları verilmişdir. Müəllif əsasən daha geniş yayılmış atalar sözlərinə yer vermiş, bir sıra hallarda isə bu atalar sözlərinin və hikmətli deyimlərin variantlarını da göstərmişdir.

Müəllif Azərbaycan atalar sözlərini əlifba sırası ilə təqdim etmişdir.

Əli Əsgər Müctəhidi kitabın sonunda mənbə və qaynaqları da göstərmişdir. O, bu qaynaqlar sırasında Mirzə Əli Əkbər Xan Dehxudanın, Qulamrza Vahidinin, Yusif Rəhmətinin, Mirzə Əli Batkubinin, Hacı Hüseyn Ağa Xətayinin, Sadiq Əmir Aslaninin, Mirzə Yusif Xan Rəyahinin, Mirzə Məhəmmədtağı Marağinin və bir sıra başqa şəxslərin tərtib etdikləri kitabların adını çəkmişdir. Bütövlükdə, onun göstərdiyi qaynaqların sayı qırx birdir. Bununla birgə, Əli Əsgər Müctəhidi fars, ərəb, ingilis, fransız dillərində nəşr olunmuş çoxsaylı qaynaqlardan da istifadə etmişdir.

Kitabın özəlliklərindən biri də budur ki, tərtibçi Azərbaycan atalar sözünü və bu atalar sözünün farsca, ərəbcə, ingiliscə və ya fransızca qarşılığını göstərdikdən sonra həmin atalar sözünün mümkün variantını da mətnə əlavə etmişdir. Bundan sonra müəllif təqdim olunmuş atalar sözünün ifadə etdiyi mənanı çox qısa şəkildə açıqlamışdır.

Biz, Əli Əsgər Müctəhidinin kitabında toplanmış çox dəyərli atalar sözləri ilə bağlı bitkin təsəvvür yaratmaq üçün bir sıra nümunələr verməyi zəruri sayırıq. Çünki, bizə görə, buradakı atalar sözlərinin ingilis və fars dilinə tərcüməsi də uğurludur:

Azərbaycan türkcəsində: Annıyana (anlıyana) bir tikə, ya bir kəlmə bəsdir".

Farsca: "Dər xane əgər kəsi həst, yek hərf bəs əst".

İngiliscə: "A word to the wise is enough" (161, 30).

Azərbaycan türkcəsində: "Balığı hər vəxt dudsan tazədür".

Farsca: "Mahi ra hər vəxt begiri, taze əst".

İngiliscə: "It is never to late to mend" (161, 85).

Azərbaycan türkcəsində: "Cücəni payızda sayarlar".

Farsca: "Cuce ra dər payez mişomarənd".

İngiliscə: "Count not your chickens before they are hatched" (161, 129).

Azərbaycan türkcəsində: "Kəsik baş söyləməz olar".

Farsca: "Bər nəyayəd əz koşteqan avaz".

İngiliscə: "Died men tell no tales" (161, 233).

Azərbaycan türkcəsində: "Yeyənlə geyəninkin Allah yetirər", "Bic ilə gicinkin Allah yetirər".

Farsca: "Nəsibe xorənde və puşənde ra Xoda rəsanəd".

İngiliscə: "Spend and God will send" (161, 286).

Əli Əsgər Müctəhidinin "Azərbaycan atalar sözləri" kitabı Azərbaycan folklorunu, ayrıca olaraq Azərbaycan atalar sözlərini tanıtmaq baxımından çox dəyərlidir. Müəllifin uzun illər boyu Cənubi Azərbaycanın bölgələrini gəzərək, topladığı atalar sözlərini sistemləşdirməsi, çap və tərcümə etməsi, onlara zəruri izahlar yazması, atalar sözlərinin dilinə toxunmaması məsələyə elmi yanaşmanın nəticəsidir.

Bu deyilənlərlə yanaşı, "Azərbaycan atalar sözləri" kitabındakı atalar sözlərinin hamısının ingilis dilinə çevrilməsi daha yaxşı olardı.

Biz Azərbaycan atalar sözlərinin indiyədək xarici dillərə çevrilmiş variantlarını sistemləşdirməli, görüləcək işləri dəyərləndirməli və bu milli xəzinəni bütövlükdə xarici dillərə, o sıradan ingilis dilinə çevirməliyik.

Əli Əsgər Müctəhidinin "Azərbaycan atalar sözləri" kitabının Bakıda çap olunması da qarşıda duran işlərdən biridir.

İngilisdilli qaynaqlarda Azərbaycan folkloru ilə bağlı öyrənilən məsələlərdən biri də tapmacalardır. Amerika alimi Andres Tietz "Türk və İran tapmacaları" ("Turkish and Iranian riddles") adlı məqaləsində Türk və İran tapmacalarını müqayisə edərkən Azərbaycan tapmacalarından da nümunələr vermişdir (125). O, araşdırmasında Azərbaycan tapmacalarının orijinalını verməklə yanaşı, onları ingilis dilinə də tərcümə etmişdir. Alim Azərbaycan tapmacalarını araşdırarkən qaynaq olaraq 1928-ci ildə Bakıda Hənəfi Zeynallının çap etdirdiyi "Azərbaycan tapmacaları" və eyni ildə Vəli Xuluflunun Bakıda nəşr etdirdiyi "Tapmacalar" kitablarından istifadə etmişdir.

Bu araşdırmanın ən önəmli cəhətlərindən biri odur ki, alim tapmacaları şərh edərkən demək olar ki, bütün türk məkanında, məsələn, Türkiyə türkləri, qaqauz türkləri, Azərbaycan türkləri, türkmən türkləri, uyğur türkləri, tatar türkləri və özbək türklərində eyni tapmacanın variantlarını üzə çıxarmış və onları fars-tacik tapmacaları ilə müqayisə etməyə çalışmışdır. Alim bu yolla türk və fars xalqlarının mədəniyyətində, folklor düşüncəsində sıx bağlılığın olduğunu irəli sürmüşdür. Bu bağlılığın həm coğrafi, həm dini, həm mədəni səbəbləri var. Bu xalqlar min illər boyu yanaşı yaşamışlar, İslam mədəniyyəti hər iki xalqı birləşdirib. Bu xalqların dilləri ayrı-ayrı dil ailələrinə daxil olsa da, bu dillər bir-birinə təsir etmiş, türk sözləri fars dilinə, fars sözləri də türk dilinə keçmişdir. O, fikrini təsdiq etmək üçün tez-tez türk və fars tapmacalarından misal gətirmişdir. Bunlardan birinə baxaq:

Türk: Sabah dört ayaklı,
Ögle iki ayaklı,
Akşam üç ayaklı.
(Emekliyen çocuk, delikanlı, bastonlu ihtiyar)

Fars (Tehran):
Sobh çahar past,

Zohr do pa,
Əsr se na.
(Adam)
Sübh dördayaqdır,
Günorta ikiayaqlı,
Axşam üçayaqlı.

Göründüyü kimi, eyni anlayış demək olar ki, eyni obrazlarla verilmişdir. Hər iki tapmaca yığcamdır və bir insanın doğuluşundan ölümünə qədər olan bir mərhələni dəqiq biçimdə ifadə edir. Bu tapmacalar arasında ancaq dil fərqi var. Alim bu oxşarlığın təsadüfi olmadığını sübut etmək üçün başqa misallar da gətirir. Məsələn,

Türk: Alemi bezer,
Kendisi çıplak gezer.
(İgne)
Fars (Tehran):
Həme ra mipuşanəd,
Əmma xodəş həmişe loxt əst.
(Suzən)
Aləmi bəzər,
Özü lüt gəzər.
(İynə) (125, 201)

Məqalənin önəmli cəhətlərindən biri də budur ki, alim türk tapmacalarını verərkən ayrı-ayrı türk xalqlarının folklorundan istifadə etdiyi kimi, bu tapmacaların farsca qarşılığını verəndə də farsdilli xalqların, məsələn, əfqan, tacik xalqlarının folklorundan istifadə etmişdir.

Müəllif məqaləsində tapmacaların poetik quruluşuna da toxunmuşdur. Ona görə, tapmacaların həcmi kiçik olsa da, onların böyük mənası var. Dörd sətirdən ibarət olan tapmacaların poetik quruluşu, o sıradan qafiyələnməsi manilərdəki kimidir. Adətən birinci misra giriş məzmununda olur, əsas fikir isə üçüncü və dördüncü misralarda verilir. Birinci və ikinci misranın ayrılıqda,

demək olar ki, heç bir mənası olmur. Ancaq təkrarləmədə olduğu kimi, əsas fikrin deyilməsi üçün şərait hazırlayır. Səslərin təkrarı, müəyyən bir obrazın əyani görüntüsünün yaradılması başlıca ideyanın verilməsinə xidmət edir. Alim bu fikrini əsaslandırmaq üçün Qaqauz və Azərbaycan folklorundan nümunə vermişdir.

Qaqauz:
Min min minare,
Dibi kanare.
Yüz bin çiçek,
Bir lale.

Azərbaycan (Qarabağ):
Min minarə,
Dibi qarə.
Yüz min çiçək,
Bir yarpaq.
(Ulduzlar, ay)

Azərbaycan (Zəngəzur):
Çiy ipəy,
Çiləmə ipəy.
Yüz min çiçəy,
Bir yarpaq.
(Ay və yıldızlar) (125, 205)

Bu tapmacalardan da göründüyü kimi, ilk iki misra ("Min min minarə, dibi kənarə", "Min minarə, dibi qarə", "Çiy ipəy, çiləmə ipəy") ilk baxışda tapmacanın məzmunu ilə bağlı deyil. Ancaq, əslində, ilk iki misra sonrakı misralarda ifadə olunan fikrin deyilməsinə yol açır. Belə ki, ilk iki misrada olan "min min minarə" deyimi çoxluğu, sayılması mümkün olmayan bir anlayışı ifadə edir. Elə göydəki ulduzları da saymaq mümkün deyil. Başqa yöndən isə birinci, ikinci misra ilə üçüncü, dördüncü misra arasında səs bağlılığı da var.

Alim şərti olaraq "səma tapmacaları" adlandırdığı tapmaca mətnlərini araşdırarkən ayrı-ayrı türk xalqlarının eyni məzmunlu tapmacalarında bir sıra söz fərqlərinin olduğunu da göstərib. Məsələn, səma anlayışı ilə bağlı Krım türklərinin söylədiyi tapmacada səma "lalə" sözü ilə ifadə edilmişdir. Ancaq eyni məzmunlu Azərbaycan tapmacasında səma anlayışı "piyalə" sözü ilə bildirilmişdir.

Məsələn, Krım türklərində:

Öksək minarə,
Üstü mor xarə.
Yüz bin çiçək,
Bir lalə.

(Gök, bulut, yıldız)

Azərbaycan (Bakı)

Min minara,
Dibi qara.
Yüz min çiçək,
Bir piyala.

(Göy) (125, 206)

Alim bu cür fərqlərin səbəbini ayrı-ayrı türk xalqlarının Osmanlı türklərinə və ya Mərkəzi Asiya türklərinə yaxınlığı ilə izah etmişdir. Azərbaycan türkləri hər zaman Osmanlı türklərinə sıx bağlı olmuşdur.

Məqalədə alimin gəldiyi nəticələrdən biri də budur ki, türk və fars tapmacaları arasındakı oxşarlığı yuxarıda göstərilən səbəblərlə birgə, bir tapmacanın başqa bir dildə tərcümə variantı kimi də dəyərləndirmək olar. Belə ki, Qərbi Türküstanda türk xalqları ilə fars xalqları yanaşı yaşamış, bəzi bölgələrdə ikidillilik mövcud olmuş, nəticədə, türk dilində deyilən bir tapmaca fars dilində də ifadə edilmişdir. Bu "alınma folklor"da ilkin qaynaqla əlaqə qorunub saxlanılsa da, bir sıra dəyişikliklər də vardır. Bu fikrin sübutu odur ki, eyni məzmunlu bir sıra türk və fars tapmacalarının misralarında fərqlər var. Bəzən bu misralar ta-

mamilə dəyişir, bir sıra hallarda isə sadəcə söz dəyişikliyi özünü göstərir. Ona görə də, türk və fars tapmacaları arasında çoxsaylı oxşarlıq, paralellik tapmaq mümkündür.

Müəllifin türk və fars tapmacalarının müqayisəsi ilə bağlı qənaəti belədir:

"Fakt budur ki, türk tapmacası geniş yayılmışdır və bu fakt dəqiq göstərir ki, eyni şeyi biz İran tapmacaları haqqında deyə bilmərik. Ona görə də, türk tapmaca folkloru İran tapmaca folklorundan daha geniş yayılıb" (125, 208).

Andres Tietzin məqaləsində ortaya qoyulan nəticələrdən biri də budur ki, onun şərti olaraq "səma tapmacaları" adlandırdığı və türk, fars məkanlarında geniş yayılmış tapmacalardakı folklor elementləri linqvistik baxımdan bir-biri ilə əlaqəsi olmayan, yəni qohumluq münasibətindən uzaq bu iki dildə asanlıqla bir dildən başqa dilə keçə bilir. Bu keçid zamanı bir sıra dəyişikliklər ortaya çıxsa da, tapmacalardakı folklor elementləri başlıca linqvistik formanın əsas hissələrini qoruyub saxlayır.

Bu da iki xalqın mədəni əlaqələrinin çox sıx olduğunu göstərir. Bu iki dil məkanında olan folklor materiallarının diqqətlə öyrənilməsi daha ciddi nəticələr ortaya qoya bilər.

### *2.4. "Buta" motivi*

İngilisdilli qaynaqlarda Azərbaycan şifahi xalq ədəbiyyatı ilə bağlı öyrənilən məsələlərdən biri də röyada "buta" motividir. Bilindiyi kimi, ümumtürk, o sıradan Azərbaycan el ədəbiyyatında, ayrıca olaraq dastanlarda, nağıllarda röya və buta motivi geniş yer tutur. Ayrı-ayrı araşdırmalarda bu məsələ öyrənilmiş, onunla bağlı bir sıra tədqiqatlar yazılmışdır. Röya və eşq badəsi motivi türk xalqının inancları, dünyagörüşü, Allah, həyat, insan, sevgi, haqq aşığı kimi anlayışlarla sıx bağlıdır.

Türk alimlərindən Süleyman Kazmazın ingilis dilində yazdığı "Türk xalq ədəbiyyatında röya və eşq badəsi motivi" ("The

Theme Of Initiation Through Dream In Turkish Folk Literature") adlı məqaləsi "Erdem" jurnalında çap olunmuşdur (155). Müəllif məqaləsində öncə sevgi anlayışına aydınlıq gətirmişdir. O, sevginin insan-Allah, insan-təbiət, insan-insan münasibətlərində önəmli yer tutduğunu açıqlamışdır. Müəllif, eşq badəsi və yuxu motivinin təkcə türk folklorunda deyil, eləcə də türk divan və təsəvvüf ədəbiyyatında da yer tutduğunu bildirmişdir. Təsəvvüf ədəbiyyatında aşiqin qəlbində ancaq Allah sevgisi var. O, hər şeyin Allahdan olduğuna inanır, ömür boyu o uca varlığa qovuşmağa can atır. Təsəvvüf ədəbiyyatında sevginin qaynağı əbədi və əzəli olan Tanrıdır.

Müəllifə görə, xalq ədəbiyyatındakı eşq anlayışı divan və təsəvvüf ədəbiyyatından fərqlənir. Xalq ədəbiyyatında şair yetkinlik yaşına çatanda yuxusunda son dərəcə gözəl bir qız görür və Xızır, ya da pirlərin əlindən badə içir. Sonra oyanan gənc həyatı boyu saz çalır, şeirlər qoşur.

Müəllif bu məqalədə fikirlərini əsaslandırmaq üçün xalq şairlərinin danışdıqları yuxu hekayələrinə yer vermişdir. O, Aşıq İlyasın, Aşıq Mühibbinin, Aşıq Nihaninin röya barədə hekayələrini təqdim etmişdir (155, 210).

Alimə görə, Aşıq İlyasın və Aşıq Mühibbinin röyalarında ortaq bir cəhət vardır. Onların hər ikisi sevgililərini yuxuda görəndən sonra aşiq olmuşlar, yuxu və sevgi onlarda aşıqlıq sənətinin doğulmasına yol açmışdır.

Eşq hekayələrinin xüsusiyyətlərindən biri də eyni bir yuxunu başqa sevgilinin də görməsidir. Bu aşıqların hər ikisində birlikdə yuxu görmə və badə içmə motivi var. Yuxu hekayələrinin başqa şəkilləri də var. Məsələn, "Məlik Şah və Güllü Xan" hekayəsində Xızır qızın rəsmini oğlana göstərir. Məlik Şah qıza aşiq olmaq üçün gecə Allaha yalvarır. Başını səcdədən qaldıranda bir əlində qədəh, o biri əlində qızın şəkli olan dərvişi yanında görür, qədəhi içir və Güllü Xana aşiq olur. Ondan sonra sazı əlinə alıb, söyləməyə başlayır.

Yuxu hekayələrində görünən bir başqa forma belədir: "Mahmud ilə Əlif" hekayəsində igid dağda ov ovlayarkən bir ceyran görür, onu qovur və mağaraya çatır. Burada olan dərvişlərdən qovduğunun ceyran olmadığını eşidir. Bu an o divarda rəsmini gördüyü qızı istəyir. Dərvişlər ona badə içirirlər, Mahmud badəni içir və qızın eşqindən yanmağa başlayır.

Buta motivinin bu ortaq yönləri aşağıdakılardır:

"Örnək verdiyimiz hekayədə bir neçə ana fikirlər var. Məsələn, bu hekayələrdə yuxu sənət gücünü hərəkətə gətirən eşq duyğusunun oyanmasını təmin edir. Yuxu zaman baxımından 13-17 yaş arasında, yetkinlik çağında görülür. Bu hadisə şəhid məzarı kimi müqəddəs məkanda baş verir. Yatdıqdan sonra gənc adamın gözü önündə ağacları, rəng-rəng çiçəkləri ilə gözəl bir təbiət mənzərəsi açılır. Uzaqlardan quşların, quzuların səsi eşidilir. Hər yanda göyərçin qanadlı mələklər uçur. Xızır, pirlər, dərvişlər, qırxlar kimi uğurlu insanların əhatə etdiyi, saçı topuqlarınadək uzanan ucaboylu, gözəl bir qız gənc adamın qarşısında dayanır. İgid yanında olanların birinin vasitəsilə onun əlindən eşq badəsi içir, haqq vergili bir aşıq, haqq aşığı, badəli aşıq olur. Badəni verən qız Çin-Maçin, Bədəxşan kimi xəyali ölkələrin insanıdır. Oraya getmək, sevgiliyə qovuşmaq mümkün deyil. Ona görə də, gənc üçün vaxtını haqq aşıqlarının müəyyən etdiyi oyanma, açılma, yuxudan çıxma mərhələsi var. O, bu mərhələlərdə sevgilisindən ayrı olmağın acıları içində əzab çəkir. Bir şairin sazla söyləməsindən, ya da huşsuzluq və sayıqlamalardan qurtardıqdan sonra özünə gələn gənc adam saz çalmağa, eşqini dilə gətirən şeirlər söyləməyə başlayır. O, qovuşa bilməyəcəyi, ancaq xəyal edəcəyi sevgilisinin eşqini ömrü boyu yaşayır. Çünki o uzaq ölkələrin insanı olduğundan üstünlüyünü, gözəlliyini daima qoruyacaqdır. Davamlı və ölçüsüz gözəllik sənətçiyə yaratma gücü verir, eşq onun sənətinin qaynağına çevrilir. Şair yuxuda gördüyü qızın bənzəri ilə evlənsə belə, pirlərin, qırxların məclisində ona badə verən sevgilisini əsla unutmur" (155, 214-215).

Alim araşdırmasının sonunda belə bir sual verir: Xalq şairləri danışdıqları yuxuları görmüşlərmi, yoxsa onlar ənənəni təkrar edirlər? Ona görə, bu suala dəqiq cavab vermək çətindir. Ola bilsin ki, bir, ya da bir neçə şair belə yuxu görmüşdür. Onlardan sonra gələnlər isə haqq gözəlinin əlindən Xızır vasitəsi ilə badə içməyi önəmli saymışlar. Onlar sanki belə bir yuxunu görmüşlər və onu şeirlərində anlatmışlar.

Alimin qənaəti belədir ki, hər iki halda nəticə birdir:

"Onların hamısı bir haqq gözəlini xəyal etmişlər. Əbədilik sirrinə qovuşan sevgilinin yaratdığı eşqdən qaynaqlanan şeirlərlə yüzillər boyu insanları sənət həyəcanı ilə bəsləmişlər. Ona görə xalq şairləri hər zaman və hər yerdə cəmiyyətin dəyərli sənətkarları kimi xatırlanırlar" (155, 215).

Biz Azərbaycan şifahi xalq ədəbiyyatında geniş yer tutan, şairlər arasında yayılan buta motivi ilə bağlı deyilənlərə bir məsələni də əlavə etmək istəyirik. Bizcə, buta motivinin milli düşüncədə yer tutmasının önəmli səbəbləri var. Məsələn, aşıq cəmiyyətdə insanları tərbiyə edən, onları doğru yola, həqiqətə yönəldən bir vəzifəyə sahib olmuşdur. Onlar bağlı olduqları toplumu tərbiyə etmək üçün sənətlərinin və dedikləri sözlərin ilahi qaynaqlı olduğunu bildirmişlər. Aşıq sənəti doğruları anlatmaq məqsədini daşıyır, deməli, aşıq və onun sənəti ilahi qaynaqlıdır, onları Allah seçmişdir və onların sözü də müqəddəsdir. Bu statusda, bu dəyərdə olan aşıq sözü toplum üçün qəbuledilәndir.

Xalq ilahi qaynaqlı sənətə sahib bir insanın sözünü doğru sayır, ona inanır. Buta motivinin bu qədər geniş yayılmasının səbəblərindən biri də budur.

### *2.5. Azərbaycan aşıq yaradıcılığının ingilisdilli qaynaqlarda tədqiqi*

İngilisdilli məxəzlərdə, qaynaqlarda Azərbaycan şifahi xalq ədəbiyyatı ilə bağlı bir sıra məsələlər öyrənilmişdir. Bu öyrəni-

lən məsələlər sırasında atalar sözləri, bayatılar, tapmacalar, dastanlar, nağıllar, aşıq ədəbiyyatı, folklorun nəzəri problemləri, ayrı-ayrı mərasimlərlə bağlı folklor materialları, Azərbaycan folklorunun mənşəyi, inkişaf yolları, keçdiyi mərhələlər, bu folklorun yayıldığı coğrafiya, onun özünəməxsusluğu, eləcə də Azərbaycan folklorunun başqa xalqların şifahi ədəbiyyatı ilə əlaqələri ayrıca yer tutur.

Azərbaycan folkloru ilə bağlı ingilisdilli qaynaqlarda ən çox öyrənilən məsələlərdən biri Azərbaycan aşıq ədəbiyyatıdır. Alimlər bu ədəbiyyatın ayrı-ayrı problemləri ilə bağlı məqalələr yazmış, tərcüməçilər isə Aşıq Qurbani, Xəstə Qasım, Aşıq Abbas Tufarqanlı, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Aşıq Hüseyn Cavan kimi Azərbaycan aşıqlarının şeirlərini ingilis dilinə tərcümə etmişlər.

Azərbaycan aşıq ədəbiyyatı ilə bağlı araşdırma yazan alimlərdən biri Şarlot Olbraytdır (Charlotte F.Albright). O, Azərbaycan aşıq ədəbiyyatı ilə bağlı dissertasiya yazmış və bir sıra məqalələr çap etdirmişdir. Onun Azərbaycan aşıq ədəbiyyatı ilə bağlı yazdığı məqalələrdən biri "Azərbaycan Aşığı: Musiqiçinin dəyişən cəmiyyətə uyğunlaşması" ("The Azerbaijani Ashig: A Musician's Adaptations to a Changing Society") adlanır (138).

Şarlot Olbrayt bu məqaləsində ilk sırada "aşıq" sözünün və bütövlükdə aşıq sənətinin, aşıq ədəbiyyatının mənşəyi məsələsinə toxunmuşdur. O, bu məsələni aydınlaşdırmaq üçün Azərbaycan, İran, Türkiyə, Orta Asiya alimlərinin yazdıqları elmi araşdırmalardan qaynaq kimi istifadə etmişdir. O, araşdırmasında "aşıq" sözünün ərəbcə bir kəlmədən törədiyini və "sevən" ("aşiq olan") demək olduğunu bildirir. Müəllif aşıqları bir neçə yerə bölür: yaradıcı aşıqlar, ifaçı aşıqlar və hər iki xətti özündə birləşdirən ustad aşıqlar. Alim belə bir fikri də vurğulayır ki, aşıqlar türk toplumlarının mənəvi, əxlaqi dəyərlərinin qorunmasında önəmli yer tutmuşlar. Onlar öz sazı və sözü ilə türk toplu-

munu tərbiyə etmiş, onları qorumuş və ucaltmışlar. Onlar söylədikləri rəvayətlərlə, dastanlarla milli-mənəvi dəyərləri təbliğ etmiş, toplumun qoruyucusuna çevrilmişlər. Alim aşıqların mənşəyini qədim türk düşüncə sistemi olan şamanizmə bağlayır. Ona görə, Azərbaycan poetik-musiqi mədəniyyəti türk xalqlarının yaşı qədər qədimdir: İslamdan əvvəlki dövrlərdə bu şair-musiqiçilər bəzi Türk qrupları arasında şamanlar kimi fəaliyyət göstərirdilər (138, 205).

Alim məqaləsində aşıqların şeir və musiqi kimi iki yönü özündə birləşdirdiklərini vurğulayaraq, ayrı-ayrı türk xalqları arasında aşığa fərqli adlar verildiyini önə çəkir. Məsələn, qırğızlar aşığa "akın", türkmənlər "baxşı", azərbaycanlılar "aşıq", Anadolu türkləri "aşık" deyirlər. Alim dəyişən zaman içində aşığın cəmiyyətdəki yerinin və rolunun da dəyişildiyini qeyd edir. Məsələn, şamanlar bağlı olduqları toplumun bütün ehtiyaclarını yerinə yetirən, onları yönəldən, onları tərbiyə edən, onlara şəfa verən bir mənəvi lider durumunda idilər. Ancaq zaman keçdikcə bu iş bölgüsü dəyişilir və aşıq toplumda mənəvi səfərbərliyin güc qaynaqlarından biri kimi çıxış edir.

Şarlot Olbraytın məqaləsində diqqəti çəkən məsələlərdən biri də odur ki, o, elm və texnikanın inkişafı ilə bağlı aşıq sənətinin dəyişikliyə uğramasının da zəruri olduğunu önə çəkir. O, Qərbi və Şərqi Azərbaycanda (Urmiya və Təbriz) aşıqların ifa üslubunu təhlil edərək onlar arasında oxşarlıq və fərqlərin olduğunu da göstərir. Bu məktəblər arasında oxşar cəhətlər odur ki, onların hər ikisində aşıqlar xalqın içərisindədirlər, ifa yeri kimi daha çox çayxanaları seçirlər, onlar ifa etdikləri musiqi, aşıq havası, oxuduqları dastan qarşılığında xalqın verdiyi müəyyən pulu da alırlar.

Ancaq Cənubi Azərbaycanın şərq və qərb aşıq məktəbləri arasında bir sıra fərqlər də var. Qərb məktəbinə mənsub olan aşıqlar daha çox solo ifaçılığına üstünlük verirlər. Bir sıra hallar-

da sazı balaban və qaval da müşayiət edir. Bu musiqi alətlərinin səsi bir-birinə uyğun olduğundan onlar bir-birini tamamlayır. Şərq məktəbinə bağlı olan aşıqlar isə uzun dastanlar oxumaqdan çox, qısa aşıq havalarına üstünlük verirlər. Onlarda aşığı çox zaman ansambl müşayiət edir.

Alim məqaləsində Cənubi Azərbaycan aşıqlarının dastan söyləmək prinsiplərini də açıqlayır. Onlar dastanlara ustadnamələrlə başlayırlar, sonra İslam peyğəmbərinə salavat oxuyurlar, daha sonra seçdikləri dastanları ayaqüstə danışırlar. Onların gözəl nitq qabiliyyətləri var, auditoriyanı ələ almağı bacarırlar. Bunun üçün ayrı-ayrı yollardan istifadə edirlər. Məsələn, bir sıra aşıqlar dastan söyləyərkən lətifələrdən, ayrı-ayrı maraqlı əhvalatlardan da istifadə edirlər. Alimin qənaətinə görə, Cənubi Azərbaycanda istifadə olunan aşıq havalarının sayı yetmişdən çoxdur.

Aşıqlar dastan söyləyərkən improvizasiyaya geniş yer verirlər. Onlar bayatılardan da istifadə edirlər, gözəl qoşmalar oxuyurlar. Alim məqaləsində bayatının və qoşmanın quruluşunu da açıqlayıb (138, 209). Şarlot Olbrayt Nəbatinin bir qoşmasını misal gətirərək, onun üzərində qoşma ilə bağlı fikirlərini şərh edib.

Şarlot Olbrayt adı çəkilən araşdırmasında Azərbaycan aşıq ədəbiyyatının janrlarına da toxunur. O, ayrı-ayrı janrlar haqqında qısa bilgi verərək, əsasən, qoşma və gəraylının üzərində durur. O, aşıq şeirinin janrlarını təhlil edərkən ayrı-ayrı türk bölgələrindən olan nümunələri misal gətirir. Alim daha çox Şimali və Cənubi Azərbaycanda aşıq şeirinin janrları üzərində dayanır. Onun qənaətinə görə, aşıq şeirinə mənsub olan janrlarından ən çox yayılanı qoşma və gəraylıdır. Qoşma və gəraylılar müxtəlif mövzularda olur. Şimali və Cənubi Azərbaycanda yazılan və ifa olunan qoşmalar zaman-zaman mövzu dəyişikliyinə uğramışdır. Məsələn, müəyyən dövrlərdə daha çox sevgi məzmunlu qoşmalar, müəyyən dövrlərdə isə ictimai məzmunlu qoşmalar və gəraylılar üstünlük təşkil etmişdir.

Alim bu şeir şəkillərini təhlil edərkən Azərbaycanın şimalında və cənubunda bu janrlarla bağlı olan fərqlərə də diqqəti çəkir. Onun müşahidələrinə görə, Azərbaycanın cənubunda gəraylı bir şeir şəkli kimi daha çox aşıq mahnılarında özünü göstərir.

Şarlot Olbraytın toxunduğu məsələlərdən biri də ustad-şagird münasibətləridir. Ona görə, aşıq sənətinin inkişafında bu münasibətin ayrıca yeri var. Aşıq sənətini öyrənmək istəyənlər öncə bir ustad aşığın yanına gedirlər, ondan saz çalmağı, bütövlükdə aşıq sənətini və ədəb-əxlaq qaydalarını öyrənirlər. Bu şagirdlik müddəti on ildən çox çəkir. Şagird ustadından saz çalmağı və aşıq havalarını öyrəndikdən sonra bir müddət ustadının yanında ayrı-ayrı məclislərdə çıxış edir. Onların bir qismi ifaçılığa yeni başlayanda ustadının yanında öncə balaban çalır, təcrübəsi artandan sonra isə sazda aşıq havaları ifa edir. Bundan başqa, şagird aşıq məclislərinin təşkilində iştirak edir, ustadının sazını daşıyır, ona yardım edir, pul qazanır. Şagird qazandığı pulun hamısını ustadına verir, ustad da bu pulun müəyyən bir hissəsini şagirdə ayırır.

Alim Azərbaycanın cənubunda yaşayan ayrı-ayrı aşıqların nümunəsində ustad-şagird münasibətlərini təhlil edir. Ona görə, Azərbaycanın cənubunda yaşayan aşıqların çoxu savadsızdır. Burada aşıq şeirləri yaddaşdan yaddaşa ötürülür, ona görə də bir şeirin çoxsaylı variantları ortaya çıxır. Onun müşahidələrinə görə, son vaxtlar bu qarışıqlığın qarşısını almaq məqsədilə ayrı-ayrı texniki vasitələrin yardımından istifadə olunur. Ancaq bu texniki imkanlar da yeni problemlər yaradır. Belə ki, dinləyicilərin çoxu kassetlərdə aşıq dinləməyə daha çox üstünlük verirlər, nəticədə, aşıq ənənəvi auditoriya ilə birbaşa canlı ünsiyyət imkanını itirmiş olur.

Şarlot Olbrayt aşıqların ifa etdiyi şeirlərdəki fərqləri göstərmək üçün Aşıq Ələsgərin "Müşginaz" qoşmasını misal gətirir. Biz də bu fərqi göstərmək üçün alimin verdiyi bəndləri təqdim edirik:

1. Aşıq Ələsgərin şeiri:

**Sübhün çağı mah camalın görəndə,**
**Xəstə könlüm gəldi saza, Müşgünaz!**
**Sona tək silkinib, gərdən çəkəndə,**
**Bənzəyirsən quya, qaza Müşgünaz!**

2. Aşıq Rəsulun variantı:

**Səhər çağı meh camalın görəndə,**
**Xəstə canım döndü saza, Müşgünaz!**
**Bəzənibən gərdənini çəkəndə,**
**Bənzəyirsən quya, qaza, Müşgünaz! (138, 212)**

Tədqiqatçı göstərilən bəndi ingilis dilinə tərcümə də etmişdir. Onun qənaətinə görə, bu cür fərqli variantlar həddən artıq çoxdur. Belə fərqlərin ortaya çıxmasının isə üç səbəbi var. Birincisi, hər hansı bir aşıq bir qoşmanı, ya da bir dastanı cavan yaşında söyləyir, sonra vaxt keçir, o, qocalır, yaddaşı zəifləyir. Nəticədə, aşıq öncə söylədiyi folklor nümunəsinin bir hissəsini unudur.

Fərqli variantların ortaya çıxmasının ikinci səbəbi isə qoşmanın, ya da başqa bir aşıq şeirinin öncə söylənmiş mətnində olan bir sıra söz və ifadələrin sonradan başa düşülməməsidir. Öncəki mətndə olan köhnəlmiş sözləri, ifadələri başa düşməyən sonrakı dövr aşıqları onu dəyişdirirlər və nəticədə, yeni variantlar ortaya çıxır.

Aşıq şeir şəkillərində fərqlərin ortaya çıxmasının üçüncü səbəbi də Azərbaycanın cənubunda və şimalında özünü göstərən çox saylı dialektlərdir. Azərbaycanda təxminən hər 100 km-dən bir yeni dialekt ortaya çıxır. Nəticədə, bu dialekt fərqləri aşıq şeirlərinin mətninə də təsir göstərir.

Şarlot Olbrayt Azərbaycanın cənubunda və şimalında aşıq sənətini təhlil edərkən üzərində dayandığı məsələlərdən biri də texniki tərəqqinin aşıq ədəbiyyatına təsiri ilə bağlıdır. Onun dü-

şüncəsinə görə, texniki tərəqqi aşıq sənətinə ciddi təsir göstərir. Aşıqlar indiki mərhələdə daha çox radiodan, televiziyadan, maqnitafondan istifadə edirlər. Doğrudur, bu bir tərəfdən aşıqların auditoriyasını genişləndirir, ancaq digər tərəfdən aşıqlar ənənəvi auditoriyalarını da itirirlər. Dinləyicilər daha çox ayrı-ayrı kassetlərə yazılmış aşıq havalarını dinləməyə üstünlük verirlər. Onun müşahidələrinə görə, Azərbaycanın cənubunda insanlar dastan dinləməyə elə də həvəs göstərmirlər. Çünki dastanlar çox uzun olduğundan onları radio və ya televiziyada səsləndirmək çətindir. Ona görə də Azərbaycanın cənubunda yığcam aşıq havalarına maraq daha çoxdur.

Alimin qənaətlərindən biri də budur ki, İranda şah zamanında Azərbaycan aşıq sənətinin inkişafına imkan daha çox olub. Sonrakı dönəmlərdə isə bu imkanlar xeyli məhdudlaşdırılıb. Azərbaycanın cənubunda aşıq sənəti Azərbaycan türklərinin milli-mədəni dəyərlərinin qorunmasında önəmli yer tutur. Onlar ana dillərində oxuyur, bu dildə şeir yazır, bu dildə danışır və bu dili nəsildən-nəslə ötürürlər.

Şarlot Olbraytın məqaləsində diqqəti çəkən məsələlərdən biri də budur ki, o, Azərbaycanın cənubunda keçirilən aşıq məclislərindən birinin quruluşunu, məzmun və formasını təsvir edib. Bu məclislər daha çox çayxanalarda keçirilir və belə məclislərdə ənənəvi olaraq qadınlar iştirak etmirlər. Məclisin ssenarisi öncədən yazılır, texnikanın imkanlarından istifadə olunur, məclisin aparıcısı olur, oraya seçilmiş aşıqlar dəvət olunur. Onlar öncədən planlaşdırılmış repertuarla çıxış edirlər. Məclis zamanı aşıqla dinləyici arasında canlı ünsiyyət qurulur. Belə məclislər zaman keçdikcə müəyyən dəyişikliyə uğrasa da, ənənəvi mahiyyətini qoruyub saxlamaqdadır.

Şarlot Olbraytın Azərbaycan aşıq sənəti ilə bağlı yazdığı başqa bir məqalə "Azərbaycan aşığı və onun dastan ifası" ("The Azerbaijani Ashig and His Performance of a Dastan") adlanır

(137). Alim bu məqalədə Azərbaycan aşıq sənətinin yaranması, keçdiyi yol, fəaliyyət prinsipləri və çağdaş durumu ilə bağlı bilgi verir. O, aşıqları şair-musiqiçi adlandırır. Ustad aşıqlar həm şeir yazmağı bacarır, həm də bəstəkar kimi çıxış edirlər. Belə aşıqlar musiqi ilə söz sənətini, ədəbiyyatı bir arada birləşdirirlər. Onlar həm ədəbiyyatı gözəl bilirlər, həm də musiqiyə dərindən bələddirlər. Ustad aşıqlar dastan söyləyərkən öz qabiliyyətlərini nümayiş etdirmək məqsədilə improvizasiyaya da geniş yer verirlər.

Alim, ustad aşıqlardan öyrəndiklərinə əsaslanaraq, aşıq olmağın fərqli yollarını göstərmişdir. Məsələn, bəzi aşıqlara gənc yaşında yuxuda buta verilir. Bu buta verilməsi də fərqli yollarla olur. Bir sıra aşıqlara yuxuda saz təqdim olunur, saz çalmaq öyrədilir, aşığa olacaq xəbər verilir, şərbət içirilir. Başqa aşıqlara isə bişmiş çörək, alma, hətta, yaşıl noxud verilir. Bütün bu əlamətlər seçilmiş şəxsin aşıq olacağına işarə kimi yozulur. Başqa bir qism aşıqlar isə bir gözələ vurulurlar, bu sevginin sonu isə aşıq olmaqla bitir. Üçüncü qism aşıqlar aşıq sənətini ata-babalarından bir miras olaraq alırlar. Dördüncü qism aşıqlar isə bir ustad aşığın yanında şagird olmaqla bu sənəti öyrənirlər. Müasir dövrdə gənc aşıqlar daha çox radioda səslənən, kassetlərə yazılmış aşıq mahnılarına qulaq asaraq, onları öyrənərək aşıq olmaq istəyirlər. Bu isə düzgün yol deyil.

Şarlot Olbrayt aşıq sənətini şərh edərkən onun tarixinin qədim olduğunu bildirir, türk xalqlarının çox sevdiyi Dədə Qorqudun da nə vaxtsa bir xalq şairi və musiqiçisi olduğunu önə çəkir. Alim sonrakı dastanlarla "Dədə Qorqud" arasında əlaqə qurur, dastanların çoxunun "Dədə Qorqud" boylarına oxşadığını bildirir. Alim əsasən tarixi və qəhrəmanlıq dastanlarının üzərində durur, "Koroğlu" dastanını qısa da olsa təhlil edir. O, göstərir ki, bu dastan Türkiyədə, Azərbaycanda, Özbəkistanda, Türkmənistanda, Qazaxıstanda, Tatarıstanda, eləcə də türk olmayan taciklər, ermənilər və kürdlər arasında yayılmışdır. Alim qısaca olaraq "Şah İsmayıl" və "Şah Abbas" dastanlarına da toxunur. Onun hesabla-

malarına görə, Azərbaycanda aşıqlar tərəfindən təxminən yüz dastan oxunur. Bir dastanın oxunması isə bəzən 10-15 gün çəkir.

Şarlot Olbrayt aşıq məclislərinin quruluşuna da toxunur. Bu məclislər qeyri-formal nitq, məclislə salamlaşma, təqdimat, şifahi şeir və musiqidən ibarətdir. Aşığın təqdimatının ayrı-ayrı hissələri aşağıdakılardır:

Qeyri-formal çıxış. Bu hissədə aşıq dastanı söyləməyə başlayır və ya danışmağı davam etdirir, onun nə qədər davam edəcəyi barədə məlumat verir və ya  bildirir ki, o, iki gündür ki, dastan danışır, ola bilsin ki, bu dastanı bu gün başa çatdırsın. İkinci bölmədə aşıq dastanın əvvəlki hissəsinin qısa məzmununu təkrar edir. Üçüncü hissədə aşıq şeirlə oxunan saz musiqisini ifa edir. Sonra dördüncü hissədə improvizə edilmiş nitq davam edir. Beşinci hissədə yenidən sazla şeir oxunur. Beləliklə, bu proses 10 mərhələdən ibarət olur. Cənubi Azərbaycanda çayxanada təşkil olunmuş aşıq məclislərinin beş hissəsi var:

1.Qeyri-formal çıxış və improvizə edilmiş nitq

2. Formal çıxış

3. Saz havalarının müşayiəti ilə şeir oxunması

4. Şeir söylənməsi (deklamasiya ilə)

5. Saz havası

Bu beş bölmə də ayrı-ayrı hissələrdən ibarətdir. Aşıq öncə solo olaraq bir saz havası çalır, sonra oxuyur, sonra formal salamlaşma olur. Burada aşıq məclis iştirakçılarını azərbaycanlılara məxsus formada salamlayır. Daha sonra hz.Əli ilə bağlı dini şeir oxunur. Bundan sonra aşıq hz.Məhəmmədə salavat deyir, sonra aşıq solo olaraq saz havası çalır və oxuyur. Daha sonra aşıq öz ustadlarına xüsusi ehtiramını bildirir. Sonda aşıq yenə salavat deyir.

Əgər biz bu məclisi iki hissəyə bölsək, birinci hissəni giriş adlandıra bilərik, ikinci hissə isə hər hansı bir dastanın oxunması ilə bağlıdır. Aşıq dastanı danışır, oxuyur və izah edir. Bir sıra dastanlarda çoxvariantlılıq özünü göstərir. Aşıq istədiyi yeri ix-

tisar edə bilər. Dastandakı hekayələr dəyişdikcə aşıq havaları da dəyişilir.

Şarlot Olbrayt araşdırmasına "Dubeyt" aşıq havasının notunu da əlavə edib. Bu aşıq havası Aşıq Abbas Tufarqanlının "Meracnamə"sinin sözlərinə bəstələnib, ifaçı aşıq isə Aşıq Dehqandır (137; 231).

Şarlot Olbrayt araşdırmasının önəmli bir hissəsini Aşıq Abbas Tufarqanlının "Meracnamə"sinə həsr edib. O, bu əsərin Azərbaycan türkcəsində mətnini verib, bu mətni ingilis dilinə çevirib və əsəri qısa olsa da, təhlil edib.

Bilindiyi kimi, "meracnamə"lər türk və digər müsəlman xalqları ədəbiyyatında, o sıradan aşıq ədəbiyyatında geniş yayılıb. Bu tipli əsərlərin mövzusu İslam peyğəmbəri hz.Məhəmmədin meraca çıxması ilə bağlıdır. Aşıqlar Quranda verilmiş olan bu hadisəni gözəl sözlərlə dastana çevirərək, danışırlar. Onlar merac hadisəsi ilə Allahın varlığını və birliyini, onun qüdrət sahibi olduğunu anladır, hz. Məhəmmədin merac gecəsi aldığı sirlərə diqqəti yönəldirlər. Bu tipli əsərlər Azərbaycanın cənubunda daha çox yayılmışdır. Aşıq "Meracnamə"ni danışarkən zəruri izahlar da verir, bir sıra anlayışları şərh edir və dinləyicilərlə canlı təmas qurur.

Şarlot Olbrayt Aşıq Abbas Tufarqanlının "Meracnamə" əsərini təhlil edərkən göstərir ki, aşıq bu dastanı danışarkən şeirlərdən, mahnılardan instrumental ifalardan istifadə edir. Bu dastanda istifadə olunan qoşmalar 3, 4, 10 bənddən ibarətdir. Misralardakı heca sayı tez-tez dəyişir. Dastanda bir qaydasızlıq var və ənənəvi dastanlardan xeyli fərqlənir. Bunun da əsas səbəbi dastanın şifahi olaraq dildən-dilə keçməsidir. Dastandakı şeirlər əsasən 16-hecalıdır və biz bu misraları 8\8 olmaqla iki yerə ayırıb, asanlıqla 8-hecalı kimi oxuya bilərik. Aşıq bu dastanı söyləyərkən bütün imkanlarından istifadə edir və çalışır ki, dinləyicilər fəal şəkildə məclisdə iştirak etsinlər.

Azərbaycan aşıq ədəbiyyatının ayrı-ayrı problemləri ilə bağlı yazılmış elmi məqalələrdən biri də professor İlhan Başgözün "Türk hekayətinin-Azərbaycanda, İranda söyləmə ənənəsi" ("Turkish Hikaye-Telling Tradition in Azerbaijan, Iran") adlı araşdırmasıdır (133). Bu məqalə Cənubi-Azərbaycan aşıqlarının təcrübəsi əsasında yazılmışdır. Məqalə bir neçə baxımdan diqqəti çəkir. Hər şeydən öncə müəllif Azərbaycan aşıq ədəbiyyatında söyləyicilik ənənəsini bir elmi problem olaraq araşdırır, bu yolla da Azərbaycan, eləcə də türk aşıq sənətinin, aşıq ədəbiyyatının quruluşu, genezisi, texnikası kimi problemlərə aydınlıq gətirir. Bilindiyi kimi, aşıq ədəbiyyatında olan söyləmə, nağıl etmə üslubu qərb ədəbiyyatında yoxdur. Qərb ədəbiyyatında olan nağıl, əfsanə, lətifə, ballada kimi poetik janrları söyləmə ilə müqayisə etmək doğru deyil. Ona görə də, müəllif söyləmə, nağıl etməni hekayət olaraq adlandırmışdır. Hekayətlərdə nəsr hissə əsas olsa da, onun mətnində folklor mahnıları da olur. Bu folklor mahnıları da türk folklorunda önəmli yer tutur. Alim söyləmələrdə, hekayətlərdə olan folklor mahnılarını bir neçə yerə ayırmışdır: sevgi mahnıları, ritual mahnıları, şikayətlər, qəhrəmanlıq mahnıları. Bu folklor mahnıları hər bir hekayədə 1, 3, 5 və daha çox bənddən ibarət olur. Məsələn, "Əsli və Kərəm" dastanında 143 aşıq mahnısı var. Bu hekayəni danışan aşıq mahnıları da özü ifa edir. Bu zaman saz çalır və saz havasının müşayiəti ilə mahnılar oxunur. Hekayədə nəsr hissə adətən üçüncü şəxsə aid olur. Mahnılar isə formal olaraq birinci şəxsin dilindən söylənilir və oxunur. Hekayətlərdə bu folklor mahnılarının ayrıca yeri var. Məsələn, nağılçı hekayəti danışarkən, duyğuların coşub-daşdığı, məhəbbət və qəhrəmanlıq səhnələrinin təsvir olunduğu, təbiət gözəlliyindən, Allahın qüdrətindən danışıldığı, ya da sevgilinin həyatı təhlükədə olduğu məqamlarda hekayətin quruluşundakı nəsri folklor mahnıları ilə əvəz edir. Hekayət danışanlar professional olurlar və onlara aşıq deyilir. Onlar uzun müddət bu sənəti öyrənirlər.

Aşıq folklor mahnısını bəstələyə, ya da improvizə edə və ya etməyə də bilər. Sonuncu halda aşıq başqalarının bəstələdiyi folklor mahnılarından istifadə edir.

Cənubi Azərbaycanda aşıqlar hekayətləri çayxanalarda, toy mərasimlərində və şəxsi evlərdə söyləyirlər. Bu hekayələrin məzmunu insanla bağlıdır. Danışılan hadisələr, təsvir olunan mənzərələr, personajlar bu hekayət dinləyənlərin dünyagörüşünü formalaşdırır, toplumun dəyərlərini yaradır. Hekayələrdə ad çəkilən yerlər və qəhrəmanlar real olduğu kimi, qeyri-real da ola bilər. Bu hekayətlərin süjetində həyat hadisələri, kasıb bir aşığın gözəl bir qıza aşiq olması, qəhrəmanlıq kimi mövzular əsas yer tutur. Hekayətlər çox zaman qəhrəmanların evlənməsi ilə başa çatır. Hekayətlər türk folklor nağılları ilə müqayisədə daha uzundur. Bir hekayətin danışılması 3 və ya daha çox axşam davam edə bilər.

Professor İlhan Başgöz hekayətlərin xarakterini müəyyən edərkən onun epik olduğunu bildirərək yazır: "Bu başlıca olaraq roman və lirik əsərlər kimi xarakterizə olunur, baxmayaraq ki, əsas xarakter, qəhrəman, ya da onunla bağlı süjetləri bəzi dastanları qəhrəmanlıq macəraları ilə üzləşə bilər. Bu yönü ilə hekayətlər orta əsr romanları ilə oxşardır" (133, 392).

Bilindiyi kimi, dastan söyləmək Azərbaycan və Orta Asiya türkləri arasında geniş yayılmışdır. Güney Azərbaycanda isə Təbriz, Ərdəbil, Xoy və başqa şəhərlərdə bu ənənə güclüdür. Cənubi Azərbaycan aşıqları daha çox Məhərrəm və Səfər aylarında hekayətlər söyləyirlər. Deyildiyi kimi, bu hekayətlər çayxanalarda, xüsusi yerlərdə, ya da şəxsi evlərdə söylənilir. Hekayətin söylənildiyi çayxana adətən onun sahibinin adı ilə adlandırılır.

Alim araşdırmasında Təbrizli Aşıq Hacı Əlinin, Xoylu Aşıq Talibinin tərcümeyi-hallarını vermiş, eləcə də Aşıq Cəfər, Aşıq Hüseyn, Aşıq Qulu, Aşıq Məhəmməd, Aşıq Ələsgər kimi dastan söyləyən aşıqların adını çəkmişdir.

Bilindiyi kimi, dastan söyləməyin xüsusi texnikası var. Bir sıra aşıqları hekayət söyləyərkən başqa musiqiçilər də müşayiət edir. Bir sıra hallarda isə aşıq dastanı tək söyləyir. Müşayiət edənlər isə balaban və dəf çalırlar. Deməli, dastan sazın, balabanın və dəfin iştirakı ilə söylənilir. Dastan söyləmək adətən səhər saat 9-da başlayır və günorta sona çatır. Hekayətin söylənildiyi çayxanalarda dünyadan köçən aşıqların sazı asılır və heç kim bu sazlara toxuna bilməz.

Aşığın söyləmək üçün hansı dastanı seçməsinin iki yolu var. Ya iştirakçılar aşığın repertuarına daxil olan dastanlardan, hekayələrdən birinin söylənilməsini ondan xahiş edirlər, ya da aşıq iştirakçılarla məsləhətləşmədən repertuarında olan bir dastanı danışır. Aşıq hekayə danışmağa başlamazdan öncə dua və salavat oxuyur. Sonra Azərbaycan aşıqları Türkiyə aşıqları kimi hekayə söyləməzdən öncə kiçik mahnılar oxuyurlar. Bu mahnıların danışılacaq hekayələrlə əlaqəsi olmur. Adətən aşıqlar iki və ya üç mahnı oxuyurlar, bir sıra hallarda isə iştirakçıların xahişi ilə aşıq daha çox mahnı oxuya bilər. Bu mahnıların məzmunu fərqlənir. Elə aşıq var ki, onlar giriş mahnısı kimi dini və didaktik mətni olanları (ustadnamə) seçir. Bəzi aşıqlar isə sevgi ilə bağlı mahnı mətnlərini seçir. Bundan sonra aşıqlar öz iştirakçılarına hörmət və ehtiramlarını bildirirlər, sonra danışılacaq hekayə elan edilir, daha sonra isə aşıq nəql edəcəyinin qısa məzmununu verir. Bu informasiyalar qısa, ritmik nəsr üslubunda verilir. Aşıq hekayənin sonunda qüsurlarına görə iştirakçılardan üzr istəyir. O, hekayəni danışarkən stullarda oturmuş iştirakçıların arasında gəzişir. Aşıq mahnı oxuyarkən bir sıra hallarda iştirakçılar xüsusi mahnılar da sifariş verə bilərlər. Danışılan hekayələr təkrar olunduğundan demək olar ki, iştirakçıların hamısı onun məzmununu bilirlər. Aşıq hekayəni danışarkən dinləyicilərin marağını cəlb etmək üçün atalar sözlərindən, tapmacalardan, lətifələrdən istifadə edir, bəzən aşıq iştirakçılarla zarafatlaşır. Bu isə iştirakçılar arasında canlanma yaradır. Məsələn, Aşıq

Hacı Əli tez-tez Molla Nəsrəddin lətifələrindən istifadə edir. Şübhəsiz ki, hekayələr iştirakçıları siyasi, ictimai, coğrafi, mədəni baxımdan maarifləndirir. Aşıq hekayə söyləyərkən bir sıra tarixi qaynaqlara müraciət edir.

Tədqiqatçının müşahidəsinə görə, Güney Azərbaycan aşıqlarının söylədiyi hekayələrdə sosial satira, demək olar ki, yoxdur: "Azərbaycan çayxanalarında hekayə danışılan zaman önəmli siyasi xadimlərin tənqidini və sosial satiranı eşitmək mümkün deyil. Aşıqlar bu məsələdə çox diqqətlidirlər, bu cür incə mövzulara işarə edərək hökumətlə özləri arasında problem yaratmaq istəmirlər. Ancaq onlar kiçik hökumət məmurlarını, bürokratik süründürməçiliyi tənqid edirlər, bəzən də belə işçiləri açıq tənqid edərkən keçmiş dövrün ədalətli idarəçiliyini şişirdir və bu yolla indiki vəziyyətə münasibətlərini bildirirlər" (133, 400).

Hekayə danışmaq ənənəsində zaman keçdikcə bir sıra dəyişikliklər baş verir. Bu hekayələrin tarixi poetikası, mövzusu müasirləşdirilir, məhdudlaşdırılır və ya genişləndirilir, onlara realistik məzmun verilir. Bu hekayələrin məzmununa hekayə söylənilən zaman mövcud olan sosial problemlər də əlavə edilə bilər.

Güney Azərbaycan aşıqlarının çayxana sahibləri ilə yazılı müqaviləsi olmur. Onlara verilən pul iştirakçıların sayına və keyfiyyətinə görə dəyişir. İştirakçıların tərkibi isə yaşlı adamlardan, az saylı uşaqlardan, daha çox isə kəndlilərdən ibarət olur. Təbii ki, onların arasında polis işçisi, kiçik məmur, vergi yığan şəxslərə də rast gəlmək mümkündür. Bu məqalədə ən önəmli məsələlərdən biri də Güney Azərbaycan aşıqlarının söylədikləri hekayələrin məzmununun, motivlərinin, janrlarının, poetik quruluşunun və hekayə söyləmək texnikasının bütövlükdə İran və Türkiyə aşıqlarının söylədikləri hekayələrlə müqayisə edilməsidir. Təbii ki, bu aşıq məktəbləri arasında və hekayə söyləmək ənənəsində çoxsaylı oxşarlıqlar var. Ancaq bir sıra fərqlər də özünü göstərir. Bu fərqləri tədqiqatçı aşağıda-

kı kimi qruplaşdırır: Türkiyədə aşıqlar hekayələri uzun qış gecələrində, axşamlar iş olmayan zaman, Ramazan gecələrində, toy mərasimləri keçirilərkən söyləyirlər. Türkiyədə aşıqlar hekayəni ən çox Ramazan ayında gecə söyləyirlər. Çünki oruc tutan insanlar gecə namazı ilə səhər yeməyi (saxur) arasında oyaq qalırlar. İslam dini müqəddəs Ramazan ayında hekayə söyləməyi qadağan etməyib. Ancaq Güney Azərbaycanda mollalar hekayə söyləmək ənənəsinə ciddi problemlər yaradırlar. Məsələn, Məhərrəm və Səfər ayında hekayə söyləmək qadağandır. Güney Azərbaycan aşıqlarına dinin təsiri çox güclüdür. Bu həm hekayələrin məzmununda, həm də hekayə söylənilməsinin vaxtında özünü göstərir. Məsələn, Güney Azərbaycan aşıqlarının söylədiyi hekayələrdə çoxsaylı dini motivlər olur, nətlərdən geniş istifadə olunur.

Güney Azərbaycan və Türkiyə aşıqlarının hekayə söyləmək ənənəsi arasındakı fərqlərdən biri də budur ki, Türkiyədə aşıqların söylədiyi hekayələrin məzmununda milli duyğular çox güclüdür. Ancaq Güney Azərbaycan aşıqlarının söylədikləri folklor hekayələrinin məzmunu barədə bunu söyləmək olmaz.

Təbrizdə aşıqlar hekayələri daha çox yayda, iş vaxtı söyləyirlər. Ancaq Türkiyədə bunun əksinədir. Aşıqlar hekayələrini daha çox müqəddəs günlərdə, qışda və asudə vaxtlarda söyləyirlər.

Güney Azərbaycanda insanlar aşıqların söylədiyi hekayələrə çox maraq göstərirlər. Çünki İranda kinolar, qəzetlər, teatrlar fars dilindədir. Aşıq hekayələri Güney Azərbaycanda yaşayan türklərin özünüifadə vasitəsidir. Ancaq Türkiyədə belə bir problem yoxdur və çoxlu əyləncə növləri var. Ona görə də, Türkiyədə insanlar aşıqların söylədikləri hekayələrə o qədər də çox maraq göstərmirlər. Türkiyədə hekayə söyləmək ənənəsi böyük şəhərlərdə çox azdır, bu, əsasən kənd yerlərində öz varlığını qoruyub saxlayır.

Güney Azərbaycanda imkanlı adamlar aşıqların hekayə söyləmək ənənəsini müdafiə edirlər.

Türkiyədə aşıqlar hekayə söyləyərkən o hekayəni də özü söyləyir, sazı da özü çalır, mahnını da özü oxuyur, bu işdə onun heç bir yardımçısı yoxdur. Ancaq Güney Azərbaycanda saz çalan aşığa dəf və balaban yardım edir.

Güney Azərbaycanda hekayə söyləmək ənənəsi ən çox çayxanalarda və elat toylarında özünü göstərir.

Türkiyə və Güney Azərbaycan aşıqlarının hekayə söyləmək ənənəsində özünü göstərən fərqlərdən biri də muzd ödəmək üsulu ilə bağlıdır. Türkiyədə hekayə söyləyərkən nağılçılar vergi verirlər. Güney Azərbaycan aşıqları isə vergi vermir və iqtisadi baxımdan dövlətin nəzarətində deyillər.

Güney Azərbaycan aşıqlarının repertuarında ən çox "Aşıq Qərib və Şahsənəm", "Koroğlu hekayəsi", "Əşrəf bəy hekayəsi" geniş yer tutur.

İlhan Başgöz araşdırmasının sonunda Güney Azərbaycan aşıqlarının repertuarında yer tutan hekayələrin siyahısını da verib. Biz bunun önəmini nəzərə alaraq siyahını olduğu kimi təqdim edirik:

1. Koroğlunun səfərləri:
a. Aşıq Cununun səfəri (Aşıq Əli).
b. Bəyazidin səfəri (Aşıq Arslan Talibi).
c. Dəmirçi oğlunun səfəri (Aşıq Hacı Əli, Aşıq Arslan Talibi).
ç. Dəmirqapı və ya Ərəb Paşanın səfəri (Aşıq Hacı Əli, Aşıq Əli).
d. Mustafa Bəyin səfəri (Aşıq Hacı Əli).
e. İstanbullu Nigar Xanımın səfəri (Aşıq Hacı Əli, Aşıq Əli, Aşıq Arslan Talibi).
ə. Reyhan Ərəbin səfəri (Aşıq Hacı Əli).
f. Rum səfəri (Aşıq Hacı Əli).
g. Tokatın səfəri (Aşıq Əli).
h. Türkomanın səfəri (Aşıq Əli, Aşıq Arslan Talibi).
x. Koroğlunun sonu (Aşıq Əli).
2. Abbas Tufarqanlıın hekayəsi (Aşıq Hacı Əli, Aşıq Abdullah).

3.Əndəlib hekayəsi (Aşıq Hacı Əli).
4.Göyçəli Aşıq Ələsgərin hekayəsi (Aşıq Abdullah).
5.Aşıq Qəribin hekayəsi (Aşıq Hacı Əli, Aşıq Abdullah, Aşıq Arslan Talibi).
6.Aslan Bəyin hekayəsi (Aşıq Hacı Əli).
7.Bedi al Mülkün hekayəsi (Aşıq Hacı Əli).
8.Bəhram Şahın hekayəsi (Aşıq Arslan Talibi).
9.Dədə Qasımın hekayəsi (Aşıq Hacı Əli).
10.Ərcişin Əmrahının hekayəsi (Aşıq Hacı Əli, Aşıq Abdullah).
11.Şah Abbasın oğlu Heydər Bəyin hekayəsi (Aşıq Hacı Əli).
12.Cahandarın hekayəsi (Aşıq Hacı Əli).
13.Cahangirin hekayəsi (Aşıq Hacı Əli).
14.Əsli və Kərəm hekayəsi (Aşıq Hacı Əli, Aşıq Əli, Aşıq Abdullah).
15.Qurbani hekayəsi (Aşıq Hacı Əli, Aşıq Abdullah).
16.Lətif Şah hekayəsi (Aşıq Arslan Talibi).
17.Məsumun hekayəsi (Aşıq Hacı Əli).
18.Gərgərli Məhəmmədin hekayəsi (Aşıq Hacı Əli).
19.Məlik Bəhmənin hekayəsi (Aşıq Hacı Əli).
20.Molla Əlinin hekayəsi (Aşıq Cəfər).
21.Sabitin hekayəsi (Aşıq Hacı Əli).
22.Sabit Mehdi Xanın oğlunun hekayəsi (Aşıq Abdullah).
23.Sahib Camelin hekayəsi (Aşıq Dərviş).
24.Səyyad və Sədadın hekayəsi (Aşıq Abdullah).
25.Şikarinin hekayəsi (Aşıq Hacı Əli).
26.Valeh və Zərnigarın hekayəsi (Aşıq Abdullah).

İngilisdilli qaynaqlarda Azərbaycan aşıq ədəbiyyatının poetikası, aşığın türk cəmiyyətində yeri və rolu, saz və onun funksiyaları ilə bağlı yazılmış araşdırmalar sırasında professor İlhan Başgözün yazdığı "Aşıqların həyatları ilə bağlı türk folklor hekayələri" ("Turkish folk stories about the lives of minstrels") (132) xüsusi yer tutur.

Bəllidir ki, türk folklor ədəbiyyatında folklor şeirləri qoşan, aşıq

mahnıları bəstələyən, yəni qoşma, gəraylı, mani, dastan, gözəlləmə və s. kimi şeir şəkillərində yazan və onları oxuyan insanlar aşıq adlandırılır. Alimə görə, türk folklor ədəbiyyatında "aşıq" sözü XV yüzillikdən başlayaraq işlədilir. Və harada aşıq varsa, orada saz da var. Aşıqlar adətən köçəri və yarımköçəri həyat tərzi keçirirlər. Ancaq onlar yazılı ədəbiyyatla tanış olduqda özlərinə məxsus olan bir sıra xüsusiyyətləri ya itirirlər, ya da dəyişdirirlər:

"Onlar öz sənətini ictimai yerlərdə, çayxanalarda, bazarlarda, festivallarda, toylarda və şəraitə uyğun olaraq ağa və bəylərin şəxsi evlərində göstərirlər. Belə yerlərdə aşıqlar öz duyğularını və həyəcanlarını ifadə etmək üçün uyğun şəraitlə kifayətlənirlər. Bununla birgə aşıq burada pul qazanır və özünün həyat ehtiyaclarını ödəyir. Bu sosial şəraitin təsiri aşıqların işinə ciddi təsir göstərir" (132, 331).

XV yüzillikdən öncə türk folklorunda "aşıq" adı çəkilmir. Qaynaqlarda "aşıq" sözünün yerinə "ozan", "saz" əvəzinə isə "qopuz" sözü işlədilir. Ozan özünün köçəri həyat tərzini itirəndə o, tədricən musiqiçiyə çevrilir.

XV yüzillikdən sonra cəmiyyətdə ozanlar artıq özlərini musiqiçi kimi göstərəndə ədəbiyyatın quruluşunda da dəyişiklik baş verir. Məsələn, ədəbiyyatın yeni bir qolu yaranır. Biz bunu "folk stories" (xalq hekayələri) adlandırırıq. Bu hekayələrin quruluşunda nəsrlə şeirin qarışığı özünü göstərir: "Aşığın bir hekayəni əzbər söyləməsi üç, beş, yeddi və bəzən doqquz gecə davam edir. Musiqiçi (aşıq) bu hekayənin nəsr hissəsini əzbər deyir. Hekayənin dərin duyğular və həyəcanlarla dolu olan bu hissələri poetik formada ifadə edilir" (132, 331).

Burada müəllifin fikrini bir qədər dəqiqləşdirmək də olar: nəsrlə şeirin bir-birini əvəzləməsi hadisəsinə yalnız XV əsrdən sonra yaranmış Azərbaycan dastanlarında deyil, bundan əvvəl mövcud olmuş türk eposlarında da rast gəlinir. Bunu elə "Kitabi-Dədə Qorqud" boylarının mətnindən də görmək olar.

Bu musiqiçinin oxuduğu folklor mahnıları sazla müşayiət

edilir. Hekayə söyləyən musiqiçi (aşıq) aktyor, musiqiçi, ifaçı, şairdir. Onun özünəməxsus texnikası, adət və ənənəsi var. Tez-tez iştirakçılar musiqiçinin ənənələrini nizamlayır, ona təsir göstərir.

Alim türk folklor hekayələrini (dastanlarını) mövzusuna görə üç qrupa ayırmışdır: birinci qrupa qəhrəmanlıq hekayələri daxildir. Bu tipli hekayələrin məzmununda qəhrəmanlar səyahət edir, çoxsaylı döyüş səhnələri təsvir edilir, qəhrəmanlıq, igidlik anlayışları və bu anlayışlarla bağlı personajlar təsvir edilir. Bu qəhrəmanlıq hekayələrində romantik səhnələrə də yer verilir. Alim birinci qrupa daxil olan hekayələrin ən parlaq nümunəsinin "Koroğlu" dastanı olmasını bildirir (132, 332).

İkinci qrupa daxil olan hekayələr məhəbbət hekayələridir. Bu tipli hekayələrdə qəhrəmanlıq anlayışı güclü deyil. Bu hekayələrdə adi insanların macəraları təsvir olunur. Hekayələrin bir sıra qəhrəmanları real həyatda mövcud olmamışlar. Ancaq bu hekayələrin bəzilərində təsvir olunan musiqiçilər (aşıqlar) həqiqətən mövcud olmuşlar. Alim bu tipli hekayələrə "Əsli və Kərəm", "Aşıq Qərib və Şahsənəm", "Əmrah və Selvi" ("Əmrah" dastanı) hekayələrini misal göstərmişdir. O, ikinci qrupa daxil olan türk folklor hekayələrinin süjet və mövzuları ilə bağlı yazır: "Türk folklor hekayələrinin süjetləri gerçək hadisələrdən, aşıqların bioqrafiyalarından, əfsanələrdən, sehirli nağıllardan və klassik şeirlə deyilmiş sevgi hekayələrindən götürülür. Ancaq klassik şeirlə deyilmiş sevgi hekayələri türk ədəbiyyatına ərəb və fars ənənəsindən keçmişdir". (132, 332)

Müəllifin sonuncu fikri ilə tam surətdə razılaşmaq çətindir. Çünki K. Hüseynoğlunun yazdığı kimi, "… bəzən Azərbaycan şairləri ümummüsəlman ədəbiyyatından gələn mövzu, ideya və süjetləri öz fərdi yaradıcılıq süzgəcindən keçirərkən onlara o qədər yaradıcı surətdə yanaşır və yeni çalarlar verirdilər ki, tamamilə yeni və orijinal əsərlər ortaya çıxırdı. Buna misal olaraq "Əhməd Hərami" və "Mehri və Vəfa" əsərlərini göstərmək olar.

Hər iki əsər didaktik mahiyyətli məhəbbət dastanı olsa da, onların süjetlərinə Yaxın Şərq xalqlarının dastan yaradıcılığında rast gəlinmir. Birinci dastanın ilk sətrində "Bu dastanı bu gün bünyad edəlim" deyilməsi də göstərir ki, əsəri başqa dastanlardan istifadə etməklə müəllifin özü yaratmışdır. (40,43)

Bu ikinci qrupa daxil olan folklor hekayələrinin məzmun və süjet xəttini belə ümumiləşdirmək olar. Bu hekayələrdə aşıqların (musiqiçilərin) həyatı və bu aşıqların yazdığı şeirlər verilir. Aşıq hekayənin qəhrəmanıdır. O gəncliyində yuxuda Xızır İlyasın, ya da müqəddəs bir şəxsin verdiyi sevgi şərbətini içir və bir gözələ aşiq olur. Tez-tez bu folklor hekayələrinin sujetində bir detal da özünü göstərir. Aşığa yuxusunda sevgi şərbəti verən müqəddəs şəxs ona yenə də yuxusunda sevgilisini göstərir. Bu sevgi şərbətinin qeyri-adi gücü var. O, aşığa sevgi və sevdiyi qızla yanaşı, qəhrəmanlıq və şairlik qabiliyyəti də verir. Bu hadisə ilə eyni zamanda sevgili də yuxuda aşığa sevgi şərbəti vermiş müqəddəs adamın təqdim etdiyi şərbəti içir və aşiq olur. Daha sonra bu folklor hekayələrinin süjet xətti belə davam edir. Bu sevgililər arasında çoxlu maneələr ortaya çıxır. Ya qız uzaqda yaşayır və  oğlan onu tapmaq üçün səfərə çıxır və çoxlu macəralarla qarşılaşır, ya da oğlanla qız eyni ərazidə yaşayırlar, ancaq onların arasında tayfa, sosial və dini fərqlər olur. Bu fərqlər onları bir-birindən ayırır. Qəhrəman bu fərqləri aradan qaldırmaq üçün mübarizə aparır. Bu folklor hekayələrində qəhrəmanın maneələri dəf etmək, qalib gəlmək yolları belədir. Qəhrəman ya öz mahnılarının, şeirinin gözəlliyi, ya möcüzəli bir güc, ya da müqəddəs bir adamın (qəhrəman bu adamı yuxuda görür) yardımı ilə qalib gəlir. Bu tipli hekayələrin sonu xoşbəxtliklə başa çatır. Ancaq "Əsli və Kərəm" dastanı istisnadır.

Qeyd edək ki, folklor hekayələrində oğlanla qızın bir-birinə aşiq olması motivi müxtəlif yollarla baş verir: bir sıra türk folklor hekayələrində oğlana və qıza eyni zamanda Xıdır İlyas və ya digər bir müqəddəs insan yuxuda "buta" verir, sevgililərə yuxuda

təndir çörəyi verilir, sevgililər yuxuda yaşıl paxla yeyirlər, sevgililər yuxuda "mövlud" adlı meyvədən hazırlanmış şirə içirlər.

Alim aşıqların (musiqiçilərin) həyatı ilə bağlı olan folklor hekayələrini bioqrafik folklor hekayələri adlandırmışdır (132, 334). Onun fikrincə, bu cür folklor hekayələri özünü bir neçə formada göstərir. Məsələn, bir sıra hallarda aşıq öz həyatında baş verən hadisələrlə bağlı şeirləri folklor hekayələri ilə birləşdirir və ifa edir. Bu hekayələrdə sujetin qəhrəmanı, şeirlərin müəllifi və hekayədəki nəsr hissəsi eyni şəxsə aiddir.

Başqa tipli bioqrafik folklor hekayələrində aşığın özü ikinci şəxs qismində çıxış edir. Folklor hekayəsinin mətninə başqa aşıqların şeirləri də yerləşdirilir və mövcud olan ənənə onun həyatı ilə bağlanır. Bu tip folklor hekayələri qəhrəmanın ölümündən sonra yaranır və hekayənin qəhrəmanını (aşığı) yaxşı tanıyan və onun şeirlərini dərindən bilən bir şəxs tərəfindən yaradılır.

Bioqrafik folklor hekayələrinin üçüncü tipində isə müəllif məlum olmur və ölmüş aşıq və onun şeirləri haqqında məlumat verilir. Alim bioqrafik folklor hekayələrinin üç tipi arasında başqa bir önəmli fərqi göstərərək yazır: "Birinci və ikinci qrupa daxil olan hekayələr yalnız son dövrlərin məhsuludur və yazılı forması var, ancaq onlar şifahi ənənələrə çevrilməmişdir" (132, 334).

Alimə görə, folklor hekayələrinin nəsr hissəsi aşığın həqiqi bioqrafiyası deyil. Müəllif bioqrafik məlumatları bir sıra amillərin təsiri ilə dəyişir. Bu faktorlar folklor hekayəsinin ənənəsi ilə, hekayənin yayıldığı sosial mühitin təsiri, folklor hekayələrinin struktur quruluşunun xarakteri ilə bağlıdır.

Türk insanı folklor hekayələrindəki təsvir olunan aşıqlara inanır. Onlara görə yuxusunda sevgi şərbəti içən insan real qəhrəmandır. O, güclüdür, o şeir qoşa bilir, döyüşə bilir, yenilməzdir. Elə buna görə də, türk folklorunda bu aşıqlar "Haqq aşıqları" adlandırılmışlar. Türk folklor hekayələrində olan ənənələrdən biri də qəhrəmanların fövqəladə gücə malik olmalarıdır.

Ancaq bu tipli bioqrafik folklor hekayələrinin nəsr hissəsində qəhrəmanla bağlı verilən informasiyalar tez-tez dəyişə bilir.

Bu tipli folklor hekayələrinin özünəməxsus quruluşu var. Məsələn, şeirlər hekayəyə məntiqi olaraq yerləşdirilə bilər. Bir sıra hallarda bu şeirlərin həqiqi yerini tapmaq çətin olur. Bununla bağlı olaraq folklor hekayəsinin struktur tələbinə görə qəhrəmanın bioqrafiyası dəyişikliyə uğrayır. Hekayədə olan şeirlərin sayı nə qədər çox olsa, folklor hekayəsi bir o qədər gözəl hesab edilir.

Bu gün üçüncü qrup folklor hekayələrinin müəllifləri unudulub və bu hekayələrin söyləyiciləri inanırlar ki, bu hekayələrin müəllifləri heç vaxt mövcud olmayıb. Alim bu məsələ ilə bağlı yazır: "Mənim fikrimcə, folklor hekayələrinin "öz-özünə" inkişaf etdiyini düşünmək və türk folklor hekayələrinin böyük bir hissəsi olan bu hekayələrin heç bir fərdi müəllifinin olmadığını irəli sürmək səhvdir" (132, 336).

Alimin bu fikri doğrudur və bu mövqeyin təsdiqi üçün aşağıdakı dəlillər irəli sürülə bilər. Türk folklor ədəbiyyatında aşıqlar demək olar ki, hər zaman şeirlər yazırlar və bəstələyirlər. Bu şeirlər kiçik və böyük hadisələrlə bağlı olur. Onlar bununla yanaşı, bu folklor mahnılarının, şeirlərinin hansı hadisə ilə bağlı olduğunu qısaca izah edirlər. Bu izah da dinləyicilərin eşitdiklərinin başa düşülməsini asanlaşdırır. Elə bu məqsədlə də, şeirlər çox zaman nəsr hissəsi ilə birgə təqdim olunur. Belə qısa və sadə şeirlərin nəsr bölməsi ilə birləşdirilməsi folklor hekayələrinin çox sadə bir elementidir. Başqa bir dəlil də budur ki, müasir aşıqlar öz şeirlərini oxumamışdan öncə onların yazılma səbəbləri ilə bağlı şərh verirlər. Bu şeirlər və nəsrlə nəql edilən əhvalatlar ilkin olaraq müəllifin özü tərəfindən ifa edilir, sonra isə onun dostları və başqa sosial mühitlər arasında yayılır. Bu yolla da real hadisələr və bioqrafik məlumatlar dastanlaşır. Bu, aşıqla bağlı olan bioqrafik məlumatlar və folklor şeirlərinin şifahi dövriyyəsinin labüd nəticəsidir. Ancaq belə bioqrafik məlumat-

ların dəyişdirilməsi prosesini yalnız bu yolla izah etmək kifayət deyil; çünki bir sıra hallarda prosesə psixoloji şərtlər, təsirlər, maraqlar, sosial mühit və aşıqla dinləyici arasındakı münasibət təsir edir. Bir sıra hallarda isə aşıqların özləri öz bioqrafik məlumatlarını dəyişdirirlər.

Bizcə, professor İlhan Başgözün bu məqaləsi bioqrafik folklor hekayələrinin araşdırılması yönündə ciddi bir addımdır. Müəllifin belə bir qənaəti də doğrudur ki, folklor hekayələri dəyişikliyə uğradığı kimi, aşığın söylədikləri, onun istifadə etdiyi musiqi alətləri də eyni yolla dəyişilir. (132, 339)

### *2. 6. Azərbaycan el havaları*

Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı son zamanlar görülmüş işlər sırasında tanınmış macar alimi Yanoş Şipoşun "Azərbaycan el havaları - musiqinin ilkin qaynaqlarında" ("Azeri Folksongs-at the Fountain-Head of Music") adlı kitabı xüsusi yer tutur (186). O, Azərbaycanın bölgələrini gəzmiş, Azərbaycanda yaşayan ayrı-ayrı xalqların folklor musiqisini toplamış, bu musiqi nümunələrinin notunu hazırlamış və bu nümunələri təhlil etmişdir. Müəllifə görə, hər bir millət öz xalq musiqisinin özünəməxsus və ümumi cəhətlərini müəyyən etmək üçün qonşu xalqların, qohum millətlərin musiqisini bilməlidir. O, araşdırmasında müqayisəli təhlil metoduna üstünlük vermişdir. Müəllif araşdırmasında Fin-Uqor dil qrupuna mənsub olan macarların folklor musiqisi ilə türk xalqlarının folkloru arasında olan bağlılığa işarə edərək yazır: "Macar musiqişünaslarının əksəriyyəti macar xalq musiqisində türk-monqol bənzəyişlərini vurğulamışlar. Bela Bartok və Laslo Vikar türklərə üz tutub, orada macar musiqisinin bəzi qatlarına oxşar melodik üslublar tapmaqdan öncə, fin-uqorlar arasında tədqiqatlara başlamışlar. Onlar "Asiya ekspedisiyalarında macar xalq musiqisi üslublarına uyğun gələn üslub-

ları Anadoluda, Azərbaycanda, Qazaxıstanda, Qafqazda, Daxili Monqolustanda və s. yerlərdə aşkarlamışlar. Beləliklə, macarlar musiqi cəhətdən müxtəlif türk və monqol xalqları ilə əlaqələndirilə bilərlər" (186, 11-12).

Yanoş Şipoş etnomusiqişünaslıq tədqiqatını Volqa-Kama regionundan başlayaraq Anadoluya və Şərqə doğru uzanan geniş ərazilərin folklor musiqisi ilə müqayisəli şəkildə yazmışdır.

Kitabda Azərbaycan folklor musiqisi təhlil edilərkən xəritələrdən, fotoşəkillərdən istifadə olunmuş, musiqi nümunələrinin geniş antologiyası verilmiş, Azərbaycan musiqi üslublarının müqayisəli təhlili önə çəkilmişdir. Bundan başqa, ayrı-ayrı folklor mahnı mətnləri, bu mətnlərin ingilis və macar dilinə tərcüməsi, indeks, qeydlər və ən gözəl folklor melodiyalarından ibarət olan kompakt disk də kitaba əlavə olunmuşdur. Yanoş Şipoşun bu dəyərli tədqiqatı aşağıdakı bölmələrə ayrılır: "Ön söz", "Azərbaycan tarixi haqqında", "Azərbaycana ekspedisiya haqqında hesabat", "Azərbaycan el havaları", "Azərbaycan havalarının Anadolu analoqları", "Bəzi musiqi fenomenləri haqqında", "Regionda yaşayan bir neçə etnik azlığın musiqisi haqqında bəzi qeydlər", "Azərbaycan xalq musiqisi ilə başqa türk xalqlarının və macarların musiqisi arasındakı əlaqələr", "Azərbaycan el havalarının antalogiyası", "İonik kökdə gəzişən havalar", "Lokrik kökdə gəzişən havalar", "Eolik kökdə gəzişən havalar", "Havaların mətnləri və onların ingilis dilinə tərcüməsi".

Alim araşdırmasında Azərbaycan folklor mahnıları ilə Anadolu türklərinin folklor mahnılarını müqayisə etmişdir. Onun fikrinə görə, Azərbaycan türkləri ilə Anadolu türklərinin etnogenezində eyni türk tayfaları iştirak etmişlər. O, Anadoluda topladığı iki min folklor havasını və üç minə yaxın melodiyanı öyrənmişdir. Tədqiqatçı eyni zamanda altı yüz əlli Azərbaycan folklor havasını və üç yüzə qədər melodiyanı araşdırmışdır. Onun qənaəti belədir: "Azərbaycan xalq musiqisində bəsit və çətin təsnif edilən melodik tiplər üstünlük təşkil edir. Bu musi-

qi folklorunda nəinki diapazon, ritm, melodik motivlərin sayı sadədir, həmçinin melodik hərəkətin xarakteri də son dərəcə yekcinsdir. Əksinə, məhdud diapozonlu, iki özəkli Anadolu melodiyaları həm ritm, həm də melodik şəkil etibarı ilə olduqca müxtəlifdir" (186, 115).

Azərbaycan folklor havaları ilə ayrı-ayrı türk xalqlarının folklor havaları demək olar ki, eynidir, ancaq aralarında çox fərqli olanları da var.

Alim yeri gəldikcə Azərbaycan, Anadolu və macar folkloru arasındakı paralellərə də toxunmuşdur.

Yanoş Şipoş Azərbaycan folklor havalarını təhlil edərkən Azərbaycan aşıqlarının üslubuna da münasibət bildirmişdir. Onun araşdırmasına görə, Azərbaycan aşıqları kiçik formalı melodiyaları ucadan oxuyur, onlar bu melodiyaları oxuyarkən sadə girişə, ara çalğıya və sonluq bölmələrinə yer verirlər. Azərbaycan aşıqları uzunqollu və üç cüt simi olan sazdan istifadə edirlər. Azərbaycan aşıqları oxuyarkən hər zaman saz çalmırlar. Alim xalqın oxuduğu melodiyalarla aşıqların repertuarlarını müqayisə edərək yazır: "Bütövlükdə xalqın oxuduğu melodiyalarla onların (aşıqların - İ.V.) repertuarı arasındakı fərq ondadır ki, aşıqlar daha uzun musiqi misralarına meyl edərək, onları şeirlərin uzun misraları üstündə oxuyurlar" (186, 127).

Azərbaycan aşıqları öz mahnılarını ən zil və yuksək səslərlə başlayırlar. Bu baxımdan Azərbaycan aşıqlarının oxuduğu havalar Türkiyənin Adana ətrafından olan aşıqların uzun hava melodiyalarına oxşayır.

Y.Şipoş Azərbaycan folklor havalarını musiqi baxımdan ciddi təhlil etmişdir. Təhlil etdiyi folklor havalarının notunu vermiş, onlara məxsus xüsusiyyətləri açıqlamışdır.

Kitabın ən maraqlı bölmələrindən biri də "Azərbaycan xalq musiqisi və başqa türk xalqları ilə macarların musiqisi arasında əlaqələr" adlanır. Alimə görə, Azərbaycan folklor havalarının çoxunun Anadolu paralelləri var. O, Azərbaycan, Anadolu və

macar xalq musiqisini müqayisə edərək yazır: "Macar və Anadolu xalq musiqisi ilə müqayisədə Azərbaycan xalq musiqisi sabitləşmiş dörd hissəli strukturların məhdud dairəsi və çox nadir halda təzahür etməsi ilə səciyyələnir. Azərbaycan xalq musiqisində, əslində, heç bir plaqal melodiya quruluşu yoxdur.

Macarların məhdud sahəli materialı qədim Avropa və orta əsrlər musiqi mədəniyyətinin, habelə XV-XVII əsrlərdəki havaların təsiri üzərindəki macar tədqiqatları sayəsində folklor ənənəsi kimi müəyyənləşdirilib. Xatırlanan mədəniyyətlərin Azərbaycan mədəniyyəti ilə əlaqəsi olan mədəniyyətlərlə heç bir münasibəti olmamışdır və həqiqətən də macar və Azərbaycan dar diapazonlu havaları arasında heç bir ümumi cəhət yoxdur.

Bir neçə tonlu motivlər macar və Anadolu materiallarının daha sadə növləri üçün də çox tipik olan orta notun ətrafında dəyişərək, Azərbaycan musiqisində, nadir hallarda olsa da, daha çox instrumental havalarda özünü göstərir.

Əksinə, macar və Anadolu ağılarının kiçik formasına oxşayan bolluca Azərbaycan havaları vardır. Bu yəqin ki, mühüm eyniliklər nümayiş etdirən yeganə musiqi formasıdır" (186, 179).

Müəllif bu xalqların folklor havalarını müqayisə etdikdən sonra belə bir nəticəyə gəlir ki, Azərbaycan xalq musiqisi həm qonşuluqdakı, həm də daha uzaqdakı türk etnoslarının folklor musiqisindən önəmli dərəcədə kənara çıxır, Azərbaycan xalq musiqisi türk xalqlarının musiqisində unikal kolorit yaradır.

Tədqiqatçı kitabında Azərbaycan el havalarının antalogiyasını vermiş, folklor musiqisini nota köçürmüşdür. Azərbaycan folklor mahnılarının orijinal mətninin və bu mətnlərin ingilis dilinə tərcüməsinin verilməsi də kitabın üstünlüklərindən biridir.

Biz Azərbaycan folklor havalarının orijinalı ilə ingilis dilinə tərcüməsi arasında müqayisə aparmaq üçün onlardan bəzilərinin hər iki dildə mətnini təqdim edirik:

| | |
|---|---|
| Laylay dedim, yatasan,<br>Qızıl gülə batasan.<br>Qızıl güllər içində<br>Şirin yuxu tapasan. | I,ve sung a lullaby, lie down<br>Sink into crimson roses.<br>Amidst the crimson roses<br>May you find a sweet dream.<br>(186, 449) |
| Al almağa gəlmişəm,<br>Mal almağa gəlmişəm.<br>Oğlanın anasıyam,<br>Aparmağa gəlmişəm. | I've come for the beauty,<br>I've come for the dowry.<br>I'm the bridegroom's mother,<br>I've come to take them.<br>(186, 451) |
| Dağlara çən düşəndə,<br>Sünbülə dən düşəndə,<br>Ruhun bədəndən oynar,<br>Yadıma sən düşəndə. | When fog settles on the mountains,<br>When the ears of corn turn yellow,<br>My soul departs from my body<br>When I remember you.<br>(186, 453) |
| Qarabağda bağ olmaz,<br>Qara salxım ağ olmaz.<br>Qərib yerdə gəzənin,<br>Ürəyində yağ olmaz. | In Garadag there can't be an orchard,<br>A black bunch cannot be white.<br>For those wandering in alien lands<br>Can't find relief in their hearts.<br>(186, 525) |

Azərbaycan folklorunun tədqiqinə dair monoqrafiyada Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı indiyədək görülmüş işlər dəyərləndirilmiş, Azərbaycan folkloruna dair ingilisdilli alimlərin yazdıqları elmi məqalələr və kitablar təhlil edilmiş, Azərbaycan aşıq ədəbiyyatının bir sıra nümunələrinin ingilis dilinə tərcüməsi ilə bağlı məsələlər şərh olunmuşdur

Türkiyədə ingilis dilində çap olunmuş kitablardan biri də K.V.Nərimanoğlunun "Dədə Qorqud kitabı"nın poetikası" adlı

əsəridir ("The poetics of "The book of Dede Korkut") (168). Bu tədqiqat işi Bakıda Azərbaycan dilində də nəşr edildiyinə görə (78) onun üzərində ətraflı dayanmağı lazım bilmirik. Qısaca bunu deməklə kifayətlənirik ki, həmin kitabda arxaik dastan mətnində poetik sintaksis, ritm və intonasiya, bədii ifadə və təsvir vasitələri, dastandakı şeirlərin poetik və sintaktik quruluşu, formul nəzəriyyəsi və s. maraqlı məsələlər tədqiqat obyektinə çevrilmişdir.

# III FƏSİL
# AZƏRBAYCAN AŞIQ ŞEİRİNİN İNGİLİS DİLİNƏ TƏRCÜMƏSİ İLƏ BAĞLI MƏSƏLƏLƏR

## *3.1. XVI - XVIII əsr Azərbaycan el sənətkarlarının şeirlərinin ingilis dilinə tərcüməsinin təhlili*

Monoqrafiyanın bu fəslində Azərbaycan aşıq ədəbiyyatının Aşıq Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir kimi qüdrətli nümayəndələrinin bir sıra şeirlərinin ingilis dilinə tərcüməsi təhlil edilmişdir. Şeiri tərcümə olunmuş aşığın yaradıcılığının başlıca xüsusiyyətləri göstərilmiş, ingilis dilinə tərcümə edilmiş şeirin ideya və məzmununa qısaca münasibət bildirilmişdir. Təhlil zamanı qüsurlu tərcümə variantları göstərilmiş, zəruri hallarda sözün, misranın, bəndin ingilis dilinə mümkün tərcümə variantları təqdim edilmişdir.

Azərbaycan xalqının milli mədəniyyətində müstəsna rol oynamış ozan-aşıq sənəti tarix boyu müxtəlif adlar daşımış, zəngin və uzun inkişaf yolu keçmişdir. XVI - XVIII əsrlərdən etibarən bütün ulu sələflərini təmsil edən aşıq sənəti milli sədləri aşıb, bir çox qonşu xalqlar arasında da yayılmışdır və onlarda da Azərbaycan dilində çalıb oxuyan aşıqlar ortaya çıxmışdır.

XVI - XVIII əslərdə Qurbani, Miskin Abdal, Xəstə Qasım, Sarı Aşıq, Abdulla kimi ustad sənətkarlar aşıq şeirinin şəkillərini zənginləşdirmiş, bu şəkillərdə nadir söz inciləri yaratmışlar. Onların yaratdıqları lirik mənalar, bəşəri hisslər xarici tədqiqatçıların və tərcüməçilərin də diqqətini cəlb etmiş və onlar Azərbaycan sənətkarlarının əsərlərini ingilisdilli oxuculara da çatdırmaq istəmişlər.

### *3.1.1. Aşıq Qurbaninin şeirlərinin ingilis dilinə tərcüməsinin təhlili*

İngilis tərcüməçisi Dorian Rottenberq Azərbaycan aşıqlarını tərcümə edərkən Aşıq Qurbaniyə ayrıca yer vermış, onun "Bənövşə", "Göz dəyər sənə", "Nədəndi" şeirlərini ingilis dilinə çevirmişdir (127, 615-617).

Tərcüməçi aşığın "Bənövşə" şeirini tərcümə edərkən şeirin quruluşunu və bədii xüsusiyyətlərini saxlamağa çalışmışdır. Şeirin birinci bəndinin birinci misrasında frazeoloji birləşmə işləndiyindən ("başına dönmək") tərcüməçi şeirin ingilis variantında bu ifadənin qarşılığını gözəllik anlayışını ifadə edən bir neçə sözlə vermişdir. "O my dearest, my love, my beautiful peri" - "mənim əziz, sevimli, gözəl pərim". Bizcə, bu, şeirin orijinalına uyğundur. Bəndin ikinci,üçüncü misrası isə demək olar ki, söz-söz tərcümə edilmişdir. Tərcüməçi dördüncü misrada olan "bənövşələri düzmək" anlayışını "bənövşələri sancaqla gözəl buxağa tax" kimi vermişdir.

Şeirin ikinci bəndinin birinci misrasında bənövşəyə gözəlliyin Tanrı tərəfindən verildiyi bildirilir. Tərcüməçi isə gözəlliyin "yuxarıdakı qüvvələr" (the powers above) tərəfindən bir nemət olaraq verildiyi mənasını önə çəkmişdir. Bu misrada tərcüməçinin hansı səbəbdən Tanrı anlayışını "yuxarıdakı qüvvələr" anlayışı ilə əvəz etməsi bəlli deyil. Bilindiyi kimi ingilis dilində "power"" sözü həm sayılan, həm də sayılmayan isim kimi işlənir. Bu sözün "authority" "(hakimiyyət), "command"" (əmr), "control" "(nəzarət), "dominion"" (üstünlük təşkil edən), "influence" "(təsir), "rule" "(qayda, idarə), "energy" "(güc), "force" "(qüvvə), "ability" "(bacarıq) kimi mənaları var. Bununla yanaşı "power"" xeyir, ya da şər ruh mənasında da işlədilir. Ancaq istənilən halda bu anlayışların heç biri Tanrı anlayışını əvəz etmir. Bəndin ikinci misrasının tərcüməsi orijinalın məzmununu əhatə edir. Üçüncü misrada isə tərcüməçi özünəməxsus əlavələr etmişdir. Belə ki, şeirin orijinalında "bənövşənin mələklərin

dərib göydən gətirdiyi" fikri sual üslubunda ifadə olunur, tərcüməçi isə mələk sözünü "göyərçin kimi bəzənmiş (bürünmüş, örtünmüş) mələk" kimi tərcümə etmişdir. Bu bəndin sonuncu misrasının tərcüməsi isə qənaətbəxş sayıla bilər.

Şeirin üçüncü bəndinin birinci misrasında aşıq sanki bənövşə ilə danışır, onunla özü arasında bir uyğunluq görür, dərdini ona söyləyir, bənövşənin onu anladığını hiss edir, özü ilə bənövşə arasında paralellik yaradır. Tərcüməçi isə deyilən məzmunu ifadə edəcək sözlər seçə bilməyib. Qurbani könlünün xəstə olduğundan danışır, tərcüməçi isə Qurbaninin yazıq ürəyinin əsir düşdüyünü önə çəkir. Qurbani gözəl bir bənzətmə işlədərək bənövşənin boynunun əyri olduğunu onun həsrət çəkməsi ilə bağlayır, tərcüməçi isə sevgilisinin ondan ayrı düşüb solduğunu göstərir. Qurbani özü ilə bənövşə arasında olan bənzərliyi önə çəkərək bənövşənin hər zaman və hər yerdə həsrət içində yaşadığını göstərir, tərcüməçi isə aşığın dilindən xöşbəxt günlərin nə vaxt başlayacağını bənövşədən soruşur.

Bizim bu şeirin üçüncü bəndinin üzərində ayrıca durmağımızın səbəbi odur ki, bizə görə Qurbani bu bənddə Azərbaycan aşıq ədəbiyyatında bənzəri olmayan bir obrazlıqla gözəl bir məna, incə bir fikir ifadə etmişdir. Onu da deyə bilərik ki, Qurbanidən sonra bənövşənin boynunun əyriliyinin onun həsrət çəkməsi ilə əlaqələndirilməsi ədəbiyyatımızda ən çox işlənən bədii təsvir və ifadə vasitələrindən birinə çevrilmişdir. Tərcüməçi isə bu gözəl mənanı və obrazlığı oxucuya çatdıra bilməmişdir.

Dorian Rottenberqin Aşıq Qurbanidən tərcümə etdiyi ikinci şeir "Göz dəyər sənə" adlanır. Bilindiyi kimi, bu şeir öz lirik məzmunu ilə seçilir və aşıq bu şeirində Azərbaycan dilinə məxsus bir sıra orjinal ifadələr işlətmişdir. Qurbani şeirdə öz sevgilisini hər şeyə qısqanır, onu "kölgədə bəslənmiş quzey qarı" adlandıraraq hər şeydən və hamıdan qorumağa çalışır. Təbiidir ki, azərbaycanlı düşüncəsinə bağlı olan anlayışları, frazeoloji birləşmələri ingilis dilinə tərcümə etmək asan deyil.

Bu tərcümədə gözə çarpan detallardan biri odur ki, tərcüməçi şeirdəki "söz dəyər", "göz dəyər", "tez dəyər", "toz dəyər" deyimlərini ingilis dilində olan "to do harm to somebody" (bir kəsə ziyan vermək) ifadəsi ilə tərcümə etmişdir. İngilis dilində bu ifadə ayrı-ayrı çalarlarda işlədilir. Məsələn: göz dəymək, pislik etmək, ziyan vurmaq və s. Şeirin birinci bəndinin tərcüməsində məzmuna uyğun olmayan ciddi bir qüsur yoxdur. Təkcə üçüncü misrada tərcüməçi mətnə müdaxilə etmiş, "qarşıda durma" ifadəsi yerinə "pəncərə yanında durma" kimi ifadə işlətmişdir. Bundan başqa tərcüməçi "al, yaşıl geyinmək" birləşməsi yerinə "çəhrayı geyim" ifadəsindən istifadə etmişdir.

Şeirin ikinci bəndinin birinci misrasında Qurbani "gedən qızın kimin yarı olduğunu" soruşur, tərcüməçi isə bu misrada gedənin kimin qızı olduğunu bilmək istəyir. Bu bəndin "kölgədə bəslənmiş quzey qarısan" misrasını tərcüməçi "sən kölgədə doğulmusan- kölgə qarısan" kimi vermiş və bu cür tərcümə daha çox qafiyə xətrinə edilmişdir. Bu bəndin dördüncü misrasında səhər yellərinin Qurbaninin sevgilisinə toxunması, dəyməsi anlayışı var, tərcüməçi isə bu misranı "isti günəş sənə ziyan vura bilər" kimi tərcümə edib.

Qoşmanın üçüncü bəndinin tərcüməsi orjinala uyğundur. Bir sıra kiçik detalları nəzərə almasaq, bu bəndin tərcüməsi uğurlu sayıla bilər.

Aşıq Qurbaninin ingilis dilinə tərcümə olunmuş üçüncü şeiri "Nədəndi" adlanır. Aşıq bu şeirində öz sevgilisinə olan münasibətini açıqlayır, onun gözəlliyini tərənnüm edir, onu anlamağa, duymağa, dəyərləndirməyə çalışır. O, bu məzmunu ifadə etmək üçün uyğun bir üslub da seçib.

Aşıq Qurbaninin bu qoşmasında sevgilisinin etdiyi bir sıra hərəkətlərin səbəbini soruşur və bu yolla da ona olan münasibətini açıqlayır. Aşıq bu məzmunu ifadə etmək üçün "nədəndi" sual üslubunu seçir. Tərcüməçi qoşmanın bütün bəndlərində təkrar olunan bu sualı "How can you?" (Sən bunu necə edə bilirsən?) kimi tərcümə etmişdir.

Şeirin birinci bəndinin birinci misrasının tərcüməsi orjinala uyğundur, ikinci misrada isə "namusu əğyara satmaq" deyimi, ingilis dilinə "sevgilinin düşmənə üstünlük verməsi" kimi tərcümə olunub. Bəndin dördüncü misrasında isə adamların onun sevgilisinə verdiyi "şahbaz" adından sevgilisinin imtina etməsini, bu adı atmasını tərcüməçi sevgiliyə verilmiş bu adı onun sıradan çıxartması, məhv etməsi kimi tərcümə edib və bu misranın orjinalında olmayan "bir zərbə ilə" (with one blow) anlayışını qafiyə xatirinə mətnə artırıb.

İkinci bəndin birinci misrasında aşiq öz sevgilisini hər yerdə axtardığını, soruşduğunu bildirir, tərcüməçi isə bu misranı "Mən səni hər yerdə axtarmışam, sən harada gizlənirsən?" kimi tərcümə edib. İkinci misrada aşiq hər gün sevgilisinə olan marağının, arzusunun, sevgisinin artdığını bildirir, tərcüməçi isə bu misranı "Mənim qəzəbim gecə və gündüz məni məhv edir" kimi tərcümə edir. Bu bəndin üçüncü və dördüncü misralarını isə tərcüməçi "özün öz əlinlə yandırdığın qəzəb (ehtiras) odunu söndürəcəksən və məni dərd, qəm içərisində tərk edəcəksən" kimi tərcümə etmişdir.

Şeirin üçüncü bəndinin tərcüməsi əsasən doğru olsa da, tərcüməçi bu bənddə ifadə olunmuş sevgililərin qovuşmaq arzusunu dəqiq ifadə edə bilməyib. Belə ki, ingilis dilində qovuşmaq anlayışını ifadə etmək üçün "to merge", "to join together"", "to amalgamate", "to coalesce" kimi fellərdən istifadə olunur. Tərcüməçi isə bu anlayışı ifadə etmək üçün "to hold" "(tutmaq, saxlamaq, yapışmaq, yerləşdirmək, doldurmaq, tərəfdar olmaq (rəyə), sahib olmaq, malik olmaq) felindən istifadə etmişdir. Bu bənddə sevgililərin dua nəticəsində qovuşması arzu olunur. Tərcüməçi isə bu anlayışı bütövlükdə mətndən çıxarıb.

Şeirin dördüncü bəndinin birinci misrasına tərcüməçi "sənin mənim qulağıma dediyin sözlər" ("You pronounce for my ear") ifadəsini artırıb. O bunu "my ear, my dear, I fear" qafiyələrini tamamlamaq üçün edib. Bəndin üçüncü və dördüncü misrasında

olan "qızların söz atması" fikrini tərcüməçi "qadınlar həmişə kişiləri axmaq yerinə qoyurlar, mən qorxuram ki, sən də belə edirsən" kimi tərcümə edib.

Qoşmanın beşinci bəndinin tərcüməsində bir sıra ciddi qüsurlara yol verilib. Tərcüməçi bu bəndin birinci, ikinci misrasında olan Qurbaninin sevgilisindən bir şey istəməsinin onun sevgilisinə bəlli olması fikrini "kaş, sənin əzab çəkmiş, cəfa çəkmiş, yazıq Qurbaniyə rəhmin gələydi" kimi tərcümə edib. Bu bəndin üçüncü misrasında Qurbani öz sevgilisinin ay üzünü görmək istədiyini bildirir. Bilindiyi kimi, klassik ədəbiyyatda, eləcə də aşıq şeirində sevgilinin üzü aya bənzədilir. Bununla da sevgilinin son dərəcə gözəl olduğu oxucuya çatdırılır. Aşıq Qurbani də bu bənzətmədən istifadə etmiş, bununla da bir yandan sevgilisinin gözəl olduğunu bildirmiş, başqa yöndən isə ona olan sevgisinin dərəcəsini göstərmişdir. Tərcüməçi isə bu misranın mənasını yanlış dəyərləndirmiş və onu qeyri-dəqiq tərcümə etmişdir. Bu misranın tərcüməsindən belə çıxır ki, Ay dəlicəsinə qızın gözəl üzünü görmək istəyir (to long-dəlicəsinə istəmək). Qız isə üzünü ona göstərməkdən imtina edir.

Qurbaninin bu üç şeirinin ingilis dilinə tərcüməsinin təhlili göstərir ki, Azərbaycan folklorunun tərcümə məsələlərində ciddi problemlər var. Bəllidir ki, folklorun tərcüməsi müasir nəsrin, şeirin tərcüməsindən fərqlənir. Folklor xalq deyimlərini, xalq düşüncə tərzini daha səciyyəvi formada əks etdirir. Folklor birbaşa xalqın dünyagörüşü, adət və ənənələri ilə bağlıdır və bağlı olduğu xalq haqqında daha doğru və qiymətli informasiyalar verir. Folklorun özünəməxsus üslubu, leksikası var. Bütün bunlar isə mütərcimdən tərcümə etdiyi folklorun mənsub olduğu xalqı dərindən tanımasını tələb edir. Bununla birgə şifahi xalq ədəbiyyatını, aşıq şeirini tərcümə edən şəxs bu sahənin bilicileri ilə sıx təmasda olmalıdır. Biz ancaq bu şərtlərlə Azərbaycan folklorunu başqa dillərə öz milli koloriti ilə çatdıra bilərik.

### *3.1.2. Aşıq Abbas Tufarqanlının "Bəyənməz" şeirinin ingilis dilinə tərcüməsinin təhlili*

İngilis tərcüməçisi Dorian Rottenberq tərcümələrində Azərbaycan şifahi xalq ədəbiyyatına, o sıradan Aşıq Abbas Tufarqanlı yaradıcılığına ayrıca yer vermişdir. Tərcüməçi aşığın "Bəyənməz", "Pəri" adlı şeirlərini ingilis dilinə tərcümə etmişdir (127, 619-621).

Biz bu araşdırmada Aşıq Abbas Tufarqanlının "Bəyənməz" şeirinin ingilis dilinə tərcüməsinin üzərində dayanacağıq. Bilindiyi kimi, Aşıq Abbas Tufarqanlının şeirləri sonradan xalq arasından toplanılıb. Toplayıcılar bu şeirlərə ad müəyyənləşdirərkən iki başlıca prinsipdən çıxış ediblər. Onlar şeirlərə ya şeirin məzmununa uyğun ad qoyublar, ya da şeirin rədifini ad olaraq seçiblər.

Aşıq Abbas Tufarqanlının "Bəyənməz" şeirinin adı şeirin rədifindən götürülüb. İngilis tərcüməçisi Dorian Rottenberq isə bu şeiri tərcümə edərkən şeirə başlıq olaraq birinci bəndin birinci misrasını seçib. Bilindiyi kimi, şeirin birinci misrası belədir: "Ay həzərat, gəlin sizə söyləyim…" (41, 238). Dorian Rottenberq bu misranı belə tərcümə edib: "Oh, brothers and sisters, what have we come to" (127, 620). Bu tərcümənin Azərbaycan dilinə hərfi tərcüməsi belədir: "Ay qardaşlar və bacılar, görün biz nəyə gəlib çatmışıq…". Şeirin birinci misrasında xitab kimi işlənən "həzərat" sözü "hazır olanlar, yığışanlar" mənasındadır. Aşıq Abbas Tufarqanlı bu şeirinin birinci bəndində dinləyənlərin diqqətini verəcəyi mühüm xəbərə yönəltmək məqsədi ilə xitab üslubunu seçmişdir. Şair fərqli bir zamanın gəldiyini, ədalətsiz cəmiyyət yarandığını bildirmək məqsədi ilə insanlara müraciət edir. Tərcüməçi "ay həzərat" (hazır olanlar, yığışanlar) müraciət ifadəsini "oh, brothers and sisters" kimi tərcümə edib ki, bu tərcümə şeirin birinci bəndinin məzmununa və şairin məqsədinə uyğundur. Ona görə ki, şair önəmli bir xəbəri ilk sırada öz yaxınlarına, yurddaşlarına bildirmək istəyir. Şeirin ikinci misrasın-

da işlənmiş "ala qarğa" "jay" ("zığ-zığ quşu") kimi tərcümə olunub. Bu tərcümə dəqiq olmasa da, "qartal" sözü "zığ-zığ quşu" sözünün semantik antonimi kimi götürülə bilər. Çünki, şair ədalətsiz bir cəmiyyətin qurulduğunu, hər şeyin baş-ayaq çevrildiyi bir zamanın gəldiyini bildirmək üçün ziddiyyət bildirən anlayışlardan sıx-sıx istifadə edib. Şeirin birinci bəndində tərcümə olunmuş ifadələr sırasında "bəyənməz" sözünün tərcüməsi ümumi mənanı ifadə etsə də, dəqiq deyil. Ona görə ki, tərcüməçi aşığın şeirin birinci bəndində iki dəfə işlətdiyi "bəyənməz" sözünü ingilis dilində üç dəfə "nifrət etmək" (to hate) kimi tərcümə edib:

**"…The jay hates the eagle as never before.**
**Sons hate their fathers, daughters- their mothers,**
**And daughters-in-law hate their mothers-in-law." (127, 620)**

"Bəyənməmək" sözü ilə "nifrət etmək" ifadəsi arasında məna yaxınlığı olsa da, eyni anlam daşımır. Başqa bir yöndən isə "bəyənməmək" felini ingilis dilinə "to disapprove", "to disdain", "to dislike", "to blame" kimi tərcümə etmək olar. Şeirin birinci bəndində "bəyənməz" sözünün "nifrət etmək" ("to hate") kimi tərcüməsi bu bənddə ifadə olunan fikrin məzmununa uyğun deyil, başqa yöndən isə azərbaycanlıların düşüncəsində olan oğul-ata, qız-ana münasibətlərini doğru ifadə etmir.

Şeirin ikinci bəndində Aşıq Abbas Tufarqanlı zamanın ədalətsizliyini göstərmək məqsədi ilə ayrı-ayrı insan tiplərini təqdim edir. Aşığın qoşmasının ikinci bəndinin birinci misrası uyğun tərcümə olunsa da, ikinci misrada uyğunsuzluq var. Belə ki, aşıq şeirin ikinci bəndinin ikinci misrasında dəri paltar geyən adamlardan danışır. Tərcüməçi isə bu misranı dəri paltar geyməyin günah olduğu anlamında tərcümə edir. Ancaq şeirin orjinalında belə bir anlayış yoxdur. "Adam var geyinər pustinən dəri" "Some wear clothes of leather-a sin in effect"." Ola bilsin ki, şair "a sin in effect" ifadəsini dördüncü misradakı"… no

respect"" ifadəsinə qafiyə olaraq işlədib. Ancaq bu cür ifadələrin seçilməsi şeirin məzmununa uyğun olmalıdır. Bu bəndin üçüncü misrası "Adam var mərfətdən yoxdur xəbəri" şəklindədir. Tərcüməçi isə düzgün olaraq bu anlayışı "nothing of tact and good manners"" "Adam var davravnış qaydalarını bilmir" kimi tərcümə edib. Şeirin dördüncü misrasında isə mətndəki "bəyənməz" ifadəsi qafiyəyə görə "hörmət etməz" (no respect) şəklində tərcümə edilib. Bu bənddə işlənmiş "sərsəri" sözünü isə tərcüməçi ingilis dilində olan "vagabond" (səfil) kimi tərcümə edib. Bizə görə "başıpozuq", "avara" sözünü ingilis dilində daha dəqiq ifadə etmək mümkündür. Bu sözün ingilis dilində aşağıdakı ekvivalentləri var: "an idler", "a loafer", "a tramp", "a good for nothing", "dawdler", "slacker"" (136, 370).

Şeirin üçüncü bəndinin birinci, ikinci və üçüncü misrası əsasən doğru tərcümə olunsa da, dördüncü misrada qüsurlar var. Şeirin üçüncü bəndinin dördüncü misrasında ümumi məzmuna uyğun olaraq Allahla bağlı yol-ərkandan, yəni Allahın razılığını qazandıracaq mənəvi yolun prinsiplərini qəbul etməmək və bəyənməməkdən söhbət gedir. Tərcüməçi isə bu misranın mahiyyətini ümumi məzmundan ayıraraq onu qanunlara itaəti rədd edən adamlar kimi tərcümə edib.

Şeirin dördüncü bəndinin birinci misrasının tərcüməsi doğrudur. İkinci misrada nərgiz gülü - "narcissus"- qızılgül - "rose" kimi tərcümə olunub. Bəndin üçüncü misrasında geyməyə bez tapmayan adamın varlığından söhbət gedir: "Adam var, geyməyə tapammaz bezi". Ancaq tərcüməçi bu misradakı "bez" sözünü ümumiyyətlə mətndən çıxarıb. Ancaq "bez" sözünün ingilis dilində bir neçə qarşılığı var. Məsələn: "cotton material", "coarse calico", "calico". Biz bu sözün tərcüməsinin üzərində ona görə dayandıq ki, "bez almağa imkanı olmamaq" birləşməsi kasıblıq anlayışını dəqiq ifadə edir. Tərcümədə isə ümumiyyətlə paltar almaq imkanı olmayan adamdan danışılır.

Şeirin beşinci bəndinin birinci, ikinci və dördüncü misrası doğru tərcümə olunmuşdur. Üçüncü misrada isə qeyri-dəqiq ifadə işlənmişdir. Bu misrada çörək tapmayan insanların varlığından danışılır. Tərcüməçi isə bu misranın tərcüməsində "uşaqlarına çörək ala bilməyən adamların olmasını" önə çəkir.

Şeirin sonuncu bəndində üç misra - birinci, üçüncü və dördüncü misralar doğru tərcümə olunmuşdur. Bu bəndin ikinci misrasının tərcüməsi isə dəqiq deyil. Bu misrada deyilir: "Adam var, gözünə çəkəsən millər" (41, 239). Tərcüməçi bu misranı "Adam var qaşlarının rəngini dəyişir" ("There are people who change their eyebrow's hue") kimi "(127, 620). Göründüyü kimi, tərcümə orijinala uyğun deyil.

Beləliklə, Dorian Rottenberq Aşıq Abbas Tufarqanlının "Bəyənməz" şeirini tərcümə edərkən şeirin məzmununu qoruyub saxlamağa çalışsa da, bir sıra yanlışlıqlara yol vermişdir. Bizcə, bunun iki başlıca səbəbi var. Birincisi, tərcüməçi Azərbaycan dilini, xüsusən bədii Azərbaycan dilini bilmir, şeiri sətri tərcümədən istifadə edərək tərcümə edir. İkincisi isə tərcüməçi şeirdə ifadə olunmuş anlayışları mətnə uyğun dəyərləndirə bilməyib. Belə ki, tərcüməçi şeirdə olan "yol", "ərkan", "mərifət", "bismillah" və başqa bu kimi anlayışları onların bağlı olduğu məzmundan uzaqlaşdıraraq, hərfi tərcümə edib.

### *3.1.3. Xəstə Qasımın "Kəkliklər", "Olsun" qoşmalarının ingilis dilinə tərcüməsi*

Bu günədək Xəstə Qasımın ingilis dilinə dörd şeiri tərcümə olunmuşdur. Bu şeirlər "Kəkliklər", "Olsun", "Yaxşıdı", "Sənəm, gəl" adlanır. Burada biz ancaq Xəstə Qasımın "Kəkliklər" və "Olsun" şeirlərinin ingilis dilinə tərcüməsi ilə bağlı məsələlərə toxunacağıq. Bu şeirləri ingilis dilinə Dorian Rottenberq tərcümə etmişdir (127, 623-624).

"Kəkliklər" şeirində aşıq kəkliyin gözəlliyindən danışır, onun gözəllik cizgilərini bir-bir təsvir edir. Aşıq öz şeirində

kəkliklərlə özü arasında bir yaxınlıq görür, dərdini onlara danışır, onlardan ayrılmağın çətinliyini dilə gətirir.

Bu şeirin ingilis dilinə tərcüməsini təhlil etməzdən öncə onu da qeyd edək ki, qoşmanın bir bəndi ingilis dilinə tərcümə olunmayıb və bunun səbəbi ilə bağlı tərcüməçinin hər hansı bir qeydi də yoxdur.

Şeirin birinci bəndinin tərcüməsində mütərcim orijinala uyğunluğu əsasən qoruyub saxlayıb. Belə ki, tərcüməçi "dam üstündə duran sona kəkliklər" misrasının birinci hissəsini dəqiq tərcümə edərək, kəkliyin dam üstündə quşlar üçün oturmaq yeri olan "tar" üzərində dayanmasını ifadə edib. Ancaq tərcüməçi "sona kəkliklər" ifadəsini sadəcə olaraq "kəkliklər" kimi tərcümə edib. Bilindiyi kimi, "sona" sözü daha çox gözəllik anlayışını bildirmək üçün istifadə olunur. Ona görə də biz bu ifadəni ingilis dilinə dəqiq tərcümə etməyi mümkün hesab edirik. Belə ki, bizim tərcüməmizdə bu misra ingiliscə belə səslənir: "Standing on the rooftop, beautiful partridges?".

Bu bəndin üçüncü və dördüncü misralarının tərcüməsində isə uyğunsuzluqlar var. Məsələn, Xəstə Qasım qoşmada kəkliklərin "al-yaşıl geyinməsini", "tirmə bağlamasını", "dondan-dona girərək" öz gözəlliklərini göstərmələrini ifadə edib. Bu misraların ingilis dilinə tərcüməsi isə belə səslənir: "Başını şərf və mavi ipəklə bəzəmiş kəkliklər", "Paltarlarınızı dəyişin, qoy ovçular patronlarını korlasınlar". Göründüyü kimi, bu tərcümədə ciddi qüsurlar var. Görünür, tərcüməçi "cartridges" (patronlar) sözünü "partridges" (kəkliklər) sözünə qafiyə olaraq işlədib. Ancaq bu tərcümə uğursuz alınıb. Bizə görə, bu iki misranı aşağıdakı şəkildə vermək daha doğru olardı:

**"Wearing white-green, covering your heads with shawl**
**Why have you changed your dress, partridges?"**

Qoşmanın ikinci bəndinin birinci, ikinci misrasının tərcüməsi orijinaldakı məzmunu ifadə edir. Ancaq bu bəndin üçüncü və dördüncü misralarının tərcüməsi uğurlu deyil. Bu misralardan

göründüyü kimi Xəstə Qasım uğurlu bir bənzətmə taparaq xınalı daşlar üzərində gəzən kəkliyin ayaqlarının qırmızıya boyanmasını mənalandıraraq, kəkliyin sevincli, yoxsa kədərli olduğunu öyrənməyə çalışır. Tərcüməçi bu incə detallara diqqət yetirməyərək bu misraları belə tərcümə etmişdir: "Lələklərini qana boyayaraq qardaşlarınıza matəm tutursunuz, yoxsa kef məclisi qurursunuz, kəkliklər?".

Qoşmanın üçüncü bəndinin birinci və ikinci misralarının tərcüməsini uğurlu saymaq olar. Bu bəndin üçüncü və dördüncü misralarının tərcüməsi isə bir qədər qeyri-dəqiqdir. Belə ki, bu misraların ingilis dilinə tərcüməsini Azərbaycan dilinə çevirsək, bu məna ortaya çıxar:

**"Yuvanın yanında ovçunun silahı eşidiləndə**
**Onlar səmaya uçurlar, yazıq kəkliklər".**

Qoşmanın sonuncu bəndinin tərcüməsinin isə orijinal ilə ciddi fərqləri var, bir sıra hallarda isə məna təhriflərinə yol verilib. Xəstə Qasım qoşmanın sonuncu bəndinin ilk iki misrasında kəklikləri "yaşıl başlı sona" adlandıraraq, onların gözəlliyini önə çəkir və onlardan aşığın dərdini gizlicə anlamalarını xahiş edir. Tərcüməçi isə bu misraları belə tərcümə etmişdir: "Əgər sizin bir kədəriniz varsa, onu mənə deyin, nə olursa-olsun, qoy mən onu sizinlə bölüşüm". Təbii ki, "yaşıl başlı sona" deyimini olduğu kimi ingilisdilli  oxucuya çatdırmaq çətindir. Ancaq bu birləşməni gözəllik anlayışını ifadə edən söz və söz birləşmələri ilə tərcümə etmək mümkündür. Belə söz və birləşmələr ingilis dilində çoxdur. Məsələn, "beautiful", "nice", "wonderful", "charming", "attractive" və s. Bütün bu deyilənləri nəzərə alaraq bizə görə, bu iki misranı ingilis dilinə belə tərcümə etmək olar:

**"Both of you are beautiful**
**You can understand my secret sorrow".**

Bu bəndin üçüncü və dördüncü misralarının tərcüməsi də orijinala uyğun deyil. Əgər tərcüməni Azərbaycan dilinə çevirsək, aşağıdakı məna ortaya çıxır: "Qasım xəstə deyil, o uzaq Dağıs-

tanda öz qohumunu görməlidir, əziz kəkliklər!"  Belə tərcümə şeirin məzmununa uyğun deyil. Bizə görə, bu iki misranı orijinala uyğun başqa bir biçimdə tərcümə etmək olar. Bu misraların ingilis dilinə mümkün tərcümə variantlarından birini veririk

**"We are going to part, be safe and sound**
**Kasum is going to Daghestan, partridges".**

Xəstə Qasımın ingilis dilinə tərcümə olunmuş ikinci şeiri "Olsun" adlanır. Bu qoşma lirik məzmundadır. Onun bu lirik şeirində lirik qəhrəman sevdiyi gözələ qısqanclığını bildirir, onun gözəlliklərini sadalayır, onun sevgisi yolunda hər cür fədakarlığa hazır olduğunu bildirir.

Şeirin ingilis dilinə tərcüməsini araşdırmadan öncə onu da qeyd edək ki, tərcüməçi nədənsə "Olsun" şeirinin adını ingilis dilinə "Go away" ("Çıx get" və ya "Uzaqlaş") kimi verib.

Bizə görə, Dorian Rottenberq bu qoşmanın birinci bəndinin məzmununu orijinala uyğun bir biçimdə tərcümə edib. Tərcüməçi şeirdəki bir sıra ifadələri tərcümə edərkən ingilis dilinin imkanlarından uğurla yararlanıb. Məsələn, bu bənddəki "qarğamaq" felini ingilis dilinə bir neçə variantda tərcümə etmək mümkündür. Ancaq tərcüməçi bu felin qarşılığı olaraq "to curse" (qarğış etmək, lənətləmək) felini seçmişdir. Bizə görə, bu variant doğrudur. Ona görə ki, bəndin məzmunundan aşiqin öz sevgilisindən çox narazı olduğu bilinir. Aşiq öz sevgilisini ona qarğış etməklə hədələyir və bu qarğışın ona təsir edəcəyinə inanır. Başqa bir nümunəyə baxaq. Tərcüməçi bu bənddə işlənmiş "ahu-zar" ifadəsini "nothing but woe" ("qüssə, kədərdən başqa bir şey olmasın") kimi tərcümə edərək ifadənin orjinala uyğunluğunu saxlayıb.

Tərcüməçi aşağıdakı misraları da aşığın ifadə etmək istədiyi məzmuna uyğun olaraq tərcümə edib:

**"Siyah zülfün dal gərdəndə sərasər**
**Halqa-halqa, çinbəçindən mar olsun".**

**"May your black tresses be turned into snakes**
**And not fall in dark waves to the ground below"**

("Qoy qara hörüklərin ilana çevrilsin və qara dalğalar kimi dalğalansın").

Burada bir məsələni də qeyd edək ki, "qara zülfün dal gərdəndə sərasər olması" fikrini ingilis dilində "qara dalğaların dalğalanması" kimi vermək uğurlu bir tərcümədir.

Qoşmanın ikinci bəndində tərcüməçi birinci və ikinci misraların tərcüməsini orijinalın məzmununa uyğun çevirməyə çalışıb. Bu misralarda olan "giryan olmaq", "odlara yanmaq" birləşmələrinin məzmununu ingilis oxucusuna çatdırıb. Tərcüməçi bəndin üçüncü və dördüncü misralarının məzmununu birləşdirərək "Qoy vəfalı gözəllər sənin xidmətindən istifadə etsinlər, sən də onların qulu olub qarşılarında baş əyəsən" kimi verib. Bizə görə, bu tərcümə misraların məzmununu qismən əhatə edir.

Qoşmanın üçüncü bəndinin birinci və ikinci misrasını birləşdirərək tərcümə edən Dorian Rottenberq ingilis dilində bu məzmunu belə ifadə edib: "Mən ruhumu doğru olan qadına verərdim və bütün həyatım boyu onun gözəlliyinə ibadət edərdim". Bizcə, bu cür tərcümə daha çox qafiyənin qorunması xatirinə edilib.

Bu bəndin üçüncü və dördüncü misrasının tərcüməsi isə uğurludur. Belə ki, tərcüməçi "sonsuz soy" birləşməsini ("uşağın olmasın") "no children be born to you" kimi, dördüncü misranı isə "bağında güllər deyil, yalnız tikanlar bitsin" kimi tərcümə edib.

Qoşmanın dördüncü bəndinin birinci və ikinci misralarının tərcüməsi qənaətbəxş olsa da, tərcüməçinin qafiyə xatirinə bu misralara bir sıra əlavələr etdiyi də deyilməlidir. Ancaq bu bəndin üçüncü və dördüncü misrasının tərcüməsində ciddi uyğunsuzluqlar var. Şeirin orijinalında aşıq üz tutduğu gözəlin ərinə qarğış edir, şahmar ilanın onu çalmasını arzulayır. Daha sonra bildirir ki, ilan çalmış ərinin naləsindən onun qulaqları kar ol-

sun. Dorian Rottenberqin tərcüməsində isə bu məzmun belə tərcümə olunub: "Qoy sən yatarkən səni zəhərli ilan çalsın və sən dərddən inləyərkən hamının qulağı kar olsun". Tərcüməçinin bu misraların məzmununu hansı səbəbdən təhrif etdiyi aydın deyil. Bizə görə, bu məzmunu olduğu kimi ingilis dilinə tərcümə etmək çətin deyil. Bu misraların ingilis dilinə mümkün tərcümə variantlarından birini təqdim edirik:

**"Let a viper bite your husband while he is sleeping**
**Let you be deaf when he groans with woe".**

Qoşmanın beşinci bəndinin tərcüməsində də bir sıra uyğunsuzluqlar var. Belə ki, sonuncu bənddə aşıq sevdiyi qızla qovuşmaq arzusunu dilə gətirir, ayrılığa dözə bilmədiyini bildirir, bütün bu ayrılıq və həsrət duyğularını zaman anlayışı ilə ifadə edir. Aşıq bu ayrılıq anlarını misralara çevirərkən ayrılığın onun üçün dözülməz olduğunu bildirmək məqsədilə qoşmanın misralarında üç dəfə feli bağlama tərkibi ilə ifadə olunmuş zaman zərfliyi işlədir. Bununla da tezliklə həsrətə son qoymaq istəyini uyğun bir poetik biçimdə ifadə edir. Bu bənddə Xəstə Qasımın ustad bir aşıq olduğu bir daha görünür. Belə ki, Xəstə Qasım həsrət anlayışını poetik qəlibə yerləşdirərək "dost yolunda qalmaq", "əl uzatmaq", "könlü olmaq", "kefi durulmaq" kimi ayrılıq anlayışlarını və bu ayrılığa son qoymaq istəyini dəqiq ifadə edən birləşmələri seçmişdir.

Qoşmanın ilk dörd bəndində aşığın həsrəti, narazılığı və bu duyğulara uyğun seçilmiş qarğış tonu ("sənə qarğaram", "işin ahu-zar olsun", "zülfün mar olsun", "giryan olasan", "odlara yanasan", "büryan olasan", "qurban olasan", "sənə ar olsun", "sonsuz olasan", "bağçanda gül açmasın", "xar olsun", "qiyamətdə dərin yansın", "ərini şahmar ilan vursun", "qulaqların kar olsun") dəyişilərək, aşığın qarğışlarını ifadə edən söz və deyimlərdən imtina edilərək birdən-birə sonuncu bənddə alqış anlayışını ifadə edən sözlər ("əl uzatmaq", "qol boynuna salmaq", "kefi durulmaq", "könlü olmaq") və bu anlayışa uyğun poetik biçim se-

çilir. Aşıq "əl uzatmaq", "qol boynuna salmaq", "kefi durulmaq", "könlü olmaq" kimi müsbət enerji yaradan, qovuşmaq istəyini ifadə edən, həsrətə son qoymaq arzusunu bildirən söz və ifadələrlə qoşmanın bədii gücünü artırır və məzmuna uyğun poetik don biçilir. Xəstə Qasım həsrətin sona çatmasını bəndin sonunda poetik birdillə və milli düşüncəyə uyğun olan "bizə gələn ayaqların var olsun" alqışı ilə ifadə edir:

**Xəstə Qasım dost yolunda qalanda,**
**Əl uzadıb qol boynuna salanda,**
**Kefin durulanda, könlün olanda,**
**Bizə gələn ayaqların var olsun. (46,28)**

Bizə görə, tərcüməçi bu deyilən məzmunu ingilisdilli oxucuya çatdıra bilməyib. Tərcümədə Xəstə Qasımın bu bənddə dedikləri belə səslənir: "Xəstə Qasım elə yalqız və qəmgindir ki, əgər sən gəlsən, onu qucaqlasan, o şad olacaq. Bütün bu dediklərimə mən bunu da əlavə etməliyəm ki, bizə gəl və mən sənə yaxşı tale arzulayacağam". Göründüyü kimi, bu tərcümə istər tərcümə texnikası, istərsə də məzmun baxımından orijinaldakı mənadan çox zəifdir.

### *3.2. XIX-XX əsr Azərbaycan aşıq şeirlərinin ingilis dilinə tərcüməsinin təhlili*

XVIII - XIX əsrlərdə aşıq sənətinin özünəməxsus sənət növü kimi formalaşması başa çatır: sufi meylləri azalır və aşıq sənəti sufi ideyalarının təbliği formasından estetik dəyərlərin, məhəbbət və sosial - fəlsəfi mövzuların, didaktikanın təbliği vasitəsinə çevrilir. Orta əsrlər ozan - aşıq yaradıcılığının iki istiqaməti - dastan yaradıcılığı və lirik şeirlər yaratmaq sahəsindəki istiqamətlər qarşılıqlı surətdə inkişaf edərək, sanki bir vəhdət təşkil edir.

Bu dövrdə sırf ifaçı aşıqların sayı xeyli artır. El şairləri söz qoşmaqda davam etsələr də, sənətdə onların çəkisi azalır. İfaçı

aşıqların yaradıcılıq ənənəsi ilə orta əsrlər söz ustadlarının sənətkarlıq qabiliyyəti bir çox saz-söz ustadlarının yaradıcılığında birləşərək vəhdət təşkil edir. Bu isə aşıq sənətində intibah dövrünün başlanması demək idi. Ağ Aşıq, Sarı Aşıq, Aşıq Alı, Aşıq Ələsgər kimi sənətkarların şeirlərində musiqi ritmləri ilə sözün avazı birləşir. Bütün bunlar nəinki aşıq poeziyasının poetik gözəlliklərini, həmçinin belə şeirlərdə ifadə edilən dərin fəlsəfi fikirləri, bəşəri duyğuları, onların estetik təsirini də xeyli artırır. Belə şeirlərdə milli kolorit çox güclü olsa da, bəşəri ideyalar da az deyildir. Ona görə də, bu dövrdə yaranan və olduqca səmimi, yüksək poetik duyğular ifadə edən aşıq şeirləri qonşu xalqların da istər şifahi xalq yaradıcılığına, istərsə də yazılı ədəbiyyatına güclü təsir göstərir. Həm məna, həm də bədii cəhətdən çox səlis və rəvan forma alan aşıq şeirinin Azərbaycan yazılı ədəbiyyatına təsiri də artır.

Beləliklə, XVIII-XIX əsrlərdə yaşamış ustad Azərbaycan aşıqlarının yaradıcılığı təkcə Qafqazda deyil, Türkiyədə, İranda, Orta Asiyada yaşayan xalq sənətkarları üçün də sənət meyarı və təqlid nümunəsi sayılırdı. Aşıq Alı, Aşıq Ələsgər kimi şairlərin şeirləri isə nəinki Azərbaycanda ağıllara hakim kəsilir, həmçinin bir sıra qonşu ölkələrdə də kamillik nümunəsi hesab edilirdi.

Qeyd etdiyimiz kimi, XVIII əsrdən aşıq sənətinin inkişafında yeni mərhələ başlanır və bu güclü təkan XIX əsrdə özünün zirvə səviyyəsinə çatır. Bu özünü ilk növbədə Aşıq Alının və Aşıq Ələsgərin timsalında göstərir. Bu ustad sənətkarların yaradıcılığı isə öz növbəsində aşıq sənətinin sonrakı inkişafına güclü təsir göstərir və Aşıq Hüseyn Bozalqanlı, Aşıq Mirzə, Aşıq Əsəd, Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir və Aşıq Pənah kimi sənətkarlar ortaya çıxır.

### *3.2.1. Aşıq Ələsgərin şeirlərinin ingilis dilinə tərcüməsinin təhlili*

Azərbaycan aşıqları içərisində qoşmaları ingilis dilinə ən çox tərcümə olunmuş sənətkar da Aşıq Ələsgərdir. Belə ki, 1972-ci ildə Aşıq Ələsgərin 25 şeiri İrina Jeleznova tərəfindən ingilis dilinə tərcümə olunmuşdur (187). Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirləri ayrıca kitabca şəklində çap edilmişdir. Tərcüməçi Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirlər kitabına qısa bir ön söz də yazmışdır. Tərcüməçi ön sözdə göstərir ki, Aşıq Ələsgər Azərbaycan aşıq ədəbiyyatının qüdrətli nümayəndəsidir. O, bütün yaradıcılığında sosial ədaləti müdafiə etmiş, haqsızlığa qarşı olmuşdur. Aşıq Ələsgər özündən sonra zəngin bir ədəbi irs qoyub getmişdir. Ön sözün sonunda müəllif yazır: "Ələsgərin adı Azərbaycan folklor xəzinəsini sevənlərin ürəyində əbədi yaşayacaq" (187, 3).

Aşıq Ələsgərin "She is killing me" ("Öldürür"), "In trouble you will get" ("Düşərsən"), "You must have" ("Gərəkdi"), "The wicked world" ("Çıxıbdı") şeirləri isə Dorian Rottenberq tərəfindən ingilis dilinə tərcümə olunmuşdur (127, 628-629).

Biz bu araşdırmamızda Aşıq Ələsgərin bir sıra şeirlərinin ingilis dilinə tərcüməsi ilə bağlı məsələlərə toxunacağıq. Bizim təhlil edəcəyimiz qoşmalar sırasında İrina Jeleznova və Dorian Rottenberqin tərcümələrindən nümunələr var.

Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş qoşmalarından "Öldürür" qoşması ingilis dilinə Dorian Rottenberq tərcümə etmişdir. Qoşma Aşıq Ələsgərin sevgi lirikasından bir nümunədir. Aşıq bu qoşmada sevgisini, incə duyğularını poetik bir biçimdə ifadə etmişdir. Üç bəndlik bu qoşmada Aşıq Ələsgər Azərbaycan dilinin bədii imkanlarından ustalıqla yararlanmışdır.

Qoşmanın birinci bəndinin birinci misrasında Aşıq Ələsgər "həzərat" sözü işlədib, tərcüməçi bu sözü "mənim dostlarım"

("my friends") kimi tərcümə edib. Dorian Rottenberq aşığın dərdinin çox olduğu fikrini "o woe is me" ("dərd mənimdir") kimi, "dindirməyin" sözünü isə "and question not" ("sual olmasın") kimi tərcümə etmişdir. Bu bəndin ikinci misrasındakı "ceyran" sözünü tərcümə edərkən Dorian Rottenberq "ceyran"ı "dişi maral" ("doe") sözü ilə əvəz etmiş, "alagöz" sözünü isə "gözəl" ("beauteous") kimi çevirmişdir. Bu misranın ingilis dilinə tərcüməsi belə səslənir: "Tanıdığım (bildiyim) bir dişi maral məni öldürür". Poetik tərcümə üçün bunları məqbul hesab etmək olar.

Tərcüməçi bu bəndin üçüncü və dördüncü misralarının məzmununu bir yerdə tərcümə etməyə çalışıb. O, bu zaman "can almaq", "pünhan-pünhan öldürmək" birləşmələrini mətndən çıxarıb, həmin anlayışları birləşdirərək "öldürmək" kimi verib. Bu iki misranın ingilis dilinə tərcüməsi belə səslənir: "Heç kim bilmir ki, o məni qılıncsız, tüfəngsiz öldürür".

Qoşmanın ikinci bəndinin tərcüməsində müəyyən qüsurlar var. Belə ki, bu bəndin birinci misrasında aşıq keçmişdə nə etdiyini, indi nə etmək lazım olduğunu özündən soruşur, tərcüməçi isə bu misranı aşığın, ümumiyyətlə, nə etmiş olduğunu bilmək istəməsi kimi təqdim edir. Tərcüməçi bu bəndin ikinci misrasını demək olar ki, mətndən çıxarmışdır. Belə ki, qoşmanın ikinci bəndinin bu misrası "xəncər alım, qara bağrım teyləyim"dir. Tərcüməçi isə bu misranı birinci misra ilə əlaqələndirərək "that she my very company should shun" kimi tərcümə etmişdir. Bu misra ingilis dilində belə səslənir: "Mən nə etmişəm ki, mənim çox yaxın dostum məndən qaçır". Tərcüməçi bu bəndin üçüncü və dördüncü misralarını birləşdirərək ümumi məzmunu verməyə çalışıb. Ancaq bu misraların tərcüməsində də qüsurlar var. Belə ki, Aşıq Ələsgər canını yara qurban etmək istədiyini bildirir və bu istəyini "qurban kəsmək" anlayışı ilə əlaqələndirir. Tərcüməçi isə aşığın bu sədaqətini göstərən misralardakı məzmununu yanlış təqdim edir. Tərcüməyə görə, aşıq tək canını sevgilisinə qurban verməyə hazırdır, ancaq bundan öncə bilmək istəyir ki, niyə sevgilisi onu öldürür.

Qoşmanın sonuncu bəndinin tərcüməsində Dorian Rottenberq bu bənddə ifadə olunmuş ümumi məzmunu çatdırmağa səy göstərib. Bəndin birinci misrasında tərcüməçi "bir gözəl" birləşməsinin tərcüməsindən imtina edərək, bu mənanı mətnin içərisində çatdırmağa çalışıb. Bunun üçün Dorian Rottenberq həmin misranın tərcüməsini aşağıdakı kimi təqdim edib: "I Alesker, have visited the same" ("Mən Ələsgər həmin (gözəli) ziyarət etmişəm").

Bəndin ikinci misrasında Aşıq Ələsgər ölənədək sevgisindən dönməyəcəyini, usanmayacağını bildirir. Tərcüməçi bu misradakı "çətin dönmək" ifadəsini və "usanmaq" sözünü "I hardly can refrain" ("çətin ki, mən özümü saxlayım") kimi tərcümə etmişdir. Bizcə, belə tərcümə elə də uğurlu deyil. Çünki burada misranın bədiiliyi bir yana dursun, konkret nədən söhbət getdiyi də bəlli deyil.

Bəndin üçüncü misrasında tərcüməçi "əzrail" anlayışını "death's bright angel" ("ölümün parlaq mələyi") kimi vermişdir. Bu misrada işlənən "qanlı tutmaq" anlayışını isə müəllif fərqli biçimdə tərcümə etmişdir. Belə ki, Azərbaycan türkcəsində "qanlı tutmaq" ifadəsi bir qayda olaraq "günahkar bilmək" anlamında işlədilir. Aşıq Ələsgər bu birləşməni işlətməklə onun ölümündə əzrailin günahkar olmadığını anasına çatdırmaq istəyir. Dorian Rottenberq bu mənanı "don't blame" ("ittiham etmə") kimi təqdim etmişdir. Bəndin sonuncu misrasında Aşıq Ələsgər sevgilisini "bir kirpiyi peykan" adlandırır və ölümünün səbəbi olaraq onu göstərir. Dorian Rottenberq misranın məzmununu saxlayaraq "kirpiyi peykan" anlayışını "her piercing glance" ("onun iti baxışı") kimi tərcümə etmişdir.

Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirlərindən biri də "Sənə qurban" adlanır. Bu qoşmanın ingilis dilinə İrina Jeleznova tərcümə edib. Aşığın bu şeiri lirik məzmunludur. Aşıq bu qoşmada sevgilisinə olan incə duyğularını bədii təsvir və ifadə vasitələri ilə zəngin bir dillə ifadə edib. Aşıq Ələsgər bu qoş-

mada xalq ədəbiyyatının üslubuna uyğun söz və ifadələr işlətdiyi kimi, klassik ədəbiyyatın ənənəvi obrazlarından da yararlanmışdır.

Öncə onu deməliyik ki, tərcüməçi İrina Jeleznova qoşmanın birinci bəndinin birinci misrasını ("Bir sözüm var, sənə pünhan deməli") tərcümədə qoşmanın adı kimi verib ("A word must in secret to you I impart"). Tərcümədə diqqəti çəkən başqa bir əlamət də odur ki, İrina Jeleznova bütün qoşma boyu "sənə qurban" birləşməsini "beloved" ("sevimli", "əzizim") kimi tərcümə edib. Bilindiyi kimi, Azərbaycan dilində, o sıradan Azərbaycan şifahi xalq ədəbiyyatında "sənə qurban", "qurban olum", "qurban kəsmək", "canı qurban demək" və s. kimi deyimlər çox işlənir. Bu birləşmələr qarşı tərəfə olan sonsuz sevgini göstərir.

Təbii ki, bu birləşmənin ortaya çıxmasının dini əsası da var. İngilis dilində olan "beloved" ("sevimli", "əzizim") sözü də "qurban olmaq" anlayışını tam olmasa da, dolayısı ilə ifadə etmək gücündədir. Tərcüməçi qoşmanın birinci bəndinin birinci misrasını olduğu kimi sözbəsöz ingilis dilinə tərcümə etmişdir. Bu bəndin ikinci misrasında aşıq öz sevgilisinə gizli sözü anlamağa qail olmaq şərti ilə demək istədiyini bildirir. Tərcüməçi bu anlayışı bir qədər fərqli təqdim etmişdir. Belə ki, bu misranın ingilis dilində tərcüməsi belə səslənir: "Bunu eşitməyə etinasızlıq etmə, əzizim". Tərcüməçi bu bəndin üçüncü və dördüncü misrasını birləşdirmiş, "nə müddətdi həsrətini çəkirəm" misrasını mətndən çıxarmış, onun yerinə aşağıdakı məzmunu vermişdir: "Sənə, yalnız sənə mən öz ürəyimi aça və dərdlərimi söyləyə bilərəm, əzizim".

Qoşmanın ikinci bəndində Aşıq Ələsgər sevgidən dəli olduğunu, bu sevginin onu el içində gözdən saldığını bildirir. Tərcüməçi birinci misranı bir qədər fərqli tərcümə etmişdir. Belə ki, aşıq bu misrada onun sevgidən dəli olduğunu hər mahalın bildiyini göstərib, tərcüməçi isə bu misranı "mən məftunluqdan dəli olduğumu qəbul etdim" kimi tərcümə edib. Bu misrada tər-

cüməçi "cünün olmaq" anlayışını "məftunluqdan dəli olmaq" kimi tərcümə edib. Tərcüməçi birinci misradakı "mahal" sözünü tərcümədə ikinci misraya keçirərək "there" ("orada") kimi vermişdir. İrina Jeleznova ikinci misradakı "dərd məni söylətdi" birləşməsini mətndən çıxarmış, "düşmən" sözünü isə "mənə gülən adamlar" kimi tərcümə etmişdir. Qoşmanın bu bəndinin üçüncü misrası tərcümədə dördüncü misra yerində bir qədər fərqli mənada verilmişdir. Belə ki, aşıq bu misrada vəfasız qızlardan əlinin üzüldüyünü bildirir, tərcüməçi isə misranı "şən gənc qızlara nifrət etdim, əzizim" kimi təqdim edir. Bu bəndin dördüncü misrası da fərqli bir biçimdə tərcümə edilmişdir. Tərcüməçi "sənə canımı qurban eylərəm"  fikrini "mən səni sevdim" kimi vermiş, bundan əlavə "dul" sözünü "dul və tənha" kimi ifadə etmişdir. Bununla yanaşı, tərcümədə aşığın sevgilisini ilk baxışdan sevdiyi də bildirilir.

Qoşmanın üçüncü bəndinin tərcüməsində də bir sıra fərqlər var. Tərcüməçi bu bəndin üçüncü və dördüncü misralarını birinci və ikinci misra kimi tərcümə etmişdir. Qoşmanın üçüncü misrasında aşıq özünü Məcnunla, sevgilisini isə Leyli ilə müqayisə edir. Bu iki misranın ingilis dilinə tərcüməsi belə səslənir: "Əgər sən məndən istəsən, Leylini bir il gözləyən Məcnun kimi mən də səni bir il gözləyərəm". Göründüyü kimi, tərcümədə misraların bədiiliyinin çox zəif verilməsi bir yana dursun, məna yanlışlıqları da var. Bu bəndin birinci və ikinci misrasının tərcüməsində də qüsurlar özünü göstərir. Həmin misralar orijinalda belədir:

**Ələsgəri gözdən qoyma irağa,**
**Könül tab gətirməz dərdi-fərağa. (14,130)**

Tərcüməçi aşığın adını mətndən çıxarmış, birinci və ikinci misrada ifadə olunmuş mənanı fərqli bir biçimdə vermişdir. Bu iki misranın ingilis dilində tərcüməsi belə səslənir: "Mənim ümidimi oğurlama, ümidsiz yalvarışımı eşit və mənimlə görüşməyə söz ver, əzizim".

Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirlərindən biri də "Getmə göz önündən, ay Şəkər xanım!" adlanır. Bu qoşma da öncəki iki qoşma kimi məhəbbət mövzusundadır. Aşıq bu qoşmada Şəkər adlı gözəli tərənnüm edir, onu "gözəllər sultanı", "mələklər xanı" adlandıraraq, bədii bir dillə və incə bir üslubla tərifləyir. Aşıq Ələsgərin bu qoşmasını ingilis dilinə İrina Jeleznova tərcümə edib (187).

Qoşmanın birinci bəndinin tərcüməsində görünən ilk qüsur odur ki, Aşıq Ələsgər qoşma boyu özü ilə Şəkər xanım arasında olan münasibəti açıqlayır, tərcüməçi isə üçüncü bir şəxsi də iştirakçı kimi mətnə daxil edib. Tərcümədə sevən, sevilən və aşıq obrazı var. Tərcüməçi bu bəndin mətnində olan "xanım" sözünü "sweet mistress mine" ("mənim şirin sevgilim") kimi tərcümə etmişdir. Bundan başqa tərcüməçi "göz önündən getməmək" anlayışını da "tərk etməmək" kimi vermişdir. Birinci bəndin ikinci misrasında aşıq könlünün qələm qaşlı Şəkərə mayıl olduğunu bildirir. Bilindiyi kimi, gözəlin qaşının qələmə bənzədilməsi Azərbaycan şifahi ədəbiyyatında bir ənənədir. Bu bənzətmə qadın gözəlliyinin ölçülərindən biri kimi təqdim olunur. Tərcüməçi bu misranı tərcümə edərkən mətnin orijinalından fərqli olaraq sevgilinin bütün gözəlliyindən danışır. Bu misrada olan "mayıl olmaq" anlayışını o, "gaze" kimi tərcümə edib. Bilindiyi kimi, ingilis dilində bu söz "istək", "arzu" kimi işlədilir. Bütövlükdə bu misranın məzmunu da orijinaldan xeyli fərqlənir. Bu misranın ingilis dilinə tərcüməsi belə səslənir: "Mənim istəyim sənin gözəlliyinə qəmli-qəmli baxmaqdır".

Qoşmanın üçüncü misrasında tərcüməçi "aşıq" sözünü tərcümə etməyə çalışıb. Bunun üçün "bard" sözündən istifadə edib. Bu sözün ingilis dilində dəqiq tərcüməsi belədir: "şeir yazan adam" (169, 86). Bizcə, aşıq sözünü "bard" kimi vermək o qədər də doğru deyil. "Aşıq" sözünü tərcümədə olduğu kimi saxlamaq daha düzgün olardı, çünki ingilis mədəniyyətində aşıq anlayışı yoxdur. Qoşmanın üçüncü misrasında olan "sən mənim

canım" birləşməsi "sweet-mistress mine" ("mənim əziz sevgilim") kimi tərcümə edilmişdir ki, bununla razılaşmaq olar. Bu bəndin tərcüməsində mədəniyyətlərin fərqindən doğan başqa bir yanlışlıq da odur ki, tərcüməçi aşığın mahnılarını "ballada" kimi tərcümə etmişdir. Bilindiyi kimi, aşıq ədəbiyyatının şeir şəkilləri sırasında "ballada" yoxdur. Tərcüməçi birinci bəndin üçüncü və dördüncü misralarını birləşdirərək onların məzmununu yanlış tərcümə etmişdir. Bu misraların tərcüməsi ingilis dilində belə səslənir: "Mənim şirin sevgilim, aşıq sənin üçün çalacaq, sənin üçün öz mahnılarını və balladalarını oxuyacaq".

Qoşmanın ikinci bəndinin tərcüməsində də bir sıra yanlışlıqlar var. Belə ki, Aşıq Ələsgər bu bəndin birinci misrasında "aşıq" olmağın əsas ölçülərindən birinə işarə edib. Aşıq Ələsgərə görə, aşıq olan insan hər zaman doğru danışmalıdır və heç bir qadağa onu doğru danışmaqdan çəkindirə bilməz. Tərcüməçi bu misranı orijinala yaxın bir mənada çevirməyə çalışıb. Bu misranın ingilis dilində tərcüməsi belə səslənir: "Mən ürəkdən danışıram və mənim yolum ancaq budur". Bu bəndin ikinci misrasının tərcüməsi isə bütövlükdə yanlışdır. Aşıq bu misrada Allaha inamını ifadə edərək bildirir ki, o, Uca Tanrının zülmünə də razıdır və ona şükür edir. Bu misranın ingilis dilinə tərcümə olunmuş variantında isə aşığın sevgilisinə olan münasibətindən danışılır. Misranın tərcüməsi ingilis dilində belə səslənir: "Sənin baxışından mənim ürəyim şadlıqla dolur". Bu bəndin üçüncü misrasının tərcüməsi demək olar ki, orijinala uyğundur. Tərcüməçi misranın orijinalında olan "sənin kimi gözəl keçməz əlimə" anlayışını "harda axtarsam da, sənin bərabərini tapa bilməyəcəyəm" kimi verib. Qoşmanın bu bəndinin dördüncü misrası da orijinala uyğun tərcümə olunmayıb. Belə ki, Aşıq Ələsgər bəndin üçüncü və dördüncü misralarında bir məna ifadə edib. Tərcüməçi isə bu misraları bir-birindən ayırmış və fərqli məzmun vermişdir. Bu bəndin sonuncu misrasının ingilis dilinə tərcüməsi belə səslənir: "Sevgilim, sən nə etsən də, mən sevinəcəyəm".

Qoşmanın bu bəndinin üçüncü və dördüncü misralarının tərcüməsi də ümumi sözlərlə verilib. Təbii ki, "can qurtarmaq", "vay xəbərini qohum qardaşa göndərmək" anlayışları birbaşa azərbaycanlı düşüncəsi ilə bağlıdır. Ona görə də, bu anlayışları ingilisdilli oxucuya çatdırmaq çətindir. Tərcüməçi daha çox, Ələsgərin bir qurban olduğu anlayışını önə çəkir və bu taleyin qaçılmaz olduğunu bildirir. İrina Jeleznova sonuncu iki misranı da birləşdirərək aşağıdakı kimi tərcümə etmişdir: "Mən sənin qurbanınam, başqa heç nə lazım deyil. Ancaq sən məni öldürəcəksən, bilirəm ki, bunu edəcəksən".

Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirlərinin bir neçəsinin ictimai məzmunu var. Aşıq bu şeirlərdə doğruluğu, ədaləti, dostluğu, yaxşılıq etməyi, insan xarakterini zəiflədən xüsusiyyətlərdən əl çəkməyi və gözəl əxlaqı təbliğ və tərənnüm edir. Aşıq Ələsgərin belə şeirlərində nəsihət ruhu güclüdür. Bu şeirlər bir növ ustadnamələrdir.

Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş şeirlərindən biri "Düşərsən" adlanır. Qoşmanı ingilis dilinə Dorian Rottenberq tərcümə etmişdir (127, 629).

Tərcüməçi qoşmanın adını ingilis dilinə "Bəlaya düçar olarsan" ("In trouble you will get") kimi tərcümə edib. Dorian Rottenberq bu adı seçərkən qoşmanın ümumi məzmununu nəzərə alıb. Bizcə, bu cür tərcümə qoşmanın bütövlükdə məzmununu ifadə edir.

Qoşmanın birinci bəndinin tərcüməsində Dorian Rottenberq mümkün qədər orijinala sadiq qalmağa çalışıb. Tərcüməçi birinci misradakı "ustadam demə" birləşməsini "do not say you perfect are" ("demə ki, kamiləm") kimi tərcümə etmişdir. İkinci misrada isə "vaxt olar" birləşməsi ingilis dilində "şans olar" ("there is a chance") kimi verilmişdir. Tərcüməçi ikinci misradakı "dara düşmək" anlayışını ingilisdilli oxucuya çatdırmaq üçün bu birləşməni "bəlaya düçar olarsan" ("in trouble you will get") kimi vermişdir. Dorian Rottenberq üçüncü misradakı "tülək"

sözünü "a mote" ("toz, toz dənəsi") kimi tərcümə etmişdir. Bizcə, bu doğru deyil. Tərcüməçi bu misradakı "çolpa balasan" birləşməsini "you still a baby are" ("sən hələ də körpəsən") kimi mənalandırmışdır ki, bu da misranın məzmununa uyğundur. Dorian Rottenberq bu bəndin sonuncu misrasındakı "sərgərdan qalmaq" ifadəsini "you'll lose your head" ("sən başını itirəcəksən") kimi vermişdir. Burada tərcümə ilə orijinaldakı məna arasında uyğunluq var. Dorian Rottenberq bu misradakı "tora düşmək" anlayışını da "in trouble you will get" ("sən bəlaya düçar olacaqsan") kimi çevirmişdir. Tərcüməçi göstərilən anlayışı bu cür çevirməklə bir yandan qoşmanın poetik quruluşunu əsas götürmüş, başqa yöndən isə qoşmanın ümumi məzmununa uyğun bir məna verməyə çalışmışdır.

Qoşmanın ikinci bəndində Aşıq Ələsgər nəsihət ruhunu saxlamaqda davam edir, rəqibinə hədə-qorxu gəlir, onu gördüyü işin ağır nəticələri ilə hədələyir. Dorian Rottenberq qoşmanın ikinci bəndini tərcümə edərkən də orijinalla tərcümə arasındakı uyğunluğu qoruyub saxlamağa çalışıb. O, bu bəndin birinci misrasını demək olar ki, olduğu kimi tərcümə etmişdir. Dorian Rottenberq birinci misradakı "çıxasan başa" birləşməsini tərcümə edərkən düzgün bir yol seçmişdir. Ona görə ki, Aşıq Ələsgər bu anlayışı insanın yüksəlməsi, ucalması mənasında işlətmişdir. Aşıq bu cür ucalmağın şərti kimi "alçaqda dayanmaq", yəni "təvazökar olmaq" şərtini irəli sürmüşdür. Tərcüməçi "çıxasan başa" birləşməsini "if you would reach the height" ("yüksəkliyə çatmaq") kimi vermişdir. Bu misranın ingilis dilində tərcüməsi belə səslənir: "Əgər yüksəkliyə çatmaq istəyirsənsə, aşağıdan başla".

Dorian Rottenberq ikinci misrada "aslan" sözünü "ayı" ("bear") sözü ilə əvəz etmişdir. Bunun səbəbi isə aydın deyil. Tərcüməçi üçüncü və dördüncü misranın məzmununu birləşdirərək ingilis dilinə çevirmişdir. Bu misraların tərcüməsində gözə çarpan əlamət odur ki, Dorian Rottenberq tərcümədə bir

qədər sərbəst davranmışdır. Başqa yöndən isə "zora düşmək" anlayışını da qoşmanın sisteminə uyğun olaraq "bəlaya düçar olarsan" ("in trouble you will get") kimi çevirmişdir. Bu iki misranın ingilis dilində tərcüməsi belə səslənir: "Yüngül olduğunu düşündüyün daşı qaldırma, əgər bacarmasan, bəlaya düçar olarsan".

Qoşmanın üçüncü bəndində Aşıq Ələsgər hədə tonunu yüksəldir, nadanı inandırmaq üçün daha sərt sözlər seçir. Onu alçaldır və inandırmağa çalışır ki, əgər nahaq yolla getsə, o məğlub olacaq. Dorian Rottenberq bu bəndi tərcümə edərkən öncəki bəndlərin tərcüməsindən fərqli olaraq daha sərbəst hərəkət edib. Belə ki, o, bu bəndin birinci misrasında olan "Nağıya ərkinaz satmaq" fikrini bütövlükdə mətndən çıxararaq bunun yerinə başqa bir anlayış verib. Tərcüməçi bu misranı ingilis dilində belə səsləndirib: "Qürurlanma və burnunu dik tutma" ("Do not be proud and do not raise your nose"). Tərcüməçi ikinci misraya da bir qədər fərqli məna verib. Belə ki, Dorian Rottenberq "zimistan" (qış), "yaz" sözlərini mətndən çıxarıb. Dorian Rottenberq bu misranı aşağıdakı kimi tərcümə edib: "Sən bilmirsən ki, külək indi haradan əsir" ("You do not know which way the wind now bellows"). Tərcüməçi bu bəndin üçüncü misrasından da "saz almaq" anlayışını çıxarıb. Bununla da misranın məzmunu ciddi təhrifə məruz qalıb. Belə ki, aşıq deyişmələrində sazın əldən alınması ağır bir məğlubiyyət sayılır. Aşıq Ələsgər də rəqibini hədələdiyi üçün onu bu ağır aqibətlə qorxuzur. Dorian Rottenberq misranı tərcümə edərkən onun məzmununu bütövlükdə "libasın soyunulması" anlayışı üzərində qurub. Bu misranın tərcüməsi ingilis dilində belə səslənir: "Mən sənin səliqəsiz paltarlarını soyundura bilərəm" ("For I may strip you of your gaudy clothes"). Bəndin sonuncu misrasında Aşıq Ələsgər hədə-qorxularını tamamlayaraq rəqibini yal-quyruğu yoluq ata bənzədir. Dorian Rottenberq bu misranı tərcümə edərkən "yal-quyruğu yoluq" anlayışını "qısa dartılmış quyruq" kimi tərcümə edib. O,

şeirin poetik quruluşuna uyğun olaraq "yola düşmək" frazeoloji birləşməsini də "bəlaya düçar olarsan" ("in trouble you will get") kimi çevirib.

Qoşmanın dördüncü bəndinin tərcüməsində də bir sıra özünəməxsus xüsusiyyətlər var. Belə ki, Dorian Rottenberq birinci misranın tərcüməsini verərkən bir sıra təkrarlara yol vermişdir. Birinci misrada "your" ("sənin"), "tongue" ("dil") sözləri iki dəfə təkrar olmuşdur və bu da misranın dilini ağırlaşdırmışdır. Qoşmanın bu bəndinin ikinci misrasında Aşıq Ələsgər özünün "odlu çağı" olduğunu bildirir və ona görə də onunla ehtiyatlı davranmağı tövsiyə edir. Dorian Rottenberq bəndin ikinci və üçüncü misralarını birləşdirərək fərqli bir məna təqdim etmişdir. Bu iki misranın tərcüməsi ingilis dilində belə səslənir: "Ələsgər beləsini əvvəllər çox görüb və indi öz əlləri ilə səni xəmirdə yoğuracaq". Göründüyü kimi, tərcüməçi bu bəndin üçüncü misrasını ("Çalar caynağına səni, dağıdı") bütövlükdə tərcümə mətnindən çıxarıb. Dorian Rottenberq dördüncü misradakı "parça-para düşmək" birləşməsini öncəki bəndlərdə olduğu kimi, qoşmanın ümumi poetik quruluşuna uyğun olaraq "bəlaya düçar olarsan" ("in trouble you will get") kimi tərcümə etmişdir.

Aşıq Ələsgərin ingilis dilinə tərcümə olunmuş ictimai məzmunlu qoşmalarından biri də "Çıxıbdı" adlanır. Bu qoşmada Ələsgər ictimai ədalətsizliyi tənqid edir, cəmiyyətdə baş verən haqsızlıqları göstərir, xalqın vəziyyətinin günü-gündən ağırlaşdığını söyləyir. Aşıq bu qoşmasında məsələlərə münasibət bildirərkən o dövrün bir sıra dini, milli terminlərindən geniş surətdə istifadə etmişdir.

Bu qoşmanı ingilis dilinə Dorian Rottenberq tərcümə etmişdir (127, 627). Tərcüməçi qoşmanın adını "Yaman (pis) dünya" kimi çevirmişdir. Bizcə, bu ad qoşmanın ümumi məzmununa uyğun olduğu üçün uğurlu sayıla bilər.

Dorian Rottenberq qoşmanın birinci bəndindəki "həzərat" sözünü "friends" ("dostlar") kimi vermişdir. O, misradakı xitab

anlayışını yaratmaq üçün "O listen" ("Qulaq asın!") ifadəsindən istifadə etmişdir. Dorian Rottenberq "söyləmək" felini ingilis dilinə tərcümə edərkən "to reveal" ("aşkar etmək", "açıb demək") felindən yararlanmışdır. Bilindiyi kimi, ingilis dilində "to reveal" felindən daha çox sirli bir şeyi, mühüm bir məsələni danışmaq anında istifadə edilir. Tərcüməçi də misranın məzmununa uyğun olaraq Aşıq Ələsgərin önəmli bir xəbəri çatdırmaq istəyini qabartmaq üçün bu feldən istifadə edib. Aşıq Ələsgər bu bəndin ikinci misrasında keçmiş dövrün xəyanətindən danışıb, tərcüməçi isə bu misranı bir qədər fərqli ifadə edib. Onun tərcüməsinə görə, "dünya ikiüzlülüyün dadını verir". Bu bəndin tərcüməsində maraqlı cəhətlərdən biri də üçüncü misranın tərcüməsində özünü göstərir. Belə ki, tərcüməçi bu misranı ingilis dilinə çevirərkən "insaf" sözünü "mərhəmət" ("mercy") kimi, "mürvət" sözünü isə "ədalət" ("justice") kimi çevirib. Bütövlükdə bu cür tərcümə misranın məzmununu əhatə edir. Bu bəndin dördüncü misrasının tərcüməsində Dorian Rottenberq "Qazı" sözünü tərcümədə olduğu kimi saxlayıb və sonda bu sözlə bağlı şərh yazıb. Tərcüməçi "mazarrat" sözünü "fırıldaqçı" ("a quack") kimi verib.

Qoşmanın ikinci bəndinin tərcüməsi isə orijinaldan xeyli fərqlənir. Belə ki, qoşmanın bu bəndinin birinci misrasında aşıq kasıb insanların güzəranının çox ağır olduğu fikrini ifadə edib. Bu misradakı "sərt ayaz" birləşməsini tərcüməçi "Cold winds of evil" ("şeytanın soyuq küləyi") kimi verib. O, "sərt ayazın əlləri aparması" birləşməsini isə "şeytanın soyuq küləyi bizimlə oynayır" kimi tərcümə edib.

Aşıq Ələsgərin bu bəndin ikinci misrasında olan "ruzinin günü-gündən azalması" fikrini tərcüməçi "həyatın getdikcə çətinləşməsi" kimi çevirmişdir. Bu bəndin üçüncü və dördüncü misralarını tərcümə edən Dorian Rottenberq "molla", "axund", "məşədi", "kərbəlayı" sözlərini olduğu kimi saxlamışdır. O, bu şəxslərin şeytan olduğu fikrini onların satqın olması kimi tərcümə et-

mişdir. Dorian Rottenberq sonuncu misradakı "lotu çıxmaq" birləşməsini bir qədər fərqli tərcümə etmişdir. O, bu mənanı ingilis dilində vermək üçün tam bir misradan istifadə etmişdir. Onun tərcüməsində bu misra belə səslənir: "Bütün məşədilərin ruhu qaradır".

Qoşmanın üçüncü bəndinin tərcüməsində də bir sıra maraqlı məsələlər var. Dorian Rottenberq bu bəndin birinci misrasındakı "qoçular", "quldurlar" sözlərini "atamanlar və banditlər" kimi tərcümə etmişdir. O, "qoçuların, quldurların qatar taxması" birləşməsindəki "qatar taxmaq" ifadəsini "all advance" ("onların yüksəlməsi") kimi çevirmişdir. Tərcüməçi ikinci misradakı "fağır-füğara" sözünü "poor and helpless" ("kasıb və köməksiz") sözləri ilə tərcümə etmiş, bu misradakı "yan-yan baxmaq" birləşməsini isə "to look askance" ("şübhə ilə baxmaq") kimi vermişdir. Tərcüməçi qoçuların, quldurların özbaşnalığını göstərən üçüncü misranı tərcümə edərkən aşağıdakı mənanı ingilisdilli oxucuya çatdırmışdır: "Onlar imkan olan kimi onları (kasıb və köməksizləri) sadəcə öldürürlər". Tərcüməçi sonuncu misrada silah növlərindən biri olan "beşatılan"ın adını mətndən çıxarmış, bu sözü "silah" sözü ilə vermişdir. Bu misrada tərcüməçi "onların silah səslərinin eşidildiyi" fikrini oxucuya çatdırıb.

Qoşmanın dördüncü bəndinin tərcüməsi də orijinallığı ilə seçilir. Dorian Rottenberq bu bəndin birinci misrasındakı "pristav", "naçalnik" sözlərini "police" ("polis"), "overseer" ("nəzarətçi") kimi tərcümə etmişdir. O, ikinci misradakı "oba", "oymaq" sözlərini "villages" ("kəndlər") kimi, bu misradakı "bəndə vurmaq" birləşməsini isə "one hears a moan" ("ancaq inilti eşidilir") kimi tərcümə etmişdir. Dorian Rottenberq üçüncü misradakı "xərc" sözünü "debts" ("borclar") sözü ilə verərək bu misradakı "çoxlarının xərcə görə kəməndə düşdüyü" məzmununu isə "kasıblar sümüklərinə qədər soyulurlar" anlamında çevirmişdir. Dördüncü misradakı məzmun da orijinala uyğun çevrilmiş-

dir. Bu misranın ingilis dilində tərcüməsi belə səslənir: "Onlar ağrıyan kürəklərini qırmanc altında əyirlər".

Qoşmanın beşinci bəndinin tərcüməsində Dorian Rottenberq sərbəst hərəkət etmiş və bu bəndin ümumi məzmununu çatdırmağa çalışmışdır. Tərcüməçi birinci misradakı "ağalar", "bəylər" sözlərini "the lords" ("lordlar" ) kimi çevirmiş, "havalı gəzmək" birləşməsini isə "qürurla, təkəbbürlə tələb etmək" ("to desire with supercilious pride") ifadəsi ilə tərcümə etmişdir. Dorian Rottenberq ikinci misradakı "naxırçı", "nökər" sözlərini "qara camaat" ("the common folk") kimi vermişdir. O, "qan-tərdə işləmək" anlayışını isə "qara camaatın öz qəbrinə doğru at çapması" kimi tərcümə etmişdir. Üçüncü misranın tərcüməsində Dorian Rottenberq "müxtəsər demək" birləşməsini "gizlətməyə ehtiyac yoxdur" kimi vermiş, dördüncü misradakı "koxa", "katta" sözlərini mətndən çıxarmış və bu iki misranı aşağıdakı kimi tərcümə etmişdir: "Aşıq Ələsgər, beləliklə, gizlətməyə ehtiyac yoxdur ki, oğru başçıların əxlaqı azalıb". Bununla da Dorian Rottenberq bir yandan bu iki misranın məzmununu oxucuya çatdırmağa çalışmış, başqa yöndən isə "zatı çıxmaq" birləşməsinin məzmununu verməyə cəhd göstərmişdir. Dorian Rottenberq tərcümənin sonunda "qazı", "molla", "axund", "məşədi", "kərbəlayı" sözlərinin açıqlamasını da vermişdir (127, 627).

### *3.2.2. Aşıq Hüseyn Bozalqanlının iki şeirinin ingilis dilinə tərcüməsinin təhlili*

Azərbaycan aşıq ədəbiyyatının ingilis dilinə tərcüməsi ilə tanınan Dorian Rottenberq Aşıq Hüseyn Bozalqanlının bir sıra şeirlərini ingilis dilinə tərcümə etmişdir.

Aşıq Hüseyn Bozalqanlının Dorian Rottenberq tərəfindən ingilis dilinə tərcümə edilmiş "Getdi" şeiri lirik mövzudadır. Aşıq sevgilisinə münasibətini açıqlayarkən milli düşüncəyə, əxlaqa uyğun bədii təsvir və ifadə vasitələri seçmişdir.

Qoşmanın birinci bəndinin birinci və ikinci misrasının tərcüməsi orijinala uyğundur. Üçüncü misrada isə ifadə olunan fikri daha dəqiq vermək imkanı var. Belə ki, tərcüməçi "oynatdı qaşını, süzdü gözünü" misrasını "o, qaşqabağını salladı və məni baxışı ilə süzdü" kimi tərcümə edib. Bu misranın orijinalından aydın görünür ki, sevgili onu sevənə naz edir. Bu mənanı ingilis dilinə çevirərkən "to raise eyebrows" (qaşlarını oynatmaq), "to look in a coquettish way" (göz süzmək) deyimlərindən istifadə etmək olardı və bu yolla da sevgililər arasındakı münasibətin zərifliyi önə çəkilərdi. Şeirin dördüncü misrasını tərcüməçi "pis əhval-ruhiyyə ilə baxmaq" (looking at me in a spirit morose) kimi vermişdir. Ancaq "oğrun-oğrun baxmaq" ifadəsini də ingilis dilində vermək olar. Belə ki, ingilis dilində olan "to look at somebody stealthily" ifadəsi bu mənaya tam uyğundur.

Qoşmanın birinci bəndinin tərcüməsi ilə bağlı dediklərimizi ümumiləşdirərək öz variantımızı veririk:

**I don't know what I said, she was hurt**
**Like an ebullient river that flows, she left.**
**Raised her eyebrows, looked in a coquettish way**
**Looking at me stealthily, she left.**

Qoşmanın ikinci bəndinin ikinci misrasını tərcümə edərkən Dorian Rottenberq orijinaldakı mənanı ifadə etməkdə çətinlik çəkib. Belə ki, Azərbaycan şeirində sevgilinin gözəlliyini, incəliyini bildirmək üçün onu ceyrana, marala, su sonasına və s. bu kimi heyvan və quşlara bənzədirlər. İngilis şeirində də belə bənzətmələr var. Bir sıra ingilis şairləri qızın gözəlliyini, doğmalığını bildirmək üçün: "darling" "(sevimli), "dear" "(əziz), "lovely" "(sevgili), "lovey" "(sevdiyim), "sweet heart" "(canım) və s. bu kimi ifadələrdən istifadə ediblər. Ona görə də "ceyran" sözünü bu ifadələrin biri ilə vermək mümkündür. Sevgiliyə münasibət kimi işlədilən "ceyran" sözünü başqa cür ingilisdilli oxucuya çatdırmaq çətindir. Şeirin üçüncü misrasını tərcüməçi "mən onu çox təqib etdim, amma əbəs yerə" kimi tərcümə edib:

**"…Long I pursued her, but all in vain..."**

Ancaq bu misranı da daha uyğun bir biçimdə tərcümə etmək mümkün idi. Belə ki, misranın tərcüməsini "I chased, chased, couldn't overtake her"" kimi vermək orijinalı daha dəqiq ifadə edir. Qoşmanın dördüncü misrasını tərcüməçi "həyatımı sona çatdırdı, getdi" kimi tərcümə edib. Bilindiyi kimi, "atamın evini yıxdı" anlayışı bir frazeoloji vahiddir. Bu deyim şəxsin psixoloji vəziyyətinin ağır olduğunu bildirmək, bir hadisənin onun aid olduğu şəxsə güclü təsir etdiyini bildirmək üçün işlədilir. Bu psixoloji məqamın Azərbaycan dilindəki ifadə formasının, biçiminin ingilis dilindəki qarşılığını vermək olar. Bunun üçün "to bring ruin to smb.'s home" "("bir kəsin evini yıxmaq", ya da "bir kəsin evini xaraba qoymaq") frazeoloji birləşməsini seçmək olardı. İkinci bəndin ingilis dilinə tərcüməsini bu şəkildə vermək fikrimizcə, daha münasib olardı:

**I caused the chase to fly, couldn't hold her,**
**I couldn't throw my arrow to a gazelle.**
**I chased, chased, couldn't overtake her**
**Bringing ruin to my home, she left.**

Şeirin üçüncü bəndi orijinalda belədir:

**Dostuna demədi o sirr sözünü,**
**Hüseyndən kənara tutdu üzünü,**
**Çatdı qəmzəsini, süzdü gözünü**
**Müjganın sinəmə çaxdı da, getdi. (41, 255-256)**

Burada birinci misrasını tərcüməçi "ona öz sirrini demədən o, Hüseyni tərk etdi" kimi tərcümə edib. Bizə görə, bu misranın tərcüməsində artıq söz və təkrarlardan istifadə olunub. Ancaq bu misranı daha az sözlə və daha dəqiq tərcümə etmək mümkündür. Belə ki, bu misranı "She didn't tell him her secret" kimi vermək olar. İkinci misranın tərcüməsində isə fərqli məna verilib. Tərcüməçi bu misrada iki dəfə "Hüseyn" sözü işlədərək bu misranı "O, Hüseyni tərk etdi və Hüseyn indi ölü vəziyyətdə uzanır" kimi yazmışdır. Ancaq bu misranı da məzmuna uyğun

olaraq "She turned away from Hussein" (O, üzünü Hüseyndən kənara tutdu) kimi vermək olar.

Bu bəndin üçüncü misrası "O, mənə baxdı və onun gözləri nifrətlə doldu" kimi tərcümə olunub. Ancaq bu misrada nifrətdən yox, göz süzməkdən, naz etməkdən söhbət gedir. Ona görə də, bu misranı belə verməyi daha doğru sayırıq: "Flirted with coquetry, looked in a coquettish way".

Bəndin dördüncü misrasının tərcüməsini Dorian Rottenberq "onun kirpikləri yaydan çıxmış ox kimi sinəmə sancıldı" kimi verib. Ancaq bizə görə, bu misranı da daha yığcam tərcümə etmək mümkündür: "Pierced me with her lashes, she left".

İngilis tərcüməçisi Dorian Rottenberqin Aşıq Hüseyn Bozalqanlıdan tərcümə etdiyi ikinci şeir "Ceyranım" adlanır. Tərcüməçi bu şeirin adını tərcümədə olduğu kimi saxlayaraq, "My jeyran" şəklində verib. Bizə görə, "gözəl qız", "sevgili", "mənim çox sevdiyim", "yarım" anlamlarında qadına müraciətlə işlənən "ceyran" sözünü ingilis oxucusuna bu mənada anlatmaq çətindir. Ona görə də, bu anlayışı "darling" (sevimli), "dear" (əziz), "lovely" (sevgili), "lovey" (sevdiyim), "sweet heart" (canım) kimi tərcümə etmək daha doğru olardı. Bu zərifliyi, gözəlliyi, incəliyi ifadə etmək üçün ən uyğun sözlərdən biri də "lovey"dir. Onu da qeyd edək ki, tərcüməçi "my jeyran" ifadəsini bütün bəndlərdə rədif kimi də işlədib.

Şeirin birinci bəndinin birinci misrasında tərcüməçi "dizimin taqəti" ifadəsini "strength of my sinew" ("əzələmin gücü") kimi tərcümə edib. Bilindiyi kimi, "sinew" sözü ingilis dilində "vətər", "fiziki güc", "əzələ" mənalarında işlədilir (74, 157). Bizə görə, bu misranı və bu ifadəni "strength of my knee" kimi vermək daha düzgün olardı.

Bəndin ikinci misrasında tərcüməçi "xatalı ceyran" ifadəsini "source of my woes" ("dərd, qəm bulağım") kimi tərcümə edib. Ancaq bu misrada və bütövlükdə bu bənddə sevgilinin nazlı bir qız olmasından danışılır. Bu bəndin sonrakı misraları da dedik-

lərimizi aydın göstərir. Ona görə də bu misranı "I'm in love with you, o my menacing lovey" kimi vermək daha doğru olardı.

Bəndin üçüncü misrasını tərcüməçi "Mən sənin əziyyətlərini öz üzərimə götürərdim" kimi verib. Bu misranın tərcüməsi orijinala uyğun deyil. Belə ki, tərcüməçi üçüncü və dördüncü misraları bir-birindən ayıraraq tərcümə etdiyi üçün yanlış məna ortaya çıxıb, nəticədə aşığın ifadə etmək istədiyi məna oxucuya çatdırılmayıb. Bəndin dördüncü misrasını da tərcüməçi "Sənin saçların necə də çiyinlərinə tökülür" kimi çevirərək məzmuna uyğun olmayan fikir ifadə edib. Ancaq bu iki misrada gözəlin onu gözəl göstərən xallarının əl-ayağına, lalə yanağına düzməsindən danışılır. Bu yolla aşıq bir yandan sevgilisinin gözəl olduğunu göstərir, başqa yöndən isə, yuxarıdakı misralarda da deyildiyi kimi, bu, sevgilinin özünü nazlı göstərməsinə gözəlliyin yol açdığını bildirir. Bizə görə, bu deyimləri yekunlaşdıraraq, bəndin son iki misrasını məna baxımından bir-birindən ayırmadan aşağıdakı kimi tərcümə etmək olar:

**To your rosy cheek, hand and foot**
**Why you have placed the moles, my lovey!**

Bu şeirin ikinci bəndinin tərcüməsini də uğurlu saymaq çətindir. Belə ki, bəndin birinci misrasını tərcüməçi "Ah, sənin gözəlliyin məni göyərçinə çevirib" kimi verib. Ancaq bu misrada sevgilinin gözəlliyinin dünyaya işıq saçmasından söhbət gedir. Bizə görə, bu misranı bir neçə variantda ingilis dilinə çevirmək mümkündür. Biz mümkün variantlardan birini təqdim edirik: "Your beauty has shed the world" ("sənin gözəl camalın dünyanı işıqlandırıb"). Burada bir məsələni də qeyd edək ki, ingilis dilində "işıq saçmaq" ifadəsini bir neçə yolla vermək olar. Məsələn: to lighten, to lit, to shine, to light up və s.

Bəndin ikinci misrasını tərcüməçi "Mən səni necə də çox sevirəm, bəs sən niyə mənə işgəncə verirsən, sevgilim?" kimi tərcümə edib. Ancaq bu misranı da orijinala daha uyğun bir şəkildə tərcümə etmək mümkündür. Biz bu misranın bu şəkildə tər-

cüməsini daha doğru sayırıq: "Can anyone kill the lover in such way?" ("Aşiqi bu yolla öldürmək olarmı?").

Bəndin üçüncü misrasını tərcüməçi "Tell me what drug is strong enough" (Mənə hansı dərmanın daha güclü olduğunu söylə) kimi tərcümə edib. Bizə görə bu misranı: "What is the lover's drug, try to say" (Aşiqin dərmanı nədir, bir söylə?) kimi vermək daha doğrudur.

Bəndin dördüncü misrasını tərcüməçi üçüncü misra ilə bağlayaraq "Allah bilir ki, mən əzab çəkirəm, məni müalicə etmək üçün hansı dərmanın güclü olduğunu söylə" kimi çevirib. Biz isə üçüncü və dördüncü misra arasında daha uyğun bir əlaqə quraraq, bu misralardan birincisinin "Aşiqin dərmanı nədir, bir söylə?" kimi, ikincisinin isə "I have suffered torments a lot, my lovey" (Mən çox əzab-əziyyət çəkmişəm, mənim sevdiyim) kimi verilməsini daha doğru sayırıq.

Şeirin üçüncü bəndinin birinci misrasını tərcüməçi "Mənim var-dövlətə, qəsrlərə, pula ehtiyacım yoxdur" kimi çevirib. Bizə görə, bu misranı da bir neçə variantda vermək mümkündür. Bunlardan birini təqdim edirik: "I want no fortune, no wealth in the world".

Bu bəndin ikinci misrasının tərcüməsini orijinala uyğun saymaq olar. Tərcüməçi bəndin üçüncü və dördüncü misralarını birləşdirərək "Sənin ağlın, kamalın və gülüşün parlaqdır, sənin buxağın, üzün qızılgül kimidir, ceyranım!" kimi tərcümə edib. Göründüyü kimi, tərcüməçinin seçdiyi ifadələr orijinaldakı mənanı tam ifadə etmir. Biz bu iki misranı başqa bir biçimdə verməyi daha dəqiq tərcümə sayırıq:

**I saw sense, mind and perfection**
**Dainty chin, stature on you, my lovey!**

("Mən ağlı, düşüncəni və kamilliyi, tər buxağı, qədd-qaməti səndə gördüm, sevdiyim!")

Aşıq Hüseyn Bozalqanlının "Getdi" və "Ceyranım" şeirlərinin ingilis dilinə tərcüməsinin təhlili onu göstərir ki, bu qoşmaların tərcüməsində bir sıra uğurlu cəhətlər olsa da, ciddi yanlışlıqlar da var.

### *3.2.3. Aşıq Hüseyn Cavanın "Səttarxan" və "Qaradağ" şeirinin ingilis dilinə tərcüməsinin təhlili*

Azərbaycan aşıq ədəbiyyatının görkəmli təmsilçilərindən biri olan Aşıq Hüseyn Cavanın yaradıcılığında klassik aşıq ənənələri ilə çağdaş folklor təmayülləri birləşmişdir. Aşıq Hüseyn Cavanın yaradıcılığının mövzusu ayrı-ayrı məsələlərlə bağlıdır. O həm yaşadığı dövrün insanlarının duyğu və düşüncələrini tərənnüm etmiş, həm də klassik ənənəyə sadiq qalaraq, aşıq ədəbiyyatının ənənəvi mövzularında şeirlər yazmışdır. Aşığın lirikasında gözəllik, məhəbbət, igidlik kimi mövzulara ayrıca yer verilmiş, bir sıra ictimai mövzular önə çəkilmişdir.

Aşıq Hüseyn Cavanın ingilis dilinə tərcümə olunmuş şeirlərindən biri "Səttarxan" adlanır. Bu şeir ictimai məzmunludur və İranda Məşrutə hərəkatının lideri Səttarxana həsr olunub. Bilindiyi kimi, Səttarxanla bağlı Azərbaycan ədəbiyyatında bir sıra şeirlər yazılıb və bu şeirlərdə Səttarxanın igidliyi, azadlıq uğrunda mübarizəsi önə çəkilib. Aşıq Hüseyn Cavan da qoşmasında Səttarxanı azadlıq uğrunda mübariz, igid, qorxmaz və milli idealları olan bir şəxsiyyət kimi təqdim edib.

Aşıq Hüseyn Cavanın "Səttarxan" şeirini ingilis dilinə Dorian Rottenberq tərcümə edib (127, 641).

Qoşmanın birinci bəndinin tərcüməsi əsasən şeirin məzmununa uyğundur. Həmin bənd belədir:

**Azər ölkəsinin qəhrəman oğlu,**
**Azadlıq yolunun qurbanı oldun.**
**And içdin vətənə, igid Səttarxan,**
**Yurdumun ilqarı, imanı oldun. (21, 124)**

Bu bəndin tərcüməsində diqqəti çəkən bir neçə məsələ var. Bu məsələlərdən biri odur ki, tərcüməçi "Azər ölkəsi" birləşməsini Azərbaycan kimi verib. Bu tamamilə doğru bir yanaşma-

dır. Ona görə ki, Azərbaycan və Azər ölkəsi eyni anlam daşıyır. İkincisi də, tərcümədə Azərbaycan adının verilməsi bu şeirin ingilis dilində daha dəqiq başa düşülməsinə yardım edir. Tərcüməçi "qurban olmaq" birləşməsini "şəhid olmaq" kimi tərcümə edib ki, bu da tamamilə doğru bir tərcümədir. Qoşmanın orijinalının birinci bəndinin ikinci misrasında Səttarxanın azadlıq yolunun qurbanı olduğu göstərilir, tərcüməçi isə bu misranın tərcüməsində Səttarxanı azadlığı uğrunda şəhid olan bir insan kimi təqdim edir. Bizcə, bu misranın tərcüməsində orijinal ilə tərcümə arasında ciddi bir fərq yoxdur.

Qoşmanın birinci bəndinin üçüncü misrasının tərcüməsində Dorian Rottenberq cəsur Səttarxanı öz ölkəsinə sədaqət andı içən bir qəhrəman kimi təqdim edib.

Qoşmanın dördüncü misrasının tərcüməsi isə orijinaldan bir qədər fərqlənir. Qoşmanın orijinalında Aşıq Hüseyn Cavan Səttarxana olan münasibəti göstərmək üçün onu yurdun ilqarı, imanı adlandırır. Tərcüməçi isə bu misranı ingilis dilində belə verib: "Yaşa dolandan bəri sən öz yurduna sadiq oldun". Bizcə, tərcüməçinin bu misraya "yaşa dolandan bəri" ("Since your manhood began") birləşməsini artırmasının səbəbi Səttarxana xalqın inamının davamlı olduğunu göstərmək üçündür. Dorian Rottenberq bu misrada olan "ilqar", "iman" sözlərini "to be loyal" ("sadiq olmaq") ifadəsi ilə tərcümə edib.

"Səttarxan" qoşmasının birinci bəndinin tərcüməsində diqqəti çəkən məsələlərdən biri də budur ki, tərcümə zamanı ümumi məzmunu ifadə etmək üçün daha çox sözdən istifadə olunub. Biz bu bəndin tərcüməsində şeirin sistemini qorumasaq da, bu bənddə ifadə olunmuş məzmunu orijinala daha yaxın bir biçimdə verməyin mümkünlüyünü göstərmək üçün bu bəndin tərcüməsi ilə bağlı öz variantımızı da təqdim edirik:

**"O courageous son of Azerbaijan,**
**You became the martyr of the freedom way,**

**You took the oath for your country, brave Sattarkhan,**
**You became the faith and the belief of my country".**

"Səttarxan" qoşmasının ikinci bəndinin birinci misrasının tərcüməsi orijinalın məzmunu ilə uyğun olsa da, tərcüməçi bu misrada olan "xainlə" sözünü "with the foes" ("düşmənlə") əvəz edib. Doğrudur, bu anlayışlar arasında yaxınlıq var, ancaq "xain" sözünü də ingilis dilində bir neçə variantda vermək olar. Məsələn: "traitor", "betrayer", "deceiver", "deserter" (136, 359). Bununla yanaşı, tərcüməçi bu misranın sonuna "so dear" ("əzizim") sözünü də artırmışdır. Bizcə, bu artırma iki səbəblə bağlıdır. Birincisi, Aşıq Hüseyn Cavanın "Səttarxan" qoşması bütövlükdə aşığın Səttarxana müraciəti üzərində qurulub. Aşıq xalq qəhrəmanına müraciət edərək, onu tərifləyir, bu müraciət yolu ilə Səttarxanı oxucuya təqdim edir. Tərcüməçi də bu üsulu qorumaq üçün misranın mətninə "so dear" kimi müraciət anlayışını ifadə edən xitab artırıb. İkincisi isə, tərcüməçi bu bəndin qafiyə quruluşunu qoruyub saxlamaq üçün "so dear" xitabından yararlanıb. Belə ki, bu bənddə qafiyə yaradan sözlər "so dear", "appear", "fear"-dir. Bununla da tərcüməçi qoşmanın məzmunu ilə birgə formasını da qoruyub saxlamağa çalışıb.

Qoşmanın bu bəndinin ikinci misrasında aşıq döyüş anlayışını, Səttarxanın igidliyini göstərmək üçün "meydana at salmaq", "üzəngi çəkmək" kimi birləşmələrdən istifadə edib. Tərcüməçi bu anlayışları "on horseback you would appear" ("Sən at belində görünəndə") kimi ifadə edib. Bununla da o, "üzəngi çəkmək" birləşməsini mətndən çıxararaq bu məzmunu igidlik anlayışını ifadə edən "at üstündə görünmək" deyiminin tərkib hissəsi kimi verib. Bununla da razılaşmaq olar, çünki frazeoloji birləşmələri heç də həmişə olduğu kimi saxlamaq mümkün deyildir.

Qoşmanın ikinci bəndinin üçüncü misrasının tərcüməsi zamanı "qorxudan rəngin saralması" birləşməsini tərcüməçi "enemies' faces went yellow" kimi verib. İngilis dilində qorxudan rəngin saraldığını ifadə etmək üçün bir sıra frazeoloji birləşmələrdən isti-

fadə olunur. Məsələn: "to become sallow faced", "to turn pale" (25). Bu anlayışı ingilis dilində adi sözlərlə də bir neçə variantda vermək olar. Məsələn: "to pale", "to blanch", "to dim", "to dull", "to fade", "to whiten" (136, 251). Ancaq tərcüməçi bu anlayışı ingilis dilində "to go yellow" kimi verib. Bizcə, tərcüməçinin bu ifadəni seçməsinin səbəbi düşmənin Səttarxanı at üstündə gördüyü anla onun rənginin saralması anı arasında zaman uyğunluğu yaratmaqdır. Yəni, düşmən Səttarxanı at üstündə görür və o an Səttarxanın qorxusundan düşmənin rəngi saralır.

Qoşmanın bu bəndinin sonuncu misrasının tərcüməsi isə bir qədər mübahisəlidir. Tərcüməçi Azərbaycan türkcəsində olan "öldürmək", "qətlinə fərman vermək" anlayışını ingilis dilinə fərqli tərcümə edib. Bu misranın ingilis dilinə tərcüməsi belədir: "Öz xain canlarını xilas etməkdən ötrü onlar qaçdılar". Ancaq misranın orijinalında xainlərin öldürülməsindən danışılır. Bizcə, tərcüməçi bu anlayışı ingilis dilinə doğru tərcümə etməyib.

Qoşmanın üçüncü bəndinin tərcüməsi zamanı Dorian Rottenberq bu bəndin ümumi məzmununu verə bilmişdir. Bu bənddə aşıq Səttarxanın arzularının, əməllərinin gerçəkləşməsini bədii bir dillə oxucuya çatdırır. Dorian Rottenberq birinci misradakı "gözəl çağlar" birləşməsini "happy times" ("xoşbəxt vaxtlar") kimi, ikinci misradakı "günəşin uca dağları tutması" misrasını "bax, günəş səmaya qalxır" kimi verib. Tərcüməçi üçüncü misradan "bağlar" sözünü çıxarmış və bu misraya "sublime" ("boy atmaq") sözünü artırmışdır. Dorian Rottenberq dördüncü misranı tərcümə edərkən bu misraya "fearless man" ("qorxusuz insan") birləşməsini əlavə etmişdir.

Qoşmanın sonuncu bəndinin tərcüməsi ilə orijinalı arasında bir sıra fərqlər də var. Aşıq Hüseyn Cavan qoşmanın bu bəndində Səttarxanın öz xalqı qarşısında xidmətlərini sadalayır və onun xalqın vicdanındakı yerini göstərir. Tərcüməçi birinci misranı "Sən işıqsız gözlərin parlaq mayakı oldun" kimi tərcümə edib. Bu misrada "bağlı gözlər" ifadəsinin "işıqsız gözlər" birləşməsi ilə əvəz olunması məntiqə uyğundur.

Tərcüməçi ikinci misranı ingilis dilinə belə çevirib: "Sən güclüyə güc, ağıllıya müdrüklük verirsən". Bu tərcüməni orijinal ilə tutuşdurduqda fərqlər aydın görünür. Dorian Rottenberq bir yandan qafiyəni qorumaq xatirinə, digər yandan isə ikinci misrada ifadə olunmuş sətiraltı mənanı birbaşa çatdıra bilmədiyi üçün bu məzmunu dolayı yolla ifadə etmişdir. Qoşmanın bu bəndinin üçüncü misrasının tərcüməsi zamanı "gülər üzlər" birləşməsi yerinə "gülən gözlər" birləşməsi verilmişdir. Bütövlükdə bu misranın tərcüməsi ingilis dilində belə səslənir: "Sən bizim gülən gözlərimizdə günəş kimi qalxırsan". Qoşmanın sonuncu misrasının tərcüməsində "vicdan sözü" "ümid" sözü ilə əvəz olunub və misranın mətninə "peerless man" ("tayı-bərabəri olmayan insan") birləşməsi artırılıb. Bu sonuncu artırma da qoşmanın başqa bəndləri ilə uyğunluq yaratmaq üçündür. Belə ki, qoşmanın birinci bəndi "began", ikinci bəndi "ran", üçüncü bəndi "fearless man", dördüncü bəndi isə "peerless man" sözləri ilə bitir.

Aşıq Hüseyn Cavanın ingilis dilinə tərcümə olunmuş şeirlərindən biri də "Qaradağ" adlanır. Bu şeir də "Səttarxan" qoşması kimi ictimai məzmunludur. Aşıq bu qoşmada Cənubi Azərbaycanın Qaradağ mahalından danışır, bu yurdun Azərbaycanın azadlığı uğrunda aparılan mübarizədəki yerini göstərir. Aşığa görə, Qaradağ mahalının insanları igidliyi, qorxmazlığı, azadlıqsevərliyi ilə seçilib və onlar hər zaman Azərbaycanın istiqlalı uğrunda mübarizənin önündə gediblər. Aşıq qoşmanın birinci bəndində Qaradağı "Təbrizin oğlu" adlandıraraq bu yurdun istiqlal uğrunda mübarizədə Təbrizlə yanaşı getdiyini göstərib. Bu qoşmanın sonunda aşıq Qaradağın və bu mahalın timsalında bütün Azərbaycanın azad olacağına inamını ifadə edib.

Aşıq Hüseyn Cavanın "Qaradağ" adlı qoşmasını ingilis dilinə Dorian Rottenberq tərcümə edib (127, 644).

Qoşmanın birinci bəndində aşıq Qaradağın tarix boyu bəlalar çəkdiyini göstərib. O, bu fikri çatdırmaq üçün "dünyanın qərar

tutması" və "başın bəla çəkməsi" ifadəsindən istifadə edib. Əslində, birinci bəndin ilk iki misrasında ifadə olunan fikir bu iki birləşmə üzərində qurulub. Tərcüməçi Dorian Rottenberq birinci misradakı dünyanın qərar tutması anlayışını ingilis dilinə çevirmək üçün "the great universe" ("böyük cahan, böyük dünya") ifadəsindən və "to create" ("yaratmaq") felindən istifadə edib. Tərcüməçi "to be created" ("yaradılmaq") felini qoşmadakı "sakin olandan" birləşməsinin qarşılığı kimi işlədib. Bilindiyi kimi, Azərbaycan dilində "sakin olmaq" birləşməsi "yaradılmaq" mənasında da işlədilir. Ona görə də tərcüməçinin misradakı mənanı ingilis dilinə çevirmək üçün seçdiyi ifadə doğrudur.

Dorian Rottenberq bu misrada olan "dünya" sözünü "the great universe" ("böyük cahan, böyük dünya") kimi verib. Bilindiyi kimi, ingilis dilində "dünya" sözünün çoxlu sinonimi var. Məsələn: "world", "creation", "firmament", "heavens", "nature", "cosmos", "macrocosm" (136, 373). Ancaq tərcüməçi bunlardan "the great universe" birləşməsini seçib. Bizə görə bu seçim onunla bağlıdır ki, tərcüməçi sadəcə "dünya" sözünü deyil, bütövlükdə dünyanın ilk yaranışından bu günə qədər keçib gəldiyi dövr, zaman anlayışını başqa bir dildə ifadə etməyə çalışıb. Bu cür tərcümə qoşmanın birinci bəndində ifadə olunmuş məzmunla da sıx bağlıdır. Belə ki, Aşıq Hüseyn Cavan Qaradığın dərdinin çox və davamlı olduğunu ifadə etmək üçün bu deyimdən istifadə edib.

Bu bəndin ikinci misrasında işlədilən "başın bəla çəkməsi" frazeoloji birləşməsini ingilis dilində ifadə etmək üçün tərcüməçi "to witness infinite woe" ("sonsuz qəmin şahidi olmaq") birləşməsindən istifadə edib. Bizcə, bu cür tərcümə qoşmanın bu misrada ifadə olunmuş məzmununa uyğundur. Qoşmanın bu bəndinin üçüncü və dördüncü misralarında da Qaradağın dərdinin sonsuz və uzunmüddətli olduğu fikri başqa bir biçimdə təqdim olunub. Belə ki, üçüncü misrada "alnının izi", "bu izlərin bir qərinə olması", dördüncü misrada isə "Qaradağın yaşının bilinməməsi" birləşmələri yuxarıda deyilən məzmunu ifadə etmək

üçün seçilib. Tərcüməçi "alnının izi" birləşməsini "each fold on your brow" ("sənin alnında olan hər bir qatlama") kimi təqdim edib. Tərcüməçi bu anlayışı ifadə etmək üçün ingilis dilində bir neçə variantı seçə bilərdi. Çünki "fold" sözü birbaşa "iz", "qırış" mənasında deyil. Bu söz ingilis dilində "qatlama", "əymə" mənalarını bildirir və "iz", "qırış" sözlərinin sinonimi kimi verilir. İngilis dilində "qırış" sözünün daha dəqiq tərcümələri var: "wrinkle", "corrugation", "crease", "crumple", "furrow", "line" (136,397). Bizcə, tərcüməçinin bu variantı seçməsinin səbəbi odur ki, o, bu misrada olan "qərinə" sözünü də "century's trace" ("əsrlərin izi") kimi verib. Əslində, bir misrada eyni anlayışlar ayrı-ayrı yolla təkrar olunub.

Qoşmanın birinci bəndinin dördüncü misrasında Qaradağın yaşının və tarixinin bilinmədiyi ifadə olunub. Aşıq bu misrada "tarix" və "yaş" sözlərini işlətməklə, bu təkrar yolu ilə Qaradağın tarixinin çox qədim olduğunu bildirmək istəyib. Tərcüməçi bu misranı "Sənin neçə yaşın olduğunu heç kim bilməz, Qaradağ" kimi verib. Bizcə, bu cür tərcümə misranın məzmununa uyğundur.

"Qaradağ" qoşmasının ikinci bəndinin ingilis dilinə tərcüməsində isə bir sıra ciddi problemlər var. Belə ki, bu bənddə aşıq Qaradağı şəxsləndirərək, onun fəryad, ah içində olduğunu bildirir, Qaradağın hər bir parçasının bir səngər olduğunu dilə gətirir. Aşıq bu mənanı ifadə etmək üçün bəndin leksikasında bir sıra ifadələr işlədir. Tərcüməçi isə bir yandan bu bəndin məzmununu oxucuya çatdırmaqda çətinlik çəkir, başqa yöndən isə bəndin orijinalındakı sözlərin, ifadələrin uyğun qarşılığını tapa bilmir. Aşıq bu bəndin birinci misrasında özünə müraciət edir. Qaradağın halına yanan aşıq yaşadığı duyğuları "ah", "fəryad" sözləri ilə ifadə edir. Tərcüməçi isə bu misranı Qaradağa müraciət kimi tərcümə edib. Dorian Rottenberq bu misrada "fəryad", "ah" sözlərini "sorrow" ("dərd", "qəm", "qüssə"), "grief" ("dərd", "kədər") kimi tərcümə edib. Bütövlükdə bu misranın

ingilis dilinə tərcüməsi belə səslənir: "Dəfələrlə (çox vaxt) sən kədərə və qəmə tutulmusan". Bu bəndin ikinci misrasının tərcüməsi isə demək olar ki, anlaşılmazdır. Aşıq bu misrada Qaradağın istəyinin xalqa bəlli olduğunu bildirir, tərcüməçi isə tamamilə fərqli bir məna təqdim edir. Bu misranın ingilis dilində olan variantı belə səslənir: "Kədər və qəm sənin yanında yaşayan oğullarının həyatına son qoymuşdu". Göründüyü kimi, tərcüməçi birinci misra ilə ikinci misra arasında uyğunluq yaratmağa çalışsa belə, orijinalda verilmiş mənanı tərcümə edə bilməyib. Qoşmanın bu bəndinin üçüncü misrasında Aşıq Hüseyn Cavan Qaradağın hər qayasının bir sığınacağa çevrildiyini, ya da sonsuz döyüşlərin nişanəsi olduğunu bildirir. Tərcüməçi bu mənanı ifadə etmək üçün mətndə olmayan əlavə sözlərdən yararlanır. Məsələn, tərcüməçi "pənahgah" sözünü ingilis dilinə çevirmək üçün "a fortress besieged" ifadəsindən istifadə edib. Bu ifadə "dəf edən qala" anlamına gəlir. Tərcüməçi "qaya" sözünü ingilis dilinə "rock" kimi tərcümə edib. İkinci bəndin dördüncü misrasının tərcüməsi orijinalın məzmununa tam uyğundur.

Qoşmanın üçüncü bəndində aşıq Qaradağla bağlı düşüncələrini açıqlamaqda davam edir. O, bu bənddə daha çox zalımların Qaradağa qarşı olan haqsızlıqlarını önə çəkir. Bu bəndin leksikası da deyilən fikrin ifadəsinə uyğunlaşdırılıb. Aşıq bu bəndin birinci misrasında Qaradağa qarşı olan haqsızlığı onun dilinin bağlanması kimi verib. Dorian Rottenberq bu misranı tərcümə edərkən "dilin bağlanması" ifadəsini "to silence" sözü ilə verib. Aşıq bu misrada Qaradağı susduranların hakimlər olduğunu bildirib. Tərcüməçi idarəçilər anlamına gələn bu sözü "wicked rulers" ("zalım idarəçilər") birləşməsi ilə verib. Tərcüməçi bu misraya "year after year" ("ildən-ilə") birləşməsini də artırıb. Bu bəndin ikinci misrasında tərcüməçi deyilən fikri çatdırmaq üçün bir neçə vasitədən yararlanıb. Belə ki, tərcüməçi bu misraya "enemy's spear" ("düşmən nizəsi") birləşməsini artıraraq bu misranı belə təqdim edib: "Sənin köksün düşmən nizəsindən

olan yaraları daşıyır". Göründüyü kimi tərcüməçi misrada ifadə olunan məzmunu çatdırmağa çalışıb. Tərcümə zamanı "dağlamaq" sözü mətndən çıxardılıb. Bəndin üçüncü misrasında olan "qəlbin dilə gəlməsi" birləşməsini tərcüməçi "your heart often ached" ("sənin ürəyin tez-tez ağrıdı") kimi, "gözün ağlayıb" birləşməsini isə "your eyes shed tears" ("sənin gözlərin yaşlar axıtdı") kimi ingilis dilinə çevirib. Qoşmanın bu bəndinin dördüncü misrasında aşıq Qaradağa olan sevgisini bu diyarın adını şəxsləndirərək, onun üzünü gülə bənzətməklə, Qaradağın başına gələnlərdən kədərini bu gül üzə göz yaşının axması bənzətməsi ilə ifadə edib. Mətndə olan "gül üzə yaşın axması" birləşməsi ümumiyyətlə tərcümə olunmayıb. Dorian Rottenberq üçüncü və dördüncü misraların məzmununu birləşdirərək, ağrı və göz yaşları izlərinin Qaradağın üzündə açıq-aydın görünməsi fikrini ingilis dilinə çevirib.

"Qaradağ" qoşmasının dördüncü bəndinin ingilis dilinə tərcüməsində bir sıra ciddi qüsurlar var. Bilindiyi kimi, aşıq qoşmanın bu bəndində Qaradağa zülm edən şahları sərt bir dillə tənqid edir, onları "qaniçən" adlandırır və Qaradağın azadlıq uğrunda mübarizəsini tərənnüm edir. Tərcüməçi birinci misradakı "şah" sözünü tərcümədə olduğu kimi saxlayıb. Bu, doğru yanaşmadır, çünki ingilis dilində "şah" sözü yoxdur. Dorian Rottenberq bu misradakı şahların tac bəyənməsi və şöhrəti sevməsi fikrini fərqli bir anlamda təqdim edib. Bu misranın ingilis dilində tərcüməsi belə səslənir: "Biz sənin azadlığın uğrunda qəddar şahlarla döyüşdük". Göründüyü kimi misranın orijinalındakı mənası ilə tərcüməsi arasında ciddi fərq var. Bu fərq bəndin ikinci misrasının tərcüməsində də özünü göstərir. Belə ki, aşıq bəndin ikinci misrasında da Qaradağa zülm edən şahları tənqid edir. Ancaq tərcüməçi bu misranın tərcüməsində də Qaradağ uğrunda aparılan mübarizədən danışır. Bu misranın ingilis dilindəki tərcüməsi belədir: "Bizim axıtdığımız qan bütöv bir dənizi doldura bilərdi". Üçüncü misranın tərcüməsində Dorian Rottenberq

"əzəldən" sözünü "from the world's beginning" ("dünyanın başlanğıcından"), "hüriyyəti sevmək" ifadəsini isə "you yearned to be free" ("sən azad olmağın həsrətini çəkmisən") kimi tərcümə edib. Bu bəndin dördüncü misrasında aşıq "qaşın həsrətlə çatılması" birləşməsini işlədib. Azərbaycan dilində adətən bir şeyin həsrətini çəkəndə, bir şeyə təəccüb edəndə bu ifadə işlədilir. Dorian Rottenberq bu anlayışı ingilis dilində vermək üçün "in anquish your head bent low" ("əzabla sənin başın əyildi") cümləsindən istifadə edib.

Aşıq Hüseyn Cavan qoşmanın beşinci bəndində Qaradağla Təbriz arasında olan doğmalığı önə çəkib, onları ana və oğul adlandırıb, Qaradağın Səttarxanı çox sevdiyini bildirib. Tərcüməçi bu bəndin birinci misrasını demək olar ki, olduğu kimi, sözbəsöz tərcümə edib. Bu bəndin ikinci misrasında olan "ürəkdən bağlanmaq" birləşməsini tərcüməçi "to be faithful" ("vəfalı olmaq") kimi verib. Bu cür təqdimat çox sevmək, ürəkdən sevmək, sədaqətli olmaq anlayışlarını ehtiva etdiyi üçün doğrudur. Tərcüməçi ikinci misradakı "el bilir" ifadəsini mətndən çıxarıb, bunun əvəzinə "since time began" ("əvvəldən", "əzəldən") sözünü mətnə daxil edib. Tərcüməçi bu yolla da Qaradağ ilə Təbriz arasındakı sevginin davamlı olduğunu oxucuya çatdırmaq istəyib.

Beşinci bəndin üçüncü misrasında olan "sinəsi dağlı olmaq" birləşməsini tərcüməçi fərqli bir yolla tərcümə etməyə çalışıb. Bunun üçün Dorian Rottenberq bu misranın mətninə "with us all" ("bizim hamımızla") və "you mourn" ("sən dərd çəkirsən") birləşmələrini artırıb. Bu misranın ingilis dilindəki tərcüməsi belədir: "Sən bizimlə birgə onun (Təbrizin) oğlu Səttarxan üçün kədərlənirsən". Bu bəndin dördüncü misrasındakı "başın ağarıb" birləşməsini Dorian Rottenberq "you head's white as snow" ("başın qar kimi ağdır") kimi tərcümə edib.

Aşıq Hüseyn Cavan "Qaradağ" qoşmasının altıncı bəndində Azərbaycanın qəhrəmanlıq tarixində Qaradağın yerini göstərir, bu igidlər yurdunun Azərbaycanın ucalmasında, azadlıq uğrun-

da mübarizə aparmasında ayrıca mövqeyi olduğunu bildirir. Bu bəndin birinci misrasında aşıq Azərbaycanı "Odlar ölkəsi" adlandırır. Bilindiyi kimi, bu ad çox vaxt "Azərbaycan" sözünün sinonimi kimi işlədilir. Tərcüməçi bu misranı tərcümə edərkən "odlar ölkəsi" birləşməsini "a country of light" ("işıq, nur ölkəsi") kimi tərcümə etmişdir. Aşıq Hüseyn Cavan bu misrada bütün Azərbaycanın odlar ölkəsi olduğunu bildirir. Tərcüməçi isə bu misranın mətninə "today" ("bu gün") sözünü artıraraq "odlar ölkəsi" anlayışını bu qoşmanın yazıldığı dövrdə Azərbaycanın azadlığı uğrunda gedən mübarizə ilə uyğunlaşdıraraq, başqa çalarda işlətmişdir. Bu cür təqdimat qoşmanın məzmununa xələl gətirmir, əksinə mənanın daha doğru anlaşılmasına yol açır. Bu bəndin ikinci misrasında Qaradağın azadlıq uğrunda mübarizədə öncül yeri göstərilir. Dorian Rottenberq bu misranı bir qədər fərqli tərcümə etmişdir. Onun tərcüməsində bu misra belə səslənir: "Sənin (Qaradağın) adın onun (Azərbaycanın) rəşadətli insanlarını qürurlandırır". Göründüyü kimi, bu misrada mətnə "her valiant people" ("onun rəşadətli insanları"), "with pride" ("qürurla") kimi birləşmələr daxil edilmiş və tərcüməçi bu ifadələrlə Qaradağın mübarizəsinə işarə etmişdir. Bəndin dördüncü misrasında Aşıq Hüseyn Cavan Cənubi Azərbaycanın bir sıra bölgələrinin - Sarabın, Urmiyanın adını çəkir. Aşıq bu misrada Urmiyanı "Urmu" kimi təqdim edir. Misranın tərcüməsində ən maraqlı məsələ isə "nərə" sözü ilə bağlıdır. İngilis dilində bu söz bir neçə variantda işlədilir. Məsələn: "bellow", "blare", "clamour", "crash", "cry", "guffaw", "hoot", "howl", "rumble", "shout", "thunder", "yell" (136, 301). Ancaq tərcüməçi bu sözü başqa bir formada vermişdir. Dorian Rottenberq "nərə" sözünü "your thunder's might" ("sənin ildırımının gücü") kimi tərcümə etmişdir. Bundan başqa tərcüməçi Qaradağın ildırımının gücünün, qüdrətinin Sarab və Urmiyanı titrətdiyini də ifadə etmişdir. Ancaq mətndə belə bir anlayış yoxdur. Bu bəndin dördüncü misrasını tərcüməçi dəqiq surətdə, olduğu kimi təqdim etmişdir.

Qoşmanın yeddinci bəndində Aşıq Hüseyn Cavan Qaradağın, bütövlükdə Azərbaycanın gələcəyinə inamını ifadə edir. O, inanır ki, Azərbaycan azad olacaq, xoşbəxt bir ölkəyə çevriləcək. Aşıq bu bənddə azadlıq anlayışını günəşlə ifadə etmişdir. Tərcüməçi bu bəndin birinci və ikinci misralarını birləşdirərək, ümumi məzmunu verməyə çalışmışdır. O, tərcümə zamanı mətnə bir sıra əlavələr də etmişdir. Məsələn, tərcüməçi mətnə "peach" ("şaftalı"), "orchard" ("meyvə bağı"), "forth" ("irəli") sözlərini artırmışdır. Bununla birgə, tərcüməçi "qızar torpağın", "yaşıl don geyinər", "açar bağın" birləşmələrini mətndən çıxarmış, bu ifadələrin ifadə etdiyi mənaları başqa üsullarla verməyə çalışmışdır. Bəndin bu iki misrasının tərcüməsi ingilis dilində belə səslənir: "Günəş yenidən bir daha qalxacaq və onun istisi sənin meyvə bağlarındakı şaftalıları çiçəkləndirəcək". Bizcə bu tərcümə o qədər də uğurlu deyil. Ona görə ki, aşıq qoşmanın mətnində olan "günəş", "torpağın qızması", "bağın gül açması", "yaşıl don geyinməsi" kimi anlayışlarını simvolik mənada işlətmiş və bu anlayışlarla azad Azərbaycanın gələcəyinə ümidlə baxdığını ifadə etmişdir. Ancaq tərcümədə bu anlayışların simvolik məzmunu zəif verilmişdir. Bu bəndin üçüncü misrasının tərcüməsində də mətnə fərqli yanaşma var. Belə ki, Dorian Rottenberq Səttarxanın adını üçüncü misradan çıxarmış, onun yerinə "a triumphant banner" ("yenilməz bayraq") birləşməsini vermişdir. Bundan başqa, tərcüməçi "qalib bayraq" birləşməsini də "məğlubiyyət bilməyən bayraq" kimi çevirmişdir. Bu bəndin dördüncü misrasında tərcüməçi "vətəndaş" sözünü "country man" ("ölkə adamı") kimi vermişdir. Bəndin sonuncu misrasının tərcüməsində "ucaldacaq" sözü "will glow" ("şölənəcək") kimi verilmişdir. İngilis dilində "to glow" feli daha çox "alovlanmaq", "şölələnmək" mənalarında işlədilir. Tərcüməçi "ucalmaq" felini "dalğalanmaq" feli ilə verə bilərdi. İngilis dilində "dalğalanmaq" anlayışı "to wave", "to flutter", "to brandish", "to flap", "to ripple", "to shake"  felləri ilə ifadə edilir (136, 389).

Qoşmanın səkkinci bəndində Aşıq Hüseyn Cavan Azərbaycanın azadlıq bayrağının bütün Şərqə nur saçacağına, bu bayrağın azadlıq sevən xalqlara yol göstərəcəyinə inanır. Aşıq bu bəndin içərisində gözlənilmədən Qaradağın qızlarının gözəlliyindən də danışır. Milli geyimlərə bürünmüş Qaradağ qızlarının gözəlliyini tərifləyir. Dorian Rottenberq bəndi tərcümə edərkən məzmunu ümumi şəkildə çatdırmağa çalışıb, bir sıra hallarda isə bəndin məzmunundan fərqli mənalar verib. Belə ki, bu bəndin birinci misrasında olan "bayraq" sözünü tərcüməçi mətndən çıxarıb. Ona görə də misranın ingilis dilində olan variantında söhbətin nədən getdiyi, nəyin işıq saçdığı dəqiq bilinmir. Bu misranın ingilis dilinə tərcüməsi belə səslənir: "Bu, bütün Şərq millətlərini işıqlandıracaq". Bu misrada tərcüməçi "nur saçmaq" birləşməsini "to light up" kimi, "el" sözünü isə "nation" kimi tərcümə etmişdir. Bu bəndin ikinci misrasında aşıq könüllərin bu bayrağa bağlı olduğunu bildirir. Tərcüməçi bu mənanı ifadə etmək üçün öncə bayrağın gözəlliyindən danışır və bu anlayışı "beauty" ("gözəllik") və "glory" ("parlaqlıq") sözləri ilə ifadə edir, daha sonra bütün gözlərin bayram edəcəyini bildirir: "All eyes will feast" ("bütün gözlər bayram edəcək"). Bütövlükdə bu misranın ingilis dilində tərcüməsi belədir: "Onun gözəllik və parlaqlığında bütün gözlər bayram edəcək".

Bu bəndin üçüncü və dördüncü misrasında aşıq Qaradağın qız və gəlinlərinə al qumaşın və tirmə şalın gözəl yaraşdığını bildirib. Aşıq bu iki misrada təkrardan qaçmaq və heca sayını qorumaq üçün fars mənşəli "xub" ("yaxşı") sözünü də "gözəl" sözü ilə yanaşı işlədib. Tərcüməçi bu mənanı belə çatdırır: tirmə şal və al qumaş ona görə gözəldir ki, onu Qaradağın qızları geyinib. Dorian Rottenberq bu iki misranı tərcümə edərkən "tirmə şal" birləşməsini ingilis dilində olduğu kimi saxlayıb, "al qumaş" birləşməsini isə mətndən çıxardıb. Bundan başqa tərcüməçi "qız" sözünü ingilis dilində cəmdə verib ("girls") və "gəlin" sözünü mətndən çıxarıb. Daha sonra tərcüməçi qızların "belə sevimli və

şirin" ("so lovely and sweet") göründüyünü mətnə artırıb.

Qoşmanın doqquzuncu bəndində aşıq Qaradağın azad olacağı günə inamını bədii bir dillə ifadə edib. Bunun üçün o "zəfər nəğməsi", "günəşin isti nəfəsi", "torpağın, daşın isinməsi" kimi bədii təsvir və ifadə vasitələrindən yararlanıb. Bu birləşmələr azadlıq anlayışını ifadə etmək üçün uğurla seçilib. Ancaq bu bəndin tərcüməsində bir sıra qüsurlar vardır. Belə ki, qoşmanın bu bəndinin birinci misrasında şahin quşunun çiynə çəkməsi (qıy vurması) bildirilir, tərcüməçi isə "şahin" sözünü və onunla bağlı anlayışları mətndən çıxarıb. Tərcüməçi "şahin" sözünün yerinə "sənin cəngavərlərin" ("your warriours") birləşməsini, "şahinin çiynə çəkməsi", "səsini ucaltması" birləşmələrinin əvəzinə isə "cəngavərlər öz yenilməz səslərini ucaldacaqlar" ("your warriours will raise their triumphant voices") cümləsini verib. Bu bəndin ikinci misrasında şahinlərin zəfər nəğməsi oxuyacağından danışılıb, tərcüməçi isə bu misranı "Və sən torpağın sevindikcə ona baxacaqsan" kimi tərcümə edib. Qoşmanın bu bəndinin üçüncü misrasında aşıq Qaradağa üz tutur və ondan günəşin isti nəfəsini alqışlamasını istəyir. Dorian Rottenberq belə bir mənanın tərcüməsindən, ümumiyyətlə, imtina edib və bu misrada ifadə olunan fikri bəndin ikinci misrası ilə birləşdirib. Bu iki misranın tərcüməsi ingilis dilində belə səslənir: "Seçilmiş güllərlə və günəşlə bəzənmiş torpağının sevincinə baxacaqsan". Daha sonra Dorian Rottenberq bu bəndin dördüncü misrasının tərcüməsindən imtina etmiş, bu misrada ifadə olunan mənanın yerinə bütövlükdə bəndin məzmununa uyğun olan "qələbə günü" birləşməsini vermişdir. Belə ki, bu bəndin orijinalında "şahinin çiynə çəkməsi", "səsini ucaltması", "zəfər nəğməsi oxuması", "günəşin isti nəfəsinin alqışlanması", "torpağın, daşın isinməsi" birləşmələri bütövlükdə zəfərlə, qələbə ilə bağlıdır, yəni bu hadisələrin baş verməsi qələbədən asılıdır. Tərcüməçi də bu ümumi məzmundan çıxış edərək bu bəndin sonuna "On the Day of Victory, O Garadag!" ("Qələbə günündə, Qaradağ!") misrasını artırmışdır.

Qoşmanın sonuncu bəndində Aşıq Hüseyn Cavan Qaradağın bütün igid övladları kimi onun özünün də bu vətənin keşiyində durduğunu bildirib. Bu bəndin birinci misrasında aşıq Qaradağın igid övladları olduğunu, Səttarxanın bu torpaqda yetişdiyini önə çəkir. Tərcüməçi misrada olan "igid övlad" anlayışını "güc və cəsarətlə dolu olan oğullar" ("full of courage and strength") kimi verib, "bu torpağın Səttarxanı yetişdirməsi" fikrini isə "Səttarxanın azadlıq uğrunda mübarizənin lideri olması" kimi ifadə edib. Tərcüməçi birinci və ikinci misranın məzmununu birləşdirərək belə tərcümə edib: "Bizim torpağın fəxri olan cəsur Səttarxanın başçılığı ilə gedən mübarizədə cəsarət və güc ilə dolu olan Qaradağın oğulları dayanır (var)". Tərcüməçi Səttarxanın igidliyini göstərmək üçün bu iki misranın orijinalında olmayan sözləri mətnə daxil etmişdir. O, tərcümədə Səttarxanı "cəsur Səttarxan" ("bold Sattarkhan"), "bizim torpağın qüruru" ("the pride of our land") kimi təqdim edib.

Qoşmanın bu bəndinin üçüncü misrasında Aşıq Hüseyn Cavan özünün də bir yaraqlı əsgər olduğunu bildirib. Tərcüməçi bu misranın məzmununu olduğu kimi çatdırıb. Bəndin sonuncu misrasında isə tərcüməçi bu misranın orijinalında olan "dünya olsa qoşun" (yəni Qaradağın düşmənləri çox olsa da) birləşməsini belə tərcümə edib: "Dünyanın düşmənlərlə dolu olmasına baxmayaraq, qorxma".

Dorian Rottenberq Aşıq Hüseyn Cavanın "Qaradağ" qoşmasını tərcümə edərkən qoşmanın mətnində olan üç anlayışa açıqlama da yazıb. O, Qaradağ sözünü izah edərkən Qaradağın Azərbaycanın Qafqaz hissəsində dağ olduğunu bildirib. Doğrudur, Şimali Azərbaycanda Qaradağ adlı dağ var. Ancaq Aşıq Hüseyn Cavan qoşmada bu Qaradağdan deyil, Cənubi Azərbaycanın Qaradağ mahalından danışır. Tərcüməçinin Sarab və Urmiya şəhərləri, "tirmə şal"la bağlı verdiyi izahlar isə doğrudur. Bu izahda Sarab və Urmiyanın İranın şəhərləri olduğu bildirilir. Tərcüməçi qeydində həmçinin "tirmə şal"ın ipəklə bəzədildiyini və Qafqazda qadınların istifadə etdiyi baş örtüyü olduğunu bildirib.

### *3.2.4. Aşıq Şəmşirin "Dedim-dedi" qoşmasının və "Sənin" gəraylısının ingilis dilinə tərcüməsinin təhlili*

Aşıq Şəmşirin ingilis dilinə tərcümə olunmuş şeirlərindən biri "Dedim-dedi" adlanır. Bu şeiri ingilis dilinə Dorian Rottenberq tərcümə etmişdir (127, 637). Bu qoşma lirik məzmunludur. Qoşmada sevgilinin gözəllikləri, mənəvi-əxlaqi keyfiyyətləri sadalanır, aşiqin iztirab çəkdiyi, öz sevgilisinə qovuşmaq istəyi ifadə olunur. Aşıq Şəmşir bu qoşmada aşıq ədəbiyyatında və klassik divan ədəbiyyatında məşhur olan "Dedim-dedi" formasından istifadə etmişdir.

Dorian Rottenberq qoşmanın adını "The beauty and I" ("Gözəl və mən") qoymuşdur. Qoşmanın birinci bəndinin birinci misrasının tərcümə edərkən Dorian Rottenberq "sallanış" sözünü "yeriş" ("gait") kimi vermiş, bu misraya "haradan" ("where") sözünün ingilis dilində bu sual sözünün qədim forması olan "whence" sözünü artırmışdır. Nəticədə, Aşıq Şəmşirin gözəldən sallanmağının səbəbini soruşması ingilis dilinə "Ey gözəl, sənin yerişinin belə gözəl olması haradandır?" kimi çevirmişdir. Bu bəndin ikinci misrasında Aşıq Şəmşir gözəlin ümmanların sonası olduğunu bildirir. Tərcüməçi isə bu misranı şor sularda üzən qu quşu kimi tərcümə etmişdir. Bizcə, tərcüməçi burada okean suyunun duzlu olduğunu əsas götürərək, misranı bu şəkildə tərcümə etmişdir. Bəndin üçüncü misrasında bir qədər fərqli məna verilmişdir. Belə ki, Aşıq Şəmşir bu misrada gözəlin ağ əllərinin hənalı olmasından danışır. Tərcüməçi isə bu misrada gözəlin saçlarının hənalı olmasını bildirir. Qoşmanın dördüncü misrasında Dorian Rottenberq "öz hüsnümün (gözəlliyimin) hənasıdır bu" fikrini "bu təbiidir-öz gözəlliyimdir" kimi vermişdir.

Qoşmanın ikinci bəndinin tərcüməsində də bir sıra ciddi fərqlər var. Aşıq Şəmşir bu bəndin birinci misrasında dərdini şirindilli sevgilisinə dediyini bildirir. Tərcüməçi bu misranı "Sə-

nin şirin nitqinin səsi mənim başımı fırladır" kimi təqdim etmişdir. Aşıq Şəmşir bəndin ikinci misrasında gözəlin cavabını təqdim edir: "Nə cisminə düşdü zəlzələ?" Tərcüməçi isə bu misranı tamamilə fərqli bir məna ilə çevirir: "Mən sənə çox təəssüf edirəm, yazıq adam". Dorian Rottenberq üçüncü misradakı "əl-ələ vermək" birləşməsini "gəzmək" kimi vermiş, "bağda" sözünü isə "güllük" kimi çevirmişdir. Tərcüməçi dördüncü misranı isə orijinaldan xeyli fərqli tərcümə etmişdir. Qoşmanın orijinalında Aşıq Şəmşir gözəlin adından bu sözləri verir: "Bir qocalıq binasıdır bu". Tərcüməçi isə bu misranı "Sənin təklifini mən rədd etməliyəm" kimi çevirir.

Qoşmanın üçüncü bəndi də deyişmə üslubunda davam edir, aşiq bu yolla sevgilisinin gözəlliklərini sadalayır. Tərcüməçi üsluba sadiq qalsa da, tərcümədə bir sıra yanlışlıqlar da var. Birinci misrada aşiq sevgilisinin ona müjgan oxu atmamasını istəyir. Bu misra tərcümədə "sevgilinin kirpiklərinin onu sevənin sinəsini deşməsi" kimi verilir. İkinci misra isə tamamilə yanlış bir mənada tərcümə olunmuşdur. Belə ki, Aşıq Şəmşir bu misrada sevgilisinin qoynunun ənbər ətri verdiyini onun öz dili ilə təqdim edir. Ancaq tərcümədə tamamilə fərqli bir məna ifadə edilmişdir. Bu misra tərcümədə belə səslənir: "Mənim qurbanlarım xoşbəxtliyə çatıblar". Göründüyü kimi, orijinal ilə tərcümə arasında ciddi fərq var. Üçüncü misranın tərcüməsində isə ciddi bir problem yoxdur. Sadəcə olaraq "yuxu almaq" birləşməsi "istirahət tapmaq" ("to find rest") kimi tərcümə edilmişdir.

Qoşmanın dördüncü bəndinin tərcüməsində də bir sıra ciddi qüsurlar var. Aşıq Şəmşir bu bəndə də öz sevgilisinin gözəlliyindən danışır. Biz orijinalla tərcümə arasındakı fərqləri göstərmək üçün hər bir misranın ayrılıqda müqayisə edək. Birinci və ikinci misrada Aşıq Şəmşir öz sevgilisinə müraciət edərək bildirir ki, əgər bir insanda var-dövlət olsa, yoxsul olanlar ondan pay umar. Bu iki misranın ingilis dilinə tərcüməsi tamamilə fərqli məna verir. Belə ki, tərcümənin birinci misrasında insan varlığı-

nın sərvətinin sevgi olduğu bildirilir. İkinci misrada isə sevgili buna cavab olaraq bildirir ki, yalnız kasıblar (dilənçilər) fikirləşir ki, sevgi kifayətdir.

Qoşmanın orijinalının üçüncü, dördüncü misralarının tərcüməsi ilə bağlı da eyni fikirləri söyləyə bilərik. Məsələn, aşıq sevgilisinin sinəsində iki nar olduğunu bildirir, tərcüməçi isə bu misranı "sənin döşlərin səmadan göndərilmiş narlardır" kimi çevirir. Tərcüməçinin "göylərdən göndərilmək" ifadəsini nəyə görə bu misraya artırdığı bəlli deyil. Bəndin sonuncu misrasının tərcüməsində də fərqli məna verilmişdir. Bu misranın ingilis dilində olan tərcüməsi belədir: "Ey adam, sən ağlını itirmisən!"

Aşıq Şəmşirin "Dedim - dedi" qoşmasının sonuncu bəndinin tərcüməsində də orijinal ilə tərcümə arasında ciddi fərqlər var. Bu bəndin birinci misrasında Aşıq Şəmşir sevgilisinin onu xəstə etdiyini bildirir. Tərcümədə isə "xəstəhal" sözü "məğlub etmək" ("to smitt") kimi verilmişdir. Bu misranın bütövlükdə ingilis dilində tərcüməsi belədir: "Yazıq Şəmşir sənin tərəfindən məğlub edilib". Qoşmanın bu bəndinin üçüncü misrasının tərcüməsində ciddi bir fərq yoxdur. Sadəcə olaraq Dorian Rottenberq tərcümə zamanı bu misranın mətninə bir sıra əlavələr etmişdir. Belə ki, misranın orijinalındakı "dodağına bal bulanmaq" birləşməsi tərcümədə "sənin dodaqların parlayır" ("your lips shine") kimi, "bal" sözü isə "şehə oxşayan bal" ("honey-like dew") kimi verilmişdir. Bu misranın bütövlükdə ingilis dilində tərcüməsi belədir: "Sənin dodaqların şehə oxşayan bal kimi parlayır".

Qoşmanın sonuncu misrasının orijinalı ilə tərcüməsi arasında ciddi bir fərq yoxdur. Tərcüməçi orijinaldakı "sən mərizin davasıdır bu" misrasını "bu sənin kimi adamların dərmanıdır" kimi vermişdir.

Aşıq Şəmşirin ingilis dilinə tərcümə olunmuş şeirlərindən biri də "Sənin" adlanır. Bu şeir gəraylı janrında yazılmış və məhəbbət mövzusundadır. Gəraylıda Aşıq Şəmşir sevdiyi gözəlin gözəlliklərini bədii bir dillə təsvir edir, onu bütün gözəllərdən

üstün tutduğunu bildirir. Bu qoşmada diqqət çəkən məsələlərdən biri də odur ki, aşıq ictimai məzmunlu şeirlərində olduğu kimi, bu sevgi məzmunlu gəraylıda da nəsihət üslubuna sadiq qalmışdır. O, gəraylıda sevgilisinin gözəlliklərini sadalamaqla birgə ona öyüd-nəsihət də verir. Bu gəraylını ingilis dilinə Dorian Rottenberq tərcümə etmişdir (127, 635).

Gəraylının birinci bəndinin tərcüməsinin təhlilinə keçək. Bu bənddə deyilir:

**Məndən əhval tutan gözəl,**
**Nə çatılıb qaşın sənin;**
**Görünür çox bəxtiyardır**
**Hər kimsə yoldaşın sənin (21,15).**

Birinci misrada tərcümə zamanı "əhval tutmaq" birləşməsi "mənim həyatım haqqında soruşmaq" kimi verilmişdir. Ancaq Dorian Rottenberq ikinci misranı tamamilə fərqli bir mənada çevirmişdir. Belə ki, orijinalda aşıq sevgilisinə üz tutaraq ondan qaşının niyə çatıldığını soruşur. Ancaq bu misra tərcümədə belə səslənir: "Mənim tanıdıqlarımdan ən gözəli sənsən". Göründüyü kimi, bu misranın orijinalla heç bir əlaqəsi yoxdur. Dorian Rottenberq bəndin üçüncü və dördüncü misralarını birləşdirərək, belə çevirmişdir: "Səni özününkü adlandıran necə də xoşbəxtdir". Göründüyü kimi, burada "yoldaş" sözü "özününkü adlandırmaq" kimi verilmişdir.

Gəraylının ikinci bəndində Aşıq Şəmşir həm sevgilisinin çox gözəl olduğunu bildirir, həm də ona öyüd verir. Bu bəndin birinci misrasında sevgilinin gözəl üzü olduğu bildirilir. Tərcümədə Dorian Rottenberq "gözəl üz" birləşməsini "gözəllik və xeyirxahlıq" kimi tərcümə etmiş və bu nemətləri ona təbiətin verdiyini bildirmişdir. Bəndin ikinci misrasında Aşıq Şəmşir sevgilisinə öyüd verərək bildirir ki, o bu gözəl üzünü halal saxlamalıdır, yəni onu pis baxışlardan və haram olan şeyə baxmaqdan qorumalıdır. Dorian Rottenberq bu misrada olan "halal saxlamaq" birləşməsini "əlçatmaz", "saf" və "ismətli" sözləri ilə tərcümə

etmişdir. Bu dediklərimizi ümumiləşdirsək, iki misranın ingilis dilində tərcüməsinin belə olduğunu görərik: "Təbiət sənə həm gözəllik, həm də xeyirxahlıq verdi, əlçatmaz, saf və ismətli ol".

Bu bəndin üçüncü və dördüncü misralarının tərcüməsi zamanı Dorian Rottenberq əsasən ümumi məzmunu qorumağa çalışmışdır. Ancaq bu məzmunun təqdimində bir sıra fərqlər də var. Belə ki, Aşıq Şəmşir sevgilisinə nəsihət verərək bildirir ki, ağlı azalmasa, onun başı ucalacaq. Dorian Rottenberq tərcümədə bildirir ki, əgər o (sevgili) ağıllıdırsa, vəfasızlıqdan imtina etsin, onda o acınacaqlı vəziyyətinə görə heç vaxt göz yaşı tökməyəcək. Dorian Rottenberq bu məzmunu ifadə etmək üçün tərcümənin mətninə "vəfasızlıqdan imtina etmək", "acınacaqlı vəziyyətdə olmaq", "göz yaşı tökmək" kimi birləşmələr artırmışdır.

Gəraylının üçüncü bəndinin tərcüməsi ilə orijinalı arasında da bir sıra ciddi fərqlər var. Orijinalın birinci misrasında Aşıq Şəmşir sevgilisinə öyüd verir, ona alçaqlara baxmamağı tapşırır. Dorian Rottenberq bu misranı tərcümə edərkən "alçaqlar" sözünü "yaramaz" ("foul") və "rəzil" ("base") sözləri ilə tərcümə etmiş, "dönüb baxma" ifadəsini isə "diqqət yetirmə" ("pay no heed") kimi çevirmişdir. Təbiidir ki, orijinaldakı ikinci misranı ingilis dilinə çevirmək çətindir. Ona görə ki, "şirin canı oda yaxmaq" birləşməsi birbaşa Azərbaycan dilinin, azərbaycanlı düşüncəsinin yaratdığı anlayışdır. Dorian Rottenberq bu məzmunu tərcümə edərkən birinci və ikinci misranı birləşdirmişdir. Tərcümənin mətnində deyilir ki, rəzil və yaramazlara diqqət yetirmə, onların pis yollarını təkrarlama. Bu bəndin üçüncü və dördüncü misralarının tərcüməsində də fərqlər var. Aşıq Şəmşir üçüncü misrada sevgilisinə bildirir ki, pis adamlara göz vurmasın, yoxsa onun huşu dağılar. Dorian Rottenberq bu məzmunu fərqli bir çalarda təqdim edib. Onun tərcüməsində üçüncü və dördüncü misralar birləşdirilmiş və oxucuya aşağıdakı məzmun təqdim edilmişdir: "Öz bədənini qadınlarla oynayanlara vermə. Tək qalmaq daha yaxşıdır". Burada "adətkar" sözü "qadın bədə-

ni ilə oynayanlar" birləşməsi ilə əvəz edilmiş, "kirpik çaxma" birləşməsi isə "bədənini vermə" kimi tərcümə edilmişdir. Dördüncü misra isə ("dağılmasın huşun sənin") "tək qalmaq daha yaxşıdır" kimi ingilis dilinə çevirilmişdir.

Geraylının dördüncü bəndinin tərcüməsi də orijinaldan xeyli fərqlənir. Aşıq Şəmşir bu bəndə də sevgilisinə öyüd verir. O, birinci misrada sevgilisinə bildirir ki, yaxşı dolanıb, təmiz ad alsın. Bu misranı Dorian Rottenberq: "tərbiyəli ol, əlçatmaz qal" kimi tərcümə etmişdir. Bəndin ikinci misrasında aşıq sevgilisinə bildirir ki, sabahı yadına salsın. Dorian Rottenberq bu misranı "bu gün sabahı unutma" kimi çevirmişdir. Biz bu iki misranın tərcüməsi zamanı ümumi məzmunun əsasən saxlanıldığını görürük. Sadəcə olaraq bu misralarda "yaxşı dolanmaq" "tərbiyəli olmaq" kimi, "ad almaq" "əlçatmaz qalmaq" kimi, "sabahını yadına salmaq" isə "sabahı unutmamaq" kimi verilmişdir. Üçüncü misranın tərcüməsi də orijinala əsasən uyğundur. Belə ki, Dorian Rottenberq orijinaldakı "halal çalışmaq" birləşməsini "vicdanla çalışmaq" kimi vermiş, "halal qazanmaq" birləşməsini "öz yolunu (yaşayışını) şərəflə təmin et" kimi çevirmişdir. Geraylının bu bəndinin dördüncü misrasındakı "işin əyilməsi" ifadəsini Dorian Rottenberq belə tərcümə etmişdir: "Sənin inildəməyin üçün heç bir səbəb olmayacaq".

Geraylının beşinci bəndində Aşıq Şəmşir nəsihət üslubunu davam etdirərək sevdiyi gözələ maraqlı məsləhətlər verir. O, sevgilisinə bildirir ki, hal əhli görəndə onlarla görüşsün. Dorian Rottenberq bu misranı çevirərkən bir neçə məsələyə fərqli yanaşmışdır. O, öncə "hal əhli" birləşməsini "dəyərli insanlar" ("worthy persons") kimi tərcümə etmiş, bu misrada olan "görüşmək" felini də "baş əymək" ("to bow") kimi vermişdir. İkinci misrada isə tərcüməçi orijinala yaxın bir mənanı ifadə edə bilmişdir. O, bu misranı tərcümə edərkən "halını xəbər almaq" anlayışını "onların işləri haqqında soruşmaq" ("ask about their affairs") kimi tərcümə etmişdir. Göründüyü kimi, bu iki misra-

nın tərcüməsində orijinalla tərcümə arasında ciddi bir fərq yoxdur.

Dorian Rottenberq üçüncü və dördüncü misraları da ingilis dilinə birləşdirərək çevirmişdir. O, üçüncü misradakı "qeyli-qal" birləşməsini "başqaları dalaşanda" ("when others quarrel") kimi tərcümə etmiş, dördüncü misrada olan "döşün atlanması" ifadəsini isə bir qədər fərqli yolla təqdim etmişdir. Biz Dorian Rottenberqin tərcüməsini doğru sayırıq, ona görə ki, bu misrada "döşün atlanması", ya da "atlanmaması" "dava-dalaşa qoşulmaq", ya da "qoşulmamaq" mənasında işlədilir. Yəni Aşıq Şəmşir sevdiyi adama dava-dalaşa qoşulmamağı məsləhət görür. Tərcüməçi də bu mənanı çatdırmaq üçün bir neçə sözdən istifadə etmişdir. Onun tərcüməsində bu iki misra belə alınıb: "Başqaları dalaşanda müdaxilə etmə, nə də lovğalıqla məsuliyyəti öz üzərinə götür".

Geraylının altıncı bəndində Aşıq Şəmşir istədiyi şəxsə ustadlardan dərs almağı, xeyir-şərdə iştirak etməyi, böyüklərdən öyrənməyi məsləhət görür. Dorian Rottenberq bu bəndin birinci misrasını tərcümə edərkən "ustadlardan dərs almaq" birləşməsinin yerinə "qoy mənim sözlərim əbəs yerə itməsin" misrasını vermiş, ikinci misranın yerinə "yaşlılardan ağıl əldə etməyə çalış" fikrini mətnə daxil etmişdir. Dorian Rottenberq üçüncü misrada olan "böyüklərdən oxuyub öyrənmək" birləşməsini "laqeyidliklə məsləhəti rədd etmə" kimi tərcümə etmişdir. Tərcüməçi bu bəndin dördüncü misrasına da sərbəst yanaşmış və ümumi mənanı ifadə etməyə cəhd göstərmişdir. Onun tərcüməsində dördüncü misra belə səslənir: "Sən gəncsən, sənin bilmədiyin çox şey var".

Gəraylının sonuncu bəndində Aşıq Şəmşir öz nəsihətlərini bir daha xatırladır və bu öyüdləri unutmamağa çağırır. Dorian Rottenberq gəraylının birinci və ikinci misralarını bir yerdə tərcümə etmişdir. O, "nəsihət" sözünü "məsləhət" kimi vermiş, "dönə-dönə nəsihət vermək" birləşməsini isə "sənin nəsihətə

ehtiyacın olacaqdır" kimi tərcümə etmişdir. Bütövlükdə bu iki misra ingilis dilində belə səslənir: "Şəmşir sənə diqqət yetirəcəyin hər şeyi deyib, O sənə ehtiyacın olan məsləhəti verir". Bu bəndin üçüncü və dördüncü misralarını ingilis dilinə tərcümə etmək bir qədər çətindir. Belə ki, Aşıq Şəmşir bu misralarda "yol gedənə ağzın quşunun qonması" kimi Azərbaycan dilinə məxsus birləşmə işlətmişdir. Burada aşıq "quşun qonmasın" birləşməsi ilə öz sevgilisinə hər yoldan keçənlə danışmağı məsləhət görmədiyini bildirmişdir. Dorian Rottenberq bu misraları tərcümə edərkən "cəhalət" ("ignorance"), "bilik" ("knowledge"), "şər" ("evil"), "yaxşı" ("good") kimi zidd mənalı sözlərdən istifadə etmişdir. Bundan başqa Dorian Rottenberq "a stepping stone" birləşməsindən də yararlanmışdır. Bu birləşmə ingilis dilində "nərdivan", "uğur qazanmaq vasitəsi" kimi mənalarda işlədilir. Bütövlükdə aşığın verdiyi mənanı Dorian Rottenberq ingilis dilinə belə çevirmişdir: "Cəhalət bəlaya aparar, bilik isə yaxşı işlərə vasitə olar". Göründüyü kimi bu iki misranın ingilis dilinə tərcümə olunmuş variantı ilə orijinalı arasında çox fərq var.

Ancaq, ümumiyyətlə götürdükdə, həm Dorian Rottenberqin, həm də İrina Jeleznovanın tərcümələrini müsbət qiymətləndirmək lazımdır. Çünki poetik tərcümədən tam dəqiqlik gözləmək nəinki düzgün deyil, həm də bu, əksər hallarda, heç mümkün də deyil. Bəzən ritm və qafiyə xatirinə tərcüməçi bir çox söz və ifadələri istər-istəməz dəyişməyə, onların mənalarını başqa söz və ibarələrlə verməyə məcbur olur.

# NƏTİCƏ

Azərbaycan ədəbiyyatının, o sıradan folklorunun xaricdə öyrənilməsi ilə bağlı məsələlərin tədqiq edilməsi önəmli bir milli vəzifədir. Biz Azərbaycan folklorunu xarici ölkələrdə tanıtmaqla Azərbaycan xalqı, mədəniyyəti və ədəbiyyatı ilə bağlı lazımi təsəvvür yaratmış oluruq. Azərbaycan mədəniyyəti ümumdünya mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Azərbaycan folklorunun xarici dillərə tərcüməsi, şifahi ədəbiyyatımızın dünya xalqlarına çatdırılması Azərbaycan türklərinin qədim, mədəni, böyük və insansevər bir xalq olduğunu açıq şəkildə, konkret dəlillərlə ortaya qoyur.

Məlumdur ki, bədii tərcümə bu ifadənin xüsusi mənasında dəqiqlik tələb edir. Ancaq bu prinsipə həddindən artıq aludə olanları tez-tez hərfi tərcüməçilikdə günahlandırırlar. Hərfi tərcümə isə çox vaxt orijinalın dilinin tərcümə edilən dildə "qəribə səslənməsi", mənasının təhrif olunması ilə nəticələnir. Yaxşı olar ki, orijinalın mətni və mənası tərcümə edilən dildə də təbii şəkildə səslənsin və onun tərcümə olması dil baxımından hiss edilməsin. Buna görə də tərcümələr təhlil edilərkən bu iki cəhət nəzərə alınaraq, ortaq bir mövqedən qiymətləndirilir.

Monoqrafiyanın giriş hissəsində bütövlükdə Azərbaycan ədəbiyyatının, o sıradan folklorunun xaricdə öyrənilməsi ilə bağlı indiyədək görülmüş işlər sistemləşdirilmişdir. Monoqrafiyanın yeniliyi elmi dəlillərlə şərh edilmişdir.

Birinci fəsil "Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda tədqiq tarixi" adlanır. Bu fəsildə Azərbaycan alimlərinin şifahi ədəbiyyatımızın ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı gördüyü işlər təhlil edilmiş, bu məsələ ilə bağlı yazılmış hər bir kitab və məqalə ayrılıqda dəyərləndirilmişdir. Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı yazılmış əsərlərin uğurlu cəhətləri göstərilməklə birgə, qüsurlu yönləri də üzə çıxarılır.

İkinci fəsil "İngilisdilli folklorşünaslıqda Azərbaycan folklorunun araşdırılması" adlanır. Bu fəsildə Azərbaycan aşıq ədəbiyyatının ingilisdilli qaynaqlarda tədqiqi, bu ədəbiyyatın məzmun və forma xüsusiyyətlərinin öyrənilməsi, ingilisdilli alimlərin Azərbaycan şifahi ədəbiyyatında olan röya və eşq badəsi motivinə münasibəti, "süd dişi mərasimi", Novruz folkloru, tapmacalar, atalar sözləri, "Kitabi-Dədə Qorqud" dastanı, Azərbaycan el havaları kimi məsələlər araşdırılmışdır. Göstərilən hər bir mövzu ayrı-ayrılıqda təhlil edilmiş, ingilisdilli alimlərin Azərbaycan folkloru ilə bağlı irəli sürdükləri nəticələr göstərilmişdir.

Üçüncü fəsil "Azərbaycan aşıq şeirinin ingilis dilinə tərcüməsi ilə bağlı məsələlər" adlanır. Bu fəsildə Aşıq Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Aşıq Hüseyn Cavan, Aşıq Şəmşirin bir sıra şeirlərinin ingilis dilinə tərcüməsi misra-misra təhlil edilmiş, bu şeirlərin ingilis dilinə tərcüməsi zamanı yol verilmiş qüsurlar göstərilmişdir.

Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi onu göstərir ki, milli folklorun tərcüməsi, nəşri, araşdırılması ilə bağlı bir sıra işlər görülmüşdür. Bu görülən işlər sırasında Azərbaycan aşıq ədəbiyyatının tədqiqi ilə bağlı yazılan məqalələri, Azərbaycan folklorunun ayrı-ayrı problemlərini araşdıran elmi əsərləri göstərmək olar. Bu elmi araşdırmalar Azərbaycan folklorunun tanıdılması ilə bağlı görülmüş ciddi işlərdir. Bununla birgə, bu tədqiqatlarda bir sıra qüsurlar da var. Hər şeydən öncə onu deməliyik ki, Azərbaycan folkloru sistemli şəkildə xarici dillərə tərcümə olunmadığı kimi, bu milli xəzinə sistemli şəkildə də öyrənilməyib. Yazılan araşdırmalar daha çox epizodik xarakter daşıyır. Birbaşa Azərbaycan folkloru ilə bağlı yazılmış araşdırmaların sayı çox azdır, Azərbaycan folkloru ilə məşğul olan xarici alimləri barmaqla saymaq olar.

İndiyədək Azərbaycan folklorunun ingilis dilinə tərcüməsi ilə bağlı bir sıra işlər görülmüşdür. Folklor nümunələrinin ingi-

lis dilinə poetik tərcümələri arasında bir sıra uğurlu nümunələr olduğu kimi, bu sahədə ciddi qüsurlar da var. Öncə onu deməliyik ki, indiyədək Azərbaycan folklorunun xarici dillərə, o sıradan ingilis dilinə sistemli tərcüməsi yoxdur. Ayrı-ayrı folklor janrları, məsələn, atalar sözləri, bayatılar, nağıllar, dastanlar, aşıq ədəbiyyatı nümunələri sistemsiz şəkildə, ciddi bir hədəf müəyyən edilmədən tərcümə edilib. Bu gün biz Azərbaycan folklorunun sistemli, ardıcıl və mükəmməl tərcümə kitablarına sahib deyilik. Elə buna görə də, Azərbaycan folklorunun, bütövlükdə Azərbaycan mədəniyyətinin tanıdılması sahəsində böyük bir boşluq vardır. Bununla birgə, ara-sıra tərcümə olunmuş folklor nümunələrinin tərcüməsi də qənaətbəxş deyil. Belə ki, bu tərcümələr bir sıra hallarda folklor mütəxəssisi olmayan, Azərbaycan dilini bilməyən, Azərbaycan mədəniyyətindən xəbərsiz şəxslər tərəfindən tərcümə edilmişdir. Ona görə də, folklor nümunələrinin tərcüməsində çox saylı qüsurlar, yanlışlıqlar və təhriflər özünü göstərir. Bu isə Azərbaycan milli düşüncəsinin olduğu kimi tanıdılmasında ciddi problemlər yaradır. Bu göstərdiyimiz qüsurlar bir sıra ciddi səbəblərlə bağlıdır. Biz bu qüsurları aradan qaldırmaq, Azərbaycan folklorunu, bu yolla da azərbaycanlıların kimliyini dünyaya olduğu kimi çatdırmaq məqsədi ilə bir sıra işlərin görülməsini zəruri sayırıq. Bu işləri aşağıdakı kimi sıralamaq olar:

- Azərbaycan folklor nümunələrinin ingilis dilinə sətri və bədii tərcüməsini hazırlamaq;
- Azərbaycan şifahi xalq ədəbiyyatında işlənmiş folklorla bağlı terminlərin ingilis dilində lüğətini hazırlamaq;
- Folklor nümunələrinin tərcüməsi ilə birgə ingilis dilində şərhlərini də hazırlamaq;
- Azərbaycan folkloru ilə bağlı yazılmış ciddi araşdırmaları ingilis dilinə tərcümə etmək;
- İngilis folklor nümunələrini, bu nümunələrlə bağlı yazılmış fundamental elmi əsərləri Azərbaycan dilinə çevirmək;

- Folklor nümunələrinin xarici dillərə tərcüməsi ilə bağlı dünya təcrübəsini öyrənmək və tətbiq etmək;

- Folklor nümunələrinin tərcüməsi ilə bağlı beynəlxalq konfranslar keçirtmək, xarici mütəxəsisləri bu işə cəlb etmək;

- Azərbaycan şifahi xalq ədəbiyyatı ilə ingilis folkloru arasında müqayisəli elmi araşdırmalar yazmaq;

- Azərbaycan folklorunun ingilis dilinə tərcümə olunmuş nümunələrinin İnternet səhifəsini hazırlamaq.

Bütün bu deyilənlərlə, bir sıra çatışmazlıqlarla yanaşı, monoqrafiyanın ümumi məzmunundan da göründüyü kimi, Azərbaycan xalq yaradıcılığının ən mühüm janrlarının şah əsərləri bu və ya digər dərəcədə ingilis dilinə tərcümə olunmuş və ingilisdilli tədqiqatçıların tədqiqat obyektinə çevrilmişdir. Bu baxımdan folklor yazılı ədəbiyyatdan müəyyən qədər fərqlənir. Çünki yazılı ədəbiyyatda bəzən elə olur ki, müəyyən subyektiv səbəblər üzündən o qədər də tanınmayan, ikinci, üçüncü dərəcəli şair və yazıçıların əsərləri müxtəlif xarici dillərə tərcümə edilir (müəllifin yaxın adamlarının və ya dostlarının köməyi ilə, yaxud əsərdə həmin əcnəbi xalqlar həyatı və tarixi ilə bağlı maraqlı hadisələrin olması üzündən və s.), ancaq daha tanınmış və istedadlı şair və yazıçıların əsərləri kənarda qalır. Folklor isə müəllifdən asılı olmayaraq öz müstəqil həyatı ilə yaşadığından və eyni dərəcədə bütün xalqa məxsus olduğundan burada elə bir "ayrı seçkilik" olmur. Ona görə də Azərbaycan folklorunun digər xalqlar arasında təbliği hər bir vətənpərvər Azərbaycan ziyalısının borcudur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Abbasquliyev T. İngilis atalar sözləri və məsəlləri və onların azərbaycanca, rusca qarşılıqları. Bakı: Elm, 1981, 210 s.
2. Abdulla B. Kitabi-Dədə Qorqudun poetikası. Bakı: Elm, 1999, 224 s.
3. Ağayev Ə. Nizami və dünya ədəbiyyatı. Bakı: Azərnəşr, 1964, 172 s.
4. Ağayev Z. Azərbaycan mövzusu və ədəbiyyatı Amerika Birləşmiş Ştatlarında. Bakı: Hərbi, 1995, 126 s.
5. Axundov N. Azərbaycan sovet ədəbiyyatı xaricdə. Bakı: Yazıçı, 1987, 203 s.
6. Allahverdiyev Ə. "Kitabi-Dədə Qorqud" dastanları Fransada: Filologiya elm. namizədi… dis. avtoref., Bakı, 2004, 25 s.
7. Allahyarov K. Azərbaycan xalq şeirinin qaynaqları və inkişaf yolları Azərbaycan ədəbiyyatının tarixi poetikası, II kitab, Bakı: Elm, 2006, s. 19-60.
8. Araslı H. Aşıq yaradıcılığı. Bakı: Birləşmiş nəşriyyat, 1960, 38 s.
9. Arzumanlı V. Nizami Gəncəvinin dünya şöhrəti. Bakı: 1997, 181 s.
10. Arzumanlı İ. "Mürafiə vəkilləri" ingilis dilində. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1983, 25 noyabr.
11. Arzumanlı İ. Nizami yaradıcılığı ingilisdilli ədəbiyyatşünaslıqda: Filologiya elm. namizədi … dis., Bakı, 1984, 154 s.
12. Aşıq Ələsgər. Şeirlər (tərtib edən: İ. Ələsgərov) Bakı: Yazıçı, 1988, 184 s.
13. Aşıq Ələsgər. Əsərləri. (tərtib edən: İ. Ələsgər) Bakı: Şərq-Qərb, 1999, 578 s.
14. Aşıq Ələsgər. Əsərləri (tərtib edən: İ. Ələsgər). Bakı: Şərq-Qərb, 2004, 400 s.
15. Aşıq Hüseyn Bozalqanlı (toplayan: Aşıq Əli Quliyev), Bakı:

Nurlan, 2003, 234 s.
16. Aşıq Hüseyn Bozalqanlı (toplayan: Ş. Rza). Bakı: Gənclik, 1973, 106 s.
17. Atalar sözü (tərtib edən: H. Qasımzadə). Bakı: Yazıçı, 1985, 690 s.
18. Atalar sözü (tərtib edən: C. Məmmədov). Bakı: Öndər, 2004, 262 s.
19. Atayeva Ş. M. F. Axundzadə ingilisdilli ədəbiyyatşünaslıqda: Filologiya elm. namizədi … dis. avtoref. Bakı, 2005, 18 s.
20. Azərbaycan aşıq şeirindən seçmələr. (tərtib edənlər: Ə.Axundov, İ.Abbaslı, H. İsmayılov) 2 cilddə, I cild, Bakı: Şərq-Qərb, 2005, 376 s.
21. Azərbaycan aşıqları və el şairləri (tərtib edən: Ə. Axundov) 2 cilddə, I cild, Bakı: Elm, 1983, 368 s.
22. Azərbaycan bayatıları (tərtib edənlər: B.Abdulla, Q.Babazadə, E.Məmmədli). Bakı: XXI-Yeni Nəşrlər Evi, 2004, 304 s.
23. Azərbaycan uşaq ədəbiyyatı antologiyası. (tərtib edən: Q.Namazov). 3 cilddə. II cild, Bakı: Öndər, 2004, 264 s.
24. Azərbaycan nağılları (tərtib edən: N. Seyidov). 5 cilddə. V cild, Bakı: Şərq-Qərb, 2005, 304 s.
25. Azərbaycanca-ingiliscə, ingiliscə-azərbaycanca müxtəsər frazeoloji lüğət (tərtib edənlər: X. Əhmədova, İ. Rəhimov). Bakı: Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı Nəşriyyatı, 1962, 134 s.
26. Azərbaycan xalq ədəbiyyatından seçmələr (Qaravəllilər, oyunlar və xalq tamaşaları) (tərtib edənlər: H. İsmayılov, T.Orucov) Bakı: Şərq-Qərb, 2005, 312 s.
27. Balakişiyev Ş. "Koroğlu" dastanı Avropada: Filologiya elm. namizədi … dis., Bakı, 2005, 26 s.
28. Bayatılar. (tərtib edən: H. Qasımov) Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1960, 253 s.
29. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981, 397 s.

30. Əliyev O. "Kitabi-Dədə Qorqud" və Azərbaycan folkloru. Bakı: Elm, 1999, 76 s.
31. Əliyev O. Azərbaycan nağıllarının poetikası. Bakı: Elm, 2001, 185 s.
32. Əliyev S. "Dədə Qorqud Kitabı"nın ingilis dilinə P.Mirabl tərcüməsinin linqvistik poetik özəllikləri / Türk Dastanları Türk xalqlarının ədəbi salnaməsidir. Beynəlxalq konfrans. Bakı, 2004, səh. 337-343.
33. Əliyeva L. Füzuli və ingilis şərqşünaslığı. Bakı: Ozan, 1997, 142 s.
34. Əliyeva L. "Kitabi-Dədə Qorqud" Amerika aliminin tədqiqatında // Elmi araşdırmalar, "Nurlan", 2000, № 3-4, s. 10-13.
35. Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Elm, 1999, 216 s.
36. Hacıyeva Ə., Hacıyeva A. İngilis-Azərbaycan dillərində alqış və qarğışların müxtəsər lüğəti. Bakı: Sabah, 2002, 40 s.
37. Həkimov M. Elat bayatıları. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1996, 304 s.
38. Həkimov M. Azərbaycan xalq dastanları, əfsanə, əsatir və nağıl deyimləri. Bakı: Maarif, 1999, 296 s.
39. Həkimov M. Aşıq sənətinin poetikası. Bakı: Səda, 2004, 605 s.
40. Hüseynoğlu K. Folklor və klassik ədəbiyyat // "Dədə Qorqud" jurnalı, 2005, № 4, s. 40-48.
41. Xalqın söz xəzinəsi. (tərtibçi: P. Əfəndiyev) Bakı: Maarif, 1985, 268 s.
42. Xalqımızın deyimləri və duyumları. (tərtib edən: M. Həkimov) Bakı: Maarif, 1986, 392s.
43. Xəlilli Ş. Azərbaycan-ingilis ədəbi əlaqələri (folklor materialları əsasında). Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyat poliqrafiya birliyi, 2002, 216 s.
44. Xəlilli Ş. Klassik poeziya və ədəbi əlaqələr. Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyat poliqrafiya birliyi, 2003, 164 s.

45. Xəlilli Ş. "Kitabi-Dədə Qorqud" dastanında şamançılıq (Azərbaycan türk və ingilis mənbələri əsasında) / "Türk Dastanları Türk xalqlarının ədəbi salnaməsidir" adlı beynəlxalq konfransın materialları. Bakı, 2004, səh. 133-138.
46. Xəstə Qasım. 46 şeir (tərtib edən: S. Paşayev). Bakı: Gənclik, 1975, 64 s.
47. İsmayılov H. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı: Elm, 2002, 404 s.
48. İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri, Bakı: Elm, 2002, 311 s.
49. İsmaılov M. Nizami Gəncəvinin "Yeddi gözəl" poeması ingilis dilində (şərhlər, tərcümələr, səsləşmələr). Filologiya elm. namizədi dis. avtoref. Bakı, 1995, 33 s.
50. İsmayılov R. "Dostluq telləri": Azərbaycan-fransız ədəbi əlaqələri. Bakı: Yazıçı, 1982, 67 s.
51. Kitabi-Dədə Qorqud (tərtib edən: S.Əlizadə) Bakı: Yeni Nəşrlər Evi, 1999, 704 s.
52. Koroğlu (Paris nüsxəsi) (tərtib edən: İ. Abbaslı). Bakı: Şərq-Qərb, 2005, 224 s.
53. Qayıbova R. Azərbaycan ədəbiyyatı ingilis alimlərinin əsərlərində (XI-XVI əsrlər). Filologiya elm. namizədi … dis. Bakı, 1949, 273 s.
54. Qorqud ədəbiyyatı. Bədii əsərlər (tərtib edən: T. Hacıyev). Bakı: Öndər, 2004, 368 s.
55. Məmmədov H. Dünyanı düşündürən "Dədə Qorqud". Bakı: Yurd, 1999, 345 s.
56. Məmmədov N. M. F. Axundovun əsərləri. İran, ingilis və fransız mətbuatında. "Azərbaycan" jurnalı. 1962, № 10.
57. Məmmədova M. Şah İsmayıl Xətai ingilisdilli qaynaqlarda. Filologiya elm. namizədi … dis. avtoref. Bakı, 2003, 34 s.
58. Məmmədova S. Qərbi Avropa şərqsünaslığında XIV-XV əsr Azərbaycan poeziyasının öyrənilməsi tarixindən. Filologiya elm. namizədi dis. avtoref. Bakı: 1972, 35 s.

59. Məmmədova S. Qərbi Avropa şərqşünasları Füzuli haqqında // Elm və həyat, 1972, № 3.
60. Mustafa Sabir. Uzaq ellər, doğma nəğmələr (Folklor nümunələri, şeirlər və poema). Bakı: Yazıçı, 1986, 190 s.
61. Mürşüdov Y. Alman dilində atalar sözləri və məsəllər və onların ingilis, azərbaycan və rus dillərində qarşılıqları. Bakı: Nərgiz-R, 1997, 50 s.
62. Nağıyev C. Koroğlunun Çin qaynaqları. Bakı: Asiya, 1998, 97 s.
63. Nağıyeva Ş. Müasir Azərbaycan poeziyasının ingilis dilinə tərcüməsində milli koloritin saxlanılması. Filologiya elm. namizədi dis. avtoref. Bakı, 1997, 18 s.
64. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı: Yazıçı, 1984, 192 s.
65. Namazov Q. Aşıqlar. Bakı: Səda, 2004, 444 s.
66. Namazov Q. Aşığın sazı və sözü. Bakı: Yazıçı, 1980, 155 s.
67. Nəbiyev A. Azərbaycan-özbək folklor əlaqələri. Bakı: Yazıçı, 1978, 184 s.
68. Nəbiyeva Ü. "Kitabi-Dədə Qorqud" və folklor ənənələri. Bakı: Nurlan, 2003, 122 s.
69. Paşayev S. Azərbaycan folkloru və aşıq yaradıcılığı. Bakı: Azərbaycan SSR Dövlət Nəşriyyatı, 1989, 88 s.
70. Paşayev S. XIX əsr aşıq yaradıcılığı. Bakı: APİ-nin mətbəəsi, 1990, 97 s.
71. Paşayev S. Ozan-aşıq sənətinin nəzəri məsələləri. Bakı: Ozan, 2002, 208 s.
72. Rəhimov İ. C. Q. Bayronun "Şərq poemaları"nda Şərq sözləri. Filologiya elm. namizədi … dis. avtoref. Bakı, 1958, 16 s.
73. Rzayev Ə. İngilis poeziyasının Azərbaycan dilinə tərcümə məsələləri (Bayronun "Şərq poemaları"nın materialları əsasında). Filologiya elm. namizədi … dis. Bakı, 1969, 238 s.
74. Rzayev Q., Rzayeva R. İngiliscə-azərbaycanca lüğət. İki clddə. Bakı: Azərbaycan Tərcümə Mərkəzi, 1999, 484 s.
75. Sadıqov M. "Koroğlu" Jorj Sandın tərcüməsində. / "Ədəbiyyat və incəsənət" qəz., 1986-cı il, 12 dekabr. № 50 (2237).

76. Sərkəroğlu Ə. Nizami fransız mənbələrində. Bakı: Azərnəşr, 1991, 144 s.
77. Tapmacalar. (tərtib edən: N. Seyidov) Bakı: Şərq-Qərb, 2004, 208 s.
78. Vəliyev K. Dastan poetikası. Bakı: Yazıçı, 1984, 223 s.
79. Vəliyev V. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: ADU nəşriyyatı, 1970, 433 s.
80. Yanos Ş. Azərbaycan el havaları musiqinin ilkin qaynaqlarında. Bakı: 2006, 604 s.

**Türk dilində**

81. Ali Abbas Çinar. Türklerde at ve atçılık. Ankara, Feryal Matbaası, 1993, 174 s.
82. Hayrettin İvgin, Karagöz ve kukla sanatımız, Ankara, 2000, 112 s.
83. Köprülü F. Türk Edebiyyatında aşık tarzının menşe ve tekamülü // Milli Tetebbüler Mecmuası. İstanbul, (h) 1331. № I.
84. Nail Tan. Folklor (Halk bilimi). Genel Bilgiler. İstanbul: Kitap Matbaacılık, 2003, 216 s.
85. Nasreddin Hocanın Dünyası. (Hazırlayan: Dr. İrfan Ünver Nasrattınoğlu) Ankara: Türkiye iş bankası kültür yayınları, 1996, 247 s.
86. Soyegov Muratgeldi. Koroğlu destanlarından bazi şiirlerin XIX yüzyılda Birleşik Kırallıkta ve ABD de incelenmesi (yazarlar, eserleri ve tercümeleri hakkında kısa notlar) / Türk Dastanları Türk xalqlarının ədəbi salnaməsidir. Beynəlxalq konfrans. Bakı, 2004, səh. 14-18.
87. Şükrü Elçin. British Museum'da bulunan yazma bir türk atalar sözü mecmuası / Halk edebiyyatı araştırmaları, 1988, s. 357-368.

**Rus dilində**
88. Аббаслы И. Ареал распространения и влияния Азербайджанских дастанов. Баку: Сада, 2001 216 с.
89. Агаев Б. Азербайджанско-французские литературные связи (1920-1980). Автореф. дис. … канд. филол. наук. Баку, 1990, 26 с.
90. Акимов М. И. Азербайджанская средневековая ашугская литература. Дис. … докт. филол. наук. Баку, 1977, 352 с.
91. Алиева Т. Азербайджанско-Американские литературные связи (Дж. Ф. Купер на азербайджанском языке) Автореф. дис. … канд. филол. наук. Баку, 1992, 22 с.
92. Бадалбейли У. Английское возрождение и Восток. Баку: Эльм, 2000, 350 с.
93. Байрамов А. Классическая азербайджанская литература на немецком языке. Баку: Язычы, 1992, 184 с.
94. Гаджиев А. Проблемы изучения Азербайджанско-Европейских литературных взаимосвязей. Баку: Эльм, 1963, 33 с.
95. Гасанов О. Проблемы воссоздания исторического художественного своеобразия произведений Шекспира на азербайджанском языке. Дис. … канд. филол. наук. Баку, 1992, 172 с.
96. Гасанова Аида. Китаби-Деде Коркуд в Англоязычных источниках. Автореф. дис. … канд. филол. наук. Баку, Эльм, 1992, 27 с.
97. Гачечиладзе Г. Вопросы теории художественного перевода. Тбилиси: Из-во ТГУ, 1970, 285 с.
98. Гачечиладзе Г. Художественный перевод и литературные взаимосвязи. Москва: Сов. писатель, 1980, 255 с.
99. Гулиев Ф. Ш. Поэма Низами Гянджави "Лейли и Меджнун" в английском восприятии. Автореф. дис. … канд. филол. наук. Баку, 1990, 26 с.

100. Дюришин Д. Теория сравнительного изучения литературы. Москва: Прогресс, 1979, 320 с.
101. Жирмунский В. Народный героический эпос. Москва: Наука, 1962, 435 с.
102. Жирмунский В. Тюркский героический эпос. Ленинград: Наука, 1974, 727 с.
103. Казимова А. Творчество Низами в Англии и США (переводы, восприятии, оценка). Дис. … канд. филол. наук. Баку, 1989, 159 с.
104. Кафаров В. Баяты. Баку: Азербайджанское Государственное Издательство, 1960, 120 с.
105. Кафаров В. Ларец жемчужин. Азербайджанские народные четверостишия баяты и пословицы. Москва: Наука, 1967, 215 с.
106. Клышко А. А. Перевод - средство взаимного сближения народов. Москва: Прогресс, 1987, 638 с.
107. Коккьяра Д. История фольклористики в Европе. Москва: Иностранной литературы, 1960, 690 с.
108. Конрад Н.И. Запад и Восток. Москва: Втор. Издательст. 1972, 377 с.
109. Кочарли Ф. Азербайджанско-французские литературные связи в XIX веке. Автореф. дис. … канд. филол. наук. Баку, 1985, 25 с.
110. Курбанов Б. Искусство Азербайджана за рубежом (научно-аналитический обзор зарубежной литературы). Баку: Ишыг, 1984, 180 с.
111. Левый И. Искусство перевода. Москва: Прогресс, 1974, 397 с.
112. Мустафаева Ф. Азербайджанский фольклор на немецком языке. Автореф. дис. … канд. филол. наук. Баку, 1981, 22 с.
113. Новрузов Р. Художественный перевод и проблема взаимодействия, взаимообогащения литератур. Баку: Эльм, 1990, 342 с.

114. Тагизаде С. Русская и европейская печать о М. Ф. Ахундове. Баку: Язычы, 1987, 174 с.
115. Тагизаде С. М.Ф. Ахундов и Европа. Баку: Азернешр, 1991, 303 с.
116. Таирбеков Б. Г. Философские проблемы науки о переводе. Баку: Изд-во АГУ, 1974, 181 с.
117. Федоров А. В. Основы общей теории перевода. Москва: Высшая школа, 1968, 396 с.
118. Федоров А. В. Искусство перевода и жизнь литературы. Ленинград: Советский писатель, 1983, 352 с.
119. Якубова С. Азербайджанское народное сказание "Ашуг Гариб". Баку: Эльм, 1968, 198 с.

**İngilis dilində**
120. Ahmet Edip Uysal. The use of the supernatural in the Turkish epics of Dede Korkut and Koroghlu // Erdem, 1986, volume 2, № 4, p. 31-46.
121. Akhundov F. The legend of Sumgait. Azerbaijan International. USA, New-York, 1998, 6.3. Autumn, p. 51.
122. Aliyeva N. The Azerbaijani Prose of 1960s: The entirety plane. Berlin, 2002, 125 p.
123. Allahyarov K. Medieval Azerbaijan Literature / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 64-67.
124. Allahyarov K. Mythological geographical sources about Zoroaster's native land / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 100-103.
125. Andreas Tietze. Turkish and Iranian Riddles // Studies in Turkish Folklore. Indiana University, № 1, p. 200-209.
126. Asker Ramiz. Turkic mythology and New World Order / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 69-71.
127. Azerbaijanian Poetry (classic, modern, traditional). Edited

by M.Ibrahimov. Moscow, 1969, 662 p.
128. Azerbaijanian Prose. Moscow, 1977, 621 p.
129. Azizov E. The ancient Turkic legend and Azerbaijan folklore / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 71-73.
130. Babaoglu R. Harmony of difference East-West-Caucasus triangle in the Azerbaijani culture / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 73-80.
131. Başgöz Ilhan. Epithet in a prose epic the book of my Grandfather Korkut // Studies in Turkish Folklore, Indiana University, 1978, № 1, p. 25-45.
132. Başgöz Ilhan. Turkish folk stories about the lives of minstrels // Journal of American Folklore, 1965, volume 65, p. 331-339.
133. Başgöz Ilhan. Turkish Hikaye - Telling Tradition in Azerbaijan, Iran // Journal of American Folklore, 1970, volume 83, p. 391-405.
134. Blair B. Legends-Tales that shape society. Azerbaijan International. USA, New-York, 1998, 6.3. Autumn, p. 11.
135. Cassell's Encyclopedia of Literature. Edited by S. H. Steinberg in 2 vol., volume 1, London, 1953, p. 146-147.
136. Chambers Dictionary of Synonyms and Antonyms. Edited by Martin H. Manser. Edinburgh, 1990, 405 p.
137. Charlotte F. Albright. The Azerbaijani Ashig and his performance of a dastan // Iranian Studies, 1976, volume IX, № 4, p. 220-247.
138. Charlotte F. Albright. The Azerbaijani Ashig: A musician's adaptations to a changing society // Edebiyat, 1988, volume 11, № 1-2, p. 205-217.
139. Children's Folklore: Jirtdan. Azerbaijan International. USA, New-York, 1996, 4.3. Autumn, p. 76.
140. Emel Esin. The Horse in Turkic Art // Central Asiatic Journal, 1965, volume X, № 3-4, p. 167-227.

141. Fahir Iz. "Dede Korkud". The Encyclopedia of Islam ed. by B. Lewis, Ch. Pellat and J. Schacht vol. II, London, 1965, p. 200.
142. Farajova M. Myths and Legends in the Rock Pictures of Azerbaijan / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 80-85.
143. Faruk Sumer, Ahmet E. Uysal, Warren S. Walker. The Book of Dede Korkut. A Turkish epic. London, 1972, 212 p.
144. Finn Robert. "Epic elements in Dedem Korkudun kitabı" // Edebiyat, 1977, volume II, № 2.
145. Garibova J., B. Blair. Fathers' Words: Proverbs about food // Azerbaijan International. USA, New-York, 2000, 8.3. Autumn, p. 36-37.
146. Gasimli M. Mythological and historical Status of Gorgud's Image on Turkish Epic Thought / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 88-91.
147. Gasimzadeh F. About myths matter / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 85- 87.
148. Giyasbeyli N., Esfandiary I., Gyozalov I. Proverbs: Father's Words // Azerbaijan International. USA, New-York, 1996, 4.3. Autumn, p. 12-13; 62-63.
149. Giyasbeyli N. Molla Nasreddin, The Magazine // Azerbaijan International. USA, New-York, 1996, 4.3. Autumn, p. 20-23.
150. Glazer Mark. Women personages as helpers in Turkish folktales // Studies in Turkish Folklore, 1977, № 1, p. 98-109.
151. Hajiyev B. 101 jokes of Mullah Nasreddin. Baku: Khazar Uiversity Press, 1988, 110 p.
152. Hajiyev T. Myth, allegory and history in written belles-letters / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 91-93
153. Hasanov Z. Historical and mythological parallels between the Legend of Herodotus about Cimmerians and "sons of blind slaves"

and epos "Koroglu" / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 93-97.
154. Huseynova L. Ethno policy and central east European countries on eve of 21st century / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 105-108.
155. Kazmaz S. The theme of initiation through dream in Turkish folk literature // Erdem, 1985, volume 1, № 1, p. 209-215.
156. Khalilov P. Myth, nation and fiction. Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 103-105.
157. Legend: How the dove became the bird of peace. Azerbaijan International. USA, New-York, 1996, 4.3. Autumn, p. 78.
158. Lewis G. The Book of Dede Korkut, Harmondsworth, England: Penguin, 1974, 213 p.
159. Meykhana: Azerbaijan's Own Ancient Version of Rap Reappears by Balasadig. Azerbaijan International. USA, New-York, 1996, 4.3. Autumn, p. 71-74.
160. Mirabile P. The book of the Oghuz Peoples or legends told and sung by Dede Korkut. Istanbul, 1990.
161. Mujtehidi Ali Asgher. Azerbaijanian proverbs. Pedmen Jahan book Co, 1984, 289 p.
162. Mundy C. S. Polyphemys and Tepegöz // Bulletin of the School of Oriental and African Studies, 1956, volume XVIII, part 2, p. 221-302.
163. Nabiyev A. About the sources of Azerbaijan Mythology / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 118-120.
164. Nagiyev J. One mythical Korean hero and Korean-Azerbaijan myth-folklore relations / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 120-122.
165. Nakhjavani F., Bayatli T., Huseinova U., Abdulrahimov E.

Nowruz // Azerbaijan International. USA, New-York, 1994, 2.2. Summer, p. 39-42.
166. Namazov G. Cosmogonic Myth / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 122-124.
167. Najafova I. Attention to the Moon in ancient Azerbaijan and Korea / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Baku, 2006, p. 97-99.
168. Nerimanoglu K. V. The poetics of "The book of Dede Korkut". Turkey, Ataturk Culture Center Publications, 1998, 345 p.
169. Oxford Advanced Learner's Dictionary of current English. Edited by Sally Wehmeier. Oxford University Press, 2003, 1539 p.
170. Peterson J., Agayeva A. The evil eye // Azerbaijan International. USA, New-York, 2000, 8.3. Autumn, p. 55-57.
171. Pirsultanli S. Azerbaijani legends: the truth beneath the surface // Azerbaijan International. USA, New-York, 2005, 13.1. Spring, p. 64-73.
172. Savory T. The art of translation. London, 1935, 305 p.
173. Senarslan A. O. Music of bards // Azerbaijan International. USA, New-York, 2004, 12.4, p. 22-24.
174. Senarslan A.O. The poet minstrels of Azerbaijan // Azerbaijan International. USA, New-York, 2004, 12.4, p.34-36.
175. Senarslan A.O. Ashug Peri Majlisi: Women performers of legend and folk poetry // Azerbaijan International. USA, New-York, 2004, 12.4. p.38-41.
176. Shariati A. Nowruz // Iranian Studies, 1986, volume XIX, № 3-4, p. 235-241.
177. Sir Gerard Clauson. Turkish and Mongolian horses and use of horses, an etymological study // Central Asiatic Journal, 1965, volume X, № 3-4, p. 161-166.
178. Svanberg Ingvar. The folklore of teeth among Turkic and Adjacent Peoples // Central Asiatic Journal, 1988, volume 31, №

1-2, p. 111-137.
179. Tongue twisters. Azerbaijan International. USA, New-York, 1996, 4.3. Autumn, p. 79.
180. Tryjarski Edward. The dog in the Turkic Area: An ethno linguistic study // Central Asiatic Journal, 1979, volume 23, № 3-4, p. 297-319.
181. Valiyev M. Spiritual purity in the mother tongue's poetry / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Uzbekistan, 2006, p. 85-87.
182. Valiyev Sh. A look at Azerbaijan literature of XIX &XX centuries / Myth, nation, literature, 2006 New Silk Road International Literary Symposium. Uzbekistan, 2006, p. 88-92.
183. Vasilyevich G. M. The horse in Evenki Folklore // Central Asiatic Journal, 1965, volume X, № 3-4, p. 320-332.
184. William H. Jansen. Turkish Folklore: An introduction // Journal of American Folklore, 1950, volume LXII, p. 354-361.
185. William Hickman. "Basat and Tepegöz": Reappraisal // Edebiyat, 1988, volume II, № 1-2, p. 167-189.
186. Yanos Sipos. Azeri Folksongs. At the Fountain - Head of Music. Budapest, 2005, p. 604.
187. Zheleznova Irina. Ashug Alesker, Lyrics. Baku: Azerbaijan state Publishing House, 1972, 34 p.
188. Zellikoff Louis. The Book of My Grandfather Korkut. Azerbaijanian Poetry. Moscow, 1969, 661 p.

**В.М.Ибрагимова**

# Исследование и вопросы перевода азербайджанского фольклора в англоязычных источниках

## Резюме

Исследования посвящены обстоятельному и систематизированному изучению азербайджанского фольклора в англоязычных источниках и вопросам перевода фольклорных произведений с азербайджанского языка на английский. Работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

В книге дан общий обзор исследовательских работ, посвященных изучению азербайджанской литературы за рубежом, в том числе и англоязычных источниках. Рассмотрен вопрос о степени изученности исследований англоязычных ученых по азербайджанскому фольклору и сделаны соответствующие выводы. По мнению автора, хотя и отечественными фольклористами осуществлены определенные работы по изучению вопросов азербайджанского фольклора в англоязычных источниках, но в данной области имеются и ряд нерешенных проблем.

Монография подвергнута обстоятельному анализу также исследованию англоязычных авторов, посвяшенные изучению азербайджанского фольклора. В связи с этим особое внимание уделяно исследованиям, в которых изучаются вопросы о празднике Новруз, об обряде по молочным зубам, эпосе "Книга Коркута" и "Короглы". Дана оценка также работам посвященным исследованию азербайджанских пословиц, загадок, ашугского творчества, народных мелодий и пр.

В монографии особое внимание уделено вопросам перевода стихотворений азербайджанских ашугов на анг-

лийский язык. Впервые и подробно останавливается на уровне художественного перевода стихотворений таких азербайджанских ашугов как, Курбани, Хасте Касум, Ашуг Аббас Туфарканлы, Ашуг Алескер, Ашуг Гусейн Бозалканлы, Ашуг Шамшир и др. В сопостовительной форме изучаются вопросы точности переводов и специфические особенности поэтического перевода с азербайджанского языка на английский. На конкретных примерах отмечены как удачные стороны этих переводов, так и их недостатки.

В заключении подводятся итоги всему исследованию и делаются соответствующие выводы. Выдвинуты конкретные предложения об улучшении пропоганды и исследования азербайджанского фольклора за рубежом.

*V. M. Ibrahimova*

# The investigation and translation problems of Azerbaijan folklore in Englishlanguaged sources

## SUMMARY

The thesis "The investigation and translation problemsof Azerbaijan folklore in English languaged sources" consists of the introduction, three chapters, the result and the list of used literature. In the thesis the investigation and translation problems of Azerbaijan folklore in English languaged sources have been learnt systematically for the first time.

In the introduction of the thesis the scientific innovation and urgency of the subject were grounded. The general round-up of Azerbaijan literature till these days in abroad, especially studying in English languaged sources has been shown in the thesis, the investigation level of the problems connected with Azerbaijan folklore have been investigated and some results have been shown. According to these results through definite works connected with learning of Azerbaijan folklore in English languaged sources, there are also unsolved problems.

The problems connected with the learning of the eposes "Kitabi-Dede Gorgud", "Koroglu", "Novruz", "Sud dishi" ceremonies in English languaged sources have been investigated, scientific works by English speaking scientists about Azerbaijan proverbs, riddles, "buta" motive in oral literature, ashug activity and folk songs have been analyzed in the thesis.

The problems connected with translation of Azerbaijan ashug poems are discussed for the first time and in wide form. The problems with the translation of ashug poems by representatives of Azerbaijan ashug literature like as

Gurbani, Khasta Gasim, Ashug Abbas Tufarganli, Ashug Alesger, Ashug Huseyn Bozalganli, Ashug Huseyn Javan, Ashug Shamshir are investigated, their poems translated into English are analyzed comparatively. On the basis of concrete examples superior and defective peculiarities have been shown in the thesis.

In the thesis the necessary works connected with the introducing and investigation of Azerbaijan folklore in abroad have been shown and concrete offers have been proposed.

# MÜNDƏRİCAT

GİRİŞ........................................................................................3

**I FƏSİL: AZƏRBAYCAN FOLKLORUNUN İNGİLİSDİLLİ QAYNAQLARDA TƏDQİQ TARİXİ**

1.1. Azərbaycan ədəbiyyatının xaricdə öyrənilməsi ilə bağlı ümumi icmal..........................................6
1.2. Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda öyrənilməsi tarixi................................................10

**II FƏSİL: İNGİLİSDİLLİ FOLKLORŞÜNASLIQDA AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATININ ARAŞDIRILMASI**

2. 1. Novruz və «Süd dişi» mərasimlərinin Avropa şərqşünaslığında tədqiqinə dair..................................47
2. 2. «Kitabi-Dədə-Qorqud» və «Koroğlu» eposları haqqında Qərb şərqşünaslarının tədqiqatı..................56
2. 3. Azərbaycan atalar sözləri və tapmacaları ingilisdilli qaynaqlarda..............................................................64
2. 4. «Buta» motivi..................................................................................72
2. 5. Azərbaycan aşıq yaradıcılığının ingilisdilli qaynaqlarda tədqiqi.................................................75
2. 6. Azərbaycan el havaları.....................................................97

**III FƏSİL: AZƏRBAYCAN AŞIQ ŞEİRİNİN İNGİLİS DİLİNƏ TƏRCÜMƏSİ İLƏ BAĞLI MƏSƏLƏLƏR**

3. 1. XVI - XVIII əsr Azərbaycan el sənətkarlarının şeirlərinin ingilis dilinə tərcüməsinin təhlili..........................103

3.1.1. Aşıq Qurbaninin şeirlərinin ingilis
dilinə tərcüməsinin təhlili....................................................104
3.1.2. Aşıq Abbas Tufarqanlının "Bəyənməz"
şeirinin ingilis dilinə tərcüməsinin təhlili..............................109
3.1.3. Xəstə Qasımın "Kəkliklər", "Olsun"
qoşmalarının ingilis dilinə tərcüməsi ....................................112
3. 2. XIX - XX əsr Azərbaycan aşıqlarının
şeirlərinin ingilis dilinə tərcüməsinin təhlili..........................118
3.2.1. Aşıq Ələsgərin şeirlərinin ingilis dilinə
tərcüməsinin təhlili...............................................................120
3.2.2. Aşıq Hüseyn Bozalqanlının iki şeirinin
ingilis dilinə tərcüməsinin təhlili..........................................133
3.2.3. Aşıq Hüseyn Cavanın "Səttarxan" və "Qaradağ"
şeirinin ingilis dilinə tərcüməsinin təhlili..............................139
3.2.4. Aşıq Şəmşirin "Dedim-dedi"qoşmasının
və "Sənin" gəraylısının ingilis dilinə
tərcüməsinin təhlili...............................................................154
Nəticə.......................................................................................162
İstifadə edilmiş ədəbiyyat....................................................166

**Vəfa İbrahimova**

**"Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda tədqiqi və tərcümə məsələləri"**

Bakı "ŞƏMS" nəşriyyatı - 2010, 186 səh.

| | |
|---|---|
| Nəşriyyat direktoru: | **Şəmsi VƏFADAR** |
| Kompüter tərtibatçısı, dizayner və texniki redaktoru: | **Ələsgər HÜSEYNOĞLU** |
| Mətni yığdı: | **Museyi İBRAHİMOV** |
| Korrektorlar: | **Fidan QASIMOVA**<br>**Sürəyya ƏLİZADƏ**<br>**Gülnurə CANMƏMMƏDOVA** |

Yığılmağa verilmişdir: 01.02.2010
Çapa imzalanmışdır: 01.03.2010
Kağız formatı: 60x84 1/32
Fiziki çap vərəqi: 11
Mətbə kağızı: № 01
Sifariş: № 11 Sayı: 250 nüsxə

*Bakı "ŞƏMS" nəşriyyatı, Mətbuat p-r. 24,*
*Telefon:(99412) 510-68-49, (99412) 510-79-94*